**SƏADƏT MƏMMƏDOVA**

# SOSİAL DÖVLƏT MODELLƏRİ

(bəzi inkişaf etmiş ölkələrin nümunəsində)

Azərbaycan Milli Elmlər Akademiyasının
Elm Tarixi İnstitutu Elmi Şurasının
04 oktyabr 2018-ci il tarixli iclasının
(Protokol №07)qərarı ilə çap olunur.

**BAKI-2019**

ELMİ REDAKTOR:**Tahirə Allahyarova**
Fəlsəfə üzrə elmlər doktoru, professor

RƏYÇİLƏR: **İzzət Rüstəmov**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**Sakit Hüseynov**
Fəlsəfə üzrə elmlər doktoru, professor

S.D.Məmmədova. **"Sosial dövlət modelləri (inkişaf etmiş ölkələrin nümunəsində)"**. Bakı, "AVROPA" nəşriyyaı-2019, 208 səh.

*Monoqrafiyada sosial dövlət dövlət idarəçiliyində yeni mərhələ kimi əsaslandırılır. Kitabda sosial dövlətin idarəetmə prinsipləri, funksiyaları və mexanizmləri haqqında məlumat verilir, sosial dövlət subyektləri arasındakı münasibətlərin təməl əsası kimi sosial məsuliyyət və sosial əməkdaşlıq məsələləri, sosial yönümlü bazar iqtisadiyyatının inkişaf istiqamətləri araşdırılır. Burada dünya sisteminin böhranı ilə əlaqədar sosial dövlətin təkamül prosesi analiz edilir. Monoqrafiyada sosial dövlətin liberal modeli, kooperativ-konservativ sosial dövlət modeli, sosial dövlətin sosial demokratik modeli və bu modellərə uyğun olaraq, ABŞ, BB, Yaponiya, Almaniya, İsveç dövlətlərinin inkişaf istiqamətləri təqdim edilir. Kitabda sosial dövlətin Azərbaycan modelinin əsaslarıaraşdırılır.*

*Monoqrafiya sosial dövlətin inkişafının əsasları ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur. Əsər sosial dövlətin araşdırılması ilə bağlı elmi-tədqiqat işlərində, xüsusi kursların hazırlanmasında, ali məktəblərdə müvafiq fənlərin tədrisi zamanı istifadə edilə bilər.*

ISBN-978-9952-454-19-2

© S.Məmmədova, 2019

## MÜNDƏRİCAT

**ÖN SÖZ ........................................................................................ 4**

**FƏSİL 1. SOSİAL DÖVLƏT: MAHİYYƏTİ, İDARƏETMƏ XÜSUSİYYƏTLƏRİ**
1.1.Sosial dövlətin inkişaf tarixinə baxış. ....................................... 8
1.2. Sosial dövlətin prinsipləri, mexanizmləri .............................16

**FƏSİL 2. MÜASİR DÖVRÜN SOSİAL DÖVLƏT MODELLƏRİ: QABAQCIL ÖLKƏLƏRİN TƏCRÜBƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ**
2.1. Sosial dövlətin liberal modeli ................................................ 30
2.1.1. Liberal sosial dövlətin Britaniya modeli .............................. 34
2.1.2 Liberal sosial dövlətin ABŞ modeli ...................................... 43
2.2. Konservativ-korporativ sosial dövlət modeli .......................... 55
2.2.1. Konservativ-korporativ sosial dövlətin Almaniya modeli ... 60
2.2.2.Konservativ-korporativ sosial dövlətin Yaponiya modeli .... 73
2.3. Sosial dövlətin sosial-demokratik modeli ............................... 83
2.3.1. Sosial demokratik dövlətin İsveç modeli ............................. 86

**FƏSIL 3. MÜASIR DÜNYA SİSTEMİNDƏKİ DƏYİŞİKLİKLƏRİN QƏRB SOSİAL DÖVLƏT MODELİNƏ TƏSİRİ**
3.1. Sosial dövlətdə cəmiyyət-vətəndaş və digər subyektlər arasındakı münasibətlərin təməl əsasları ............................................ 98
3.2 Sosial dövlət və sosial yönümlü bazar iqtisadiyyatı .............. 111
3.3. Sosial dövlətin transformasiyası, yaxud yeni təkamül mərhələsi ........................................................................................ 131

**FƏSİL 4. AZƏRBAYCANDA SOSİAL DÖVLƏT QURUCULUĞUNUN ƏSASLARI**
4.1. Milli İnkişaf Strategiyası Azərbaycanda sosial dövlət quruculuğunun əsası kimi ........................................................................ 155
4.2. Sosial dövlətin Azərbaycan modelinin özəllikləri ................ 165
**NƏTİCƏ....................................................................................190**

# ÖN SÖZ

Bəşər tarixinin ən yeni mərhələsi kimi xarakterizə olunan post-neokapitalizm dövründə insanların həyat keyfiyyətinin yüksəldilməsi, sosial ədalətin təmin edilməsi, sosial əməkdaşlığın və insanların qarşılıqlı sosial məsuliyyətinin möhkəmləndirilməsi, sosial qeyri-bərabərliyin aradan qaldırılması, insanın bütün hüquq və azadlıqlarının təmin edilməsi və ona layiqli həyat şəraitinin yaradılmasınayönələn sosial dövlət növbəti “ideal idarəçilik” modeli kimi qəbul edilir. Sosial dövlətin üstün tərəflərindən biri onun dövlət – cəmiyyət – vətəndaş münasibətlərində qarşılıqlı fəaliyyətə, qarşılıqlı köməyə və dəstəyə əsaslanan dövlət quruluşu olması ilə bağlıdır. Sosial ədalət ideyası, eləcə də cəmiyyətdə birgəyaşayışın idealı kimi sosial dövlətə dair baxışlar müxtəlif (bədii, fəlsəfi, sosial, hüquqi və s.) təlimlərdə əksini tapan, mühüm əhəmiyyətə malik olan hadisələrdən biridir. Tarixən sosial dövlət forması müasir anlamda ilk dəfə Qərbdə həyata vəsiqə almışdır. XX yüzillikdə sosial dövlət ideyamüstəvisindən müxtəlif baxış və konsepsiyalarda əksini tapan nəzəriyyəyə, buradan da qlobal miqyasda reallaşdırılan gerçəkliyə, dünya inkişafında təqdir edilən aparıcı meylə çevrilmişdir. Sosial dövlət cəmiyyətin elə təşkilatlanma formasıdır ki, burada inkişafın sosial amilləri əsas məqsəd kimi vətəndaşların firavanlığının yüksəlməsinə yönəlir. Bu dövlət quruluşunun sosial münasibətlərdə hər cür sosial, siyasi, mədəni və s. ayrı seçkiliyin fövqündə durması, sosial gərginlik və münaqişələrin tənzimlənməsi ilə dövlət-insan-cəmiyyət müstəvisində qarışlıqlı ahəngdar münasibətlərin yaranmasına yönəlməsi onun dəstəklənməsinə gətirmişdir.

Sosial ədalət ideyasından qaynaqlanan, tədricən Yeni dövrdən başlayaraq konseptual yanaşmalarda möhkəmlənən bu dövlətçilik modeli, çox sayda dövlətlərin “Ana Qanununda” hüquqi-qanunverici ifadəsini tapmağa qədər təkamül etmişdir. Tədricən ayrı-ayrı ölkələrin sosial-tarixi inkişaf xüsusiyyətlərinə müvafiq sosial dövlət modelləri formalaşmışdır.

Sosial dövlət konsepsiyasının geniş vüsət almasının əsasında insanların rifahının yüksəldilməsinin, cəmiyyətin ahəngdar, hərtərəfli inkişafının və insan haqlarının təmin olunmasının əsas məqsəd hesab edilməsi durur və bu, müasir dövrdə sosial dövlət quruculuğunu çoxsaylı dövlətlərin prioritetinə çevirmişdir.

XXI əsrdə milli quruculuq siyasətində aparıcı meyllərdən biri olmasına, əksər ölkələrin qanunvericiliyində təsbit olunmasına, çoxsaylı modellərinin mövcudluğuna baxmayaraq, "sosial dövlət" anlayışı məna və mahiyyət baxımından çoxsaylı şərhlərə malikdir. Sosial dövlətin Qərb ölkələrində, eləcə də, postsovet məkanında mütəxəssislər tərəfindən tədqiq və təhlil edilməsinə baxmayaraq, bu anlayışın ümumən qəbul edilmiş yekdil tərifi hələlik formalaşmamışdır. Sosial dövlət haqqında danışıldıqda hər bir ölkənin konkret tarixi, iqtisadi, sosial və siyasi xüsusiyyətlərindən, tədqiqatçıların baxışlarından və bir çox başqa amillərdən asılı olaraq fərqli şərhlər təqdim edilir.[1] Hətta lüğətlərdə də "sosial dövlət" anlayışının izahında fərqlər nəzərə çarpır. Məsələn, Kembric lüğətində sosial dövlət "vergilər hesabına ölkənin dövlət strukturları tərəfindən ehtiyacı olan insanların tibbi, işsizliyə görə müavinət və digər sosial xidmətlərlə təmin edilməsinə" yönələn idarəçilik forması kimiizah edilir.[2] Britaniya ensiklopediyasında təqdim edilən "sosial dövlət" konsepsiyasına görə dövlət, yaxud möhkəmlənmiş sosial institutlar vətəndaşların iqtisadi və sosial rifahını müdafiə və təmin etməkdə aparıcı rol oynayır. Sosial dövlət bərabər imkanlar prinsipinə söykənir. Sosial dövlətin əsas xüsusiyyəti sosial sığorta ilə bağlıdır.[3]

Mövcud olan çoxsaylı ədəbiyyatda sosial və hüquqi dövlət anlayışlarının hüdudları, qarşılıqlı bağlılığı və bununla belə ölkələrin inkişafının dəyərləndirilməsindəki fərqli məqamlar hələlik aydın müəyyən edilməmişdir. Geniş mənada bütün dövlətlər ictimai

---

[1]Социальное государство в странах ЕС: прошлое и настоящее / Отв. ред.Ю.Д. Квашнин. М.: ИМЭМОРАН, 2016. (189 с),с.5

[2]Welfare State".A S Hornby Oxford Advanced Learner's Dictionary of Current English.Oxford Oxford New York. University press 2010, p. 1749

[3]Welfare state. https://www.britannica.com/topic/welfare-state

inkişafın nəticəsi kimi sosiallıq mahiyyətinə malikdir. "Sosial dövlət" quruluşunun daha çox İsveçrə, Almaniya, Danimarka kimi ölkələrə aid edilməsinə baxmayaraq, demək olar ki, hər bir inkişaf etmiş dövlət özündə sosial dövlətin xüsusiyyətlərini daşıyır.[4]

"Sosial dövlətin" fəaliyyəti bilavasitə demokratiya, vətəndaş cəmiyyəti, hüquqi dövlət, insan azadlıqları və bərabərlikləri kimi ictimai təzahürlərlə bağlıdır. İnsan və şəxsiyyətin hüquqlarının və azadlıqlarının təmin edilməsi sosial dövlətin əsas prinsiplərindəndir. Özünü sosial dövlət elan etmiş ölkələrin siyasəti sosial yönümlü olub, hüquqi əsaslarda öz təsdiqini tapmışdır. Bu mənada sosial dövlətin hüquqi olmaması qeyri-mümkündür. Dövlətçilik tarixinin təkamülü baxımından sosial dövlət hüquqi dövlətin inkişafında yeni mərhələdir. Müasir dövlətlər sosial dövlətin hüquqi əsaslarda inkişafı ilə bağlı daha səmərəli yollar axtarırlar. Belə ki, tarixən hüquqi dövlətlər sosial siyasətə malik olub, lakin sosial dövlətin daxili və xarici siyasəti bilavasitə əhalinin sosial rifahının təmin edilməsi ətrafında müəyyənləşir.

Bu gün insan hüquq və azadlıqlarının çəkisi və statusu, mahiyyətcə bağlılığı məsələsində qeyri-müəyyənlik vardır. Belə ki, qlobal geosiyasi maraqların mübarizəsində siyasi hüquqların məqsədyönlü olaraq qabardılması, sosial hüquqların arxa plana keçirilməsi praktikasının miqyasının genişlənməsi nəzərə çarpır. Qaçqın və köçkünlərin fundamental həyat və sosial hüquqlarının məhdudlaşdırılması və s. hallar sosial dövlətin tənqidinə səbəb olmuşdur.

XXI əsrin ikinci onilliyində dünyada "geosiyasi zəlzələ" kimi ifadə edilən tarixi proseslərin baş verməsi nəinki qlobal siyasi oyun qaydalarının, həmçinin ilk növbədə, qlobal sosial nizam qaydalarının radikal transformasiyasına təkan vermişdir. Buradan irəli gələrək, müxtəlif cəmiyyətlərdə sosial münaqişələrin artması, qlobal böhranlara rəvac verilməsi, milyonlarla insanın sosial hüquqlardan məhrum vəziyyətə düşməsi və humanitar faciə ilə üzləşməsi sosial dövlətin təkmilləşdirilməsinə yönələn tədqiqatların genişləndirilməsini və bu mənada mövzunun aktuallığını şərtləndirən fak-

---

[4]Rəcəbli H. Azərbaycanda yoxsulluğun azaldılması üzrə tədbirlər planı müəyyən edilib. http://anspress.com/index.php?a=2&lng=az&nid=107358

tordur. Faktiki olaraq, hazırda dünya sosial dövlətin növbəti böhranı proseslərinə şahidlik edir. 2008-ci ildən başlanan qlobal böhran çərçivəsində demoqrafik dəyişikliklərin genişlənməsi, əhalinin kütləvi miqrasiya axınları, iqtisadi artımın səngiməsi, sosial xərclərin azalması, sosial bərabərsizlik və sosial münaqişələrin kəskin şəkildə yüksəlməsi aparıcı meylə çevrilir. Nəticədə, bir çox cəmiyyətlər və dövlətlər ənənəvi olaraq mövcud olan sosial stabilliyin pozulması və siyasi xaosa qərq olma risklərinə məruz qalmaqdadır.

XIX-XX əsrlərdə Qərb cəmiyyətlərində müxtəlif sosial təbəqələr arasında sosial həmrəyliyin, ahəngdar münasibətlərin yaradılmasına köklənən sosial təminat və hüquqlar sistemi XXI əsrdə böhran yaşamaqdadır. Bir qədər epoxal-makro tarixikontekstdə ifadə edilsə, sosial dövlət Qərbdə özünün inkişaf və genişlənmə fazasından-böhran və durğunluq fazasına keçid almışdır. İnsan hüquqları və sosial hüquqlar arasında parçalanmanın baş verməsi, xüsusən də gəlmə-miqrantlara və qaçqınlara münasibətdə bu hüquqların ayrı-seçkiliklə tətbiqi aşkar reallıqdır. Nəticə olaraq siyasi səhnədə ifrat radikal ideologiyaya xidmət edən qüvvələrin, ksenofobiyanın yüksəlməsi sosial hüquqlara yenidən baxılmasını gündəmə gətirmişdir. Bütün bu proseslərdə dövlətin sosial funksiyası, rolu və missiyası məsələsinin təhlili mövzunun tədqiqinin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir.

Bütövlükdə, müasir dünya uzun müddətli transformasiya mərhələsini yaşamaqdadır, ikiqütblü sistemin çökməsindən sonra yaşanan, çoxqütblü dünya nizamının formalaşmadığı vəziyyətdə, yeni, hələlik qeyri-müəyyən qlobal inkişaf modelinin ortaya çıxdığı, lakin əsas xüsusiyyətlərinin bəlli olmadığı şəraitdədir. Qərbdə dövlətin sosial siyasəti milli maraqlar, siyasi mübarizə və geosiyasi çağırışlar baxımından sınağa çəkilir, Qərb ziddiyyətlərin mərkəzinə çevrilir. Sosial dövlətin etalon modellərinin formalaşdığı Qərb dövlətlərinin bu sınaqdan necə çıxacağı və nəticələrinin sosioloji təhlilə cəlb edilməsi də günün tələbidir. Qərb sosial dövlətçilik modelinin böhran zolağına qərq olmasının xüsusiyyətləri, səbəbləri və mahiyyəti, onun taleyini gözləyən perspektivlər geniş araşdırma aparılmasını tələb edir.

# FƏSİL 1. SOSİAL DÖVLƏT: MAHİYYƏTİ, İDARƏETMƏ XÜSUSİYYƏTLƏRİ

## 1.1 Sosial dövlətin inkişaf tarixinə baxış

Dövlətçiliyin ən yüksək mərhələsi hesab edilən sosial dövlət sosiumun tələbatlarının təmin edilməsinə xidmət edən dövlətdir.[5]Sosial dövlətin məzmununun idrakı problemi – "dövlət" anlayışının; "sosiallıq" fenomeninin konseptual əsaslarının açılmasını, sosial dövlətin əsas meyarlarının və xüsusiyyətlərinin müəyyənləşdirilməsi və şərhini zəruri edir".[6]

Dövlətə verilən, geniş yayılmış təriflərdən birinə görə, dövlət müəyyən ərazidə idarəetməni həyata keçirən və həmin ərazi hüdudlarında əhalinin davranışlarını tənzimləyəcək qanunlar yaradan, həmçinin vergilər sayəsində mövcud olan institutlar məcmusudur.[7]

İngiltərəli alim R.Nozik dövlətin əsas xüsusiyyətlərini – "1) müəyyən ərazidə qüvvə tətbiq etmək inhisarına malik olmaq, və 2) "bölüşdürmə" yolu ilə də olsa dövlət hüdudlarında məskunlaşan hər bir şəxsin hüquqlarına zəmanət verən" siyasi birlik olmaq – kimi müəyyənləşdirir.[8]

I.Dövlət hakimiyyətinin strukturunda – hakimiyyət subyekti; hakimiyyət obyekti; hakimiyyətin fəaliyyətinin məzmunu; hakimiyyətin realizə edilməsi vasitəsi, üsulu, qaydaları; hakimiyyət ehtiyatları kimi elementlər fərqləndirilir. Dövlət hakimiyyətinin obyektləri fərdlər, sosial təbəqələr, siniflər, sosial və etnik birliklər, bütövlükdə cəmiyyət, xalqlar, millətlər və s. ola bilər. Dövlət

---

[5]КалашниковС.В. "Социальное государство:эволюция и этапы становления. Журн. «Человек и труд», № 10, 2002

[6]Белоусова С.В.Социальное государство как инструмент обеспечения качества жизни : монография / С.В. Белоусова. – Иркутск: ИрГУПС, 2012. – 204 с., s.7

[7]Аберкромби Н., Хилл С., Тернер Б.С. Социологический словарь. (перевод с английского И.Г.Ясавеева), М, изд. «Экономика», 2004, S.92

[8] Нозик Роберт. Анархия, государство и утопия / Роберт Нозик ; пер. с англ. Б. Пинскера под ред. Ю. Кузнецова и А. Куряева. — М.: ИРИСЭН, 2008. 424 с.,S.76

hakimiyyətinin subyekti dövlət, onun orqanları və vəzifəli şəxsləridirlər. Hakimiyyətlə münasibətlər çərçivəsində obyekt və subyekt öz potensial imkanlarını və bacarıqlarını həyata keçirirlər. Əgər demokratik hakimiyyətin və təbəələrin maraq və iradələri fərqlidirsə, kompromisdən məcbur etməyədək idarəetmə metodlarının hamısı istifadə edilir.[9]

II. "Sosial" anlayışı – 1) sosiumla bağlı atributdur; 2) cəmiyyətdə müəyyən səviyyə və statusu bildirir.[10] Latın dilində "sosial" anlayışına uyğun gələn "sociālis, e [socius]" ifadəsi - 1) "yoldaşlıq", "dostluq" (beneficium, consilium ), "ünsiyyətçillik", "ictimai" (homo sociale animal est.); 2) "ittifaq", "birlik" (exercitus, copiae, lex) və digər mənalarda istifadə edilir.[11]

"Sosial" dedikdə, "sosiallaşan insanların real münasibətləri nəzərdə tutulur".[12] Sosial – şəxsiyyət, sosiallaşan fərdlə bağlı anlayışdır. V.Bozqurda görə: "İnsanlar sosial varlıqdır... Bizim ümidlərimiz, qorxularımız, fürsətlərimiz, mənliyimiz və davranışlarımız sosial anlayışını ifadə edir".[13] Yuxarıda təqdim edilən izahları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, sosial birlik, yaxud toplum daxilində insanın davranışları (cəmiyyətdəki norma və qaydalarla tənzimlənən hərəkəti), o cümlədən fəaliyyəti (məqsədyönlü və nəticə əldə edilməsinə yönələn hərəkəti) qarşılıqlı ünsiyyətin səbəbi və nəticəsi olaraq sosial mahiyyət qazanır, yaxud insan özü sosial varlığa çevrilir, sosiallaşır.

III. Beləliklə, ən sadə anlamda "sosial dövlət" – sosiallaşan fərdlərin inter-fəaliyyət sistemi olan cəmiyyətə yönəlmiş, şəxsiyyəti və onun mənafelərini, rifahını üstün tutan, onun hüquq və

---

[9] Морозова Л.А. Теория государства и права. Учебник. М.: Проспект, 2013, с.12-13 (562 с.)

[10]WelfareState". A S Hornby Oxford Advanced Learner's Dictionary of Current English. Oxford New York. University press 2010, p. 1464

[11]Дворецкий И.Х. - Латинско-русскийсловарь,М.:«Русскийязык-Медиа», 2005, s.357

[12]Həsənov R.M. Sosial siyasət. Bakı, "AVROPA" nəşriyyatı, 2016, s.294

[13]Veysel Bozkurt. Değişen dünyada sosioloji. EKİN Basım Yayın Dağıtım, 2007, s.3

azadlıqlarını qoruyan idarəetmə formasıdır, yaxud "şəxsiyyətin dövlətidir".

Sosial dövlətin təşəkkül tapması prosesi uzun və mürəkkəb tarixə malikdir. Türkiyəli tədqiqatçı Süleyman Özdemir sosial rifah dövlətinin formalaşması tarixinin aşağıdakı təsnifatını təqdim edir:

1) 1880-cı ilə qədərki dövr – Sənaye çevrilişindən əvvəl dövlətin hakim mövqeyini qəbul edən paternalist ideologiya hakim idi. Həmin dönəmdə problemlərin həllində ailələrin, könüllü təsisatların, xeyriyyəçi qurumların, bilavasitə cavabdeh iş təminatçılarının və dövlət gəlir transferlərinin fəaliyyəti görünürdü.

2) 1880-1945-ci illər – sənayeləşmə dövründə işçilər sosial sığorta qurumlarının himayəsi altında idilər.

3) 1945-1975-ci illər – rifah dövlətinin qızıl dövrü, rifah dövrüdür. Bu dönəmdə sosial sığortalara əlavə olaraq rifah dövlətinin funksiyalarının və qurumlarının genişləndiyi, gəlirin davamlılığını saxlamaq və yaşayış standartlarının yüksəldilməsinin məqsədə çevrilməsi nəzərə çarpır.

4) 1975-ci ildən sonra – sosial rifah dövlətinin, tədrici tənəzzülü və böhranı ilə əlaqədar o, yeni məzmun əldə edir.[14]

S.V.Kalaşnikov XX əsrin 90-cı illərini sosial dövlətin inkişafında yeni mərhələ olaraq qəbul edir və bu mərhələni liberal sosial dövlətin yaranması kimi təyin edir. Həmin illərdə liberal ideyalar yayıldı və dövlətin sosial rolu güclənməyə başladı, cəmiyyət tərəfindən sosial siyasətin səmərəliliyinin artırılması tələbləri genişləndi, sosial dövlətlə bağlı yeni təsəvvürlər yarandı.[15] Ən yeni dövrə əksər dövlətlər müasir sivilizasiyanın ayrılmaz hissəsi olan sosial dövlətin yaradılması, yaxud təkmilləşdirilməsi yolu

---

[14]Zafer Durdu. Modern devletin dönüşümünde bir ara dönem: sosyal refah devleti. Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE) Bahar 2009, Sayı 22, s.38-50

[15] Калашников С.В. "Очерк теории социального государства". М.: Экономика, 2006.,С. 67-68 (362 с.)

ilə gedirlər.[16] Bir çox tədqiqatçılar əmindirlər ki, təmiz formalı sosial dövlət yoxdur. Sosial dövlət klassik əsaslarda inkişaf edən, lakin sosial siyasətə xüsusi diqqət ayıran hüquqi dövlətdir.[17] Klassik (hüquqi) dövlətin mahiyyəti hüquqi və sosial dövlətlərin komparativ analizini zəruri edir. Dövlət qurmaq bəşəriyyətin mühüm nailiyyətlərindən biridir və insanın vətəndaş və siyasi hüquqları haqqında qanunların təkmilləşdirilməsinin nəticəsi kimi meydana çıxmışdır. Hüquqi və sosial dövləti yalnız mücərrəd formada ayırmaq olar.

Sosial hüquqi dövlət – sosiuma yönələn, sosial fərqləri minimuma endirməyə çalışan və bu əsasda da cəmiyyətdə sosial stabilliyə nail olan dövlətdir. Sosial hüquqi dövlət konstitusiya ilə idarə olunur, burada ictimai həyatı yönləndirən hüquqi sistem mövcuddur.[18] Müasir dövlətlərin hər birinin konstitusiyasında sosial sahələrə dair maddələr vardır, lakin qanunların insan və onun rifahı ilə bağlı tətbiq edilməsi sosial dövlətin əsas ideya və qayəsidir. Sosial dövlətlə bağlı fərqli yanaşmalardan istifadə edən müəlliflər bir məsələdə ümumi fikrə malikdirlər: sosial dövlət fərdin maraqlarına xidmət etməli, onu yüksək dəyərləndirməli onun firavan yaşayışını öz məqsədinə çevirməlidir.[19] Beləliklə, müasir cəmiyyət hüquqi vətəndaş cəmiyyətidir, desək yanılmarıq. Vətəndaş cəmiyyəti "bərabərhüquqlu, öz şəxsiyyətini azad ifadə edə bilən, əlavə qadağalardan və üzücü inzibati məhdudiyyətlərdən azad insanların cəmiyyəti kimi şərh edilir".[20] Hüquqi vətəndaş cəmiyyəti hüquqa əsaslanır, onun başlıca qayəsi vətəndaşların

---

[16] Гончаров П.К. Социальное государство: сущность, мировой опыт, российская модель. – Социально-гуманитарные знания (М.), 2000, № 2, с.18-36

[17] ЛеоновИ. В., Социальное государство как предмет теоретико-правового исследования : дис. … канд юрид. наук. – М., 2006. – С. 73

[18] Европейская модель социальной экономики - econominfo.ru

[19] Игольникова В.А.Социальное правовое государство. Сравнительный анализ подходов к содержанию этого понятия на Западе и России. // Государственная власть и местное самоуправление. 2014. № 4. С. 3-5

[20] Теория государства и права /Под ред. М.Н. Марченко. М.изд-ва "Проспект", 1996. С.230

maraqlarının məqsədəuyğun təminatıdır. Hüquqi vətəndaş cəmiyyəti elə münasibətlər sistemidir ki, burada bərabərhüquqlu şəxslərin yaratdıqları birliklər hüquqi əsaslarda öz maraqlarını reallaşdırırlar. Hüquqi vətəndaş cəmiyyətində şəxsiyyətin azad iradəsi, fəaliyyəti və şəxsi maraqları reallaşır. Hüquqi vətəndaş cəmiyyəti və sosial hüquqi dövlət qarşılıqlı əlaqəli və asılıdır.[21] Sosial hüquqi dövlət – sosial-hüquqi və siyasi institutların konstitusion sistemidir, real olaraq xalqların suveren hüquqlarına, şəxsiyyətin və cəmiyyətin maraqlarına hüquqi əsaslarda zəmanət verir. Burada hüquq ümumi sosial tənzimləyici kimi şəxsiyyətin və cəmiyyətin maraqlarının ahəngdar uyğunluğuna yönəlir.[22]

Sosial hüquqi dövlətin meydana gəlməsi səbəbləri hüquqi dövlətin insan hüquq və azadlıqlarını qorumaq iqtidarında olmamasıdır. Bu yalnız işçi sinfin hüquqlarının deyil, həm də mülkiyyətçi sinfin hüquqlarının müdafiə edilməməsi ilə bağlıdır.

Sosial hüquqi dövlətin meydana çıxması səbəbləri aşağıdakılarla bağlıdır: XX əsrin əvvəllərində Qərbdə yaşanan siyasi-hüquqi böhran; beynəlxalq hüquqi münasibətlərdə böhran, iki dünya müharibəsinin qarşısının alınmaması; bəşəriyyətin ümumi depressiya vəziyyəti; sərbəst bazar iqtisadiyyatının və azad rəqabətin formalaşması nəticəsində sosial bərabərsizliyin genişlənməsi və iki düşmən sinfin yaranması; xalq üsyanlarının genişlənməsi və müstəmləkələrin dağılması; Avropada və Asiyada milli demokratik və sosialist inqilabları nəticəsində dünya sosialist sisteminin yaranması.[23]

---

[21]Дробязко С.Г. Соотношение правового государства и правового гражданского общества / С.Г. Дробязко // Конституционно-правовые проблемы формирования социального правового государства : материалы Межд. науч.-практ. конф., 30–31 матра 2000 г. – Минск, 2000. – С. 386–390

[22]Yenə orada.

[23] Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009,с.18-19(74 с.)

S.S.Alekseyevə görə sosial hüquqi dövlət dialektik ziddiyyətə malikdir, çünki burada sosial və hüquqi baza sadə məkan ardıcıllığına deyil, dinamik münasibətlərə malikdir.[24]

Qərbin müasir sosial hüquqi dövlətində sosializm meylləri mövcuddur, bununla belə, burada qarşılıqlı təsir, qarşılıqlı keçid, qarşılıqlı çevrilmə kimi hüquqi və sosial amillər arasında ziddiyyətlər yaranır. Bu, göstərir ki, mövcud ziddiyyətlər sosial dövlətin inkişaf mənbələri, onun özünühərəkət və yeni siyasi-hüquqi vəziyyət və formalara transformasiyasının mənbəyidir. Hüquqi və sosial əsasların, yəni kapitalist və sosialist elementlərin daimi qarşılıqlı nüfuz etməsi və qarşılıqlı itələməsinə baxmayaraq, sosial hüquqi dövlət hüquqi (liberal) və sosial (kollektiv) istiqamətləri tənzimləyir.[25]

Sosial dövlətin formalaşması industrial və post-industrial sosiumlardakı münasibətlərdə dövlətin sosial rolunun artması ilə əlaqədardır. II Dünya müharibəsindən sonra dövlətin rolunun genişlənməsi, iqtisadi məkanın miqyasının dəyişməsi, inteqrativ, funksional təsnif olunmuş və rasional fəaliyyət göstərən sistemə çevrilməsi nəticəsində vətəndaşlar arasında əmlak bərabərsizliyi genişləndi, əhalinin sosial mövqeyi zəifləməyə, maddi vəziyyəti ağırlaşmağa başladı. Hüquqi dövlətin məhdudluğu yeni tipli sənaye ölkələrinin meydana çıxmasına gətirdi, sosial dövlət haqqında təsəvvürlər dəyişdi, yeni konseptual əsasları formalaşmağa başladı.[26]

Hazırda sosial, yaxud sosial hüquqi dövlət üç səviyyədə mövcuddur:

- elmi, yəni ideya və konsepsiyalar səviyyəsində;

---

[24]Алексеев С.С. Право: азбука – теория – философия: опыт комплексногоисследования. – М.: Издательская группа НОРМА - ИНФРА ,1999, с.793.

[25] Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009,с.18-19(74 с.)

[26]ШамоваЛ.Г. Социальное государство. История. Современность., «Россия: пут к социальному государству». Материалы Всероссийской научной конференции (Москва, 6 июня 2008 г.) , Москва, Научны эксперт, 2008, с.387-393

- normativ səviyyədə, yəni əsas qanun və konstitusiyalarda;

- empirik səviyyədə, dövlət institutlarının və sosial qrupların real fəaliyyətində.[27]

Ümumilikdə sosial dövlət ideyasının altı inkişaf mərhələsi fərqləndirilir:

I - XIX əsrin 70-ci illəri – XX əsrin 30-cu illərində sosialist dövləti ideyası;

II - XX əsrin 30 – 40-cı illərində hüquqi sosial dövlət ideyası;

III - XX əsrin 40 – 60-cı illərində sosial xidmətlər dövləti ideyası;

IV - XX əsrin 50 – 80-cı illərində ümumi rifah dövləti ideyası;

V - XX əsrin 80 – 90-cı illərində ümumi rifah dövlətinin böhranı ideyası;

VI - XX əsrin 90-cı illərindən liberal-sosial dövlət ideyası.[28]

Görkəmli rus alimi E.N.Naumovanın fikrincə, ümumi mənada sosial dövlət idarəçiliklə bağlı ümumi işləri nizamlayan ictimai institutdur.[29] L.N.Koçetkovaya görə sosial dövlətin məramı şəxsiyyətin şəxsi və ümumi müstəqilliyini təmin etməklə sinfi ziddiyyətlərin yumşaldılmasına, bazar iqtisadiyyatının sabitləşdirilməsinə yönəlir. Sosial dövlət hər bir vətəndaşın maddi həyat fəaliyyəti standartlarına zəmanət verməlidir

Müasir sosial dövlətin yaradılması aşağıdakı şərtlərlə bağlıdır:

1.Sosial dövlətin yaradılması hüquqi dövlətin növbəti mərhələsi olmalıdır;

2.Orta təbəqə inkişaf etdirilməlidir;

3.Güclü iqtisadi potensial olmalıdır;

4.İnhisarçılığın qarşısı alınmalıdır;

5.Yetkin vətəndaş cəmiyyəti qurulmalıdır;

---

[27]Копташкин С.В. Социальное государство. Научные публикации КФ РГСУ © 2008. // http://kraspubl.ru/content/view/287/68/.

[28]Калашников С. Социальное государство: эволюция и этапы становления // Человек и труд. 2002. №10. С.47-51

[29]Е. Н. Наумова, Социальное государство в России: проблемы теории и практики : дис. … канд. юрид. наук – Владимир, 2006. С. 49

6.Cəmiyyətin mənəvi səviyyəsi yüksəldilməli, sosial ədalət və bərabərlik təmin edilməlidir.[30]

Tədqiqatçıların bir çoxu vətəndaş cəmiyyəti institutlarını sosial dövlətin təməl əsasları kimi göstərirlər.V.Q.Belov əmindir ki, "özünü sosial elan etmiş dövlət yüksək yaşayış minimumu, sosial bərabərlik, güvənli sosial təminat sosial müdafiə, daim yüksələn rifaha təminat verməlidir, yəni öz həcminə və mahiyyətinə görə iri miqyaslı sosial məqsədləri həyata keçirməlidir. Sosial dövlət vətəndaşların mənəvi, mədəni inkişafına yönəlməlidir. O, xeyirxahlıq, inam, humanizm, vətənpərvərlik və mərhəmət ideallarına bağlı olan şəxsiyyətin formalaşmasına çalışmalıdır. Sosial dövlət azadlıq ilə hakimiyyətin şəxsiyyətin firavan yaşayışı və cəmiyyətin tərəqqi etməsi məqsədilə birləşməsinə, əmək məhsullarının bölgüsündə sosial ədalət və həmrəyliyin tətbiqinə yönəlməlidir. Sosial bərabərlik və həmrəylik dedikdə, nəsillərin və təbəqələrin həmrəy məsuliyyəti – varlıların kasıbların əvəzinə, sağlamların xəstələrə ödəniş etməsi; cinsi bərabərlik hüquqlarının və imkanlarının təminatı düşünülür.[31]L.N.Kaçetkovaya görə "sosial dövlət – sinfi cəmiyyət dövlətidir, burada sinfi qarşıdurmanın yumşaldılması və bazar iqtisadiyyatının sabit inkişafı vətəndaşların özəl və kütləvi müstəqillik hüququnu reallaşdırmasına kömək edən maddi həyat fəaliyyəti standartlarına zəmanət verilir". [32]

O.E.Bessonovaya görə, sosial dövlət demokratik əsaslarda qurulan ictimai sistemdir.[33]

Haydar Baş əmindir ki, sosial dövlət milli dövlət olarsa uğur qazanar. Burada müəllif "milli dövlət" deyərkən, "təməlini

---

[30]Каменецкий В.А. Проблемы становления социального государства / В.А. Каменецкий В.П. Патрикеев. – М. : АТиСО, 2001, с.28-57

[31]Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009,с.18-19(74 с.)

[32] Кочеткова Л.Н. Философский дискурсо социальном государстве. М., ИНФРА-М, 2012, с.103 (216с.)

[33]БессоноваО.Э. Сущность социального государства в контексте общей теории институциональных трансформаций // Россия: путь к социальному государству : Материалы Всероссийской научной конференции (Москва, 6 июня 2008 г.). - М. : Научный эксперт, 2008. - С. 249-263.

millətlərin tarixindəki dəyərlərdən alan, başqa ölkələri təqlid etməkdən uzaq olan və müasir mədəni səviyyəyə istiqamətlənərək, bütün digər ölkələrlə rəqabət apara bilən, bütün dünyaya açıq olan, lakin heç bir qüvvəyə ehtiyac hiss etmədən inkişaf edə bilən, yüksəliş üçün yalnız öz mənbələrindən istifadə edən, milli iqtisadi modelə malik olan, dövləti millətinə görə quran, vətəndaşların sosial müdafiəsini və sosial xidməti özünün əsas məqsədinə çevirən, onlarının hüquqlarına və azadlıqlarına zəmanət verən, ədalət, bərabərlik və hüquqa söykənən bir dövlət" nəzərdə tutur. Müəllifə görə, "sosial dövlət olmaq, dövlətin öz vətəndaşlarına ehtiram göstərməsi demək deyil, onun varlığının zərurəti və vəzifəsidir". Heydər Baş göstərir ki, "milli sosial dövlətin üç əsası vardır: sosial müdafiə, sosial xidmət və sosial yardım".[34] Beləliklə, özlərini sosial dövlət elan edən ölkələrin idarəçiliyində, sosial siyasətində ümumi mahiyyət əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması olsa da, fərqli tərəfləri məhz qeyd edilən "milli dövlət" ənənələrinə söykənən sosial tərəqqiyə yönəlmələridir.

## 1.2. Sosial dövlətin prinsipləri, mexanizmləri

Sosial dövlət konsepsiyasının "inkişaf edən dövlət" konsepsiyası ilə əvəz olunması fikirləri də səsləndirilir[35] və bu zaman insan kapitalının davamlı inkişafı vurğulanır. BMT-nin 2016-cı il "İnsan İnkişafı Haqqındakı Məruzə"sində göstərilir ki, bu konsepsiya "hər bir şəxsin inkişafına" yönəlir. Konsepsiyada "hər bir şəxsin inkişafı" prinsipləri kimi aşağıdakılar göstərilir:

1.Kollektiv imkanlar (bütünlükdə qrup üçün əlverişsiz şəraitlər kollektiv fəaliyyət, qrupların gücləndirilməsi əsasında daha yaxşı həllini tapa bilər);

---

[34] Prof.dr. Haydar Baş. "Sosyal devlet Milli devlet". Yayınevi: İctimai Yayıncılık Reklamcılık San.Tic.Ltd.Şti., İstanbul, 2007, 27, 135-136

[35] Геец В.М., Какое будущее у социального государства? "ЭкономикаУкраины". 2013, № 7 (612), s.13

2.Dayanıqlı inkişaf (bu sosial ədalət məsələsidir, beynəlxalq ədaləti – nəsillərin bugünkü və gələcək azadlığına yönəlir);

3.Səs və muxtariyyət (həm ikisi də inkişafın sonu deməkdir, arxada qalanların gücləndirilməsi üçün əsasdır);

4.İnsan hüquqları (arxada qalanların gücləndirilməsi üçün vasitə axtarılması və hökumətlərin hesaba alınması üçün güclü alətdir);

5.İnsan təhlükəsizliyi (əlverişsiz şəraitdə və marginal olanların himayə edilməsinə yardım etmək. ).[36]

Sosial dövlət –sinifdən üstün mövqe prinsiplərini birləşdirir.[37]

Sosial dövlətin formalaşması həm də mənəvi prosesdir və insan tərəqqinin başlıca faktoru kimi müəyyən edilir.[38] Sosial dövlət insanın hüquqlarının qorunmasına yönəlir, sosial dövlət sinifdən üstündür, belə ki, o, ümumilikdə cəmiyyətin inkişafına yönəlib, o bütün vətəndaşların, xalqların hüquqlarını müdafiə edir, davamlı sosial sabitliyə nail olmağa səy göstərir.[39]

Beləliklə, sosial dövlət bilavasitə insanlar arasındakı münasibətlər sistemində hər zaman fərdin ali məqsəd olduğunu nəzərdə saxlayır. V.İ.Leonov düzgün olaraq hesab edir ki, dövlət hüquqi əsaslarda mövcud olduğu üçün sosial dövlət də qanunlarla idarə edilir və qanunlar sosial sahələrin inkişafına yönəlir.[40] Sosial dövlətin üç təməl özünəməxsusluğu fərqləndirilir: 1) müdaxiləçi; 2)

---

[36] Human development report 2016. Human development for everyone © Copyright 2017 Hdro by the United Nations Development Programme. 1 UN Plaza, New York, NY 10017, USA.http://hdr.undp.org/sites/default/files/2016_human_development_report.pdf

[37]Мамут, Л.С. Социальное государство с точки зрения права / Л.С. Мамут // Государство и право. – 2001. – № 7. – С. 5 – 14.

[38]Морозова Л.А. Теория государства и права: Юристъ, 2002, с.357-359 (414с.)

[39]Мамут, Л.С. Социальное государство с точки зрения права / Л.С. Мамут // Государство и право. – 2001. – № 7. – С. 5 – 14.

[40] ЛеоновИ. В. Социальное государство как предмет теоретико-правового исследования : дис. канд юрид. наук. – М., 2006. – С. 73

tənzimləyici və 3) gəlirin yenidən müəyyənləşdirilməsi.[41] Sosial dövlətin obyekti insan, onun çoxsaylı sosial tələbatları və maraqları, onun sosial rahatlığı və sosial əhval-ruhiyyəsi, insanın sosial müdafiəsidir, sosial dövlətin qayəsi isə insanın layiqli yaşayışının və azad inkişafının, yəni maddi təminatı, mədəni dəyərlərə açılma imkanları, təhlükəsizliyi ilə bağlıdır.[42]

Yuxarıdakı şərh sosial dövlətin başlıca prinsiplərini ifadə edir. Fəlsəfə ensiklopedik lüğətində "prinsip – davranışın ilk başlanğıcı, rəhbər ideyası, əsas qaydası, ...hadisələrin zəruriliyinin və ya qanununun ifadəsi, ...sistemin bir müddəanın ümumiləşdirilməsindən və mövcud prinsipin abstraktlaşdırılmış olduğu sahənin bütün sahələrinə şamil edilməsindən ibarət olan mərkəzi anlayış" kimi tərif verilir (s.343).[43]

Sosial dövlət ideyasının formalaşdığı ilk dövrlərdə onun azadlıq və bərabərlik prinsipləri irəli sürülmüşdü və bu prinsiplərə münasibətdə iki istiqamət müəyyənləşmişdi. Adam Smit, Con Stüart Mill, Benjamin Konstan, Con Lokk və b. insanın fərdi azadlığı nəzəriyyəsini müdafiə edirdilər, dövlətin vəzifəsinin bu azadlığı hər cür müdaxilədən qorumaq olduğunu qeyd edirdilər. Bu zaman onlar başa düşürdülər ki, azadlıq son nəticədə qeyri-bərabərliyə gətirəcək, lakin azadlığı ən yüksək dəyər hesab edirdilər.

Sosial dövlətinbərabərlik prinsipi Jan-Jak Russo tərəfindən irəli sürülmüşdü. O, fərdi azadlığı inkar etmirdi və əmin idi ki, hər bir fəaliyyət bərabərlik prinsipinə tabe olmalıdır. Belə ki, fərdi azadlıq prinsipi insanların təşəbbüskarlığına və fərdi fəaliyyətinə, özəl təsərrüfatın və bazar iqtisadiyyatın təkamülünə imkanlar açır.[44]

---

[41]Zafer Durdu. Modern devletin dönüşümünde bir ara dönem: sosyal refah devleti. Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE) Bahar 2009 Sayı 22, s.38-50

[42]Морозова Л.А. Теория государства и права: Юристъ, 2002, с.357-359(414с.)

[43]Fəlsəfə Ensiklopedik Lüğəti. "Azərbaycan Ensiklopediyası" nəşriyyat-poliqrafiya birliyi, Bakı, 1997, s. 343

[44]КалашниковС.В. "Социальное государство:эволюция и этапы становления. Журн. «Человек и труд», № 10, 2002; http://www.allbest.ru/

"Rifah dövləti"nin modernləşməsi yüksək inkişaflı dövlətlərdə münasibətlərin tənzimlənməsində geniş  və həlledici struktur dəyişikliklərinin reallaşdırılması siyasəti olaraq başa düşülürdü. "Milli dövlət" anlayışını G.Espinq-Andersen özünün təqdim etdiyi "rifah dövləti" qismində yeni institusional və funksional vəzifələri reallaşdıra rejimlər kimi interpretasiya edirdi. Bütün bu proseslərin ümumi məzmununu hökmranlıq edən liberal ideologiya təşkil edirdi. İslahatlar – iqtisadiyyatın səmərəli təşkilinə, isimliklə mübarizəyə, yoxsulluğun və əhalinin sosial təbəqələri arasında qeyri-bərabərliyin yeni formalarının aradan qaldırılmasın yönəlmişdir.

Sosial dövlətin müasir tədqiqatçılarından olan O.Q.Rumyansev sosial dövlətin əsas prinsipini "dövlətin əsas vəzifələrinin və məsuliyyətinin şəxsiyyətin firavan yaşayışına zəmanət verilməsi, sosial müdafiəyə və vətəndaşların təhlükəsizliyinə nail olunması" ilə əlaqələndirir.[45]

M.Arqona görə, sosial dövlətin konstitusion prinsipi dövlət təsisatlarının əsaslarının və funksiyalarının dəyişdirilməsini tələb etmir, bu prinsip dövlət fəaliyyətini istiqamətləndirir və sosial ədalətsizliyin azalmasına yönəlir.[46]

Konstitusiyalarında özlərini sosial dövlət kimi təqdim edən ölkələrin sosial-iqtisadi siyasəti aşağıdakı prinsiplərə söykənir:

1.insanın iqtisadi azadlığı, onun muzdlu əməyi və sahibkarlıq fəaliyyətində azad seçim etmək hüququ; 2.bazarın tənzimləyici roluna inam; 3.sosial yönlü bazar iqtisadiyyatının səmərəli inkişafı; 4. sosial ədalət və sosial həmrəyliyin bərqərar olması; 5. gender bərabərliyi; 6. bütün vətəndaşların dövlət idarəçiliyində və işçilərin istehsalın idarəçiliyində iştirakı, sosial əməkdaşlıq sisteminin inkişafı.[47]

Sosial dövlətin ümumi prinsipləri aşağıdakılardır:

---

[45]Калашников С.В. Очерк теории социального государства. М.: Экономика, 2006. С. 67—68

[46]http://www.allbest.ru/

[47] Принципы социального государства и их обоснование. http://studopedia.org/3-177800.html

1.ictimai nemətlərin yaradılması və təkrar istehsalı; 2.özəl təsərrüfat fəaliyyətilə bağlı yaranmış mənfi nəticələrin ixtisarı; 3.pulsuz orta təhsil; 4.sahibkarlara maddi yardım edilməsi əsasında dövlət istehsalı, həmçinin dövlət və şəxsi firmalarla birgə istehsal; 5.dövrü biznesin təsirinin yumşaldılması üçün makroiqtisadi sabitlik; 6.dövlət təminatına əsaslanan təyinat sahəsində bazarın nəticələrinin aradan qaldırılması; 7.ipoteka kreditlərilə bağlı sənədlərin alınması; 8.müdafiə kompleksinin, yüksək texnologiya sahələrinin mahiyyəti, kosmosun mənimsənilməsi; 9.qiymət mexanizmlərinin nəzarəti və tənzimlənməsi; 10. pul dövriyyəsi və çapı. 11. sosial təminat.[48]

Sosial dövlətin prinsipləri onun funksiyalaşmasını əsaslandırır. Bu baxımdan, S.V.Kalaşnikov dövlətin sosial mahiyyətini öyrənərkən onun sosial funksiyalarını, cəmiyyətin sosial institutlarının fəallığının zəruriliyini vurğulayır.[49] Sosiologiya lüğətində "funksiya – sosial qrupların və siniflərin maraqlarının həyata keçirilməsilə bağlı sosial sistemin təşkilində elementlərin yerinə yetirdiyi rol, ...müxtəlif sosial proseslər arasındakı asılılıq, dəyişənlərin funksional asılılığı, ...standartlaşdırılmış sosial aktivliyin konkret normalarla nizamlanması və sosial təsisatlarla nəzarət olunmasını" ifadə edir.[50] Funksiya sosial sistemin fəaliyyətinin qorunub saxlanmasına istiqamətlənmiş sosial hadisənin nəticəsidir.[51]

Sosial dövlətin funksiyalarını təhlil etməzdən əvvəl klassik dövlətin funksiyalarını və bilavasitə sosial funksiyasını izah etmək zərurəti yaranır. Ümumilikdə dövlətin daxili və xarici funksiyaları fərqləndirilir. Bu zaman hüquqi nizamın, ictimai təhlükəsizliyin,

---

[48]Бессонова О.Э. "Сущность социального государствав контексте общей теорииинституциональных трансформаций"// Россия: путь к социальному государству: Материалы Всероссийской научной конференции (Москва 6 июнь, 2008г.)-М: Научный эксперт, 2008, с.249-263

[49] КалашниковС.В."Очерк теории социального государства". М.: Экономика, 2006. С. 67—68

[50] Краткий словарь по социологии. Под ред. Д.М.Гвишиани, Н.И.Лапина; сост. Э.М.Коржева, Н.Ф.Наумова. Политиздат, 1989, с.438

[51] Джери Дэвид, Джери Джуля. Большой Социологический Словарь, Том 2, П-Я, Вече-АСТ, Москва, 1999, с.416

mülkiyyət hüququnun, insanların hüquq və azadlıqlarının qorunması, həmçinin iqtisadi, mədəni, sosial, ekoloji funksiyalar daxili funksiyalara, sülhün və əmin-amanlığın qorunması, işgüzar tərəfdaşlığın təminatı,[52] dövlətin suverenliyinin xarici müdaxilələrdən müdafiə edilməsi, beynəlxalq iqtisadiyyata inteqrasiya, ölkənin müdafiəsi, dünya nizamının müdafiə olunması isə xarici funksiyalara aid edilir. Daxili funksiyalar ölkə daxilində, xarici funksiyalar isə dövlətin dövlətlər arası münasibətlərdə, beynəlxalq ünsiyyətdə təzahür etdirdiyi maraqların xüsusiyyətlərini əks etdirir (s.90).[53]

Dövlətin ümumi funksiyaları: 1.iqtisadi; 2. siyasi; 3. sosial; 4.ideoloji; 5. ekoloji funksiya kimi təsnif olunur.[54]

Ümumdünya Bankının Dünyanın inkişafı haqqındakı hesabatında dövlətin funksiyaları aşağıdakı kimli təqdim olunur. [55]

Cədvəl 1. Dövlətin funksiyaları.

| | | | | |
|---|---|---|---|---|
| | Bazara qarşıdurma | | | Sosial müdafiənin yüksəlməsi |
| | | | | |
| Minimal funksiya-lar | İctimai faydalılı-ğın təmin edilməsi | | | Kasıbların müdafiəsi |
| | Müdafiə | | | Kasıbların müdafiəsi proqramları |
| | Mülkiyyət hüquqları | | | |
| Makroiqtisadi idarəetmə | | | | |
| | Sosial səhiyyə | | | |
| | | | | |
| Aralıq funksiyalar | Xarici təsirlərə yönəlmə | İnhisarıntənzimlənməsi | Natamam informasiya ilə mübarizə | Sosial sığortanın təmin edilməsi |
| | Təhsil | Faydalılı-ğın tənzimlən | Sığorta | Pensiyaların müəyyənləş |

[52] ЛазаревВ.В.Основы права. Библиотека "Полка букиниста". http://society.polbu.ru/lazarev_pravo/ch25_i.html

[53]Морозова Л.А. Теория государства и права: Юристъ, 2002,с.90 (414 s.)

[54] Общая теория права и государства: Учебник / Под ред. В.В. Лазарева. — 3-е изд., пе рераб. и доп. — М.: Юристъ, 2001, с.24 (520с.)

[55]Ümumdünya bankı. Dünyanın inkişafı haqqında hesabat (World Development Report), 1997. Фукуяма, Ф. Сильное государство: Управление и мировой порядок в XXI веке. — М: АСТ: АСТ МОСКВА: ХРАНИТЕЛЬ, 2006.— 220, [4] с.—(Philosophy)., s.9-13

| | | | | |
|---|---|---|---|---|
| | | məsi | | diril<br>məsi |
| | Ətraf mühitin müdafiəsi | Anti-inhisar-çılıq | Maliyyə tənzimlən-məsi | Ailə müavinətləri |
| | | | İstehlakçı ların müdafiəsi | İşsizliyə görə müavinət |
| Fəal funksiya-lar | Özəl sektorun əlaqələn-dirilməsi | | | Bölgü |
| | Bazarın inkişafı | | | Fəaliyyət bölgüsü |
| | Qrup təşəbbüsləri | | | |

Dövlətçiliyin bu iki aspekti arasındakı fərq onun inkişaf imkanlarını təyin edir. F.Fukuyama bu cədvələ istinad edərək, dövlətin funksiyalarının təsir dairələri ilə bağlı Minimal funksiyaları (Mövcud ictimai faydanın təmin edilməsi, Müdafiə, qanun və nizam, Mülkiyyət hüquqları, Makro iqtisadi tənzimləmə, Sosial səhiyyə, Sosial müdafiənin yüksəlməsi), Aralıq funksiyaları (Xarici təzahürlərə müraciət, Təhsil, ətraf mühit, İnhisarların tənzim edilməsi, keyfiyyətsiz təhsillə mübarizə, Sığorta, maliyyə tənzimləməsi, Sosial sığorta), Fəal funksiyaları (Sənaye siyasəti, Sərmayənin bölüşdürülməsi) fərqləndirir. Müəllifə görə, müdafiə, qanun və nizam, mülkiyyət hüququ, kasıbların müdafiəsi, makro-iqtisadi tənzimləmə, sosial səhiyyə, təhsil, maliyyə tənzimlənməsi, yaşlılığa görə təqaüdün müəyyənləşdirilməsi, sosial mühitin müdafiəsi, fəaliyyətlərin bölüşdürülməsi, bazarın idarəsi və qrup təşəbbüsləri dövlətin qüdrətini müəyyənləşdirən funksiyalardır.[56]

Sosial funksiya dövlətin əsas funksiyalarındandır. Sosial dövlət – klassik dövlət strukturu əsasında formalaşan, lakin bilavasitə insan amilini, onun sosial rifahının, layiqli yaşayışının bərqərar edilməsini öz qayəsinə çevirən dövlətdir, sosial dövlətlə klassik dövlətin fərqi birincinin mahiyyətinin və bilavasitə daxili idarəçiliyinin insana, onun problemlərinin həllinə yönəlməsi, ikincidə bunların sadəcə dövlətin sosial funksiyası olmasıdır . Klassik dövlətin sosial funksiyasının əsas tərəflərindən biri dövlətin maddi dəstəyinə ehtiyacı olanların: işsizlər, əlillər, ahıllar, çoxuşaqlı ailələr, ye-

[56]Фукуяма, Ф. Сильное государство: Управление и мировой порядок в XXI веке. — М: АСТ: Хранитель, 2006.—220, [4] с.—(Philosophy)., s.9-13

timlər, natamam ailələrin uşaqlarının, həmçinin millətlər arası münaqişələrin nəticəsi kimi yaranan qaçqınlar və məcburi köçkünlər təbəqəsinin sosial müdafiəsi, ... sosial tələbatlarla bağlı zəruri yaşayış və əmək şəraitinin formalaşdırılması, ...hər bir kəsin fəaliyyət azadlığı hüququnun, əhalinin məşğulluğunun, işçi qüvvəsinin miqrasiyasının təmin edilməsi, iş şəraitinin təhlükəsizliyinə və gigiyenaya, sosial sığorta və təminata nəzarətlə əlaqəlidir. Beləliklə, əgər klassik dövlətin sosial funksiyası "sivil vasitələrlə sosial təzadların dəf edilməsi və yumuşaldılması, dövlət hesabına insanın layaqətli yaşayışının yaradılması"[57] ilə bağlıdırsa, sosial dövlət fərdi və ictimai rifahın yaradılmasında insanın iştirakını zəruri hesab edir.

Sosial dövlətin funksiyaları haqqında danışarkən nəzərə alınmalıdır ki: 1) sosial dövlətə bütün ənənəvi funksiyalar aiddir; 2) sosial dövlətin bütün funksiyalarının mahiyyəti onun ümumi sosial missiyası ilə bağlıdır; 3) ümumi sosial funksiyalar çərçivəsində sosial dövlətin xüsusi funksiyaları (insanların əməyinin və sağlamlığının müdafiəsi, ailənin, ana olmanın, ata olmanın, uşaq olmanın, həssas təbəqələrinin müdafiəsi, sosial bərabərsizliyin tənzimlənməsi, xeyriyyəçiliyin təbliği, elmi araşdırmaların və mədəni proqramların maliyyələşdirilməsi və dəstəklənməsi, işsizliklə mübarizə, məşğulluq üçün lazımi şərait yaratmaq, sosial yönlü bazar iqtisadiyyatının və dövlətlər arası münasibətlərin tənzimlənməsi, ekologiya, mədəniyyət və sosial sahələrə dair poqramlarda iştirak və ümumbəşəri problemlərin həlli, cəmiyyətdə sabitliyin qorunması) fərqləndirilir.[58]

D.P.Mayorovaya görə sosial dövlətin əsas funksiyaları – 1.sosial müdafiəsi olmayan əhalinin (işsizlər, pensionerlər, əlillər) dəstəklənməsi; 2.insanların əməyinin və səhhətinin mühafizə edilməsi; 3.ana olmağın, ata olmağın, uşağın dəstəklənməsi; 4.gəlirlərin bölüşdürülməsi zamanı sosial bərabərsizliyin tənzimlənməsi; 5.xeyriyyəçilik fəaliyyətinin təbliğ və təşviq edilməsi; 6.təhsilin və

---

[57]Морозова Л.А. Теория государства и права.М: Юристъ, 2002, s.90(414 s.)
[58]Чиркин В.Е.Индикаторы социального государства. М.:АНО "Юридические программы", 2009, s. 103-111

mədəni proqramların maliyyə dəstəyi; 7.işsizliklə mübarizə;[59] 8. səhiyyə və təhsilin əlçatan olması; 9.işlə təmin olunma; 10.sosial xidmətlərin təşkili.[60]

L.N.Koçetkova sosial dövlətə keçidlə bağlı yeni funksiyaları aşağıdakı kimi müəyyənləşdirir: 1.məhdudlaşdırıcı funksiyanın köməkliyi ilə inhisarçılığın qarşısı alınır, əmək münasibətləri tənzimlənir, iqtisadiyyatın nizamlanması reallaşdırılır, vəsaitlər sosial ehtiyaclara yönəldilir; 2. təminedici funksiya sosial sığorta, sosial təminat, təhsil almaq imkanlarını nəzərdə tutur; 3.zəmanətverici funksiya ilə dövlət insanlara ondan kömək almağa yönəlir.[61]

Sosial dövlətin təhsil, tərbiyə, elm, mədəniyyət, səhiyyə və mənzil təminatını nəzərə alan sosial siyasəti və funksiyalaşması bu sahələrlə bağlı dövlət dəstəyini ehtiva edir. Bu təsisatların təşkilatlanması işi müstəqil olur və heç bir müdaxiləyə məruz qalmır. Klassik dövlətin sosial funksiyaları çox zaman cəmiyyətin maddi imkanlarından, müəyyən iqtisadi əsaslarından asılı olaraq realizə olunur. Sosial dövlətin funksiyaları isə bilavasitə hökumətin köməyi sayəsində cəmiyyətin özü-özünü tənzimləməsinə istiqamətlənir.[62]

Bu funksiyalar sosial dövlətin davamlı olaraq təkmilləşən funksional sistemini yaradır. S.V.Kalaşnikovun fikrincə, sosial dövlətin prinsip və funksiyaları sosial məfhumun mahiyyətini və

---

[59]Майорова Д.П. К вопросу о социальном государстве – Российская Федерация. (С. 273-277) // Роль главы государства в истории России / под общ.ред. д.ю.н. Р.Х. Макуева, к.ю.н. Е.Н. Селютиной. – Орел: Изд-во Орловского филиала РАНХиГС.-2014.С. 84.

[60]Кулагина Е.А. Доминантные функции социального государства//Вестник Волгоградского государственного университета. Сер. 4, История. – 2011. № 2 (20). – С. 151-158.

[61]9 Кочеткова Л. Социальное государство: европейская теория и российская практика // Власть. – 2008. № 4.– С. 39-43.

[62] Волков Ю.Е. Сущность, основа и главные черты социального государства / Ю.Е. Волков // Теоретико-методологические основы социологического анализа общественных систем и процессов. – М. : Совет.спорт, 2001. – 360 с.

sosial dövlətin təbiətini, dövlətin sosial fəaliyyətinin xüsusiyyətlərini və mexanizmlərini müəyyənləşdirir.[63]

Dövlət mexanizmi haqqında danışmazdan əvvəl bu məfhumun mahiyyətinin izahı zəruridir. "Mexanizm" anlayışı texniki elmlərdən mənimsənilib. Mexanizm hərəkət imkanlarını, konkret təzahürlə bağlı vəziyyət və proseslərin səmərəli reallaşdırılması yollarını, yaxud sistemin, təsisatın formasının və ya prosesinin tənzimlənməsini nəzərdə tutulur. Mexanizm prosesin struktur ünsürü, sistemi hərəkətə gətirən, yaxud dəyişən aparat və ya nizamdır və bu mənada mexanizm "icraçı" rolunu yerinə yetirir, məqsədləri özü təyin etmir və idarəetmədə qarşılıqlı fəaliyyəti özü reallaşdırmır.[64] Sosial mexanizm isə sosial nizamın və sosial stabilliyin bərqərar edilməsi ilə bağlı fəaliyyət sistemidir. O. Kont "sosial mexanizm" anlayışını cəmiyyətin bütövlüyünü və həyat qabiliyyətililiyini interpretasiya etmək üçün işlədib. Sosial mexanizmlərin funksiyalaşması uyğun sosial institutlar, sosial status və aktorların mədəni xüsusiyyətləri ilə tənzimlənir. Sosial mexanizmlər ideyası iqtisadi, siyasi və d. proseslərlə bağlıdır. Sosial mexanizmlərin əsas xüsusiyyətləri ictimai prosesləri tənzimləmək, sosial əlaqələrin sistemliyini yaratmaq gücü və dayanıqlılığı ilə bağlıdır. Sosial mexanizmlərin xüsusiyyətləri müxtəlif cəmiyyətlərdə onların institusional strukturu, həmçinin funksional tələbatları ilə bağlı olmasıdır. Sosial proses nə qədər mürəkkəb olarsa, onu tənzimləyən mexanizmlər həmin səviyyədə çoxtərəfli və mürəkkəb olar.[65]

Dövlət mexanizmi sosiumun təşkilatlanması və dövlətin funksiyalaşmasının əsas istiqamətlərinin reallaşdırılmasını nəzərdə

---

[63] КалашниковС.В."Очерк теории социального государства".М.: Экономика, 2006, С. 67—68(362 с.)

[64] Курникова А.В.Сущность механизма управленияинновационным развитем региона. Вестник Челябинского государственного университета. 2012. № 3 (257).Управление. Вып. 7. С.9–13.

[65]Максимова С.Г., Старчикова М.В.Методологические подходы к изучению социальногомеханизма формирования адаптивных стратегийлиц старших возрастных групп в рамках становленияновой геронтологическойреальности//Философия, социология и культурология. Известия Алтайского государственного университета. 2009, с. 150-154

tutur. İdarəetmə mexanizmində ən azı dörd struktur bölməsi fərqləndirilir: 1. Qanunvericilik orqanları; 2.İcraedici orqanlar; 3.Ədliyyə orqanları; 4. Əlavə aparatlar (ordu, polis, həbsxanalar və s.).

"Dövlətin funksiyalaşması mexanizmləri"nə dövlətdaxili idarəetmə və özünüidarəetmə ilə bağlı olanlar aid edilir.[66]

Dövlət mexanizmi özündə xidməti şəxsləri, maddi-texniki obyektləri, dövlət funksiyalarını və məsələlərini reallaşdıran xidməti personalı, dövlət orqanlarını, təsisat və təşkilatlarını birləşdirir.[67]Dövlət hakimiyyəti mexanizmində mərkəzi yeri hakimiyyət orqanlarının məcmusu olan dövlət aparatı tutur. Dövlət hakimiyyəti idarəçiliyində dövlət orqanları həlledici rol oynayırlar. Məhz onlar dövlət hakimiyyətini həyata keçirirlər. Dövlət orqanları təşkilatların malik olmadığı vasitə və imkanlara – dövlət hakimiyyəti səlahiyyətlərinə sahib olur.[68]

Sosial sistemlərin, o cümlədən dövlətin mövcudluğu innovasion fəaliyyətdən asılıdır, əks təqdirdə dövlət idarəçiliyində durğunluq yaranar. Bu mənada "innovasion inkişaf mexanizmi regionun mövcud vəziyyətini nəzərə alan və dayanıqlı sosial- texnoloji inkişaf sayəsində bütün iqtisadi potensiala, xarici mühitin idarəetmə parametrlərinə, təsir göstərən vasitə və metodlar məcmusu kimi çıxış edir".[69]

Mexanizmlər dövlətə, o cümlədən sosial dövlətə xas idarəetmə metod və vasitələri toplusudur. Sosial dövlətin fərqli xüsusiyyəti burada idarəetmə mexanizmlərinin sosiallaşması ilə əlaqədardır. Dövlətin sosiallaşması – dövlət idarəetməsində onun üzvlərinin əksəriyyətini birləşdirən razılıq mexanizmlərinin tapılması, azad rəqabətdə ahəngdarlığın, sosiumda müvazinətin formalaşması, insan-

---

[66]Основные Принципы Социального Государства. http://www.socioguru.ru/sgurus-236-1.html

[67]Абдулаев М.И., Комаров С.А.Проблемы теории государства и права. Учебник. СПб.: Питер, 2003, С. 83-84. (576с.)

[68]Общая теория права и государства: Учебник / Под ред. В.В. Лазарева. — 3-е изд., пе рераб. и доп. — М.: Юристъ, 2001, с.24 (520с.)

[69] Курникова А. В.Сущность механизма управленияинновационным развитем региона. Вестник Челябинского государственного университета. 2012. № 3 (257).Управление. Вып. 7. С.9–13.

ların haqlarına və vətəndaşların məsuliyyətlərinə zəmanət verilməsidir.[70]

Sosial dövlətin mexanizmləri bilavasitə əhalinin sosial asılılıqdan azad edilməsinə, cəmiyyətdə siyasi proseslərdən asılı olmayan, dayanıqlı sosial infrastruktur, və sosial fəaliyyətin dövlət-hüquqi, təşkilati-idarəetmə, qanunverici əsaslarının yaradılmasına, bütün siyasi qüvvələrin razılığı əsasında köklü dəyişikliklərin tətbiq edilməsinə yönəlir.[71] Bu zaman sosial gərginliyi sabitləşdirmək üçün idarəetmə iyerarxiyası vasitəsilə müdafiə mexanizmləri yaradılır. Sosial gərginlik əsasən dövlət gəlirlərinin bölüşdürülməsi, müəyyən əhali təbəqəsinə imtiyazlar ayrılması və s. bağlı yarana bilir. Bu gərginliyin azalması üçün sosial dövlət optimal sosial siyasət tətbiq edir. Rasional sosial siyasət infrastrukturun yenidən qurulmasını, həmçinin həssas qrupların yaşayış minimumu, maarif, xəstəliklərin qarşısının alınması, işlə təminetmə, sosial yardım və digər məsələlərdə cəmiyyətin özü-özünə, o cümlədən dövlətin cəmiyyətə dəstəyini ehtiva edir. Sosial dövlətin daxili idarəetmə mexanizmləri bilavasitə aşağıdakı istiqamətlərdə funksiyalaşır: 1.Qanunverici-normativ mexanizm. 2.Maliyyə-büdcə mexanizmi. 3.Vergilərin toplanması mexanizmi. 4.Müxtəlif səviyyəli administrativ qərarların verilməsi mexanizmi.[72]

Sosial dövlətin prinsip və funksiyalarının, idarəetmə mexanizmlərinin araşdırılması göstərir ki, bu sosial-siyasi qurumun çoxtərəfli fəaliyyəti müəyyən tarazlığa gətirir. Sosial dövlət sosial bərabərlik, sosial zəmanət, yaşayış vəziyyətinin yüksəldilməsinə, vətəndaşların mənəvi, mədəni inkişafına yönəlir.[73] Sosial dövlət dinamik bazarın və yüksək səviyyəli sosial yardımın sintezi əsasında qurulur. ETT-nin müvəffəqiyyətlərinin intensiv istifadəsi və intiza-

---

[70]Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009,с.18-19(74 с.)

[71]Каменецкий В.А, Патрикеев В. П. Проблемы становления социального государства: Лекции по экон.,М.:АТиСО, 2001. С.123-129(360 с.)

[72]Механизмы социального государства. http://center-yf.ru/data/stat/mehanizmy-socialnogo-gosudarstva.php

[73]Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009,с.18-19(74 с.)

mın möhkəmləndirilməsi yeni "keyfiyyət yüksəlişi", yəni sosial strukturların tərəqqi etməsinə təkan verir. Keyfiyyət irəliləyişinin əsas meyarları əməyin məhsuldarlığının artması, xidmətlərin genişləndirilməsi, həyat vəziyyətinin yüksəlməsidir.[74]

Beləliklə, sosial dövlətin nəzəri əsaslarının araşdırılması aşağıdakı nəticələrə gəlməyə imkan verir:

I. Sosial dövlət ideyası XIX əsrdə formalaşıb və, XX əsrdə hüquqi əsaslarda təsdiqlənib, XX əsrin sonu – XXI əsrin əvvəllərindən etibarən reallaşmağa başlamışdır.

II. Müasir sosial dövlətlər insanların firavan yaşayışına zəmanət prinsiplərini ehtiva edən sosial siyasəti gerçəkləşdirir. Bu sosial siyasət sosial ədalətin, sosial əməkdaşlığın, sosial məsuliyyətin, sosial həmrəyliyin bərqərar olmasını və bu əsasda insanların sosial müdafiəsini, sosial təminatını nəzərdə tutur.

III. Sosial dövlətin inkişaf strategiyası fərdin və cəmiyyətin tarazlaşdırılmış tərəqqisinə yönəlir. Sosial dövlət hüquqi vətəndaş cəmiyyətini ehtiva edir və burada heç bir sosial qeyri-bərabərliyə və ayrıseçkiliyə yol verilmir, vətəndaşlar sosial, siyasi, iqtisadi, mənəvi və mədəni proseslərdə bərabər iştiraka cəlb edilirlər.

# FƏSIL 2. MÜASİR DÖVRÜN SOSİAL DÖVLƏT MODELLƏRİ: QABAQCIL ÖLKƏLƏRİN TƏCRÜBƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

## 2.1. Sosial dövlətin liberal modeli

Sosial dövlətin bərqərar olması uzun və mürəkkəb tarixə malikdir. Bu dövlətə dair ideyalar antik mütəfəkkirlərin bütün vətəndaşların firavanlığına zəmanət verilməsinə yönəlmiş ideal dövlətlə bağlı fikirlərinə söykənir. Sosial dövlətin formalaşması industrial və post-industrial cəmiyyətlərdə mövcud ictimai münasibətlərdə dövlətin sosial rolunun dərinləşməsi ilə bağlı olmuşdur.

---

[74]Основные Принципы Социального Государства.http://www.socioguru.ru/sgurus-236-1.html

Hazırda sosial dövlətləri təsnif edərkən aşağıdakı modelləri fərqləndirirlər:

-Sosial dövlətin liberal, yaxud neoliberal tipi.

-sosial dövlətin mühafizəkar-korporativ tipi.

- sosial dövlətin sosial-demokratik tipi.[75]

Bu təsnifatı təqdim edən C.Espinq-Andersen sosial dövlətin klassik tədqiqatçılarından biri kimi liberal modeli şərh edərkən vurğulayırdı ki, "liberal sosial dövlətlərə aid edilən ölkələrdə həssas təbəqələrə kömək, təvazökar universal transferlər, yaxud sosial sığorta məsələlərinə önəm verilir. Yardımlar əsasən aşağı gəlirli, büdcədən maliyyələşən işçi təbəqəyə yönəlir. Bu modeldə sosial islahatlar ənənəvi, liberal-əmək normaları tərəfindən məhdudlaşdırılır: marginallıq meyllərini məhdudlaşdıran sosial bərabərlik məsələlərinə dair qərarlar verilir. ...yardımlar orta səviyyəli olur. Dövlət bazarı dəstəkləyir, həmçinin rifahla bağlı özəl layihələrə passiv, lakin zəmanətli minimum subsidiyalar verir".[76]

Liberalizm ideologiyası fərdin əsas hüquqlarına təminat verir. Burada qeyri-bərabərlik problemi ləğv edilməsə də, dövlət tərəfindən insanların hüquqları qəbul və mühafizə olunur. Liberal bazar təsərrüfatı olan dövlətlərin sosial və mülkiyyət bərabərsizliyi problemləri olur. Dövlətin bu problemləri aşağıdakılarla bağlı olur:

1.Gəlirlərin və mülkiyyətin bölgüsü. Cəmiyyətin müəyyən üzvləri – uşaqlar, qocalar və başqaları öz tələbatlarını ödəyə bilmirlər və alıcılıq qabiliyyətləri olmadığı üçün iqtisadiyyata təsir göstərmirlər. İş qabiliyyəti olanların hüquqları məhdudlaşdırılmışdır. Gəlirlərlə bağlı fərqlər yeni fərqliliklərin yaranmasına (məsələn, təhsildə) gətirir.

2.İqtisadi hakimiyyətin bölüşdürülməsi. İqtisadi hakimiyyət iqtisadi həyat çərçivəsində iqtisadi vasitələrlə başqa insana təsir et-

---

[75]Охотский Е.В., Богучарсккая В.А. Социальное государство и социальная политика современной России: ориентация на результат// Труд и социальные отношения. - 2012. - № 5(95). - С. 30-44.

[76]Costa Esping-Andersen "The three worlds of welfare capitalism". Princeton University Press. Princeton New Yersey, 1993, p.26

mək bacarığıdır. Nəzarətsiz iqtisadi hakimiyyət böyüyərək siyasi hakimiyyətə çevrilə bilər.

3.Əlavə sosial xərclər problemi. Sosial qeyri-bərabərliyə və sosial durğunluqlara görə vergi ödəyiciləri cavabdehdirlər və onların əksəriyyəti buradan heç bir mənfəət əldə etmirlər.[77]

Liberal sosial dövlət tipi yeni ideyalara açıq olan, xeyriyyəçilik, tolerantlıq, fikirlər çoxluğu və mədəni fərqliliklərin hökm sürdüyü, sosial ziddiyyətlərin yumşaldıldığı, fərdin iradə azadlığının, qanunların aliliyinin inkişaf etdiyi doktrinalara əsaslanan cəmiyyət modelidir.[78]

Liberal sosial dövlət yaxşı inkişaf etmiş özəlləşmiş sosial sığorta sistemi ilə bərabər, dövlətin nisbətən aşağı səviyyəli sığorta sistemi təcrübəsinin və sosial dəstəyinin mövcudluğu ilə səciyyələnir. Bu dövlət tipi hər cür iqtisadi dəyişikliyə adaptasiya olunma bacarığına malikdir.[79]

Liberal sosial dövlət ideyası A.Smitin liberal siyasi-iqtisadiyyat, azad ticarət və islahatlar aparılmış liberalizm, C.S.Millin siyasi tənzimləmə haqqında baxışlarının təsiri altında formlaşmışdır. Adam Smitə görə öz sərvətini artırmağa çalışan insan, mütləq digər insanlara da xidmət göstərmiş olur, əmək münasibətlərinə girir, bu isə ictimai rifahın yüksəlməsinə, cəmiyyətin inkişafına gətirir. "Kamil ədalətin, azadlıq və bərabərliyin yaradılması bütün siniflərin firavanlığına nail olmağın ən sadə sirridir". A.Smitin bu konsepsiyasının əsasında liberalizmin iqtisadi azadlıq ideyası durur.[80] Liberalizmdə dövlətin hüquq institutu rasionalizm, azadlıq

[77]И.А. ЛамбаеваСоциальнаяработазарубежом.Учебноепособие.- Улан-Удэ: Изд-во ВСГТУ, 2000. (110 с.) С.20, 21

[78]Бакулина Л.Т. Социальное государство и принципы либерализма: проблемысоотношения / Л.Т. Бакулина // Учен. зап. Казан. ун-та.,Т. 150, кн. 5.,С. 7-16.

[79]Чулицкая Т. «Демонтаж государства всеобщего благосостояния». Палітычная сфера. №4, 2005, с.61-67

[80]Финансисты, которыеизменилимир. Адам Смит (1723–1790). Издательство Манн, Иванов и Фербер, 2013, с. 21(288с.)

və bərabərlik prinsipləri üzərində qurulur, bu prinsiplər parlamentarizm institutu tərəfindən realizə olunur.[81]

Liberalizm fərdi azadlıq deyərkən, azad özünüreallaşdırma, fərdi imkanların azad artımını düşünür. Liberalizmdə azadlıq – hamının azad olması deməkdir, liberalizm cəmiyyətin sosial məqsədlərinin reallaşdırılmasına kömək edir. Liberallar üçün insan dövlət xaricindədir. Liberalizmin demokratiya və vətəndaş cəmiyyəti haqqındakı ideyaları sosial dövlətin əsas şərtinə çevrilib və sosial dəstək, dövlətin sosial funksiyaları, sosial büdcəyə dair əsas prinsipləri sosial və liberal köklərə malikdir. Beləliklə, liberal ideya sosial dövlət ideyasının meydana gəlməsi və tərəqqisi mənbələrindəndir.[82]

Liberal etika cəmiyyətdə əxlaqi, mədəni və siyasi müxtəlifliyi, fikir, dəyərlər və maraqların plüralizmini qəbul edir. Klassik liberalizmin əsas dəyərlərindən biri tolerantlıqdır.[83] Siyasi sahədə liberalizm insan hüquqlarını, hakimiyyəti bölgüsünü, fəaliyyət növlərinin azad seçilməsini və maneəsiz yarış mühitinin mövcudluğunu ehtiva edir. İqtisadi sahədə isə liberalizm dövlət nəzarətinin ləğv edilməsini, şəxsi təşəbbüslərə və özəl təsərrüfata şərait yaradılmasını əsas götürür.[84] Liberallar əmindirlər ki, hamı minimum layiqli həyat şəraitinə malik olmalıdır. Liberalizmin görkəmli nümayəndələrindən olan R.Darendorfun fikrincə, sosial dövlətlə bağlı yaranan problemləri həll edərkən, daha az dövlət, daha çox mər-

---

[81]НазароваЮ. В.Либерализм как социально-политический феномен // Известия Тульского государственного университета. Гуманитарные науки.Выпуск 1, 2013, с.276

[82]Калашников С.В. Очерк теории социального государства. М.: Экономика, 2006. 362 с.

[83]ЧелищевВ.И.Либерализм — Неолиберализм — Рыночный Фундаментализм: от концепции свободы к тоталитарной догме. Вестн. Моск. Ун-та. Сер. 18. Социология и политология. 2015. № 4 с.46

[84]Наум Сирота. Идеологии в современном мире. Санлт-Петербург:DictusPublishing , 2013, С.31 (217с.)

kəzləşmə siyasəti aparılmalıdır, tənəzzül azadlıq idealına kölgə salmamalıdır.[85]

Yeni dövrün ilkin mərhələsində Avropada feodalizmə qarşı mübarizə forması kimi formalaşan liberalizm, dövrün sonlarına doğru əsaslı dəyişikliklərə məruz qaldı. Liberalizmin yeni forması kimi “neoliberalizm”, “sosial liberalizm”, yaxud “liberal-reformizm” formalaşmağa başlandı.[86]

Neoliberal dövlət vətəndaşların mülkiyyətlə bağlı fərdi hüquqlarını, qanunun hakimliyini, azad bazar institutlarını və azad ticarəti dəstəkləyən dövlətdir. Bu institutlar insanların haqlarının qorunması üçün vacibdir. Neoliberal nəzəriyyəyə görə yoxsulluğun azaldılması üçün müstəqil bazar və ticarət mexanizmlərindən istifadə edilməlidir. Bazar çərçivəsində şəxsi və fərdi azadlığa zəmanət verilir. Vətəndaşlar şəxsi fəaliyyətləri və rifah vəziyyətlərinə cavabdehdirlər. Bu prinsip təhsil, səhiyyə xidməti, hətta pensiya ödəmələrinə də şamil edilir. Fərdi nailiyyət, yaxud uğursuzluq sistemin çatışmazlıqları deyil, sahibkarlıq qabiliyyətinin nəticələridir.[87] Beləliklə, Neoliberal konsepsiyanın prinsipial təməllərini bu ünsürlər təşkil edir:

1.“Sərt” fərdilik. Neoliberallar əmindirlər ki, şəxsi həyata can atan insan özünə, öz qüvvə və bacarıqlarına güvənməlidir, o, dövlətin mərhəmətinə arxayın olmamalı, öz səhvlərinə və uğursuzluqlarına görə məsuliyyəti dövlətin üzərinə atmamalıdır.

2.Hakimiyyətin iqtisadi sahəyə mülayim müdaxiləsi. Neoliberallar dövlətin iqtisadiyyata müdaxiləsini qəbul etsələr də, bu müdaxilənin ağıllı şəkildə minimuma endirilməsi və hüquqa əsaslanması tərəfdarıdırlar. Qanuni deyil, məhz hüquqi əsaslarda müdaxilə mülayimdir və dövlət vətəndaşların tələbatlarının ödənilmə-

---

[85]Дарендорф Р. “От социального государства к цивилизованному сообществу” (Перевод И. И. Петрова)//, "Полис" ("Политические исследования"), № 5, 1993, с. 31-35.

[86] Наум Сирота. Идеологии в современном мире. Санлт-Петербург: Dictus Publishing , 2013, с.33 (217с.)

[87] Харви Дэвид - Краткая история неолиберализма. Актуальное прочтение/(Перевод с английского Н.С.Брагиной). М.: Поколение, 2007,с.90, (288с.)

sinə, onların müdafiəsinə, azadlıq və mülkiyyətlərinin qorunmasına çalışır.

3.Hüquqi demokratiya. Neoliberalların fikrincə, demokratiya deyil, məhz azadlıq vacib siyasi dəyərdir. Vətəndaşlar yalnız müəyyən hüquqlar çərçivəsində birgəyaşayışla bağlı qərarlar verə bilərlər. Demokratiya daha yüksək siyasi dəyər olan azadlığın əldə edilməsi vasitəsi olmalıdır.[88]

Beləliklə, liberal dövlət modeli sosial yardım institutu vasitəsilə cəmiyyətin nisbətən zəif hesab olunan təbəqələrinə yönələn dövlətdir. Liberal dövlət modeli Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya kimi ölkələrə xasdır.

Liberal dövlət modeli bazarı insanların qarşılıqlı əlaqələrinin təşkili üçün ən mühüm sahə hesab edir, mühafizəkar tipdən fərqlənir. Liberal dövlət tipində insanların sosial təminatı birinci dərəcəli problemdir. Bu dövlətdə hökumət məhdud xarakterli olub, bütün vətəndaşların sosial təminatına görə ən ümumi cavabdehliyə malikdir. Bu dövlətin maliyyə reallaşması könüllü, böyük həcmli, qeyri-formal yardımdan asılıdır.

Bu modelin güclü, müsbət tərəfi sosial siyasətin xarakterinin makroiqtisadi və siyasi üsullarla qiymətləndirilməsindədir. Liberal model sosiumun üzvlərinin öz taleyinə və öz ailəsinin taleyinə görə şəxsi cavabdehliyə malik olması prinsipindən çıxış edir. Bu modeldə dövlətin rolu zəifdir, sosial proqramlar ilk növbədə özəl sığorta və şəxsi maddi imkanlarla maliyyələşir. Dövlətin vəzifəsi vətəndaşların şəxsi gəlirlərinin artırılmasını stimullaşdırmasıdır. Bu model ABŞ-da, İngiltərədə və s. tətbiq edilir. Burada yeni tipli bazar iqtisadiyyatı xüsusi mülkiyyət, liberal əmək etikasının təsiri altında formalaşır. Modelin mövcudluğunun əsas şərti dövlətin bazar münasibətlərinə minimum qoşulması, dövlət tənzimlənməsinin məhdud tətbiq olunmasıdır.

Klassik sosial dövlət tipinə malik Böyük Britaniya Krallığı və Amerika Birləşmiş Ştatlarında əlillərə qarşı ayrı-seçkiliyi qadağan edən sənədlər təsdiqlənib, işə götürülərkən milli, dini mənsu-

---

[88] Чернов В.Ю. Неолиберализм. В книге: Что надо знать об основных идеологиях современности. Минск, изд. Тонпик, 2010, S.66-70

biyyətə görə ayrı-seçkilik qadağan olunub. Liberal dövlət modelinə malik ölkələrdə liberalizm ideyalarının və protestant ənənələrinin təsiri altında sosial islahatlar keçirilir. Hamı və hər kəs minimal layiqli həyat sürmək hüququna malikdir.

Liberal sosial dövlətin mənfi yanları aşağıdakılardır:

1.Bu dövlətdə cəmiyyət varlılara və yoxsullara bölünür. Varlılar bazarda yüksək keyfiyyətli xidmətlərə malik olduqları halda, yoxsullar dövlət sosial xidmətinin minimal səviyyəsi ilə kifayətlənməli olurlar.

2.Bu tip model sakinlərin böyük əksəriyyətini dövlətin sosial xidmətlərindən məhrum edir.

3.Liberal sosial dövlət modelində sosial müdafiə sosial mənəvi meyarlarla yanaşı iqtisadi göstəriciləri də nəzərə alır. Bu ölkələrdə ən varlı və ən yoxsul təbəqələr arasında ciddi fərq nəzərə çarpır. Liberal sosial dövlətdə iqtisadi və siyasi hakimiyyət bir əldə cəmləşir, hamının haqları qorunur. Bu dövlət sosial təminat, səhiyyə, təhsil, işsizlərə yardıma yönəlir. Yeni şəraitdə liberal dövlət quruluşu həssas təbəqələri nəzərə alır, gənclərə peşə təhsili imkanları üçün borc pul ayırır, dövlət və özəl, mərkəzi və regional sosial xidmətlər arasında yeni imkanlar açır.

### 2.1.1. Liberal sosial dövlətin Britaniya modeli

Böyük Britaniyada sosial dövlətin qurulmasının tarixi kökləri XIX yüzilliyə gedib çıxır. Həmin vaxtlar Böyük Britaniya sakinlərinin sosial yaşayış səviyyəsi zəif idi. 19-cu – 20-ci əsrlərin qovşağında İngiltərədə yoxsul əhalinin vəziyyətini araşdıran tədqiqatçı Ç.But “London əhalisinin həyatı və əməyi” adlı əsərində 4 milyonluq şəhərin 30,7% əhalisinin çox yoxsul insanlardan ibarət olduğunu göstərirdi. XX yüzilliyin əvvəllərində Avropa ölkələrinin hər birində sosial böhran müşahidə edilirdi. Yaranmış vəziyyət ictimai narazılıq doğururdu və zəhmətkeşlərin yoxsulluğu ziyalıların və siyasətçilərin sosial proqramlar hazırlanması fikri ilə çıxış etməsinə gətirdi. İlk dəfə 1834-cü ildə Böyük Britani-

yada yoxsulların müavinətlər almasına dair sənəd təsdiqləndi, pauperlər adlandırılan yoxsul insanlara pul yardımı edilməsi və yaşayış məskənlərində yerləşdirilməsi qərara alındı.[89]

1883 – 1911-ci illərdə Avropanın 10 ölkəsində, o cümlədən Böyük Britaniyada xəstə və qüsurlu insanların sığortalanmasına dair qanuni sənəd təsdiqləndi. XIX yüzilliyin sonuncu onilliyində sənaye ölkələrinin xarici görünüşü dəyişdirilməyə, gecəqondular sökülməyə, kasıb adamlara daimi evlərin verilməsinə, kommunal sistemin yaxşılaşdırılmasına, şəhərlərdə parklar salınmasına başlandı. 1908-ci ildə Londonda bu məqsədlə 7880 mənzil tikilmişdi.[90]

Bu dövr Böyük Britaniyanın sosial siyasətinin formalaşdırılmasında iqtisadçı U.Beveric əsaslı təsirə malik olmuşdur. Məhz onun iştirakı ilə 1911-ci ildə sosial sığorta qanunu təsdiq edildi. U.Bevericin "Hər kəs və həyatın bütün vəziyyətləri üçün sığorta" (1924) adlı əsərində dövlətin sosial yardımlarının və həssas sosial qruplardan olan insanların siyahısının genişləndirilməsi fikri irəli sürülürdü.

XX əsrin birinci yarısında İngiltərədə dövlətin sosial funksiyalarının hüquqi əsaslarda möhkəmləndirilməsi istiqamətində tədbirlər planı irəli sürülmüşdü. U.Bevericin 1944-cü ildə dərc edilmiş "Azad cəmiyyətdə tam məşğulluq" mövzusundakı hesabatında işsizliyə görə əsas məsuliyyətin dövlətin üzərində olması ideyası inkişaf etdirirdi. U.Bevericin ideyaları Böyük Britaniyada yaranmış sosial dövlətin təməl əsaslarını müəyyənləşdirdi.[91]

Dünya müharibələrinin doğurduğu iqtisadi çətinliklər mövcud sosial problemlərin dərinləşməsinə və müharibədən sonra Avropada sosial siyasətin yeni yönümdə müəyyənləşməsinə gətirib çıxardı. XX əsrin ikinci yarısından başlayaraq "Ümumi rifah dövləti" konsepsiyasi praktikaya tətbiq edilməyə başladı. Bu

---

[89]ЧикаловаИ.Р. "У истоков социальной политики государств Западной Европы" //Исследование социальной политики, 2006, том 4, №4, с.505
[90]Yenə orada, 506
[91]Алпатова Г. М.У истоков социального государства: У.Беверидж. // Вестник Пермского Университета. История 2009, Выпуск 1 (8), 92-97

siyasi qurum vətəndaşların tələblərinin təmin olunmasına yönəlmişdi.[92] XX yüzilliyin 60–70-ci illərində keysian ideyalarına əsaslanan dövlət sosial sahədə fəaliyyətini genişləndirməkdə davam etdi. 1978-ci ildə yaşlılığa görə təqaüdlərin sosial təminat fondlarından maliyyələşdirilməsi qərarı verildi, çünki dövlətin fəaliyyətində dəyişikliklər aparılması, sosial siyasətin səmərəliliyinin yüksəldilməsi zərurətə çevrilmişdi. [93]

XX yüzilliyin 70-ci illərində hakimiyyətə gələn Marqaret Tetçer elan etdi ki, "sahibkarların demokratiyası" məqsəd deyil, vahid güclü dövlətə doğru yoldur.[94] Sosial-iqtisadi sferada fövqəladi çətinliklərlə üzləşən Tetçer "yeni mühafizəkar inqilab" adlandırdığı güclü daxili siyasəti ilə problemləri həll edə bildi. O, "kommunal və yol təsərrüfatı, mədəni-maarifə çəkilən dövlət xərclərini azaltmağa başladı... Dövlət aparatının tərkibi, onun saxlanılması xərcləri azaldılmağa başlandı... bütün sahə nazirlikləri ləğv edildi. ... İqtisadiyyata kapital qoyuluşu 50%-dən 25%-ə endirildi. İqtisadi proseslərin liberallaşdırılması xətti yeridildi".[95]Tetçer sosial xidmətlər sistemində ciddi dəyişikliklər etdi, yaşayış evləri, səhiyyə və təhsilə dövlət maliyyələşdirilməsi ixtisar edildi. Onun sosial sahədəki islahatları əhalinin keyfiyyətli həyatını təmin etdi və sosial təsisatların səmərəliliyini yüksəltmək üçün stimul yaratdı.[96]

1992-ci ildə C.Meycor sosial manevr etmək bacarıqlarından istifadə edərək, bazar münasibətlərini bir qədər yumşaltmağa nail oldu. Onun sinifsiz cəmiyyət yaratmaq çağırışı Tetçer siyasə-

---

[92]ДинаО'Брайен "Краткий обзор эволюции социальной политики". Центр Экономического Анализа "Ракурс. "Обзоры литературы и статистики, № 6.2, 19 Ноября 2009г., с.1-2

[93]Хесин Е.С. Великобритания: от социаль-реформистской парадигмы к рыночной.Вкниге:«Социальное государство в странах ес: прошлое и настоящее». М.: ИМЭМО РАН, 2016, с.73(189с.)

[94]İsmayılov D., Liberalizm, Bakı, Xəzər Universiteti nəşriyyatı, 2013, s.156

[95]Mustafayeva S. ABŞ və İngiltərənin ən yeni tarixi: 1918 – 2007. Bakı, Adiloğlu, 2008, s.292-293

[96]Хесин Е.С. Великобритания: от социаль-реформистской парадигмы к рыночной.Вкниге:«Социальное государство в странах ес: прошлое и настоящее». М.: ИМЭМО РАН, 2016, с.73(189с.)

tindən tamamilə uzaqlaşmaq demək idi. Meycer sürətlə transformasiya edən sahələri dünya iqtisadiyyatının dəyişən vəziyyətinə uyğunlaşdırmaq üçün Tetçerin iqtisadi və sosial layihələrini modernizə etməyə başladı, özəlləşdirmə istiqamətində dəyişmələri genişləndirdi. XX yüzilliyin 80 – 90-cı illərində dövlət sektorunun özəlləşdirilməsindən 70 milyard funt sterlinq gəlir əldə edildi. Özəlləşdirmə nəticəsində qaz yanacağının, telefon rabitəsinin, elektro-enerjinin qiymətləri azaldıldı, elektro-energetik kompleksin səmərəliliyi yüksəldi. İstehsalatın özəlləşdirilmiş sferalarında rəqabət genişləndi.[97]

1997-ci ildə hakimiyyətdə möhkəmlənən Leyborist partiyasının ali məramı sakinlərin rifahının keyfiyyətini qaldırmaq, ölkə əhalisinin gəlirlərindəki bərabərsizliyin azaldılması, sosial xidmətlərin modernləşməsi oldu. London İqtisadi və siyasi elmlər institutunun 2013-cü ildəki tədqiqatlarına əsasən bu dövrdə sosial sahələrə büdcə ayırmaları 60%-i qədər artırıldı, ÜDM 47,4% təşkil etmiş oldu.[98]

Böyük Britaniyada liberalların hazırki sosial siyasəti baş nazir D.Kemeronun (2010-2016-cı illər) çıxışında ətraflı açıqlanmışdır: “Biz, rifah dövlətinin 50 ili əhatə edəcək ən radikal islahatlarını nəzərdə tuturuq”.[99]

Koalisiya hökumətinin sosial islahatlarının əsasında “böyük cəmiyyət” konsepsiyası dururdu. Bu konsepsiya cəmiyyətin parçalanmasına yol verməmək, sosial problemlərə cavab tapmaq üçün ictimai təşkilatların xeyrinə mərkəzi hökumətin müdaxiləsini azaltmağa cəhd edirdi. “Bunun üçün mərkəzi hakimiyyətin səlahiyyətlərinin yerlərdə hökumət müəssisələrinə, vətəndaşlara, icma və mülki institutlara verilməsi, ailə və digər sosial təsisatların möh-

---

[97]Жоров Е.А. Правительство Джона Мейджора и новый этап модернизации Британской Экономики (1990 – 1997 гг.). Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Челябинск, 2008, S.19

[98]ЕрёминаМ.Д. Кэмерон: Социальная Политика Коалиционного Правительства (2010–2013 гг.) Современная Европа, 2014, S.52

[99] Коалиционное правительство Великобритании – год после выборов. Под. ред. Громыков А.А., Ананьева Е.В., М;, МО-2011, с.77, (170с.)

kəmləndirilməsi zəruridir”.[100] Bu halda qərarların qəbulunda bütün vətəndaşlar iştirakçı olur, sosial qrupların nümayəndələri əvvəllər məmurların yerinə yetirdikləri xidmətlərin bəzilərini müstəqil peşəkar kollektivlərə inteqrasiya olunaraq reallaşdırırlar, dövlət köməkçi rol oynayır. D.Kemeron “böyük cəmiyyəti” belə səciyyələndirirdi: “həmin cəmiyyət hakimiyyəti siyasətçilərin əlindən alıb, xalqa təslim edir”.[101]

2011-ci ildə D.Kemeron sosial xidmətlərlə bağlı islahatlar keçirilməsini elan etdi. O, sosial sektorun idarəedilməsində dövlət inhisarçılığının azaldılmasını müdafiə edirdi. Bu təklifin əsas məğzi bir sıra səlahiyyətlərin məktəblərə, xəstəxanalara və sosial xidmət müəssisələrinə, könüllü cəmiyyətlərə və xeyriyyə təşkilatlarına ötürülməsi idi.[102]

2016-cı ildə mühafizəkarlar partiyasının rəhbəri Tereza Mey Böyük Britaniyada baş nazir oldu. O, D.Kemeronun “böyük cəmiyyət” konsepsiyasından uzaqlaşaraq, təbəqələr arasında bərabərliyə xüsusi diqqət yetiriləcəyini elan etdi. “Biz Böyük Britaniyanın, o cümlədən bütün vətəndaşlarımız arasındakı ittifaqa inanırıq. Bu ədalətsizliyə qarşı mübarizə deməkdir”. Fəhlə sinfinə müraciətində Tereza Mey elan etmişdi ki, hökumət öz fəaliyyətində “imtiyazlı siniflərin deyil, sizin maraqlarımızı” rəhbər tutacaq.[103]Tereza Mey üçün sosial siyasətin ən qeyri-müəyyən hissəsi, "demans vergisi" və ya ailələrinin büdcəsi 100.000 lirə qalana qə-

---

[100]Хесин Е.С. Великобритания: от социаль-реформистской парадигмы к рыночной.Вкниге:«Социальное государство в странах ес: прошлое и настоящее». М.: ИМЭМОРАН, 2016, с.73 (189 с.)

[101]Goverment launches Big society programme. 10 Downing street website/ 18 may 2010//government launches – big society – programme -2

[102]ЕрёминаМ.Д. Кэмерон: Социальная Политика Коалиционного Правительства (2010–2013 гг.) Современная Европа, 2014, S.56

[103]Тереза Мэй стала новым премьером Великобритании. https://www.rbc.ru/politics/13/07/2016/578671519a7947dd39e0e6b6

dər yaşlı insanlara qayğı göstərməyə məcbur edən tələblə bağlı idi.[104]

Hazırda Böyük Britaniyada pensiya təminatının üç səviyyəli strukturu mövcuddur. I –icbari pensiya iş pensiyası ilə müəyyənləşir. II – icbari pensiya sığortası dövlət və şəxsi pensiya sığortası cədvəlləri əsasında formalaşır və birinci səviyyəni tamamlayır.Pensiya cədvəllərinə gəlirlərlə bağlı əlavə pensiya, həmçinin şirkətlərin pensiya təminatı sığortası və özəl pensiya cədvəlləri daxildir. III səviyyə - özəl pensiya fondları çərçivəsində qeyri-məcburi pensiya sığortasını ehtiva edir.[105]

2016-cı ildə maksimal pensiya almaq üçün iş stajı 30 ildən 35 ilə qaldırıldı. Hazırda Böyük Britaniyada yaşlılığa görə müavinət alanların göstəricisi qadınlar üçün 60, kişilər üçün 65 yaşdır. Pensiya sistemində 2020-ci ildə aparılacaq dəyişmələrə uyğun olaraq, yaş göstəricisi hər iki cinsdən olan insanlar üçün 66 yaş, gələcəkdə isə 70 yaş nəzərdə tutulmuşdur.[106]

Liberal sosial dövlət maddi cəhətdən imkanlı vətəndaşların özləri-özlərini təmin etmələrinə əsaslanır. Belə yanaşma sayəsində sosial xərclər aşağı səviyyədə saxlanılır. Böyük Britaniyada ölkənin həssas sosial qruplarına sosial proqramlarla yardım edilir və onlara ÜMM-un 21,5%-i ayrılır. Böyük Britaniyada vətəndaşlığı olan bütün insanlara pulsuz səhiyyə xidməti göstərən və vergi daxil olmaları hesabına maliyyələşən sistem yaradılıb [107] və bu sistemin əsas prinsipi tibbi xidmətlərin bütün ölkə vətəndaşlara açıq ol-

---

[104]ГоттштейнЮ. Первый год премьерства Терезы Мэй: факты, цифры, итоги. http://www.kommersant.uk/articles/pervyy-god-premierstva-terezy-mey-fakty-tsifry-itogi

[105] Ершова О.И., Гольцов А.Ю. Социальная работа в Великобритании: история и современность / О.И. Ершова, А.Ю. Гольцев // Социальное образование: стратегии инновационного развития: сборник научных статей / РГСУ, фил.в г. Минске. – Минск: Бестпринт, 2012. – С. 150–163.

[106] Зудин А.Ю. Ассоциации – бизнес – государство. Москва: Высшая школа экономики, 2009, с.8 [66 с.]

[107] Социальное государство в странах ЕС: прошлое и настоящее / ответственный редактор Ю.Д.Квашнин, Москва: ИМЭМО РАН, 2016,

masıdır. Əhaliyə tibbi xidmətlər Milli səhiyyə xidməti və onun yerlərdəki alt-bölmələri tərəfindən göstərilir.[108]

Böyük Britaniyada elm və təhsilin tərəqqisi sosial siyasətin başlıca qayəsidir. Burada elm və tədqiqatlara 2014 – 2015-ci illərdə 4575,9 mln. £ (funt sterlinq), 2015 – 2016-cı illərdə - 2665,5 mln. £, 2016 – 2017-ci illərdə - 2804 mln. £ pul ayrılmışdır ki, buradan ali təhsilə ayrılan xərclər 2014 – 2015-ci illərdə 1686,3 mln. £, 2015 – 2016-cı illərdə - 1686,3 mln. £, 2016 – 2017-ci illərdə - 1695 mln. £ olmuşdur.[109]

Böyük Britaniyada məşğulluq siyasətinin iki forması fərqləndirilir: 1.İşləməyənlərə sığorta ödənişləri hesabına müavinət verilir. İşsizlərə 182 gün müddətində müavinət verilir, yalnız müavinətlə bağlı qoyulan tələblər yerinə yetirilərsə növbəti ildə onun ödənilməsinə icazə verilir. 2.Məşğulluqla bağlı müavinətlərin ikinci forması sosial sığorta ödəyə bilməyən və əsas həyatı tələbatları ödənilməyənlər üçün ayrılır. Müavinət təyin edilərək işsiz olan şəxsin ümumi gəlirləri hesablanır və əgər hüquqi əsaslarda müəyyən edilmiş yaşayış minimumundan az olarsa, müavinət təyin olunur.[110] Britaniyada milli sığorta sistemi işsizliklə yanaşı xəstəliklərə, analığa və qüsurlu şəxslər üçün müavinətlər verir. Qüsurlu şəxslərə təqaüd istehsal prosesində alınan xəsarətlər və peşə xəstəliklərinə uyğun müəyyən edilir. Milli sığorta sistemi tərəfindən is-

---

[108] Ершова О.И., Гольцов А.Ю. Социальная работа в Великобритании: история и современность / О.И. Ершова, А.Ю. Гольцев // Социальное образование: стратегии инновационного развития: сборник научных статей / РГСУ, фил.в г. Минске. – Минск: Бестпринт, 2012. – С. 150–163.

[109]Обзор состояния экономики и основных направлений внешнеэкономической деятельности Великобритании в 2016 году.Торговое Представительство Российской Федерации в Соединенном Королевстве Великобритании и Северной Ирландии, Лондон апрель, 2017 год, S.116

[110] Ершова О.И., Гольцов А.Ю. Социальная работа в Великобритании: история и современность / О.И. Ершова, А.Ю. Гольцев // Социальное образование: стратегии инновационного развития: сборник научных статей / РГСУ, фил.в г. Минске. – Минск: Бестпринт, 2012. – С. 150–163.

tehsalatda zədələnməyə görə ayrılan təqaüd sığorta sistemi tərəfindən verilir.[111]

İngiltərə vergi sisteminə görə də fərqlənir, 2016-cı ildə ölkədə işi olmayan insanlar 4,9% olmuşdur. Burada dövlətlə sahibkarlıq birliklərinin qarşılıqlı əlaqələrini formalaşdıran faktorlardan biri dövlət – özəl müəssisələr arasındakı əməkdaşlıqdır. Bu əməkdaşlığın əsasında "özəl maliyyə təşəbbüsü" dayanır. Dövlət mülki sektorun inkişafını dəstəkləyir. Mülki bölmə sosial təsisatlar, QHT-lər, xeyriyyə fondları, assosiasiyalar, akademik təhsil, peşə, sahibkarlıq dairələrindən ibarətdir. "Hazırda Böyük Britaniyada 275 min xeyriyyə və 900 min ictimai təşkilat mövcuddur. Böyük Britaniyada mülki bölmədə 2 milyon nəfər məşğuldur, ÜMM-ə 170 mln.£ fayda verə bilir".

Krallıqda əhalinin mənzil təminatı birinci dərəcəli sosial problemlərdəndir. Ölkə sakinlərinin ev almasına kömək etmək üçün dövlət güzəştli kredit sistemini tətbiq edir.[112] Sosial siyasətin analizi göstərdi ki, Böyük Britaniya liberal sosial dövlət tipinin bütün atributlarına malikdir. Burada bütün sosial stratlar və qruplar sosial idarəetmədə fəal iştirakçıdırlar onlardövlətin təyin etdiyi dərəcədə sosial tənzimləmə sistemindən yararlanırlar.

Böyük Britaniyada liberal sosial dövlət tipi kontinental Avropa dövlət modellərindən fərqli olaraq, ictimai proseslərin tənzimlənməsində daha az rol oynayır. A.Y.Zudin "Assosiasiyalar – dövlət - biznes" kitabında sübut etməyə çalışır ki, "liberal dövlət Böyük Britaniya və ABŞ-da öz təcəssümünü tapmışdır... Liberal dövlət milli bazarların yaradılmasında iştirakçıdır". Müəllif liberal sosial dövlətin müdaxiləçilik kursu ilə birləşməsinin müxtəlif nəticələr verdiyini bildirir. Müdaxilə formasına keçid liberal sosial

---

[111]Эдваврд Джеймс, МаркусСайлер, Пьер Мутон, Лев Якушев "Международный опыт в области социальной защиты", Проект ТАСИС Реформа системы социальной защиты в Российской Федерации, Москва, 1994, с.21

[112]Хесин Е.С. Великобритания: от социаль-реформистской парадигмы к рыночной.Вкниге:«Социальное государство в странах ес: прошлое и настоящее». М.: ИМЭМОРАН, 2016, с.73 (189 с.)

dövləti dəyişdirir, onun səlahiyyətlərini artırır, miqyasını genişləndirir, siyasi çəkisini yüksəldir, güclü hökumət, unitar və mərkəzləşmiş dövlət, klassik parlament rejimi yaradır.

A.Y.Zudin Böyük Britaniyada tarixi liberal sosial dövlətin monomərkəzi hökumət konsepsiyası deyil, polimərkəzi siyasi idarəetmə konsepsiyası əsasında formalaşdığını göstərir: "Klassik siyasi idarəetmə konsepsiyası hökumət və cəmiyyət münasibətlərində məhdud olmalı olan sahənin "sözsüz dərk olunmasına" əsaslanır".[113] E.S.Xesin isə Böyük Britaniyada liberal sosial dövlətin polimərkəzi idarəetmə kimi təsisatlanması ilə yanaşı, burada vətəndaş cəmiyyətinin plüralist modelinin təsdiqləndiyini də diqqətə çatdırır. Bu ölkədə "rifah dövlətinin" təzahür etməsi onun sosial funksiyalarını genişləndirir. Ölkənin sosial tərəqqisi dövlətin sosial dinamikasının məzmununu dəyişir, "iqtisadi cəhətdən daha yüksək sosial xərclər və aşağı əmək haqqından daha az sosial xərclərə və yüksək əmək haqqına transformasiya" labüddür. Britaniyada sosial siyasət iqtisadi şəraitdən, dövlətin büdcə imkanlarından asılıdır. "Sosial dövlətin Britaniya modeli daim islahatlar aparılan mürəkkəb, incə və hərəkətdə olan mexanizmə çevrilmişdir".[114]

C.A.Kovalenko İngiltərə və İrlandiyanın, həmçinin ABŞ, Kanada, Avstraliya kimi ölkələrin qəbul etdiyi anqlasakson və yaxud liberal sosial dövlətin özünəməxsusluğunu "dövlətin iqtisadiyyata müdaxiləsi səviyyəsi ilə" əlaqələndirir.[115] Böyük Britaniyada ÜMM–un istehsalında dövlətin payı az olur, dövlət mülkiyyəti sosial infrastrukturu əhatə edir.[116]

---

[113] Зудин А.Ю. Ассоциации – бизнес – государство. Москва: Высшая школа экономики, 2009, с.10[66 с.]

[114]Хесин Е.С. Великобритания: от социаль-реформистской парадигмы к рыночной.Вкниге:«Социальное государство в странах ес: прошлое и настоящее». М.: ИМЭМОРАН, 2016, с.73 (189 с.)

[115] Коваленко С.А. Социальная политика: основания и модели //Человек. Сообщество. Управление. 2007, №4, с.112 [108-120]

[116]Вернавский В.Г. Новая концепция государственно-частного партнерства Великобритании//Мировая экономика и международные отношения. № 8, 2014, с.67-75

Böyük Britaniyada liberal sosial dövlət son 400 il ərzində formalaşmaqdadır.Vətəndaş cəmiyyətinin altsistemləri dövlətin əhali ilə işində, dövlət qərarlarının qəbul olunmasında yaxından iştirak edir, sosial tələbatların təmin edilməsində əhəmiyyətli yerə malikdirlər. Eyni zamanda dövlət belə təsisatların fəaliyyətinə geniş şərait yaradır. Böyük Britaniyanın liberal sosial modeli dövlət daxildə sabitliyin, beynəlxalq aləmdə isə liberalizmin idarəetmə dəyərlərinə söykənən dünya nizamının yaradılmasına cəhd edir.

### 2.1.2 Liberal sosial dövlətin ABŞ modeli

ABŞ-da liberal sosial dövlətin təşəkkülündə liberal nəzəriyyəçilərin əsərləri və dövlət xadimlərinin siyasi fəaliyyəti, təsdiq edilmiş hüquqi sənədlər əsaslı təsirə malik olmuşdur. ABŞ-ın müstəqilliyi haqqındakı Bəyannamədə və İnsan haqları barəsindəki qanunda ümumi rifah dövlətinin yaradılması ideyasının əsası qoyulmuşdur.[117] Burada liberal ənənələrin əsası T.Cefferson tərəfindən qoyulmuşdur. T.Ceffersonun fikrincə, demosun suverenliyi və muxtariyyəti öz xoşbəxt yaşayışının təmin edilməsinə yönələn idarəetmə formasını seçmək hüququdur. T.Ceffersonun siyasi fəlsəfəsi iki əsas etik prinsipə əsaslanır:

1.Fərdin həyat məqsədi xoşbəxt olmaqdır;

2.Dövlətin məqsədi bu xoşbəxtliyi təmin etmək və artırmaqdır.

T.Cefferson belə düşünürdü ki, insanlar təsisatlardan daha mühümdür. Mütəfəkkirin düşündüyünə görə, “idarəetmənin məqsədi vətəndaşlarının maddi rifahlarını yaxşılaşdırmaq və onların mənəvi inkişafına nail olmaqdır”. Onun mülahizəsinə görə hökumət xalqa hesabat etməli, onun əksər seçicilərinin iradəsini nəzərə almalıdır. T.Ceffersonun siyasi konsepsiyasında azad cəmiyyətin əsas aksi-

[117]Тезадова Д. А.Социальная политика в современныхгосударствах:основное содержание,направления и модели. // ЧЕЛОВЕК. СООБЩЕСТВО. УПРАВЛЕНИЕ • 2015 • Том 16 • №3, с.92

omları "özünüidarəetmə, azadlıq, bərabərlik, ədalətlilik, xoşbəxtlik hüququdur".[118]

1820-1830-cu illərdə "Cekson demokratiyası dövründə" ABŞ-ın iqtisadi siyasəti azad rəqabət və limited government prinsiplərindən çıxış edirdi. Sosial sahədə hökumət orqanları siniflərin üstünlüyünə qarşı mübarizə apararaq, bərabər imkanlar elan etdilər.[119]

Birləşmiş Ştatların qurulduğu dövrlərdən Ağ ev yoxsulluq və sosial bərabərsizlik problemi ilə üzləşmişdir. XIX əsrin ilk illərindəki qanunvericiliyə əsasən şəhərlər və bələdiyyə mərkəzləri özləri kasıbların qayğısına qalmalı idilər. Yerli elita və rəsmi idarəçilik təsisatları qida məhsulları, odun, geyim, yaxud müəyyən miqdarda pulla kasıblara yardım edirdilər. 20-ci illərdə sənayeləşmənin sürətlənməsi və miqrantların axınının genişlənməsi ABŞ ştatlarında yoxsulluq problemini dərinləşdirdi və hökumət konkret tədbirlər görmək məcburiyyətində qaldı.[120]

Birinci olaraq, A.Linkoln aztəminatlı ailələrin sosial şəraitinin inkişafı, sakinlərə pulsuz əkin torpaqları verilməsi məsələlərini qaldırıldı. Bu dövrdə müavinətlərlə bağlı siyasi kurs aşağı sinif nümayəndələrinin yoxsulluqdan çıxmaq üçün təlimləndirilməsinə yönəldi. Bu yönlü ictimai və xeyriyyəçilik təşkilatları yoxsulları bir yerə cəm edərək, onlara rəhbərlik etməyə, əməyə yönəltməyə başladılar. Birləşmiş Ştatların liderləri kasıblara maddi yardım etməklə kifayətlənməyib, onları sosial tərbiyə etməyə, onlarda orta sinfə xas etika və mədəniyyət formalaşdırmağa çalışırdı. 1877-ci ildən Xeyriyyəçilik cəmiyyətləri "Bir xeyriyyəçi deyil, bir dostam" şüarı ilə fəaliyyət göstərməyə başladılar. Bu təşkilatlara daxil olan könüllü qadınlar yoxsullara təmizlik və qənaətcillik aşılayırdılar.

[118]Wise J.W. Thomas Jefferson. Then and now, 1743-1943: a national symposium. NewYork: Billofrightssequinsentimentalcommittee, 1943, p.62

[119]Тезадова Д. А.Социальная политика в современныхгосударствах:основное содержание,направления и модели. //ЧЕЛОВЕК. СООБЩЕСТВО. УПРАВЛЕНИЕ • 2015 • Том 16 • №3, с.92

[120]Пичков О. Проблема социального неравенства в США и Канаде / О.Б. Пичков// Международные процессы. — 2014. — № 4 (39). — С. 78-87

XIX yüzilliyin son illərində ABŞ-da klassik liberalizm yeni liberal ənənələrlə zənginləşdi. Həmin illərdə ölkədə sosial problemlər kəskinləşdi, işsizlik və yoxsulluq genişləndi.[121]

XX yüzillikdə Teador Ruzvelt sosial səlahiyyətlərin genişləndirilməsi və zavod yoxlamasının genişləndirilməsi; evdə çalışan işçilərin yaşayış şəraitinə nəzarət edən şuralar; qadınlarla azyaşlıların iş saatlarının tənzimlənməsi və təhlükəli müəssisələrdə onların əməklərinin mühafizəsi; işləyənlərə zərərsiz iş şəraiti yaratmaq; dövlət məktəblərində çalışan müəllimlərin maaşlarının artırılması; iş qanunlarını pozan işəgötürənlərin zavod müfəttişlərinin şikayəti əsasında cavabdehliyinin artması və s. ilə əlaqədar sosial sahədə geniş islahatlar apardı:

ABŞ-da məhz T.Ruzveltin hakimiyyəti illərində federal sosial qanunvericiliyin yaradılmasına cəhd göstərirdi.[122]

XX yüzilliyin birinci dekadasında Birləşmiş Ştatlarda sakinlərin sosial şəraitinin yaxşılaşdırılması siyasi rejimin əsas məramlarından biri olaraq qalırdı. 30-cu illərdə bu aspektdə "yeni kurs" fəaliyyətə başladı.[123]

30-cu illərdəki sosial-iqtisadi böhran hökuməti mövcud problemləri həll etməyə təhrik etdi. Ölkənin iqtisadi mexanizminin zəifləməsi, işsizlik, fermerlərin iflasa uğraması, milyonlarla sadə amerikalının yoxsulluqdan əzab çəkməsi, burjuaziyanın öz içərisində həyəcanlar tələb edirdi ki, bütün real imkanlar səfərbərliyə alınsın və böhranın nəticələri aradan qaldırılsın.[124]

---

[121]Тезадова Д. А.Социальная политика в современныхгосударствах:основное содержание,направления и модели. // ЧЕЛОВЕК. СООБЩЕСТВО.УПРАВЛЕНИЕ • 2015 • Том 16 • №3, с.92

[122]Гиевская С. В.Национальная политика США в условиях трансформации либеральной идеологии на рубеже XIX—XX вв.// ВЕСТНИК ВГУ, СЕРИЯ: ЛИНГВИСТИКА И МЕЖКУЛЬТУРНАЯ КОММУНИКАЦИЯ, 2008, № 1,С.114

[123]Тезадова Д. А.Социальная политика в современныхгосударствах:основное содержание,направления и модели. // ЧЕЛОВЕК. СООБЩЕСТВО. УПРАВЛЕНИЕ • 2015 • Том 16 • №3, с.92

[124]Mustafayeva S. ABŞ və Böyük Britaniyanın ən yeni tarixи (1918-2007) Bakı-2009, ADPU-nun nəşriyyatı. S.37 (350 S.)

Məsələnin federal hökumət səviyyəsində həllinə ehtiyac hiss olunurdu. 1932-ci ildə hökumət ştatlara bilavasitə əmək vəsaitləri ödəmək məqsədilə kreditlər və qrantlar verdi[125] və Franklin DelanoRuzveltin başçılığı ilə Konqress sosial təminat sahəsində proqramlar təsdiq etdi. Hökumət ictimai-faydalı işlər çərçivəsində ekoloji mühitin qorunması, yolların və ictimai binaların təmiri, kənd ərazilərinin elektrikləşdirilməsinə pul ayırdı.[126]

Növbəti 33-cü ildən ABŞ-da rifah dövləti yaradılmağa başlandı. Burada azad rəqabət prinsipinin reallaşdırılması istehsalın mərkəzləşməsinə və təmərküzləşməsinə gətirdi. Liberal sosial dövlət daha çox imtiyazlı təbəqələrin müdafiəsini təmin edirdi.[127] İki il sonra prezident Franklin Ruzvelt Konqresə sosial təminata dair qanun layihəsi təqdim etdi. Xüsusi olaraq yaradılmış İqtisadi Təhlükəsizlik Şurası layihəni əsaslandırdı və təsdiq edilməsinitövsiyə etdi. Beləliklə, 1935-ci ildə Social security adlı sosial sığorta proqramı təsdiq edildi.[128] Burada pensiya alanlara aylıq gəlir, işsiz və işləmək qabiliyyəti olmayan insanlarla bağlı sığorta, ictimai fondların köməyi ilə kasıblara yardım və uşaqlara müavinət məsələlərini əhatə edirdi.[129] 1935-ci ildən ölkədə "Sosial təminat haqqında qanun" tətbiq edilməyə başlandı.Qanun ümummilli miqyasda iki proqramı nəzərdə tuturdu: 1.Yaşlılara sosial yardım edilməsi; 2.İşsizlərin sosial təminatı. Qanunda qocalar və əlillərin yardım, uşaqların səhiyyə xidmətlərilə təminatına da yer verilmişdi.[130]

---

[125]СтепановБ. Пенсионное обеспечение в США. Персионные фонды и инвестиции. Зарубежный опыт. № 6(30) 2006, с.69

[126]Поуэлек Ричард. Система социального обеспечения в Америке. www.infousa.ru/society/socialsec.htm

[127]Amerika iqtisadiyyatının əsas cəhətləri. Bakı: Birləşmiş Ştatların Məlumat Agentliyi, 1991, s. 15 (212s.)

[128]СтепановБ. Пенсионное обеспечение в США. Персионные фонды и инвестиции. Зарубежный опыт. № 6(30) 2006, с.69

[129]Поуэлек Ричард. Система социального обеспечения в Америке. www.infousa.ru/society/socialsec.htm

[130]Степанов Б. Пенсионное обеспечение в США. Персионные фонды и инвестиции. Зарубежный опыт. № 6(30) 2006, с.69

Depressiyanın nəticəsi olaraq 2 milyondan artıq sakin qeyd edilən sistemdə çalışır və həftədə 30 dollar əmək haqqı alırdı. Bu tədbirlər istehsal böhranının nəticələrini bir qədər yumşaltdı və sosial gərginliyi azaltdı.[131]

XX yüzilliyin 40-cı illərində yeni sosial siyasət tətbiq edildi. Proqram "Ümumi rifah dövlətinin yaradılması kursu" adlandırıldı. "Ümumi rifah dövləti" bazar iqtisadiyyatının bərabərsizliyi ləğv etmədiyini elan edirdi. Burada sosial siyasətin başlıca qayəsi minimal sosial müdafiənin təşkili və gəlirlərin bərabər bölüşdürülməsi idi. Sürətlə inkişaf edən iqtisadiyyat sosial-iqtisadi durğunluqları kompensasiya edə bilirdi.[132]

XX yüzilliyin ikinci yarısında ABŞ-da sosial sığorta sistemi yaradıdı,[133] sosial müdafiənin möhkəmləndirilməsi, kasıb təbəqənin ixtisar edilməsi istiqamətində dəyişikliklər aparıldı. Xüsusilə də 1960-cı ildə yoxsulluq bir nömrəli milli problem elan edildi.[134] 8 yanvar 1964-cü ildə prezident Lindon Conson "yoxsulluğa qarşı davamlı müharibənin"başlandığını elan etdi və təhsil, səhiyyə, işçi bazarı və yoxsullar üçün iqtisadi resurslardan istifadə imkanlarını yaxşılaşdırmağa yönəlmiş təşəbbüslər təqdim etdi. "Yoxsulluqla müharibə" yarım əsrdə Birləşmiş Ştatlara təxminən 20 trilyon dollara başa gəldi. Müxtəlif hesablamalara görə, yoxsul vətəndaşa düşən xərclər il ərzində 9 min dollardan 17 min dollara qədər idi. Onlara kömək proqramına maddi və məhsulla yardım, subsidiyalı mənzillər verilməsi və xüsusi təlim kursları keçilməsi daxil idi.[135] Dövlət bu məsələ haqqında çoxsayda qanunlar qəbul etdi: 1964-cü

---

[131]Пичков О. Проблема социального неравенствавСШАи Канаде/ О.Б.Пичков// Международные процессы. 2014. № 4 (39). С. 78-87

[132]Ламбаева И.А.Социальная работа за рубежом.Учебное пособие.- Улан-Удэ: Изд-во ВСГТУ, 2000,С.62(110 с.)

[133]Степанов Б. Пенсионное обеспечение в США. Персионные фонды и инвестиции. Зарубежный опыт. № 6(30) 2006, с.69

[134]Доренко К.. Социальная политика в Сша, странах ЕС и России на современном этапе: приоритеты, принципы, правовое регулирование.// Право и управление. XXI век.№4 (25)/2012, с. 71-74

[135]Пичков О. Проблема социального неравенствавСШАи Канаде/ О.Б.Пичков// Международные процессы. 2014. № 4 (39). С. 78-87

ildə İqtisadi imkanlar haqqında qanun, Vətəndaş haqlarına dair qanun qüvvəyə mindi.[136]

Bu dövrdə qəbul edilmiş“Mediker” dövlət proqramı amerikan həyat tərzinin ayrılmaz hissəsinə çevrildi. Mediker yaşlı insanların tibbi xidmətlərini ödəməyi, həmçinin kasıblara pulsuz səhiyyə xidmətləri göstərilməsini dəstəkləyirdi. “İstehsal kuponları” proqramı isə həssas sosial qruplara istehsal köməyi edilməsinə yönəlmişdi.[137]

1972-ci ildə sosial sığorta sistemi haqqındakı qanuna düzəliş və əlavələrə son olaraq, burada həyat dəyəri ilə bağlı məsələlər var idi.. İstehlak qiyməti indeksi ilə əlaqədar qiymətlər artdıqca sosial təminat indeksləşdirildi. ABŞ-da pensiya kredit sistemi fəaliyyətə başladı, 65 yaşında təqaüdə çıxanlara pensiya ödənişləri artırıldı. İşçi yaş həddi tamamlandıqdan sonra da işləyə bilər, bu zaman onun pensiyası iki yolla artırılır. Hər bir əlavə iş ili sosial təminatın hesabına kredit əlavə edir ki, bu da pensiyanın miqdarını artırır. Yaşa görə pensiya həddi tamamlandıqdan sonra pensiyaya çıxılacaq yaşa, yaxud 70 yaşa qədər pensiya avtomatik olaraq müəyyən faizlə artırılır. Bu SEP-in (sadələşdirilmiş pensiya planı) əsas məramını nümayiş etdirirdi.[138]

1980-ci ildə prezident seçilən Ronald Reyqan Konqresə sosial təminatla bağlı proqramlar daxil etməyi, həmçinin vergiləri azaltmağı təklif etdi. Nəticədə infilyasiya azaldı və məşğulluq yüksəldi, əhalinin çox hissəsinin iqtisadi vəziyyəti yaxşılaşdı.[139]

C.H.U.Buşun hakimiyyəti dövründə sosial sahəyə diqqət genişləndi. Təhsil Nazirliyi tərəfindən 1991-ci ildən başlayaraq gənclərə hədəflənmiş – kasıb təbəqədən olan gənclərin orta, qüsur-

---

[136]ДоренкоК. Социальная политика в США, странах ЕС И России на современном этапе: приоритеты, принципы, правовое регулирование.// 72 Право и управление. XXI век.№4 (25)/2012, с. 71-74

[137]Поуэлек Ричард. Система социального обеспечения в Америке. www.infousa.ru/society/socialsec.htm

[138]Степанов Б. Пенсионное обеспечение в США. Персионные фонды и инвестиции. Зарубежный опыт. № 6(30) 2006, с.69

[139]Поуэлек Ричард. Система социального обеспечения в Америке. www.infousa.ru/society/socialsec.htm

lu uşaqların ibtidai və orta təhsil almasına yardım göstərmək, "çətin tərbiyə edilən" yeniyetmələrə kömək etmək, gənclərin peşə təhsilinə yönləndirilməsi ilə bağlı məqsədli-proqramlara, narkotiklərin istifadəsinə qarşı mübarizəyə, ən yaxşı məktəblərin və müəllimlərin maddi mükafatlandırılmasına, "qara dərililərə" məxsus məktəblərin maliyyələşdirilməsinə xüsusi diqqət ayrıldı. Aztəminatlı ailələrin şəxsi mənzilə yiyələnməsi üçün yardım proqramları təsdiq edildi. Kiçik yaşlı uşağı olan kasıb ailələrdə müavinət alanlara peşə hazırlığı kursları açıldı və onlar işlə təmin edildilər. 6 milyon nəfər "işi olan kasıb" ailə başçılarının maaşı 4,25 dollar yüksəldildi. Pensiya fondlarının fərdi pensiya hesabları vergilərdən azad olundu.[140]

B.Klinton hökuməti 1993-cü ildən Birləşmiş Ştatlarda sosial sahələrin təkmilləşməsinə yönələn sosial siyasət həyata keçirməyə başladılar. 1996-2000-ci illər ərzində ölkədə 20 milyondan çox insan işlə təmin edildi, dövlət büdcəsinin çatışmazlıqları aradan qaldırıldı, aksiya sahibləri 55%-ə çatdı, 1997-ci ildən ÜDM ildə 4% artmağa başladı, əhalinin 66%-i şəxsi evlərə sahib oldu, əhalinin 1/3 –i (80%) dövlət sığortası proqramları üzrə müavinət aldı. 1996-cı il tarixində "İşədüzəlmə ilə bağlı şəxsi məsuliyyət və imkanlar haqqında qanun" təsdiq edildi.[141] Növbəti ildən etibarən işlə təmin edənlərin əmək haqqını azaltmaqla sadələşdirilmiş pensiya planı hazırlanması ləğv edildi və SEP SIMPLE IRA – sadə fərdi pensiya hesabı yaradıldı.[142]

2000-ci ildən Birləşmiş Ştatların demokratik partiyasının büdcə planında sosial təminat sisteminin möhkəmləndirilməsi prioritet olaraq müəyyən edilmiş, bu istiqamətdə müəyyənləşdirilmiş xərclərlə bağlı siyasət dəyişdirilmişdir. ABŞ-ın büdcəsi tədri-

---

[140] Ламбаева И.А. Социальная работа за рубежом.Учебное пособие.- Улан-Удэ: Изд-во ВСГТУ, 2000. (110 с.) С.78-80

[141]ДоренкоК. Социальная политика в Сша, странах ЕС и России на современном этапе: приоритеты, принципы, правовое регулирование.// 72 Право и управление. XXI век.№4 (25)/2012, с. 71-74

[142]СтепановБ. Пенсионное обеспечение в США. Персионные фонды и инвестиции. Зарубежный опыт. № 6(30) 2006, с.69

cən sosial yönlü büdcəyə çevrilmişdir. Rəsmi amerikan büdcəsi "insan kapitalına yönələn məsrəflərə" (təhsil, zəhmətkeşlərin peşə hazırlanması, işlə təmin olunma və sosial xidmətlər, səhiyyə, gəlirlərə zəmanət, sosial təminat, veteranlara ödənişlər və xidmətlər) və "mülki vətəndaşların transfer ödəmələrə" (fiziki şəxslərin, yaxud ailələrin pul və digər formalarda dəstəklənməsi məqsədilə büdcədən ayrılmalar) bölünürdü. Sosial əmniyyət ailələrə və hər bir ABŞ vətəndaşının həyatına təsir edir. Sosial sığorta proqramları yaşlı amerikalılara, iş bacarıqlarından məhrum olan zəhmətkeşlərə, həmçinin valideynlərin və ya həyat yoldaşının ölümündən sonra ailələrə köməyə yönəlir. Sosial sığorta sistemi yaradılan zaman sosial təminatın təqaüdçülər üçün yeganə gəlir mənbəyiolması güman edilmirdi. Sosial Müdafiənin (Social Security) təqdim etdiyi pensiya orta əmək haqqının 40%-nə bərabər götürülür. Əksər maliyyə məsləhətçilərinə görə, təmin edilmiş həyat üçün təqaüdçülərə maaşın 70% -nin ayrılması lazımdır. Sosial təminat sisteminin prinsipi belədir: işlədiyiniz zaman siz sosial təhlükəsizlik sisteminə vergi ödəyirsiniz. Bu pullar təqaüdçülərə, qüsurlu insanlara, ailə başçısını itirənlərə, yoxsullara müavinətlər verilməsinə yönəlir. 1943-1960 illər arasında doğulmuş olanların təqaüd yaşı tədricən 67 ilədək artmışdır. 1948-ci ildən qabaq anadan olan şəxslər tam şəkildə Sosial Müdafiə pensiyası ala bilərlər.[143]

İşçi 62 yaşında əmək pensiyası ala bilər, amma bu halda pensiya daim azalacaq. Məsələn, bir işçi 62 yaşında təqaüdə çıxırsa, onun pensiyası tam təqaüd yaşında ala biləcəyi pensiya haqqı ilə müqayisədə 20% azalır.1938-ci ilədək doğulmuş insanlar pensiyaya 65 yaşdan çıxırlar. Orta ömür müddətinin uzanması pensiya yaşının 67 ilədək artırılmasına səbəb olmuşdur.Bu dəyişikliklər 1938 və sonrakı illərdə anadan olanlara aid edilir. Əgər işçi yaşlılığa görə pensiya alırsa, onun ailəsinin bəzi üzvləri də sosial təminatdan faydalana bilərlər. Bu ailə üzvləri: - 62 və yuxarı yaşdakı həyat yoldaşları; yeniyetmə və ya əlil uşaqlar, 62 yaşına çatmamış kişilər; yeniyetmələrə baxan, yaxud əlilə qulluq edən 62-dən az ya-

[143]Что необходимо знать о льготах социального обеспечения. с.4-9. https://www.ssa.gov/pubs/RU-05-10024.pdf

şı olan həyat yoldaşları; 18 – 19 yaşlarında ali təhsilini bitirməyən gənclər; həmçinin qüsurlu gənclər ola bilərlər.[144]

Birləşmiş Ştatlarda təhsilin tərəqqisi sosial siyasətin başlıca tərəflərindəndir. ABŞ-da ibtidai, orta, ali təhsil məktəbləri mövcuddur. Hazırda ABŞ-ın bütün ştatlarında dövlət məktəbləri şəbəkəsi mövcuddur. Hər bir mikrorayonda, qəsəbədə, kənddə məktəblər vardır. Amerika vətəndaşlığı olmayan insanların uşaqları dövlət məktəblərində təhsil alırlar. Məktəblərdə təhsil 12 illikdir və uşaqlar 17-18 yaşa qədər təhsil alırlar. Bütün ştatlarda və şəhərlərdə özəl universitetlər vardır. , ödənişli təhsil almaq mümkündür. Aztəminatlı ailələrin gəncləri subsidiyalardan istifadə etməklə təhsil ala bilərlər, lakin təhsili bitirdikdən və işə başladıqdan sonra məzunlar subsidiyaları dövlətə qaytarılmalıdırlar. Dövlət gənclərə və aztəminatlı ailələrin digər üzvlərinə, milli azlıqlara peşəyə yiyələnməyə yardım göstərir. Onlara xüsusi proqramlar əsasında texnika, incəsənət və başqa sahələr üzrə pulsuz orta təhsil almaq şəraiti yaradılır. Ştatlarda və şəhərdə pulsuz kitabxanalar fəaliyyət göstərir.[145]

ABŞ liberal sosial dövlət olaraq, təhsilin tərəqqisinə önəm verir. ABŞ hökumətinin tərkibində təhsil departamenti fəaliyyət göstərir. Departament 150-dən yuxarı təhsilə yardım proqramını təsis edir. Buraya tələbələrə borc təqaüd yardımı, köçkün işçilər, peşə ixtisası proqramlar da daxildir. Təhsil Departamenti korlar üçün Amerika şəbəkəsinə, korlara ali təhsil vermək üçün təsis edilmiş Qalladuet Universitetinə və s. yardım edir.[146]

XXI yüzilliyin ilk dekadasında Birləşmiş Ştatların əsas milli məqsədi ali təhsili orta təhsil kimi əlçatan etmək olmuşdur. 2010-cu ildə ali təhsil alanlar 77% təşkil edirdilər. Ölkədə elmi

---

[144]СтепановБ. Пенсионное обеспечение в США.//Пенсионныефондыиинвестиции. Зарубежныйопыт//№ 6(30) 2006, с.69, 70

[145]ПоуэлекРичард Система социального обеспечения в Америке. www.infousa.ru/society/socialsec.htm

[146]Amerika Hökumətinin əsas cəhətləri: Birləşmiş Ştatların Məlumat Agentliyi, 1989, s.63 (126 s.)

araşdırmalara önəm verilir. 1996-cı ildə ölkədə elmi araşdırmalara və nəticələrinin tətbiqinə 184,7 mlrd. $ xərcləmişdir ki, bu Yaponiyanın, Almaniyanın, Fransanın, Böyük Britaniyanın, İtaliyanın və Rusiyanın həmin ildə bu məqsəd üçün birlikdə xərclədikləri vəsaitə təxminən bərabərdir. Birləşmiş Ştatlarda elmi araşdırmalara xərclərin ortalama məbləği adambaşına ildə 680 dollara çatır. İqtisadiyyatın hərəkətverici qüvvəsi təkcə ölkənin texniki, texnoloji, iqtisadi gücü ilə formalaşmır.[147]

Elmi tədqiqat proqramları və aspirantura proqramlarına görə universitetlər kolleclərdən fərqlənir. Burada universitetlərin iki tipi vardır: özəl universitetlər və ştat hökumətlərinin maliyyələşdirdiyi ştat universitetləri. Özəl universitetlər olan Harvard, Yel, Prinston, Stenford, Koltex universitetləri ən məşhurları hesab olunur.[148]

ABŞ-da səhiyyə xərclərinə ÜMM-un 16%-i ayrılır. 2009-cu ildə səhiyyəyə 2,5 trilyon $, yaxud adambaşına 8047$ qoyulmuşdur. Həmin il ÜDM-un 19% -i səhiyyəyə ayrılmış, səhiyyə xidmətlərilə bağlı məqsədli-proqramlar təsdiqlənmişdir. Burada əsasən uşaqlar, o cümlədən 55-61 yaş arası işsiz vətəndaşlar və 62-65 yaşlı tibbi sığortası olmayan amerikalılar nəzərdə tutulurdu. ÜDM-dan tibbi sığorta üçün ayrılan xərclərin 2050-ci ilədək əsaslı şəkildə artacağı proqnozlaşdırılmışdır.[149] Psixi qüsurlu insanlara xidmət ABŞ-da xüsusi stasionar və dispanser xəstəxanalarında həyata keçirilir.[150]

ABŞ dövləti sahibkarlığa yardım edir, sahibkarlara kredit ayırır və sahibkarlığa yardım etməklə digər insanlara da kömək et-

[147] Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri . (Monoqrafiya).Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2003, s.194-203 (455 səh.)

[148]Фукуяма Ф. Сильное государство: управление и мировой порядок в XXI веке. Москва: АСТ, Хранитель, 2006, с.6-8, (220с.)

[149]ДоренкоК. Социальная политика в Сша, странах ЕС и России на современном этапе: приоритеты, принципы, правовое регулирование // Право и управление. XXI век.№4 (25)/2012, с. 71-74

[150]Amerika Hökumətinin əsas cəhətləri: Birləşmiş Ştatların Məlumat Agentliyi, 1989, s.63 (126 s.)

miş olur. Amerikalıların 85%-i "orta sinfə" aiddirlər. Orta sinif fabrikdə işləyən, mağaza idarə edən, ixtisaslaşmış peşə sahibləri olanları, o cümlədən müəllimləri, yaxud tibb işçilərini özündə birləşdirir. Fermerlər, polislər, satıcılar da bu təbəqəyə aid edilirlər. Adətən bu insanlar yaxşı yaşayırlar, şəxsi maşınları olur, hər il məzuniyyət götürürlər və bu məzuniyyəti, uşaqlarının universitetdə təhsilini ödəyə bilirlər.[151]

ABŞ-da "Hökumət azgəlirli və kiçik yaşlı uşaqları olan ailələrə təmənnasız pul verməklə, qocalara və möhtaclara tibbi yardım xidməti göstərməklə, işsizlərə və təqaüd alanlara ictimai təminat proqramları yolu ilə köməklik göstərir. Hökumət eyni zamanda kasıblar və işləmək bacarıqlarını itirənlər üçün təqaüd ayırır".[152]

ABŞ-da yoxsulların müdafiəsi məqsədilə Social security proqramları reallaşdırılır. Bu proqram işləyən amerikalıların əmək haqlarından tutulan 7% vergi hesabına maliyyələşdirilir. Bu vəsaitlər aşağıdakı kimi xərclənir: 62 yaşlı təqaüdçülər işi tərk edərək, sosial sığortadan maliyyələşən aylıq pensiya ala bilərlər; işləmək bacarıqları olmayanlar sosial müavinət hüququna malik olurlar; dul qadınlara və pensiya yaşına çatmadan vəfat edən fəhlələrin uşaqlarına müavinət verilir.

Federal dövlət və ştatlar həssas təbəqələrə köməklik göstərirlər. Ştatların başçıları obyektiv səbəblərdən işini itirən insanlara maddi yardım göstərir. İşsizlər altı ay müddətində hökumətdən müavinət alırlar. Müharibə veteranlarına xüsusi xəstəxanalarda ödənişsiz səhiyyə xidmətləri göstərilir, təqaüd verilir.[153]

ABŞ-da həssas təbəqələrə könüllü sosial yardım edən təşkilatlar da mövcuddur. Bunlardan Amerika Qırmızı Xaç Təşkilatını xüsusi qeyd etmək olar. Digər könüllü təşkilatlar sırasında - Peşəkar assosiasiyalar və ictimai klublar; Kilsələr, sinaqoqlar, məscid-

---

[151]ПоуэлекРичард. Система социального обеспечения в Америке. www.infousa.ru/society/socialsec.htm

[152]Amerika iqtisadiyyatının əsas cəhətləri. Bakı: Birləşmiş Ştatların Məlumat Agentliyi, 1991, s. 19 (212s.)

[153]ПоуэлекРичард. Система социального обеспечения в Америке. www.infousa.ru/society/socialsec.htm

lər və başqa təsisatlar; Xeyriyyə təşkilatları, fondlar, dini federasiyalar göstərilə bilər. Bu könüllü təşkilatlar sosial xidmət, insan haqları və fəaliyyəti uğrunda mübarizə, könüllü cəmiyyətlərin rəhbərlik fəaliyyəti, özünəyardım, xeyriyyəçilik üçün ianə və vəsait toplamaq istiqamətində fəaliyyət göstərirlər.

Beləliklə, F.Fukuyamanın fikrincə, Birləşmiş Ştatların liberal sosial dövlət modeli vətəndaşların iqtisadi müstəqilliyi, fərdi azadlığı, məşğulluğu, təhsil alması, şərəf və ləyaqəti, tibbi xidmətləri, işsizlərin və qocaların müdafiəsi və s. yöndə tədbirlər planı həyata keçirir. ABŞ öz unikal islahatları ilə seçilən sosial dövlətdir.

ABŞ-ın sosial dövlət quruculuğunun təhlili əsasında belə deyə bilərik, liberal sosial dövlət insanları mövcudluq uğrunda mübarizəyə yönəldir. ABŞ-ın liberal cəmiyyətində sosial tərəfdaşlıq varlılarla kasıblar arasında kəskin fərqlərin yaranmasına imkan vermir. Liberal sosial dövlət ABŞ-da elitanın yüksəlişi üçün şəffaf mühit formalaşdırır, gənclərin nailiyyətlər əldə edilməsinə, səmərəli sahibkarlıq fəaliyyətinə, iş fəallığının artırılmasına, layiqli yaşayış imkanlarının yaradılmasına səy edir.

## 2.2. Sosial dövlətin korporativ-konservativ modeli

"Konservatizm" anlayışı latın dilində "conserno", fransızca "concervare" sözündən olub, "qorumaq", "mühafizə etmək" mənasında işlənir. Konservatizmə müxtəlif təriflər verilsə də, onun vahid açıqlaması yoxdur. A.A.Frenkin konservatizmi "əxlaq normalarının, iman, nüfuz, müstəqillik və əmlak, insanların təbii bərabərsizliyi, skeptisizm prinsiplərinin kompleksi" kimi interpretasiya edir.[154] Bəziləri konservatizmi yeniliyin, dəyişikliklərin əleyhinə olan fenomen kimi təqdim edir. Lakin əksər tədqiqatçılar bu fikri qəbul etmirlər. S.Perequdov yazır ki, "konservatizm inqilabların

[154]Френкин А.А. Западно-германские консерваторы: кто они? Москва: Наука, 1990, с.13

əleyhinə olsa da, heç də əvvəlki qaydaları bərpa etməyə yönəlməmişdir".[155]

Konservativizmin aristokratik və avtonom tiplərini fərqləndirirlər. ABŞ tədqiqatçısı K.Rossiter "konservatizmi mövcud cəmiyyətin qoruyucusu adlandırır və liberalizmlə qarşılıqlı əlaqə şəraitində bərqərar olduğunu bildirir".[156]Azərbaycanlı tədqiqatçı D.İsmayılov konservatizmin ənənələr, sosial institutlar və dəyərlərlə birlikdə keçmişi, indini və gələcəyi birləşdirdiyini, onlar arasında əlaqə yaratdığını qeyd edir.[157] Müəllif konservatizmin dəyişikliklərlə ehtiva olunduğunu bildirir və Qərb ölkələrində onun əhəmiyyətini də bununla əlaqələndirir, sosial sistemin sabitliyinin qorunub saxlanmasında da konservatizmin əvəzsiz rol oynadığını diqqətə çatdırır.

Konservativ dövlət sosiumda nizam-intizamı və dayanıqlığı qorumağa yönəlir. Konservativ və ya korporativ dövlət Bismark Almaniyasında yaranmışdır. Bu dövlət tipini o zaman "monarx sosial dövlət" termini (Espinq Anderson) ilə də səciyyələndirirdilər. Sabitlik, qayda-qanun konservativ dövlətin əsas dəyərlərindəndir. F.List, A.Vaqner, Q.Şmoller kimi görkəmli alimlər konservativ sosial dövlət nəzəriyyəsinin yaradıcıları hesab edilirlər. Bu tədqiqatçılar aşağıdakı ideyaları irəli sürürlər:

-Milli olmaq, klassik siyasi-iqtisadi ideyaları beynəlmiləlçiliyə qarşı qoyulur (A.Smit);

-Dövlət mütləq iqtisadi münasibətlərə nüfuz etməlidir.

Konservativ, yaxud kommunitarist model ictimai dəyərlərə, sərbəst sahibkarlığa əsaslanır. Sosiologiyada post-kommunist korporativizm variantları da mövcuddur. "Dünyada çox sayda avtoritar rejimlər əhaliyə iqtisadi, təhsil, mənzil siyasəti sahələrində yar-

---

[155] Перегудов С. Современный консерватизм: сущность и общественно-политическая роль // Коммунист, 1991, №8, с.87

[156]Росситер К. Консерватизм. // США: консервативная волна. Москва: МО, 1984, с.38

[157]İsmayılov D. Azərbaycanın transformasiyalar prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005, s. 114 (344s.)

dımlar göstərir. "Sosial dövlət" termini əsasən kapitalist ölkələri üçün formulə edilmişdir. Qloballaşma bu termin qeyr-qərb dünyasında da yaymış, kapitalizmə keçmiş, hətta sosial siyasət yürüdən qeyri-kapitalist ölkələrin atributuna çevrilmişdir".[158]

Konservativ sosial dövlətdə qayda-qanunun mühafizəsi tarixi inkişafın nəticəsidir. Sosial nizam-intizamın qorunub saxlanması dövlətin başlıca funksiyalarındandır.[159] Deməli, konservativ sosial dövlət təkmilləşdikcə, cəmiyyətdə mükəmməllik yaradır. Sosial dövlətin kontinental (konservativ və ya korporativist) modelinə Almaniyanı, Fransanı, Belçikanı, Lüksenburqu, Hollandiyanı aid edirlər. Konservativ sosial dövlətin əsas xüsusiyyətləri sosial xərclərin dövlətdən ayrılıqda mövcud olan sığorta kassalarının üzvlük haqqı hesabına maliyyələşdirilməsidir. Bura sosial müdafiənin səviyyəsinin xalq kütlələrinin peşəkar fəaliyyətindən yüksək asılılığı xarakterikdir. Beləliklə, konservativ sosial dövlətdə rifaha nail olma işlə və əmək stajı ərzində əldə olunan gəlirlə şərtlənir. Konservativ sosial dövlətdə işlə təmin edənlərlə işçilərin maraqları arasında tarazlıq yaratmaq, vergilər sayəsində əhalinin sığorta olunmayan hissəsinə yardım etmək, təhsili maliyyələşdirmək əsas funksiyalardandır. Konservativ sosial dövlətin ailə siyasətinin əsas prinsipləri aşağıdakılardır:

-az miqdarda da olsa aztəminatlı ailələrə pul ayrılır;

- ehtiyacı olan ailələrə (xüsusilə də Fransada, Almaniya və Hollandiyada) vergilərlə bağlı güzəştlər edilir.[160]

Avropada kontinental rejimli sosial dövlətin formalaşması prosesi fərqlidir. Nəticədə konservativ sosial dövlət modeli tədricən aşılanmağa məruz qalır. Bəzən islahatlar zamanı sosial siyasətə təsir edən ünsürlər zəifləyir, bəzən isə əksinə genişlənir.

---

[158] Федотова В.Г. Капитализм, глобализация и социальное государство. // Вестник ВГУ. Серия: Философия. №4, 2005, с.78-91

[159] İsmayılov D. Azərbaycanın transformasiyalar prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005, s.120 (344s.)

[160]OECD Family Database 2011. URL: www.oecd.org/ets/sos/PF1-1 public spending_on_famiyu_lenfity. Oct.2013.petl

Cənubi Avropada konservativ sosial dövlətin Aralıq dənizi modeli formalaşmışdır. Bu ölkələr bütün daxili fərqlərinə baxmayaraq, sistemli tipoloji oxşarlığa malikdirlər. Cənubi Avropanın konservativ sosial dövlətlərində funksional zəiflik vardır. Burada ailə institutu əhəmiyyətli təsirə malikdir və katolik həmrəyliyi prinsipi mədəniyyətə və birgəyaşayışa ciddi nüfuz etmişdir.

Görkəmli İtaliya tədqiqatçısı A.Ferreraya görə, konservativ sosial dövlətin Aralıq dənizi modeli üçün əsas əlamət milli gəlirin bölüşdürülməsidir. Dövlət bu bölgünü büdcə köçürmələrilə reallaşdırır.[161] İtaliyada, İspaniyada və Portuqaliyada minimal gəlirli kontingentin təminatına yönəlmiş tədbirlər yaxın vaxtlarda tətbiq edilmişdir. Yunanıstanda belə norma yoxdur.

Konservativ sosial dövlət modelinin spesifik xassələrindən biri də sosial risklərin qeyri-bərabər sığortalanmasıdır. Burada yaşlı nəslin müdafiəsi yüksək olduğu halda (xüsusilə İtaliya və Yunanıstanda) əhalinin digər yaş qruplarına zəif qulluq və ödənişlər edilir, ailələrə ünvanlı yardım aşağıdır, sosial mənzillər verilir. Bu tip Cənubi Avropa ölkələrində səhiyyəyə də özünəməxsus yanaşmalar vardır. Burada silahlanmaya universalist mövqedən yanaşılır. Bu ölkələrin səhiyyə sistemlərində dövlət və özəl təsisatlar birgə çalışırlar. M.Ferrera bu tip dövlətləri "institusional partikulyarizm" və ya klientalizm kimi səciyyələndirir. Cənubi Avropa ölkələrində gizli iqtisadiyyatın çəkisi ÜMM-n 30%-dir. XX əsrin 90-cı illərindən Cənubi Avropa ölkələrində konservativ sosial dövlət böhran keçirir, rəqabət şəraiti pisləşir və əmək bazarının tənzimlənməsi səmərəsiz olmuşdur, ailə təşkilatına təzyiqlər artmış, demoqrafik proseslərdə durğunluq müşahidə edilirdi. Cənubi Avropadakı sosial dövlət tipinin eynisi olan ada ölkələri Malta və Kiprdə fərqli vəziyyət hakimdir. Həmin ölkələrdə Cənubi Avropadakı tipik xüsusiyyətlər – ailə və kilsə institutlarının yüksək dəyər daşıması, qadın və uşaqların, yaşlıların işə az cəlb edilməsilə yanaşı Şimali Avropa və anqlasakson ölkələrindəki xüsusiyyətlər də təzahür edir. II Dünya müharibəsindən sonra sosialist ölkələri düşərgəsinə daxil olan

---

[161]Ferrera M. A reconstrucao do Estado social na Europa meriolional//Analoge social (Lisboa), 2000, №151/152, p.457-475

Mərkəzi Avropa dövlətləriyüzilliyin axırlarında bazar iqtisadiyyatına keçdilər, iqtisadiyyat liberallaşdı, ciddi siyasi, iqtisadi, ideoloji dəyişikliklərə məruz qaldılar:

-Onlardan bəziləri (Çexiya və Slovakiya) kontinental modelə, yaxud daha təkmil sosial sığorta sistemi olan konservativ sosial dövlət modelinə meyl etdilər;

-Digərləri (Estoniya və Litva) anqlosakson ölkələrindəki ədalətli bölgüyə əsaslanan dövlət modelinə keçdilər;

-Polşada dövlətin spesifik xüsusiyyətləri katolik kilsəsinin fəallığı sosial infrastrukturun çoxsaylı obyektlərinə nəzarətilə fərqlənir.

Avropa Birliyi dövlətləri isə ərazi və milli modellərin birliyindən ibarətdir. D.İsmayılov ənənəvi konservativ sosial dövlət tiplərinin Qərbi Avropada effektiv olduğunu vurğulayır. “Konservatizmin bu növünə Britaniya torizminin paternalist qanadı, Fransadakı qollizm, AFR-dəki sosial konservatizm xasdır... Neokonservatizm isə beynəlmiləldir. Ənənəvi mühafizəkarların fikrincə, qayda-qanun yaratmaq və intizamı bərpa etmək vəzifələrinin yerinə yetirilməsində lazım gələrsə dövlət cəza tədbirlərinə də əl atmalıdır”.[162]

Konservatorlardünyəvi və dini hakimiyyətin roluna və əhəmiyyətinə, müəyyən etiqad, ictimai müqavilə, ideologiya, milli ənənə və ictimai ideyaların reallaşmasına xüsusi məna verirlər.[163]N.Ş.Çurinov konservativ dövlətlərdəki sosial institutları konkretləşdirərək, onları – ictimai müqavilənin, yəni dövlət institutlarının, etiqadın, yaxud müvafiq kilsə təsisatlarının, ideologiyaların realizə edilməsində mühüm amil hesab edir.[164]

---

[162]İsmayılov D. Azərbaycanın transformasiyalar prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005, s. 144-145 (344s.)

[163] Черноусова Л.Н. Консервативное государство и институты гражданского общества // Философские науки, №11 (25), 2012, ч.1, с.210 (с.209-211)

[164] Чуринов Л.Н. Либерализм и консерватизм – два полюса политической и экономической схоластики// Теория и история. Красноярск, 2011, №1, с.16 (с.7-33)

Beləliklə, konservativ sosial dövlətin əsas xüsusiyyətləri aşağıdakılardır:

1.Cəmiyyətin həyatında dinin əsaslı təsiri ideyası;

2.Dövlətin müdaxiləsinin azalması;

3.Ailə və ənənəvi dəyərlərin, cəmiyyətdə qayda-qanunun qorunub saxlanması;

4.Dəyərlərin, milli ənənələrin sosial-siyasi institutlara, siyasi prinsiplərə uyğunlaşması.

### 2.2.1. Konservativ-korporativ sosial dövlətin Almaniya modeli

Almaniya Avropada ilk konservativ sosial dövlət quruculuğunu reallaşdıran ölkələrdən biridir. XIX əsrdə mühafizəkarlar arasında şöhrət qazanmış Almaniyanın reyx kansleri O.Bismark öz idarəçiliyi dövründə əvvəlcə mötədil liberallarla ittifaqa girdi, lakin sonradan onlardan uzaqlaşan Bismark proteksionizmə və dövlətin iqtisadi proseslərə qarışması siyasətinə üstünlük verdi, antisosialist qanunlar qəbul edildi. Zamanla bu dövlət tipi bütün Avropaya yayıldı.[165]

Tədqiqatçılar O.Bismarkın sosial siyasətinin formalaşmasında əhatəsindəki müşavirlərin - German Vaqner, Teodor Loman, Hamp, Rottenburq və başqalarının böyük rol oynadığını göstərirlər. Bismarka fransız sosial qanunvericiliyi də təsir göstərmişdir. O.Bismarkın sosial siyasətinin formalaşmasına onun F.Lassal ilə görüşləri də əsaslı təsir etmişdir. O.Bismark özünün F.Lassala məktublarında ondan fəhlə sinfinə münasibətini ifadə etməsini xahiş edirdi. F.Lassalın təklifləri əsasında O.Bismark sosial islahatlar aparılmasına başladı.[166] 1871-ci ildə T.Lomana sosial islahatlar layihəsi hazırlamaq tapşırıldı. Bu islahatlardan biri iş gününün 12 saat müəyyən olunması idi. Əmək istehsalı gücünün və əmək məh-

---

[165]Наксен А. Германия: социальное государство от Бисмарка до Аденауэра. http://www.forumdaily.com/germaniya-socialnoe-gosudarstvo-ot-bismarka-do-adenauera/

[166]Беспалова Л.П. Социальная политика Отто фон Бисмарка // Известия Алтайского государственного университета. 2011. № 4-2. С. 231.

suldarlığının artması sayəsində iş gününün azaldılması mümkün oldu. Həmin il işdə zədələnməyə görə şaxtada, dəmir yolunda və dağ-mədən müəssisələrində çalışan fəhlələrə yardımla bağlı qanun təsdiqləndi. ETT-nin nəticələrinin tətbiqi sayəsində Almaniya iqtisadiyyatı tərəqqi etdi. Sənayeləşmə nəticəsində 1914-cü ildə fəhlə sinfinin tərkibi genişləndi, əhalinin 40%-i fəhlələr idi. XIX yüzilliyin 80-ci illərində F.Lassaldan bəhrələnən O.Bismark "dövlət sosializmi" (yaxud konservativ) sosializm ideyasını inkişaf etdirdi. 1881-ci ildə imperator I Vilhelm Bismarkın sosial islahatlar layihəsini təqdir etdi. Layihə tibbi sığorta (1883), bədbəxt hadisələrdən sığorta (1884), əlilliyə və qocalığa görə sığorta (1889) haqqında qanunların təsdiq edilməsinə səbəb oldu. Əgər sığorta olunmuş şəxs həlak olardısa, ailə üzvləri onun 20 iş günü üçün təzminat alırdı. O.Bismark sosial sığorta orqanlarını dövlət nəzarətinə almaq istəyirdi, lakin sonda güzəştə getdi. 1890-cı il Berlin konfransında vahid fəhlə qanunvericiliyinin və həmçinin 12 yaşınadək uşaqların işləməsini, qadınların gecə və 11 saatdan, uşaqların isə 10 saatdan artıq işləməsini qadağan edən, bazar gününü istirahət elan edən qanunlar qəbul edilməsi qərara alındı.[167]

XX yüzilliyin ikinci yarısında Almaniya iki qalib dövlətin arasında qalmışdı.Ölkənin münaqişəli vəziyyəti Şərq-Qərb sistemləri arasındakı qarşıdurmanın mahiyyətindən asılı idi. Sovetlər alman potensialını iflic edərək, burada sosializm qurmaq niyyətində idilər, Qərb isə "faşizmdən sonrakı Almaniyanı" bərpa etmək və onu Stalin kommunizmindən müdafiə vasitəsinə çevirmək istəyirdilər.[168]

---

[167]Лохова И.В. "Социальная политика Германии и Австрии в последней трети XIX – начале XX вв." Диссертация на соискание ученой степени кандидата исторических наук (07.00.03 – Всеобщая история), Владикавказ – 2016, с.43-103

[168]ФолькерКроненберг. Немецкая перспектива после катастрофы 1945 г.: нация, основной закон, отечество, послевоенная история германии. Российско-немецкий опыт и перспективы. Материалы конференции российских и немецких историков 28–30 октября 2005 г. Москва (Под редакцией Б. Бонвеча и А.Ю. Ватлина), Москва: "ДиректМедиа_Паблишинг", 2006, s.25

Almaniyada çox sayda əlillər, hərbi əsirlər, itkin düşənlər və qovulmuş vətəndaşlar var idi. İki milyon nəfərdən çox insan müharibədə fiziki və psixi zədə almışdı.[169] Polşa, Çexoslovakiya və Macarıstandan 10 milyon alman qaçqın düşmüşdü. Sovet işğal zonasından üç milyon alman Qərbə miqrasiya etmişdi.[170]Almaniya müharibədə 5,25 milyon nəfər itki vermişdi, 1,7 milyonadək insan əlil olmuşdu, 8 milyondan artıq hərbi qulluqçu əsir düşmüşdü və onların üç milyonu 1956-cı ilədək sovet əsirliyində qalmalı oldu, yalnız 1,9 milyonadək hərbçi geri qayıtdı. Bütün bunlar demoqrafik çətinliklər yaratmışdı. Statistikaya görə müharibədən sonra 100 alman kişiyə 600 qadın düşürdü, bu vəziyyət doğumun aşağı enməsinə gətirdi. Qeyd edilənlər Almaniya iqtisadiyyatının böhranını şərtləndirdi. Qərbi Almaniyada istehsal tənəzzül etmişdi. Ölkədə işsizlik 21% idi.1946-cı ildə sənayenin istehsalı müharibədən əvvəlki vəziyyətin 1/3-i səviyyəsində idi, torpaqların yalnız 25%-i əkilirdi.[171]1945-ci iliyulun 17-dənavqustun 2-dəkBerlinyaxınlığındayerləşənPotsdamda"böyüküçlüyün"növbətigörüşükeçirildi. Almaniya ərazisiSovetİttifaqı,BöyükBritaniya,Birləşmiş ŞtatlarvəFransaişğalzonalarınabölündü.Almaniyaöz ərazisinin 4/1-ni

---

[169]Уте Шмидт, Центр исследования государства СЕПГ, Берлин. Людские и территориальные потери, бегство и изгнание — последствия второй мировой войны для немецкого народа.Российско-немецкий опыт и перспективы. Материалы конференции российских и немецких историков 28–30 октября 2005 г. Москва (Под редакцией Б. Бонвеча и А.Ю. Ватлина), Москва: “ДиректМедиа_Паблишинг”, 2006, s.35

[170]Наксен А. Германия: социальное государство от Бисмарка до Аденауэра. http://www.forumdaily.com/germaniya-socialnoe-gosudarstvo-ot-bismarka-do-adenauera/

[171]БолдыревР. Ситуация в послевоенной Германии в оценках СВАГ. Российско-немецкий опыт и перспективы. Материалы конференции российских и немецких историков 28–30 октября 2005 г. Москва (Под редакцией Б. Бонвеча и А.Ю. Ватлина), Москва: “ДиректМедиа_Паблишинг”, 2006, С.54, 56

itirdi. Almaniyadanalınacaq təzminatın miqdarı 20 mlrd. ABŞ dolları müəyyənləşdirildi.[172]

Almaniyanın Sovet işğalı zonası sosializm inkişaf yolunu seçməli oldu. Almaniyadakı ingilis-amerikan işğal hakimiyyəti ölkənin sosialist olmasının əleyhinə idi. Yeni yaranmış milli alman hökuməti və əhali iqtisadiyyatın dirçəldilməsini istəyirdi.[173]

Müharibədən sonra Qərbi Almaniyada administrativ və parlament strukturu yenidən qurulmağa başladı. Burada dövlətçilik kompromis əldə etməyə yönəlmişdi. Avropa siyasəti bərabərliyin əldə edilməsinə, Almaniyada kontinental tərəqqiyə, yeni dövlətin qurulmasına yönəlmişdi.[174]

Bu dövrdəKonrad Adenauer və professor Lüdviq Erxardiqt iqtisadiyyatı dirçəltmək üçün seçildilər. Konrad Adenauer müharibədən sonrakı şəraitdə bir lider kimi yeni tipli siyasi partiya – Xristian Demokratik İqtisadiyyatı Partiyasını yaratdı. 1947-ci ildə çağırılmış təsis qurultayında XDİP əsasən xalqın rifahının yaxşılaşdırılması, insan haqlarının qorunmasını əks etdirən siyasi proqram qəbul etdi. Qərbi Almaniyada konservativ istiqamətli inkişaf prosesi start götürdü. Ölkədə iqtisadi islahatlar keçirilməsi zərurətə çevrildi. 1945-ci ildə Birləşmiş Ştatlarda hərbi administrasiyası professor L.Erxardı Bavariyanın İqtisadiyyat naziri, 1948-ci ildə

---

[172]Великая Отечественная война 1941–1945 годов. В 12 т. Т. 8. Внешняя политика и дипломатия Советского Союза в годы войны. — М.: Кучково поле, 2014. С.601-612(864 с.)

[173]ЯстребовГ.А.” Вальтер Ойкен о либерализме и социальной политике”.Социальное рыночное хозяйство: концепция, практический опыт и перспективы применения в россии. Интернет-конференция.http://ecsocman.hse.ru/text/16209767/

[174]СиндеевА. Земельный уровень в становлении европейской политики Германии (1947–1948 ГГ.). Российско-немецкий опыт и перспективы. Материалы конференции российских и немецких историков 28–30 октября 2005 г. Москва (Под редакцией Б. Бонвеча и А.Ю. Ватлина), Москва: “ДиректМедиа_Паблишинг”, 2006, С.70-80

isə ABŞ və İngiltərə işğal zonalarının birləşdiyi təsərrüfata rəhbər seçdi.[175]

Dilemma qarşısında qalan Almaniya iqtisadçıları bir tərəfdən iqtisadiyyata dövlət müdaxiləsinin səmərəli metodlarını və ağıllı hüdudlarını müəyyən etməyə çalışır, digər tərəfdən sərbəst bazar iqtisadiyyatını dövlətin müdaxiləsindən qorumağın[176] yollarını axtarırdılar. Bu axtarışlarda sosial yönümlü bazar iqtisadiyyatı uğrunda mübarizə aparan neoliberalizm istiqaməti qalib gəldi. A.Miller-Armak bazarda sərbəstlik və ədalət prinsiplərinin sintezini ifadə edən "Sosial bazar iqtisadiyyatı" terminini irəli sürdü.[177] Qərbi Almaniyanın iqtisadiyyat naziri professor L.Erxard bu termini bir qədər də dəqiqləşdirdi: "Sosial bazar iqtisadiyyatının başlıca əlaməti bazarda sərbəstlik prinsipini sosial balanslaşdırma və hər kəsin birlik, cəmiyyət qarşısında mənəvi məsuliyyətinin birləşməsidir".[178]

Qərbi Almaniyanın yenidən qurulması L.Erxardın ideya və təkliflərinə əsaslanırdı. Erxardın proqramı iqtisadiyyatın amirlik idarə üsuluna qarşı idi və azad bazarın təkamülünə yönəlmişdi. Erxardın fikrincə, sosial siyasət asılılıq əhval-ruhiyyəsi yaratmamalı dövlətin üzvi funksiyası olmalıdır. "İqtisadi səmərəlilik özünüməqsəd olmamalıdır, vətəndaşların maddi və mənəvi ehtiyaclarının təminatı vasitəsi olmalıdır". L.Erxarda görə, iqtisadiyyat ictimaiyyətin inamına söykənir, "insan öz psixologiyası, ümidləri, planları, nəhayət yanılmaları ilə iqtisadi həyatın mərkəzidir". L.Erxard müharibədən sonra keçid iqtisadiyyatının təsərrüfatda məqsədyönlü-

---

[175]Павлов Н. В. История внешней политики Германии от Бисмарка до Меркель.(Учебное пособие), М.: «Международные отношения», 2012, с.251-258

[176]Социальное рыночное хозяйство: концепции, практический опыт и перспективы применения в России/под общ.ред. проф. Р.М.Нуреева: Гос.ун. – Высшая школа экономики, Москва: изд. Дом ГУВШЭ, 2007, с.8 (488с.)

[177]Толекина Е.Л., Акимова Е.Н. Формирование и реализация германской политики «экономического чуда». //Вестник МГОУ, №3, 2007, с.43

[178]Эрхард Л. Полвека размышлений. Речи и статьи. Москва: Руссико: «Ордынка», 1993, с.379 (450с.)

lük və ədalətə söykənməli olduğunu bildirirdi və əmin idi ki; "iqtisadiyyatın subyektləri ümumi rifah naminə kollektiv fəaliyyət göstərməlidirlər". Bu islahatlar tezliklə təsirini göstərdi. İki ilə əmtəə hasilatı 2 qat çoxaldı, mağazalar ərzaqla doldu, "qara bazar" yox oldu. Əmək bazarı 3 dəfə genişləndi. 50-ci illərdə Ümumi Daxili Məhsul 114,4%-dən yuxarı qalxdı, 1952-1953-cü illərdə iqtisadiyyatda yeni yüksəliş mərhələsi başlandı. 1953–1955-ci illərdə sənaye hasilatı 10-15% yüksəldi.[179] 1957-ci ilədək hökumət Qərbi Almaniyada ərzaq məhsullarının qiymətləri üzərində nəzarətini saxladı, infilyasiya ilə mübarizə gücləndi, əhalinin hesabındakı vəsaitin 70%-i donduruldu, xüsusi özəl rəqabət üçün şərait yaradıldı. Qərbi Almaniya Qərbi Avropanın iqtisadi sisteminə inteqrasiya olundu. 1960-cı illərdə Qərbi Almaniyada ÜDM 1950-ci il ilə müqayisədə üç dəfə artdı, iqtisadiyyatın orta artım sürəti 10%, işsizlik isə bütövlükdə 1% oldu.[180]

Müharibədən sonrakı illərdə Almaniyanın əldə etdiyi müvəffəqiyyətlərin kökündə insan taleyi dururdu. İnsan amilindən istifadə edən Almaniyanın müvəffəqiyyətləri o qədər heyranedici idi ki, dünya iqtisadiyyatında onu "Alman möcüzəsi" adlandırırdılar. "Alman möcüzəsi»nin ideoloqu və həyata keçirəni Münxen Universitetinin professoru L.Erxard idi. İqtisadiyyata aid əsərlərində və praktikada o, sosial bazar iqtisadiyyatını formalaşdırmaq məsələsini irəli sürdü və hökumətdən dəstək aldı. Onun konsepsiyasının

---

[179]ШевченкоИ. Теория и практика построения социального рыночного хозяйства в Германии и России. Российско-немецкий опыт и перспективы. Материалы конференции российских и немецких историков 28–30 октября 2005 г. Москва (Под редакцией Б. Бонвеча и А.Ю. Ватлина), Москва: "ДиректМедиа_Паблишинг", 2006, С.122-127

[180]ЯстребовГ.А." Вальтер Ойкен о либерализме и социальной политике". Социальное рыночное хозяйство: концепция, практический опыт и перспективы применения в россии. Интернет-конференция. http://ecsocman.hse.ru/text/16209767/., c.13

əsasında insan resursları və insan haqqında real təsəvvürlər dururdu.[181]

XX yüzilliyin 50-ci illərində iqtisadi suverenlik əldə etmiş AFR kapitalizm və sosializm arasındakı ziddiyyətləri aradan qaldıraraq, üçüncü yolla inkişaf etdi və dünya iqtisadiyyatı liderlərindən birinə çevrildi. 1967-ci ildə Almaniya iqtisadiyyatın yüksəlişinə və tarazlığın təminatına dair Qanun təsdiqlədi. Hökumət federasiya, vilayətlər, icmanın iqtisadi siyasətini əlaqələndirmək imkanı əldə etdi, konyuktur siyasətə maliyyə siyasəti də əlavə edildi. "Bu qanun hökumətin ümumiqtisadi müvazinət əldə etməsinə, sabit pul vahidi, tam məşğulluq, daimi və adekvat iqtisadi yüksəlişə nail olmasına kömək etdi".[182]

Erxardın islahatları qısa müddətdə sosial-iqtisadi irəliləyiş kimi dəyərləndirilə bilər. Almaniyanın inkişaf etmiş dövlətə çevrilməsinə və gələcək uğurlu inkişafına təkan verdi. XX yüzilliyin 60-cı illərindəki böhran dövründə alman iqtisadiyyatı normal inkişaf yolu keçdi.İqtisadi siyasətdə "qlobal tənzimləmə" ideyası qalib gəldi. 1967-ci il qanunu hökuməti ümumi iqtisadi tarazlığı saxlamağa, o cümlədən sabit pul vahidi, tam məşğulluq, dayanıqlı inkişaf və tarazlıq əldə etməyə yönəltdi. 1974-75-ci illərə aid durğunluq enerji və inflyasiya problemləri yaratdı. İqtisadi tənəzzül fenomeni yarandı. İqtisadçıları və siyasətçiləri anti-tsiklik tənzimləmənin düzgünlüyü barədə tərəddüd sarıdı. 80-ci illərdə Erxard siyasətinə qayıtmağa cəhd edilsə də, Almaniyanın birləşdirilməsi bu prosesi dayandırdı. Həmin dövrdə H.Kol sosial dövlətdə dəyişikliklər edilməsi niyyətilə aşağıdakı təklifləri təqdim və tətbiq etdi: ümumi yardımın ünvanlı sosial yardımla əvəzlənməsi, müxtəlif kateqoriyaya aid adamların sosial çətinliklərini qarşılayan profilaktik ödənişlər edilməsi, şəxsi və istehsalat müəssisələrinə xas hissənin çoxaldılması sayəsində sosial təminat institutları sisteminin diversifi-

[181]Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri . (Monoqrafiya).Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2003, s.319, 320 (455 səh.)

[182]Толекина Е.Л., Акимова Е.Н. Формирование и реализация германской политики «экономического чуда». //Вестник МГОУ, №3, 2007, с.46

kasiyası, sosial bazar prinsiplərinin sosial sahəyə daxil edilməsi (qeyri-mərkəzləşmə, istehsal meyarlarının nəzərə alınması, rəqabət), sosial sahədə dəyişikliklər edilməsi, vətəndaş təşəbbüskarlığının fəallaşdırılması.[183]

Beləliklə, Almaniya 1950–1989-cu illərdə yüksək templi tərəqqi yolu keçdi.AFR-in kansleri H.Kolun fikrinə görə, AFR sosializm və kapitalizm arasındakı ziddiyyətləri sosial bazar iqtisadiyyatı sayəsində dəf etdi və öz nümunəsi ilə üçüncü inkişaf yolunu göstərdi.

XX yüzilliyin 90-cı illərində AFR-də aparılan liberal islahatlar onun beynəlxalq iqtisadi münasibətlərdə əhəmiyyətli mövqe qazanmasına gətirdi. Almaniyanın sosial-demokrat kansleri Q.Şneyder 1995 – 2005-ci illərdə sosial dövlət istiqamətində islahatlar həyata keçirmiş oldu. Hər iki Almaniyanın ADR və AFR-in iqtisadi, valyuta, sosial siyasətinin birləşdirilməsi sayəsində keçmiş ADR-də 14 min müəssisə özəlləşdirildi.[184]

Müasir Almaniyada sosial bazar təsərrüfatı konseptual köklərini V.Oykenin irəli sürdüyü neoliberalizmdən götürmüşdür. Neoliberallar rəqabətli bazar prinsipini müdafiə edirdilər. Oyken dövlətinin sosial və iqtisadi siyasətinin əsaslarını aşağıdakı prinsiplər təşkil edirdi: səbatlı pul dövriyyəsinin reallaşdırılması; bazar qiymətləri strukturuna qeyri-dövlət meylli təsirlər edilməsi; bazarların açıq və əlyetərli olması; xüsusi mülkiyyət (fərdi azadlığın və bazarların koordinasiyasının əsası kimi); müqavilə bağlamaq sərbəstliyi; iqtisadi siyasətin sabitliyi; inhisarçılığa yol verilməməsi; bazarın fəaliyyətində mənfi nəticələrin ləğv edilməsi.[185]

---

[183]Германия вызовы XXI века. Под ред. В.Б.Белова, Издательство «Весь Мир», 2009, с.108

[184]Вюнше Х.-Ф. Социальное рыночное хозяйство: представления о хозяйственном порядке Людвига Эрхарда // Социальное рыночное хозяйство. М., изд. «Теис», 2007, с. 210 (196-212с.)

[185]ЯстребовГ.А. "Вальтер Ойкен о либерализме и социальной политике". Социальное рыночное хозяйство: концепция, практический опыт и перспективы применения в России. Интернет-конференция. http://ecsocman.hse.ru/text/16209767/.

Sosial bazar təsərrüfatı konsepsiyasının tərəfdarları dövlətin rolunu mütləqləşdirir, bazar və dövləti vəhdətdə götürürdülər, çünki bazar iqtisadi səmərəliliyi təmin etməklə yanaşı iqtisadiyyatın səmərəliliyinə və rəqabətin davamlılığına çalışır. Müasir Almaniyada qarışıq iqtisadi sistem mövcuddur.[186]

Almaniya iqtisadiyyatında təzahür edən çətinlikləri X.-F.Vyunşe Erxardın siyasətindəki uzaqlaşma kimi şərh edir:

1.rəqabət qaydası siyasətin iri sənaye və beynəlxalq iqtisadi maraqlarla bağlı tələbatlara yönəlmişdir;

2.sosial siyasətin bölgüsü ilə bağlı yeniliklər baş vermişdir;

3.yüksəliş siyasətindən yayınma nəzərə çarpır.[187]

Göstərilən yayınmalar Almaniyanın sosial yönlü bazar münasibətlərinin təzahürüdür. Burada liberal iqtisadiyyatla fəal dövlət siyasəti prinsipləri birləşmişdir. Qloballaşma Almaniyanın konservativ sosial dövlətinin modernləşməsi onun daxilində və hüdudlarından kənarda əsaslı yeniliklərlə müşayiət olunmuşdur. Ölkə post-sənaye quruluşuna keçmiş, yeni qlobal çağırışlara uyğunlaşmaq zərurəti ilə üz-üzə gəlmişdir. Almaniyada sosial dövlət çərçivəsində aparılan dövlət paternializmi siyasəti sərbəst qərar vermək və risk etmək arzusunu aşağı salır, passivlik və başqalarının hesabına yaşamaq hisslərini inkişaf etdirir.Almaniyada işsizlərə ödənilən müavinət əvvəlki zəhmət haqqının 2/3-i qədər müəyyənləşdirilir və 3 il müddətinə verilir. Şərq əyalətinin iqtisadiyyatının inkişafına hökumət iri həcmdə pul yatırır, yerli əhaliyə əsaslı sosial yardımlar edir, sahibkarlıq fəaliyyətinin genişləndirməyə çalışır.[188] Dövlətin müdaxiləsi iqtisadiyyatın inkişafına təhlükə doğurur. Dövlətin yardım sahəsi genişləndiyi üçün büdcədən yeni xərcləri tələb olunur. Almaniya iqtisadiyyatında dövlətin roluna dair müxtəlif baxışlar

---

[186]İS (S) İ – 2015 İqtisadiyyatın liberallıq potensialı. Nazim Müzəffərlinin elmi redaktəsi ilə məqalələr toplusu. Bakı, “AFPoliqrAf”, 2017, s.46

[187]Вюнше Х.Ф. Социальное рыночное хозяйство: представления о хозяйственном порядке Людвига Эрхарда // Социальное рыночное хозяйство. М., изд. «Теис», 2007, с. 210 (196-212с.)

[188]Гучиник В.Л. Кризис социального государства в Германии // социальное рыночное хозяйство. М., Теис, 2007, с.348 (с.346-352)

mövcud olsa da ölkədə sosial bazar iqtisadiyyatı inkişaf edir. Bu təsərrüfat hesabına Almaniya müharibədən sonra dirçələ bilmişdi. Burada bazar iqtisadiyyatının əsas istiqamətləri aşağıdakı kimi təsnif edilir edilir:

-Sahibkarlığa hərtərəfli yardım göstərilməsi;

-Sosial qarşıdurmaların dəf edilməsi;

-Vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması.

ADR-də və sonralar birləşmiş müasir Almaniyada – Bədbəxt hadisə zamanı tibbi sığorta; Uşaq müavinətləri; İşlə təmin edilmə və peşə təhsilinə yardım edilməsi (1969); Sosial dövlətin Şərq əyalətlərinə doğru genişlənməsi (1990); Özəl sığorta Qanunu (2009); Pensiyaların büdcədən ödənilməsi, işsizliyə görə müavinət ödənilməsi (2014) istiqamətli qanunlar qəbul edildi və sosial siyasi islahatlar keçirildi.[189]

Sosial siyasət və sosial müdafiə prinsipləri Almaniyanın Əsas Qanununda möhkəmlənmişdir. Qanunda insanın ləyaqətinə hörmət bütün hakimiyyətlərin vəzifəsi (maddə maddə1) elan edilir, hamıya öz şəxsiyyətini müstəqil inkişaf hüququ (maddə 2) verilir, qadınların kişilərlə bərabər hüquqlu olması və buna dövlətin kömək etməsi və bu sahədə çatışmazlıqları aradan qaldırması (maddə 3) bildirilir, dövlətin nikah və ailəni qoruması, ana olmağa dövlətdən qayğı və yardım görmək hüququnun (maddə 6) olması təsdiq edilir.[190] Almaniyada sosial xərclərin dinamikası yüksələn xətlə gedir.

Almaniyada qocalığa görə pensiyalar sosial siyasətin prioritet məsələlərindəndir. Ölkədə ümumi pensiyalar sosial xərclərin həcmində 146,1 mlrd. € təsdiq edilmişdir və bu, federal büdcənin

---

[189]Социальное государство в странах ЕС: прошлое и настоящее. / Отв. Ред. Ю.Д.Квашнин. М.: ИМЕМО РАН, 2016, с.18 (189с.)

[190]Основной закон Федеративной Республики Германии // Федеративная Республика Германия. Конституция и законодательные акты. Пер. с нем. / Под ред. Ю.П. Урьяса. М.:Прогресс, 1991. Приводится по: Конституции государств Европейского Союза / Под общей редакцией Л.А. Окунькова. М.: Издательская группа ИНФРА-М-НОРМА, 1997. — С. 181-234.

49,9%-i deməkdir. Dövlətin apardığı siyasətlə əlaqədar olaraq, 2014-cü ildə AFR-də yerli sakinlərin orta aylıq zəhmət haqqı 3233 € olmuşdur.[191] Almaniyada əhaliyə sosial evlər verilməsi diqqətəlayiqdir. 1996-cı ilədək Almaniyada ev alan, yaxud tikən ailələr ümumi gəlirləri müəyyən edilmiş səviyyədən çox olmazsa, 8 il müddətində dövlətin subsidiyalarından istifadə edə bilərdilər. Lakin tədricən gəlir səviyyəsi və subsidiya səviyyəsi azaldıldı. Nəticədə, 2004-cü ilin 1 yanvarından ailələr 1250 avrodan artıq subsidiya ala bilmədilər. Uşaqları olan ailələr hər bir uşaq üçün illik 800 € məbləğində əlavə subsidiya aldılar. 2006-cı ilin 1 yanvarından Angela Merkel hökumətin mənzil tikintisi və satın alınması üçün dövlət subsidiyasını ləğv etdi. Artıq ailələr yalnız öz qüvvələrinə və proqramlı olaraq torpaq yardımına güvənə bilərlər. Məsələn, Şimali Reyn Vestfaliya 2006-cı ildən sakinlərin mənzillər alması üçün aşağı faizli dövlət krediti təklif etmişdir. Bu kredit uşaqlı və 50% əlil üzvü olan, gəlirləri qanuni təyin edilən səviyyədən artıq olmayan ailələrə verilirdi.[192]

Almaniyada ali təhsilin bərabər mümkünlüyü məsələsi aktualdır. "Honnefer" modelinə görə, XX yüzilliyin ikinci yarısından Qərbi Almaniyadan gələn tələblərə dövlət yardımı verilməyə başlandı. 1971-ci ildə yardım təhsildə borcla əvəz olundu. Həmin borc 1982-ci ildə qaytarılmalı idi. Bu, Helmut Koll hökumətinin qərarı idi. 90-cı illərdə ACDP-nin hakimiyyətə gəlməsilə("Yaşıllarla" birlikdə) şərait dəyişdi, təhsil borcunun çox hissəsini dövlət ödəmiş oldu.Y.M.Neymətov bildirir ki, hazırkı dövrdə Almaniyada təsdiq olunmuş təhsil qanunları yaradıcılıq azadlığına və elmi fəaliyyətə, tədris sərbəstliyinə, vicdan azadlığına, sərbəst tədris məkanı seçmək hüquqlarını dəqiqləşdirir. "Konstitusiya və təhsil qanunvericiliyi məktəb və universitet tədrisini, yaşlı insanların təhsillənməsi və fasiləsiz təhsili əhatə edir...Federal hökumət aşağıdakı sa-

---

[191]Социальное государство в странах ЕС: прошлое и настоящее. / Отв. Ред. Ю.Д.Квашнин. М.: ИМЕМО РАН, 2016, с.18 (189с.)

[192]ЗоринаЕ.В.Возможности и направления социальной поддержки семьи в России и Германии. Журнал социологии и социальной антропологии. 2007. Том X. № 1, с.186

hələrdə hakimiyyət səlahiyyətlərini yerinə yetirir: təhsil qrantlarının (maliyyə) tənzimlənməsi, elmi tədqiqatlara şərait yaradılması, sənaye və əmək qanunları çərçivəsində peşə təhsilinin tənzimlənməsi, əmək haqqının, maddi yardımın və mülki xidmətlərin, pensiyaların tənzimlənməsi... Almaniyanın dövlət məktəbləri və universitetlərində təhsil pulsuzdur. Əsas qanun dövlətə alternativ məktəbə yardım etməyə zəmanət verir. Ölkədə universitetdə təhsil almağa məhdudiyyət yoxdur. Məzunlar ümumi orta təhsil sənədi ilə universitetlərdə oxuya bilərlər".[193] Almaniyada ali məktəbə geniş tələbə kütləsi daxil olur. Hazırda özəl məktəblər istisna olmaqla, Almaniyada dövlət məktəbləri pulsuzdur. Pulsuz təhsil sosial dövlətin əsas əlaməti hesab olunsa da, bu, sosial əsaslı bazar təsərrüfatı nöqteyi-nəzərindən mübahisəlidir. Pulsuz məktəblərdə tələbələrə təqaüdlər verilir. Beləliklə, sosial dövlətin təsisatlarının inkişafı birxətli getmir. XXI əsrdə məktəbəqədər və orta təhsillə bağlı tədris müəssisələrində genişlənmə baş verdi. XXI yüzillikdən Almaniyada əsas diqqət məktəbəqədər təhsilə verilmiş oldu.[194]

Almaniyada səhiyyə sistemi də təhsil sistemi kimi dövlət tərəfindən tənzimlənmir. Almaniyanın federal hökumətinin səhiyyədə əsaslı rolu yoxdur, hakimiyyət və idarəetmə funksiyaları (məsələn, xəstəxana yardımı) federal ştatlara verilib, poliklinika xidmətləri isə federal hakimiyyətə məxsusdur. Səhiyyə sisteminin sərt mərkəzləşməsi bu sahədə özəl, yarım-ictimai və rəsmi təsisatların rolunun genişlənməsinə şərait yaradır. Səhiyyə üçün ehtiyatlar yerli idarəetmənin əlində toplanır. Sığorta sistemi çərçivəsində tibbi və stomatoloji yardım, dərman və sanitariya əşyaları, xəstəxana xidmətləri, müəyyən hallarda evdə yardım edilir. Hamiləlik və doğuş zamanı maliyyə, həmçinin səhiyyə yardımı edilə bilər.Səhiyyə məsrəflərinin 12%-i vergilərdən, 27%-i sığorta ödənişlərindən,

---

[193]Нейматов Я. Образование в XXI веке: тенденции и прогнозы. Москва, Алгоритм, 2002, с.148 (480с.)

[194]Тоганова Н. ФРГ и перспективы социального государства (субсидиарность или концентрация ответственности в "одних руках"?), Статья подготовлена в рамках Гранта РГНФ № 14-07-00048a.www.sov-europe.ru/2015/1/toganova3.pdf,s.72

15%-i sahibkarlar tərəfindən birbaşa ödənişlər, 7%-i şəxsi sığorta ödənişlərindən əldə edilir. Əhalinin 90%-i sosial sığortalıdır. Bədbəxt hadisələrdən sığorta sahibkarlar tərəfindən maliyyələşdirilir. Sığortanın ayrı-ayrı formaları dövlət ayırmalarındandır.[195]

Almaniyanın Əsas qanunun 3-cü maddəsi qadın və kişiləri bərabər hüquqlu elan edir. 1970-ci ildən Almaniyada gender bərabərliyinə diqqət yüksəlib. Burada qadınları bərabər hüquqlarla təmin etməyə və rəhbər vəzifələrdə qadınların nümayəndələrinin sayının artırılmasına nəzarət güclənmişdir. 1988-ci ildən qadınlar bütün vəzifələrdə olmaq və deputat mandatları əldə edə bilmək məqsədilə 40% kvotaya sahibdirlər. 2001-ci ildə şəxsi təsərrüfatlarda qadınlarla kişilərin hüquq bərabərliyinə dair qanun təsbit edildi və nəticədə 2006-cı ildən iqtisadi təsisatlarda rəhbər vəzifələrdə qadınların sayı artdı. 2007-ci ildə gender siyasətinin əsası kimi işdən ayrılmaqla yeni doğulmuş uşağa baxmaq üçün hər iki cinsdən olan şəxslərə son əmək haqqının 67%-nin ayrılacağına dair qanun verildi, nəticədə olduqca çox sayda kişi uşağa baxmaq məqsədilə ərizə təqdim etdi.[196]

Almaniyada 2005-ci ildən kansler A.Merker olsa da, ölkədə gender bərabərliyi məsələsinin zəruriliyi dəyişməzdir. Almaniya qanunvericiliyi rəhbər vəzifələrdə qadınların kvotasının artırılmasını nəzərdə tutub. 2013-cü ildə AFR-də rəhbər vəzifədə olan 17 nəfərdən 7-si qadın olmuşdur. AFR-in torpaq haqqında qanunvericiliyinə görə işçi qadınların sayının kişilərlə müqayisədə az olduğu müəssisələrdə qadınların işə götürülməsinə üstünlük verilir.[197]

---

[195] Гареева И. А. Модели и национальные системы здравоохранения: состояние и тенденции развития. Вестник СПбГУ. Сер. 12. 2010. Вып. 2, С.17

[196] Иудин А.А., Шпилев Д.А. Германия: гендерная политика как основа гендерной культуры. https://cinst.hse.ru/data/2011/11/14/1272851411/Gendr_shrt_1.pdf

[197]АлебастроваИ. Преодоление Инерции: Правовые Пути Гендерное равноправие и гендерные привилегии: цели и средства.“Сравнительное конституционное обозрение”.2015.№ 1 (104). С.80-91.

Aİ zonasında aparıcı dövlətlərdən olan müasir Almaniya cəmiyyətdə sosial ədalətin və sosial bərabərliyin təmin edilməsinə yönəlib.

Konservativ sosial dövlətin Almaniya modeli özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Bu modelin əsası aşağıdakılardan ibarətdir:

-XIX əsrdə konservator Otto Bismarkın formalaşdırdığı sosial yönlü dövlət ideyası durur;

-II Dünya müharibəsində totalitar faşist dövləti Almaniyanın işğal zonalarına bölünməsi AFR-də iqtisadiyyatın və dövlətçiliyin dağılmasından sosial bazar iqtisadiyyatına və konservativ sosial dövlət modelinə istiqamətləndirilmiş tərəqqiyə nail oldu;

-Müasir, birləşmiş sosial dövlət quruculuğu, liberal və sosialist iqtisadiyyatdan fərqli üçüncü yolla – sosial bazar iqtisadiyyatı əsasında təkamül etdi. Bu günAlmaniya“iqtisadi möcüzə” sayəsində Avropa ölkələrinin və dünyanın iqtisadiyyatında aparıcı yer tutan konservativ sosial dövlət kimi inkişaf edir.

### 2.2.2. Konservativ-korporativ sosial dövlətin Yaponiya modeli

İmperator ailəsinin himayəçiləri olan Şoqunlar (hərbçilər) 1192-ci ildən 1868-ci ilədək Yaponiyanı idarə etdilər. XIX əsrdə Şoqunlarındövlət idarəçiliyindən uzaqlaşdılar və hakimiyyət - imperator ailəsinə verildi.31 mart1854-cü ildə Birləşmiş Ştatlarla bağlanmış Kanaqava müqaviləsinə görə Yaponiya beynəlxalq aləmlə yeni münasibətlərə daxil olmaq zərurəti ilə üzləşdi.[198] Avropanın dövlət idarəetmə xüsusiyyətlərini özününküləşdirməyi bacaran Yaponiya hökuməti konstitusiya qəbul etdi və parlament çağırdı. Bu dövrdə ölkədə aparılan dəyişikliklər Meydzinin adı ilə bağlı idi və onun apardığı islahatlarimperiyanın tezliklə inkişaf edən sənaye ölkəsinə çevrilməsinə gətirdi.[199] Meydzi dəyişiklikləri edilərkən avropalıların təcrübəsi istifadə edilmişdi. Bu dəyişiklik-

---

[198]Totman, Conrad (2005). A History of Japan (2nd ed.). Blackwell, 289–296.

[199]Matsusaka Y. Tak (2009). "The Japanese Empire", in Tsutsui, William M.:Companion to Japanese History. Blackwell, s.224–241

lər aşağıdakılarla bağlı idi: 1)Hər kəsin bərabər hüquqlu olduğu elan edildi və şəxsiyyətin azadlığını məhdudlaşdıran nə varsa kənarlaşdırıldı. 2) Torpaq münasibətləri yenidən müəyyənləşdirildi. Torpağa şəxsi mülkiyyət hüququ bərpa edildi. Bununla bağlı aqrar islahatlar keçirildi, feodal qaydaları ləğv edildi. 3) Ölkənin ərazi quruluşu dəyişdirildi. Knyazlıqlar əyalətlərlə əvəzləndi və mərkəzyönlü siyasət aparılmağa başlandı. İnzibati islahatlar əsasında Yaponiyada 50 böyük əyalət yaradıldı. Ölkənin dövlət tərəfindən birləşdirilməsi sona çatdı və bunun sayəsində daxili bazar tərəqqi etdi. 4) Dövlət aparatının mükəmməlləşdirilməsi başladı, nazirliklər yaradıldı. 5) Hərbi islahatlar keçirildi. 6) Ticarətlə bağlı məhdudiyyətlər ləğv edildi. Ölkədə azad hərəkət etməyə icazə verildi. 7) Təhsillə bağlı islahatlar keçirildi, Qərbin təhsil sisteminin öyrənilməsinə imkan yaradıldı. 8) Qeyri-bərabər beynəlxalq danışıqlar ləğv edildi. Bütövlükdə, "Meydzi restavrasiyası" burjua inqilabının ilkin mərhələsi, millətçiliyin təzahürü oldu.

XIX yüzilliyin 80-ci illərində hazırlanan Konstitusiya Yaponiya cəmiyyətindəki məhdud demokratiyalaşma yolunda əhəmiyyətli addım oldu. Konstitusiya Yaponiya dövlətinin mütləq monarxiyadan dualist monarxiyaya keçidinə səbəb oldu.[200]

XX yüzilliyin ilk onilliyi Yaponiyada "Tayso demokratiyası" (1912-1926) dövrü olmuşdur və İmperator Yosixitonun əsas idarəçilik devizi "böyük ədalət" idi. Bu, liberal hərəkat dövründə ölkədə ilk dəfə 1925-ci ildə kişilərə seçicilik hüquqları verildi.[201] Təəssüf ki, tezliklə "Tayso demokratiyası" militarizm və ekspansionizm siyasətilə əvəzləndi. Militarizm dövründə təsdiq olunmuş "İctimai qaydaların mühafizəsi barədə" qanun xüsusi mülkiyyətə münasibətin və siyasi quruluşun dəyişdirilməsinə çalışan təşkilatlarda iştiraka görə vətəndaşlara çoxillik katorqa cəzası təyin etdi, bütün sosial təşkilatların fəaliyyətinə qadağa qoyuldu. Bu dövrdə

---

[200] Прудников М. Н. П85 История государства и права зарубежных стран : учебник для бакалавров / М. Н. Прудников. 6-е изд., перераб. и доп. М. :Издательство Юрайт; ИД Юрайт, 2013, s.523, 525(811 с.)

[201]История Японии/Под ред. А. Е. Жукова. М.: Институт востоковедения РАН, 1998. Т. 2. 1868-1998. 703 с.

kommunist fəallar ölüm cəzasına məhkum edilirdilər, ölkədə faşist təşkilatları çoxalır və möhkəmlənirdi. 1932-ci ildəYaponiyada hərbi-faşist diktaturasının yaradılması uğrunda mübarizə aparan Gənc zabitlər Birliyi qiyam edərək partiya kabinetini ləğv etdilər,1940-cı ildə yeni siyasi struktur – hərbi monarxiya diktaturası yaradıldı.[202]

II Dünya müharibəsi dövründə Yaponiya inkişaf modeli yaranmağa başladı. Müharibədən sonra işğalçılar Yaponiyanın iqtisadi irəliləyişi istiqamətində tədbirlər planı təsdiq edildi,: hərbi xərclər məhdudlaşdırıldı, həmkarlar ittifaqları yaradılmağa başlandı, qadınlara seçicilik hüquqları verildi, kənd təsərrüfatı inkişaf etdirilməyə başlandı, inhisarçılığa qadağa qoyuldu. ABŞ Yaponiyanın iqtisadiyyatının restovrasiyasına maddi və mütəxəssislər baxımından kömək etməyə başladı.[203] 1952-ci il razılaşmasına görə Yaponiya öz şəxsi inkişaf siyasətini, Yapon inkişaf modelini yaratdı. Yaponiya modelinin başlıca elementləri belə idi: 1) İnkişaf yönümlü dövlət. Yaponiyanın yüksək ixtisaslaşmış siyasətçiləri və iqtisadçıları dünya iqtisadiyyatının istiqamətlərini proqnozlaşdıraraq, uğurlu sənayeləşmə yolunu tutdular. İnzibati istiqamət üsulu ilə hökumət iri özəl şirkətlərin sərmayə və digər qərarlarına təsir göstərirdi. 2) İdarə edilən bazar. Yapon dövləti bazarla dost münasibətdə idi. Dövlət bazarda uğur qazanan şirkətlərə kömək edirdi. 3)Ömürlük məşğulluq. Ömürlük iş təminatı və zəhmət haqqının yüksəlməsi və iş təcrübəsinə əsasən zəhmət haqqının yüksəldilməsi işçilərin sədaqətli olmasına, şirkət ağır vəziyyətdə olduqda qurbanlar verməyə, texniki innovasiyalara açıq olmalarına şərait yaratdı.4) İxraca yönəlmə. Dövlət qlobal iqtisadi oyuna qoşulmağa hazır olan şirkətlərə yardım edirdi. 5)Texnologiyaların mənimsənilməsi. Yapon şirkətləri texnologiyaları mənimsəyərək onları elə təkmilləşdirirdilər ki, istehsal məhsulu analoq olanları ötüb keçirdi. 6)Milli gəlirlərin bölgüsündə ədalətlilik. Yüksək iqtisadi nəticələr

---

[202]ХатториТакусиро.Япония в войне 1941-1945 гг. СПб.: ООО «Издательство Полигон», 2000, с.11 (880 с.)

[203] Бабич Б.Японское «экономическое чудо»: причины достижений и неудач. (Перевод с английского В.И. Сотникова). Журн. «MegatrendReview». 2007. Vol. 3 (2). P. 59-94.

əldə edən Yaponiya digərlərinin bacarmadığı şəkildə milli mənfəətlərin ədalətlə paylanmasına nail oldu.[204]

Müharibədən sonra Yaponiya "iqtisadi möcüzəsinin" reallaşması bu göstəricilərlə bağlı idi: 1)əvvəlcə ucuz, lakin lazımi qədər ixtisaslaşmış əməkçilərin potensialının optimal tətbiqi; 2)yüksək templi və səviyyəli yığımlar iqtisadi layihələrin daxili maliyyələşdirilməsinə şərait yaratdı; 3)yeni texnologiyaları mənimsəyən sahibkarlıq sərmayələri; 4) optimal iqtisadi tədbirlər və tərəqqiyə gətirən sosial institutların yaradılması.[205]

Yaponiya iqtisadi möcüzəsini korporativ mədəniyyət və busido (samuraylar) etikası ilə əlaqələndirirlər. Bu etikanın təməl prinsipləri və davranış qaydaları sadiqlik, məsuliyyət hissi, cəsurluq kimi keyfiyyətləri yüksək qiymətləndirir. Etik təlim olan busido XII əsrdə yaranmışdır. Busido təlimi müharibədən sonra Yaponiyanın çiçəklənməsinə əsas oldu. Busidonun əxlaqi prinsipləri ölkədə eqalitar iqtisadi sistem yaratdı. Hazırkı dövrdə Yaponiya həyat keyfiyyəti, uzunömürlülük, təhsil, uşaq ölümünün azalması istiqamətlərində böyük nailiyyətlər əldə etmişdir. Busidonun "jin" (alicənablıq, mərhəmət və şəfqət) prinsipi korporativ mədəniyyətin nizamnaməsinə çevrilib. Bu prinsipə görə ölkə gəlirləri ən aşağı sosial təbəqələrə gedib çatır. Yaponiyada orta sinfin formalaşması 1950-1980-ci illərə təsadüf edir. Yaponiyada ənənəvi cəmiyyət və bazar təsərrüfatı dəyərləri bir-birinə uyğunlaşdırılmışdır. XX yüzilliyin 90-cı illərində Yaponiya iqtisadiyyatının "möcüzəli" tərəqqisitənəzzül etdi, ölkədə durğunluq dövrü başlandı,[206] ölkənin iqtisadi inkişafı 1,2%-ə endi, işsizlərin sayı 2,9 milyon nəfərə çatdı,

---

[204]Takatoshi Ito, Hugh Patrick. Problems and Prescriptions for the Japanese Economy: An Overview // Takatoshi Ito, Hugh Patrick, David E. Weinstein (eds.) Reviving Japan's Economy. – Cambridge, Massachusetts: MIT Press, 2005. P. 3–4.

[205]БабичБ. Японское «экономическоечудо»: причиныдостиженийинеудач. (ПереводсанглийскогоВ.И. Сотникова). Журн. «MegatrendReview». 2007. Vol. 3 (2). P. 59-94.

[206]ГалееваА.А. Корпоративная культура убивает Японию. Культура в современном мире. 2012. № 4. [Электронный ресурс]. Режим доступа: URL: http :// infoculture. rsl. ru

əmək haqqı azaldıldı, səhiyyə və təhsilə çəkilən xərclər artdı, istehlak vergiləri yüksəldi.Bu böhran 2003-cü ilədək davam etdi və 2007-ci ilədək tədrici artım baş verdi. Lakin bu iqtisadi tənəzzülü dayandırmadı.[207]Yaponiyanın iqtisadi tənəzzülü bilavasitə sakinlərin qocalması ilə əlaqələndirilir. Yaponiya uzunömürlülər ölkəsidir və 82 orta yaş həddidir. Son dövrlərdə Yaponiyada demoqrafik vəziyyətlə bağlı problemlər meydana çıxmışdır. Gənclərin ailə qurmaq tendensiyasının zəifləməsi, doğumun azalması Yaponiyada əhalinin qocalması problemi ilə müşayiət olunur. İşləmək bacarığı olan insanların göstəricisnin aşağı düşməsi demoqrafik yükün artması problemini yaradır. Demoqrafik dəyişikliklərlə bağlı işçi qüvvəsinin azalması iqtisadi tənəzzül, ictimai rifahın aşağı düşməsi təhlükəsini artırır.[208] Belə ki, Yaponiya iqtisadiyyatı nə qədər böhran keçirsə belə yüksək zəhmət haqqı olan yaşlı işçilərin maaşlarında azalma edilmir. Böhranın aradan qaldırmaq məramı ilə yapon şirkətləri 2008-ci ildən cavan işçilərin işə götürülməsini və onların təhsillənməsinə ayrılan xərcləri azaltdılar. Eyni zamanda 65 yaşına çatmış yaşlı pensionerlər daha aşağı vəzifələrə keçirilərək əvvəlki əmək haqlarının ½ hissəsi ödənilməyə başlandı. 2013-cü ildə yaşlıların məcburi olaraq təqaüdə göndərilməsi qanunla qadağan edildi. Hazırda yapon şirkətlərində "müvəqqəti" işçilərin sayı artmadadır, çünki onları işdən çıxarmaq daha asan olur.[209]

2015-ci ildə Yaponiyada siyasi vəziyyət sabit idi. İqtisadi sahədə hökumət dayanıqlı inkişaf yolunu tutub. S.Abe kabinetinin iqtisadi siyasəti ilk dövrlərdə müsbət nəticələr versə də sonradan bir sıra çətinliklərlə qarşılaşmış oldu. 2015-ci ildə zəif daxili inkişaf olsa da Yaponiya iqtisadiyyatı böhrandan tam çıxa bilməmişdir. İqtisadiyyatın digər durğunlaşdırıcı amilləri Yaponiyaya qonşu

---

[207]БабичБ.Японское «экономическоечудо»: причиныдостиженийинеудач. (Перевод с английского В.И. Сотникова). Журн. «MegatrendReview». – 2007. – Vol. 3 (2). – P. 59–94.

[208] Варламова М. Семейная политика в Японии // Демоскопweekly. 10-23 март, 2014, №589-590, с.1

[209]ГалееваА.А. Корпоративная культура убивает Японию. Культура в современном мире. 2012.№ 4. [Электронный ресурс]. Режим доступа: URL: http :// infoculture. rsl. ru

olan ölkələrin və Çinin də iqtisadi durğunluq keçirməsi olmuşdur. Bu vəziyyət Yaponiyanın ixracatının zəifləməsinə gətirmişdir. HazırdaYaponiya aparıcı dövlətlərdəndir və dünya üzrə DMM-un 10%-i onundur. Hazırkı zamanda dünya iqtisadiyyatında Yaponiyanın rolu azalsa da, hazırda ölkə təsərrüfatın tərəqqisilə əlaqədar ABŞ və ÇXR-dən sonra üçüncü yerdə durur.[210]

Bir sıra müəlliflər Yaponiya iqtisadiyyatının keçid mərhələsində olduğunu bildirirlər. Rusiya tədqiqatçısı A.V.Belov bu keçidi belə açıqlayır:

1.Yaponiya təbii iqtisadi yüksəlişdən "süni" iqtisadi yüksəlişə keçir;

2. Yaponiya liberal bazar iqtisadiyyatına keçir;

3. Yaponiya iqtisadi həyatın milli təşkilindən qlobal təşkilinə keçir.[211]

Yaponiyada tədris və tibb ilə bağlı uğurlara görə "demoqrafik inqilab" vaqe olub. Yaponiyanın sosial siyasəti sosial müdafiə sistemi üzərində qurulan korporativ modelə uyğundur və belə bir ardıcıllıqla realizə olunur:

-İstehsalçılara inzibati-hüquqi yardım təkmilləşdirilir;

-İnhisarçılıq əleyhinə ciddi tədbirlər görülür;

-Diferensiallaşmış tibbi sığorta, məşğulluğun sığortası, həssas sosial təbəqələrin güzəranının təkmilləşdirilməsinə, siyasi dəyişikliklərin qarşısının alınmasına, sosial-iqtisadi tərəqqinin təminatına yönəlir.

-Hökumətin idarəçiliyi sosial tərəfdaşlığa zəmanətçi qismində təzahür edir.

-Orta və kiçik sahibkarlığa yardım edilir.[212]

---

[210] Обзор экономики и внешнеэкономической деятельности Японии за 2015 год. Торговое представительство Российской Федерации в Японии. Токио, апрель 2016 г., s.8

[211] Белов А.В. «Япония: экономика и бизнес». Санкт-Петербург: Изд. «Санкт-ПетербургскогоУниверститета», 2017, с.8 (387с.)

[212]Социальная политика в Японии.© Журнал исследования социальной политики. Том №1, стр.125-144

Yaponiyada təhsil dövlətin himayəsi altındadır. Dövlətin Əsas qanununda (1947) vurğulanır "Hər kəs ...öz qabiliyyətinə uyğun təhsil almaq hüququna malikdir. ...hər bir kəs öz himayəsində olan uşaqların məcburi təhsil almasını təmin etməlidir. Məcburi təhsil pulsuzdur".[213] Yaponiyada tədris 9 illikdir və məzunların 80%-i təhsillərini universitetlərdə, kolleclərdə və sənət məktəblərində alırlar. Təhsilinin əsas prinsipləri və məramı – şəxsiyyətin hərtərəfli inkişafı, zehni və bədən sağlamlığı, tərbiyəli olması, həqiqət və ədaləti sevməsi, əməyə, dəyərlərə hörmət etməsi, dərin məsuliyyət hissinə malik olması, mənəvi müstəqil olması, dinc sosium qurmaq bacarığının formalaşmasıdır .Y.Nemətov bildirir: "Yaponiyada təhsil sahəsində əldə edilmiş uğurlar təhsilə ayrıca insanın və bütövlükdə ölkənin həyat səviyyəsinin yüksəldilməsinin əsas elementi kimi baxılmasıdır. Təhsil millətin iqtisadi, sosial və mədəni inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir.[214]

Yaponiyada orta təhsilə diqqət xüsusidir. Yapon məktəbinin məqsədi – 1. Uşağın mənəvi və fiziki təkamülü; 2.Onun yaradıcılığının və müstəqil təfəkkürünün təkmilləşdirilməsi; 3. Uşaqda insana və təbiətə qayğıkeş, xeyirxah münasibət tərbiyə edilməsi; 4. Təhsilə və tədrisə vicdanlı münasibətdir.

Yapon müəllimlərindən mənəvi və fiziki sağlam olması, musiqi qabiliyyətinin olması, bilikli, savadlı, milli adət-ənənələri yaxşı bilməsi tələb olunur.[215] Şagirdlərin biliklərinin qiymətləndirilməsi zamanı "Qərb texnologiyası və Şərq milli əxlaqı» başlıca meyar olaraq götürülür.[216] Beləliklə, Yaponiya təhsil sistemi tələbələrin ruhunu, ağlını, zəkasını və fiziki varlığını inkişaf etdirməyə yönəlib.

---

213 Конституция Японии. https://legalns.com/download/books/cons/japan.pdfc.5

214 Нейматов Я. «Образование XXI веке», с.168

215 Зверева Н.Н. Успехи и проблемы современной японской школы. // журн. «Психология и педагогика», 2009, №16, с.326

216 Зверева Н.Н., Муравьева О.Н. Опыт модернизации японской системы образования: история и современность // Вестник Томского государственного университета, 2008, № 310, с.165 (с.163-168)

Yaponiyada dövləti səhiyyə sistemi tibbi sığorta əsasında qurulub. N.S.Qriqoryeva Yaponiyanın bu sosial siyasətindən bəhs edərək, göstərir ki, "Yaşlı adamlara tibbi xidmət haqqında" qanuna (1986) görə xüsusi xəstəxanalar və özəl müalicə müəssisələri açılmışdır. Səhiyyənin 10 illik inkişaf strategiyasına (1989) görə bələdiyyələr yaşayış yerində və evlərdə yaşlı insanlara yardım göstərirlər. Həmin qanuna edilmiş əlavələrə əsasən (1995) Yaşlılara münasibətdə siyasət üzrə Şura yaradıldı, qocalara pulsuz tibb bacısı qulluğu ayrıldı.

2000 – 2004-cü illərə dair Hökumət Planına əsasən yaşlılara qayğı daha da genişləndirildi. Hazırda yaşlılara tibbi yardım xidməti və qulluq sistemi ölkənin bütün əhalisindən tutulan vergi hesabına ödənilir. Bu məqsədlə tibbi sığorta fondlarından 70%, milli büdcədən 20%, əyalət, rayon, kənd büdcəsindən 10% ayrılır. Ölkənin 65 – 70 yaşdan yuxarı yaşlıları və müalicə olunan insanları tibbi sığortadan yararlanırlar, yaşlı insanların müalicəsi planlı xarakter daşıyır.

Yaponiyanın səhiyyə sistemində daim islahatlar aparılır. "Səhiyyə sistemində islahatların əsas istiqamətləri" (2005), "Səhiyyə sisteminin struktur islahatları haqqında" qanunlar (2006) təsdiq edilmişdir.[217]

Yaponiyada tibbi sığortanın maliyyələşdirilməsi və idarə edilməsində dövlətlə yanaşı digər hakimiyyət orqanları da iştirak edir. Yaponiyada səhiyyə sistemi məcburi tibbi sığorta üzərində qurulmuşdur və ölkənin bütün əhalisinə seçilən tibbi müəssisəyə uyğun tibbi kömək edilir. Dövlət əhalinin sağlamlığnın mühafizəsinə zəmanət verir. İşləyən əhali əsasən iri müəssisələrin rəhbərləri tərəfindən sığorta olunur. İşləməyənlər, o cümlədən azad peşə sahibləri dövlət tərəfindən sığorta olunurlar. Müəssisələrdə zəhmət

[217]Григорьева Н.С. Охрана здоровья пожилых людей в Японии. ЭНСР Экспресс-выпуск №1(12) 2007, стр.61-69

haqqının 8%-i səhiyyəyə ayrılır. Tibbi sığorta olsa da tibbi yardım almaq istəyənlər müalicənin 10%-ini şəxsən ödəyirlər.[218]

Tibbi sığorta bütün əhaliyə aid edir:

-özəl sektorun muzdlu işçilərinin sağlamlığının sığortası;

-dənizçilərin sığortası;

-dövlət müəssisələrinin işçilərinin sığortası;

-işləməyən, fərdi təsərrüfatda çalışanların sağlamlığının sığortası aid edilir.[219]

Yaponiyada sosial təminat sığorta sistemi üzərində qurulmuşdur. V.İ.Penderskoya və O.N.Sorokina Yaponiyanın sosial təminat sisteminə ictimai kömək, sosial xidmət, sosial sığorta, ictimai sağlamlıq və qocalar üçün azad səhiyyə xidmətini aid edirlər.[220]

Sosial sığorta əmək qabiliyyəti olmayanları nəzərdə tutur, məcburi, yaxud könüllü qaydada yaradılan sığorta fondları və həmçinin əhalini işlə təmin edən fondlara toplanan sığorta ödənişləri və dövlət büdcəsi əsasında maliyyələşir.Yaponiyada sosial sığorta sistemi ümummilli maraqlara xidmət edir. Hazırda Yaponiyada tibbi xidmət sağlamlıqla bağlı sığorta fondları tərəfindən maliyyələşir.[221]

Yaponiyada həyat keyfiyyəti göstəricisinə görə ölkə beynəlxalq arenada ilk yerdədir.[222] Tədqiqatçılar Yapon inkişaf modelinin başlıca ünsürlərini belə müəyyənləşdirirlər: 1.İnkişafa yönəl-

---

[218] Гареева И. А. Модели и национальные системы здравоохранения: состояние и тенденции развития. Вестник СПбГУ. Сер. 12. 2010. Вып. 2, С.16

[219] Социальное обеспечение населения: опыт Японии. // Международный журнал "Проблемы теории и практики управления", № 4/97, с.106-110

[220]Бендерская В.И., Сорокина О.Н. Система социального страхования в Японии / Международный экономический форум 2011. © Институт экономики и права Ивана Кушнира, 2010-2019. http://be5.biz/ekonomika1/r2011/00635.htm

[221]Жилкина М.И. Государственное регулирование страхового рынка в зарубежных странах. // Финансовый бизнес, №1, 2009, с.27

[222] Ивановская О.Ю. «Рейтинговая оценка страховых компаний мировым рейтинговым агентством A.M.Best COMPANY». Финансы №2, 2010.

miş dövlət; 2.İdarə olunan bazar; 3.Ömürlük məşğulluq; 4.İxraca yönümlülük; 5.Yeni texnologiyadan istifadə; 6.Milli gəlir bölgüsündə ədalətlilik.[223]

Yaponiya modelinin üstün və əsas təsiredici məqamlarından biri Yapon mədəniyyətidir. Müasir Yaponiyada iki tip: ənənəvi mədəniyyət və Avropa tipli mədəniyyət mədəniyyət mövcuddur. Qloballaşma şəraitində Yaponiyada akkulturasiya problemi mövcuddur və bu prosesin ənənəvi mədəniyyətə qarşı olması, ənənələri dağıtmaq imkanları, yüksək milli mədəniyyəti əzərək ölkədə kütləvi mədəniyyətin inkişafına yol açır.[224]

Akkulturasiya prosesi bilavasitə qloballaşma prosesi ilə bağlıdır. Mədəniyyətin qloballaşması nəticəsində yapon mədəniyyəti Yaponiya Meydzi restovrasiyası və amerikan işğalından sonra üçüncü dəfədir ki, xaricilərə açılır. Cəmiyyətin tərəqqisi və harmonik inkişafına yönələn, Şərq və Qərb ənənələrini uğurlu sintez edən Yapon metodu ilə tanış olmaq zəruridir. Yaponiya Avropa müstəmləkəçiliyi dövründə müstəmləkə olmayan yeganə Asiya dövlətidir və Qərbin özünəməxsusluğunu öz mədəniyyətinə heç bir xələl gətirmədən istifadə etməyi bacarmışdır. Hazırda yerli hökumət Yaponiya kütləvi mədəniyyətinin Asiya ölkələrində yayılması siyasətini aparır.[225]

Beləliklə, müasir dövrdə Yaponiyanın mədəniyyət siyasəti nəticəsində qloballaşma Yaponiyada homogenizasiyaya səbəb ola bilmədi, dinamik inkişaf edərək, böyük müxtəlifliyə və çoxqütblülüyə yol açdı. Mənəvi-mədəni dəyərlərin mühafizəsi Yaponiyanın

---

[223] Бабич Б. Японское «экономическое чудо»: причины достижений и неудач. // Япония в Восточной Азии: внутреннее и внешнее измерения., Москва, МГИМО – Университет 2009, с.22-23

[224]СтепановаО.А. «О японской массовой культуре начала XXI в. в сопоставлении сзападной культурой». Этнографическое обозрение OnlineМай 2007. http://journal.iea.ras.ru/online., с.10

[225] Мошняга П.А. Особенности глобализации культуры в Японии (философский анализ). Автореферат диссертации на соискание ученой степени кандидата философских наук (по специальности 09.00.13 — религиоведение, философская антропология, философия культуры)., Москва, 2009, с.1

siyasətinin əsas istiqamətini təşkil edir. Xaricdə Yaponiya mədəniyyəti onun iqtisadi tərəqqisinin başlıca ünsürü olaraq təyin edilir və yapon şirkətlərinə sərmayə qoyulmasına əsas olur. Yapon istehlak malları, konstruktor işləri, idarəetmə modeli və vasitələri, əmək motivasiyasının stimullaşdırılması metodikası və təsərrüfatın dövlət tənzimlənməsi metodları getdikcə daha çox xaricilər tərəfindən tələb olunan məhsula və Yaponiyanın mədəni ixracatının əhəmiyyətli ehtiyatına çevrilir.[226]

Yaponiyada sosial dövlətin inkişafında əldə edilən uğurlar bilavasitə milli dövlətçilik ənənələrilə yeni dövrün idarəetmə xüsusiyyətlərinin uğurlu sintezinə nail olunması ilə bağlıdır. Yaponiya öz mədəni köklərindən ayrılmadan, fərdi maraqları kollektivin, cəmiyyətin və dövlətin maraqları kimi müəyyən etməklə dünyanın inkişaf etmiş. ölkələri sırasına daxil olmuşdur. Burada cəmiyyət fərd, fərd isə cəmiyyət üçün çalışır və ümuminin rifahına nail olur.

## 2.3. Sosial dövlətin sosial-demokratik modeli

Sosial dövlətin sosial demokratik modeli iqtisadi sosiallaşma tələb edir. Qərb tədqiqatçısı Espinq Anderson bu modelə universalizm prinsipindən yanaşır. Sosial dövlətin bu tipi yalnız fəhlə sinfinə və yoxsul təbəqəyə deyil, həm də orta sinfə yönələn sosial siyasət tətbiq edir. Burada fəhlə sinfinin və yoxsul təbəqənin hüquqları orta sinfin hüquqları səviyyəsinə yüksəldilir. Sosial dövlətin sosial demokratik modelində cəmiyyətin universal sığorta sistemi vardır. EspinqAnderson yazır: "Bu model bazarı sıxışdırır, universal həmrəyliyi tənzimləyir. Hamı qalibdir, hamı asılıdır və hamı özünə görə ödəməyi borc bilir. Dövlətlə bazarın, fəhlə sinfi və orta sinfin dualizminə dözmək üçün sosial demokratlar minimal deyil, ali standartlar səviyyəsində bərabərliyə yönələn sosial dövlət formalaşdırmaq məqsədi daşıyırlar".[227] EspinqAnderson sosial de-

[226]МошнягаП. А.Специфика культурной политики Японии в условиях глобализации. Культурная политика, 2009, №2, s.51, 55

[227]Costa Esping-Andersen "The three worlds of welfare capitalism". Princeton University Press. Princeton NewYersey, 1993, ЭспингАндерсон, c.27-28

mokratik modeldə yalnız ailənin özünü dolandırması üçün xidmət etməsini deyil, bunun fərdi müstəqilliyin maksimallaşdırılması əsasında reallaşdırılmasını təklif edir. E.Anderson sosial dövlətin sosial demokratik modelini sosializmlə liberalizmin (və ya kapitalizmin) sintezi olaraq təyin edir. Nəticədə sosial dövlətin bu tipi yalnız həssas təbəqələrin deyil, bütövlükdə cəmiyyətin qayğısına qalır. Dövlət davamlı olaraq sosial yardımları və cəmiyyəti təkmilləşdirir, sosial problemləri minimallaşdırır, gəlirləri maksimallaşdırır. Sosial dövlətin sosial demokratik modeli qadınlara münasibəti dəyişdirir, feminist cəhdləri reallaşdırır. Bu tip dövlət sosialist ideyalarından imtina etmədən öz proqramını bazar iqtisadiyyatının, demokratiyanın konkret şəraitindən çıxış edərək həyata keçirir. E.Anderson sosial dövlətin üç tipini fərqləndirir , burada ideal tip yoxdur və təmiz şəkildə mövcud olmurlar, bir-birlərindən müəyyən elementləri əxz edirlər. ABŞ-ın liberal dövlət tipində sosial demokratik elementlərlə yanaşı Avropanın mühafizəkar rejimləri, liberal və sosial demokratik modellərin bəzi cəhətlərini mənimsəmişlər. Müəllif üç modelin mövcudluğu səbəbini göstərərkən müxtəlif ölkələrdə onların yaranması zərurətini açıqlayır. E.Andersona görə solların zəif olduğu anqlosakson ölkələrində liberal modellər, güclü mühafizəkar və xristian demokratik partiyaların hakimiyyətdə olduğu ölkələrdə sosial dövlətin mühafizəkar modeli, güclü sol partiyaların olduğu Şimali Avropa – Skandinaviya ölkələrində sosial demokratik dövlət tipi formalaşmışdır.[228]

Sosial demokratik dövlət nəzəriyyəçilərinə görə, bu tip demokratik mahiyyətli dövlət istehsal emalatxanalarının, kooperasiyaların, birliklərin təşkilində muzdlu fəhlələrə kömək edəcək və nəticədə tədricən burjuaziya iqtisadi fəaliyyətin bütün sferalarından sıxışdırılıb çıxarılacaq. Sosial demokratiya ideyalarının tərəf-

---

[228]Costa Esping-Andersen “The three worlds of welfare capitalism”. Princeton University Press. Princeton New Yersey, 1993, ЭспингАндерсон, с.27-28

darları sosializm cəmiyyətinin zorakılıqla, güc vasitəsilə yaranmasına inanmırdılar.[229]

Rusiyalı tədqiqatçı V.Q.Fedotovaya görə "dövlət – burjuaziya – işçilər müqaviləyə əsaslanan milli sosial demokratiya yarada bilirlər".[230] Müəllif bu tip dövlətlərdə fəhlələrin əmək haqqının artırılmadığını, burjuaziyanın fəhlələri işdən azad etmədiyini, dövlətin bu müqavilələrə yardım etdiyini bildirir.

Sosial demokratik yönlü sosial dövlətin arbitraj və sivilizasion funksiyaları vardır. Sosial demokratik sosial dövlət vətəndaşların əmin-amanlığına zəmanət verən sosializm ünsürlərinə malik post-kapitalist dövlətidir. Qərbdə bu tipin başlıca amalı dövlət – vətəndaş cəmiyyəti münasibətləri əsasında sosial müqavilənin institutlaşmasıdır. Burada dövlət, işəgötürənlər, həmkarlar ittifaqları, ictimai assosiasiyalar, QHT-lər həmrəylik, zəruri hallarda isə, subsidiyalı yanaşma əsasında ümumi razılaşmaya gəlirlər. Dövlət cəmiyyətlə bağlı cavabdehlik daşıyır. Bütün bu siyasət nəticəsində industrial Qərbin sosial demokratik dövlətində bazar təsərrüfatı bazar iqtisadiyyatına çevrilir. Sosial demokratik dövlətlərin demokratik cəmiyyətin qurulmasında əhəmiyyətli təsirləri olur. Dövlətlər sosial ədalət, mütərəqqi vergi və onun yenidən bölüşdürülməsi əsasında səmərəli siyasət həyata keçirirlər. Sosial demokratik dövlətlər olan Skandinaviya yarımadası ölkələri – İsveç, Norveç, Finlandiya və başqaları sosial dövlətin nord modelinə aid edilir. Nord modelinə aid sosial demokratik dövlət fəhlə hərəkatı ilə biznesin qarşılıqlı kompromisinə əsaslanır. Burada həmkarlar ittifaqlarının siyasəti zəhmətkeşlərin müxtəlif qrupları arasında həmrəylik prinsiplərinə əsaslanır.

D.İsmayılova görə , sosial demokratik dövlətdə:

---

[229]İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, social demokratiya (monoqrafiya). Bakı: «Adil-oğlu», 2005, S.202-203, 205-206(344 s.)

[230] Федотова В.Г. Капитализм, глобализация и социальноегосударсвто//Вестник ВГУ, серия: Философия, №4, 2015, с.81 (с.78-81)

-Azad və bərabər əməkdaşlıq edən insanlar hakimiyyət üzərində nəzarət hüququna malikdirlər;

-Qanunun aliliyi məsuliyyət ilə əlaqələndirilir.[231]

Bu dövlətlərdə həm zəhmət və sərmayə, həm də sosial-siyasi proseslərdə konsensusa cəhd olunur. Bu tip ölkələrdə partiyalar və müxtəlif ideoloji istiqamətli hərəkatlar arasında münaqişəsiz qarşılıqlı əlaqə yaranır, sosial istiqamətli iqtisadi siyasət rifah dövlətinin qorunmasına yönəlir. Nord modelinin özünəməxsus xüsusiyyətlərindən biri iqtisadiyyatın maksimal məşğulluğun və gəlirin bərabərləşdirilməsinin təmin edilməsi məqsədlərinə tabe olmasıdır:.[232]

İsveç və Norveçdə individin mənşəyindən, yaşından, gender mənsubiyyətindən, peşə və əmək mövqeyindən asılı olmadan sosial nemətlərə bərabər nail olmaq hüququ vardır. Bu ölkələrin uğurlu inkişafı mütəxəssislərin marağına səbəb olmuşdur. ABŞ-ın Vermont ştatından senator Bernis Sabders 2016-cı ildə bildirmişdi: "hamı, o cümlədən uşaqlar, yaşlılar, qüsurlu insanlar üçün yüksəl həyat standartları təmin edən sistem yaradılmasında Skandinaviya ölkələrinin praktikasından yararlanmaq gərəkdir".[233]

Beləliklə, Avropanın Skandinaviya ölkələrində bərqərar olmuş sosial demokratik dövlət modelinin ümdə prinsipi sosial təminatın universal prinsipinə əsaslanmasıdır. Bu ölkələrdə bütün vətəndaşlar ehtiyaclarından və iqtisadi fəallıqlarından asılı olmadan büdcədən sosial təminat ala bilərlər. Həmin dövlətlərdə əlillərə ciddi dövlət yardımı edilir, işləyən əlil əməkdaşların əmək haqqının böyük qismini dövlət ödəyir. Sosial dövlətin bu tipi bəzən "Skandinaviya", bəzən isə Nord modeli adlandırılır. Bu model dövlətlərdə həssas əhali qrupuna yardım göstərilir. Sosial demok-

---

[231]İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, social demokratiya (monoqrafiya). Bakı: «Adil-oğlu», 2005, S.202-203, 205-206(344 s.)

[232]Jochem S. Skandinavian labour and social policy.Modelsfor a preventive welfare state. Friedrich Ebert Stiftung International Policy Analysis. 2011, p.2

[233]Bernie Sanders. American Dreamis in Denmark. CNN Politic. 17.02.2016.YRL: http: //edition.cnn.com/2016/0211171politics/berine-sanders-2016-denimark-democratic-socialism

ratik dövlətlər həmrəyliyə, sosial vətəndaşlığa istinad edir. Modelin iqtisadi əsasları səmərəli istehsal, tam məşğulluq, işəgötürənlərlə həmkarlar ittifaqlarının güclü birliyi, ictimai məhsulun yüksək səviyyəli yenidən bölgüsü üzərində qurulur.

### 2.3.1. Sosial demokratik dövlətin İsveç modeli

"Skandinaviya ölkələri möcüzəsi" Norveç, Danimarka və İsveç dövlətlərinin inkişafını ifadə edir. Buradakı rifah dövlətinin əsas xüsusiyyətləri maddi nemətlərin hamı üçün əldə edilmə imkanlarının olması, çoxsaylı imtiyazlar və cəmiyyətdə yüksək səviyyəli iştirak mədəniyyəti ilə müəyyənləşir.[234]

İsveçin inkişaf meylləri Avropa sosial siyasət modelinin ənənəvi əsaslarını əxz etmişdir. Modelin əsasında insan həyatının daimi dəyərliliyi prinsipi durur, məramı insanın şərəfinə toxunmadan onun əmniyyətinə və tərəqqisinə gətirəcək strukturların yaradılmasıdır.[235] "İsveç modeli" bir neçə konteksti əhatə edir:

-Dövlət iqtisadiyyatın tərəqqisinə və dinamikasına əsaslı təsir edərək iqtisadi sistemin tipini şərtləndirir;

- həmkarlar ittifaqları əmək bazarının keyfiyyətlərinə müvafiq kollektiv danışıqlar aparır;

-dövlətin bölüşdürücü funksiyası əmək bazarında siyasi fəallığın və sosial iqtisadi yüksəlişin prioritetlərini müəyyənləşdirir;

-yaşayış səviyyəsi və keyfiyyətini yüksəldəcək sosial iqtisadi və siyasi inkişaf amilləri toplusu, həmçinin sosial siyasətin sərbəstliyi.[236]

---

[234]Большаков Г.А. Роль модели государства всеобщего благоденствия в иммиграционной политике стран Скандинавии. Теория и практика общественного развития [Электронный ресурс]. 2013. № 5. URL: http://teoria-practica.ru/-5-2013/politics/bolshakov.pdf

[235]Дрегало А.А., Ульяновский В.И. Социальная работа в Швеции. - Архангельск, 1996, с.19

[236]БазылевН.И.,БазылеваМ.Н.Социально-ориентированнаярыночная экономикаиееэволюция(статья).Экономический вестник. Выпуск 3, № 2.2003, С. 288–313

İsveç inkişaf etmiş ölkələr siyahısına daxil olduqdan sonra "İsveç modeli" anlayışı formalaşmışdır. İsveç modeli fəhlə hərəkatı ilə özəl sənaye kapitalı arasında kompromis və qarşılıqlı məhdudlaşdırmaya əsaslanır. İsveç modelinin fərqləndirici tərəfləri tam məşğulluq və gəlirlərin bərabərləşdirilməsi məsələlərinin aparıcı yer tutmasıdır. İqtisadçılar İsveç modelini tam məşğulluq və qiymətlərin sabit saxlanması yolu ilə keysiyan tipli iqtisadi siyasətin aparılması ilə xarakterizə edirlər. İsveç modeli İsveç iqtisadiyyatının qarışıq olması, bazar münasibətləri ilə dövlət tənzimləməsini özündə ehtiva etməsi, istehsal sahəsində şəxsi mülkiyyətin və bölgü sahəsindəictimailəşdirmə elementlərinin üstünlüyü ilə fərqlənir. İsveç modelinin özünəməxsusluğu 1814-cü ildən xarici siyasətdə dəyişməyən neytrallıq, yeni formasiyaya dinc vasitələrlə keçid, münaqişə və müharibələrə qatılmamaq və davamlı şəkildə Sosial-demokrat fəhlə partiyasının hakimiyyətdə olmasıdır.[237]

İsveç modelinin təşəbbüskarı Q.Mürdal texnika və texnologiyanın inkişafını sosiumun tərəqqisi ilə əlaqələndirərək,cəmiyyətdə sabitliyə nail olmağın mümkünlüyünü vurğulayırdı. Onun fikrincə, dövlət – sahibkarlar – zəhmətkeşlər arasında üçtərəfli razılaşmaya əsasən –

- fəhlələr iri miqyaslı siyasi aksiyalar, ümummilli tətillər keçirməkdən və mülkiyyətin milliləşdirilməsi çağırışlarından imtina ediblər;
- sahibkarlar dövlətin sosial islahatlar keçirmək hüquqlarını tanıyıblar;
- dövlətin maksimal dərəcədə bazar iqtisadiyyatına müdaxiləsi qəbul edilib.

İsveçdə sosial əməkdaşlıq sosial qruplarının sosial iqtisadi maraqlarını tənzimləməyə yönəlir. Sosial dialoq isə dünyada iqtisadi və sosial siyasətin üstünlüklərini müəyyən edir, böhranlar dövründə ictimai razılıq əsasında lazımi ölçülər götürür. Sosial əməkdaşlığın reallaşdırılması əmək münasibətləri iştirakçılarına bərabər

---

[237]Волков А.М. Шведская модель: сохранилась она или нет? Тезисы доклада к заседанию Ученого совета ИМЭМО РАН 25 февраля 2015 г. https://www.imemo.ru/files/File/ru/sc/2015/25022015_TEZ.pdf

hüquqlar verir, tərəfdaşlar arasında aparılan danışıqlarda konsensus əldə edilməsinə, könüllü şəkildə cavabdehliklər götürməyə, məsuliyyət daşımağa şərait yaradır.

Bazar münasibətlərinə söykənən İsveç iqtisadiyyatı şəxsi mülkiyyət və tələbatların ictimailəşməsi, geniş dövlət tənzimlənməsi ilə fərqlənir.[238] İsveç modeli novatorçu sosial siyasət ilə əsrlərlə formalaşmış siyasi ənənələrin uyğunlaşdırılmasını ehtiva edir. İsveç modeli sistemli dəyişikliklərə qarşı deyil, lakin inqilabi faciələri inkar edir. Bəziləri bu modelin uğurlarını ölkənin iqtisadi tərəqqisi, digərləri isə sosial siyasətilə bağlayırlar. Bu sosial siyasət insanın anadan olandan ölüm anına qədər sosial müdafiə olunmasını ehtiva edir. Bu modelin təməlində tərəqqi etmiş vətəndaş cəmiyyəti dayanır.[239]

İsveç modelinin əsas tərəflərindən biri sosial sahəyə və bilavasitə həssas təbəqələrə xüsusi diqqətin ayrılmasıdır. İlk dövrlərdə bu sistem "kasıblara kömək" adlanırdı. 1763-cü ildən özünüidarəetmə təsisatları kasıb insanlara kömək edilməsinə cavabdehdir. İlk dövrlərdə "layiqli ehtiyacı olanlar" dedikdə, qüsurlu, qayğısına qalacaq qohumları olmayan insanlar nəzərdə tutulurdu.[240]

XX yüzilliyin əvvəllərində könüllü cəmiyyətlər kasıblara mənfi ictimai münasibəti dəyişmək üçün uşaqlara, psixi xəstələrə, qocalara və alkoqol aludəçilərinə xidmət edən xüsusi bölmələr yaradılması təşəbbüsü etdilər.[241]30-cu illərdə İsveçdə ümumi rifah

---

[238]Вашко И.М. Развитие социально-трудовых отношений в Швеции / И.М. Вашко // Государственное регулирование экономики и повышение эффективности деятельности субъектов хозяйствования: Сборник научных статей третьей междунар. науч.- практич. конф., Минск, 24-25 апреля 2009г.: в 2-х ч../Акад упр. При ПрезидентеРесп. Беларусь. Минск, 2009. Ч. 2. С.239-241.

[239]Плевако Н.С. Шведскаямодель:прошлоеинастоящее. ИнститутЕвропыРАН. Аналитическая записка №11, 2015 (№11), с. 2

[240]БьорнГустафссон. Социальная помощь в Швеции. Международный опыт организации системы социальной помощи. На примере пяти стран.Москва, 2004. Международное бюро труда, 2004.С.31, 32

[241]Свен Э., Ольссон Хорт. «От призрения бедных к государству благосостояния». В книге: Ян Мелин, Альф В.Юханссон, Сюзанна Хеденборг «История Швеции», Изд. «Весь мир», М., 2002,с.241

cəmiyyətinə dair qanunvericilik sənədləri hazırlanmağa başlandı. Sosial-demokratlar öz proqramlarında ümumi rifah cəmiyyətini folkhem – "xalq üçün ev" adlandırırdılar. Burada vergilər sistemi yüksək gəlirli şəxslərin vergilərinin artırılmasına və gəlirlərin az təminatlı əhali arasında bölüşdürülməsinə yönəlmişdi. Proqramda ümumi əmək təqaüdünün tətbiqi məsələsi qoyulurdu, əmək təcrübəsi əsas götürülürdü, sosial müdafiənin təkmilləşdirilməsinə, mənzil fondunun yeniləşdirilməsinə və məktəb islahatları aparılmasına, ölkədə doqquz illik icbari təhsilin tətbiqinə diqqət ayrılırdı. Bu tədbirlərin realizəsi zamanı sosialist inqilabı və istehsal vasitələrinin milliləşdirilməsi vacib sayılmırdı. İsveç hökuməti 1930-cu illərdə öz proqramının çox cüzi tərəfini reallaşdırdı.

Sosial-demokratlar inqilabi zorakılıqlardan uzaq olub, İsveç cəmiyyətinin formalaşdırılmasında islahatlar aparılmasını zəruri bilirdilər .Onlar siyasi sahədə ümumi seçici haqları və parlament mübarizəsi əsasında tədricən kapital hakimliyinin məhdudlaşdırılması, sosial sahədə ümumi rifah dövlətinin yaradılması, iqtisadi sahədə iqtisadi demokratiyanın inkişaf etdirilməsi ideyasını prioritet götürürdülər. İsveç çox sayda sosial başlanğıcların pioneri hesab edilir. 1938-ci ildə sosial əməkdaşlıq institutu yaradıldı. Həmin vaxt İsveç həmkarlar ittifaqı və İş təminatı üzrə İsveçrə sahibkarlar federasiyası əmək mübahisələrinin dinc vasitələrlə sakitləşdirilməsi və razılaşmaların bağlanması zərurətini ehtiva edən sənəd qəbul edildi. İsveç əmək bazarında aktiv siyasət aparılmasına, büdcədən böyük məbləğdə pul ayrılmasına nail oldu, ümumi rifah cəmiyyətinin yaradılması kursunu tətbiq etdi.[242]

XX yüzilliyin 40-cı illərində sosial istiqamətli islahatlar zəiflədi. Müharibədə İsveç hökuməti özünü neytral elan etdi və dörd iri demokrat partiyasının daxil olduğu koalisiya yaratdı. Bütün müharibə dövründə hakimiyyəti öz əlində saxlayan bu koalisiya iqtisadiyyata və istehsala nüfuz etdi. Müharibə sona çatan kimi koalisiya hökuməti istefa verdi və sosial-demokratlar hakimiyyətə gəldilər. Müharibədən sonrakı illər sosial-demokratlar üçün "məhsuldar

---

[242]Мелин Я., Юханссон А.В., Хеденборг С. История Швеции. М., Изд. «Весь мир»,2002, с.248

dövr"dür. Həmin vaxtlarda ardıcıl olaraq sosial islahatlar keçirilirdi. İnsanın işləyib-işləməməsindən asılı olmayaraq təqaüd yaşına çatanlar qocalığa görə təqaüdlə təmin edilirdilər və bu yaşayış minimumuna qədər qaldırılmışdı. Eyni zamanda xəstəliyə görə ümumi sığorta tətbiq edildi. 1947-ci ildən uşaqlara müavinət verilməyə başlandı, sosial evlərin tikintisi fəallaşdırıldı, az gəlirli ailələrə dövlətdən götürülən borclar və subsidiyalar hesabına mənzil almağa imkan verirdi. Əməyin mühafizəsi haqqında qanuna (1948) görə illik ödənişli məzuniyyətin müddəti 2 – 3 həftəyə qədər artırıldı. 1950-ci ildə sosial-demokratlar doqquz illik təhsillə bağlı proqram təsdiq etdilər.[243] XX yüzilliyin ortalarından "kasıblara yardım" ifadəsi "sosial yardım" ("social hjälp") adlandırıldı.[244] 1951 – 1957-ci illərdə sosial proqramların tətbiq edilməsinə, infilyasiya və məşğulluğun təmin edilməsinə xüsusi diqqət ayrıldı. 1957 – 1960-cı illərdə yaşlılığa görə təqaüdlər məsələsi qaldırıldı. Pensiya sistemində islahatlar aparılması zərurəti yetişmişdi, belə ki, fəhlələrlə dövlət qulluqçularının təqaüdü arasında böyük fərq mövcud idi. Fəhlələrə ancaq pensiya yaşına görə maaşın 1/10-i qədər təqaüd verildiyi halda dövlət qulluqçuları əmək təcrübəsinin 2/3-i qədər təqaüd alırdılar. 1957-ci ildə referendum keçirildi və məcburi əlavə əmək pensiyasına dair sərəncam verildi. Bu illərdə məktəbəqədər müəssisələr şəbəkəsi genişləndirildi, xəstələrə və yaşlılara qayğı sistemi ümumi rifah cəmiyyətinin ideallarına uyğun şəkildə təkmilləşdirildi, iş günü qısaldıldı; dörd həftəlik ödənişli məzuniyyət tətbiq edildi; doqquz illik icbari təhsil tətbiq edildi, doqquz illik təhsildən sonrakı gimnaziya təhsili sahəsində islahatlar aparıldı, universitetlər şəbəkəsi genişləndirildi. 60-cı illər İsveçdə sosial islahatların dərinləşdirilməsi dövrüdür. 70-ci illərdə İsveçdə sosial

---

[243]Коновалова А.А.Сравнительный анализ пенсионной системы Швеции и России. Студенческий научный журнал «Грани науки». 2014. Т.2,№3. С.8-10.

[244]БьорнГустафссон. Социальная помощь в Швеции. Международный опыт организации системы социальной помощи. На примере пяти стран.Москва, 2004. Международное бюро труда, 2004.С.31, 32

demokratların 44 illik hakimiyyətinə son qoyuldu. Həmin illərdə iqtisadi böhran ölkədə yaşayış keyfiyyətinin zəifləməsinə gətirdi.

Bu dövrdə sahibkarlar və daimi işçilər arasındakı münasibətlər sosial əməkdaşlıq və güzəştlər əsasında qurulurdu. Sosial demokratlar 1982-ci ildə iqtidara gəldilər və ölkənin iqtisadi vəziyyətini yüksəltmək yönündə həlledici tədbirlər gördülər: kronun devalvasiyası aparıldı, vergilər 2% artırıldı, qiymətlərin yüksəlməsinə görə həmkarlar ittifaqları ilə hissəli kompensasiya haqqında ümumi razılığa gəldilər. Bu tədbirlər 80-ci illərdə məşğulluğun artmasına, iqtisadiyyatın düzəlməsinə və tənzimlənməsinə gətirdi. Beynəlxalq konyukturanın yaxşılaşması sosial demokratlara ÜDM-da dövlət sektorunun payını 50%-ə qaldırmağa imkan verdi. Nəticədə keyfiyyətli güzəran orta yaşın və pensionerlərin sayının artmasına gətirdi. Sakinlərin 1/5 hissəsi yaşlılığa görə təqaüd almağa başladı, bu, sahibkarların əlavə əmək pensiyası xərclərinin artması və nəticədə vergilərin yüksəlməsilə nəticələndi.[245] Hökumət vergi islahatları aparmalı oldu, amma bu mövcud vəziyyəti yaxşılaşdırmağa kifayət etmədi.

1991-ci ildə riksdaqa seçkilərdə qələbə çalan qeyri-sosialist partiyalar "İsveç üçün yeni başlanğıc" şüarı altında islahatlara başladılar: sahibkarlığa şərait yaradıldı, muzdlu işçilərin sığorta fonduna ödəmələri azaldıldı, kiçik mülkiyyətçilərə güzəştlər edildi. Ölkə hökumətinin əsas strategiyası elmi-tədqiqat institutlarının və ali məktəb şəbəkələrinin genişləndirilməsinə, sosial xidmət sahələrində vəziyyətin yüksəldilməsinə yönəldi.[246]

1990-cı illərdə İsveçdə sosial yardımın əhəmiyyəti yüksəldi. Həmin illərdə "işsizlik şoku" keçirmiş İsveç iqtisadiyyatı maliyyə çatışmazlığı ilə üzləşdi. Bu, sosial ödənişlərin həcminin azalmasına, vergilərin artmasına gətirdi. XX yüzilliyin 90-cı illərində sosial

---

[245]Коновалова А.А.Сравнительный анализ пенсионной системы Швеции и России. Студенческий научный журнал «Грани науки». 2014. Т.2,№3. С.8-10.

[246]Базылев Н.И., БазылеваМ.Н.Социально-ориентированная рыночнаяэкономикаиееэволюция(статья).Экономический вестник. Выпуск 3, № 2.2003, С. 288-313

müavinətlərlə yaşayan ailələr çoxaldı. Həmin dövrdə şəxsi təsərrüfatı olan və il ərzində heç olmasa 1 dəfə müavinət ödənilənlər 491000 nəfərdən 721000 nəfərə qədər, yaxud 47% artdı. Ümumi əhali səviyyəsində yardım alanlar 2002-ci ildə 343000 nəfər, yaxud 4,9% təşkil etmiş oldu.[247]

İsveçdə sosial xidmət qanunvericiliklə tənzimlənir. İsveçdə yaranmış sosial dövlət İnsan hüquqları ilə bağlı Ümumi Bəyannamə (1948), BMT-nin uşaq hüquqları haqqında bəyannaməsi (1989), Uşaqların müdafiəsi və beynəlxalq himayəçilik haqqında bəyannamə (1993), Fövqəladi vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadın və uşaqların müdafiəsi haqqında bəyannamə (1974), Beynəlxalq əmək təşkilatının konvensiyaları, regional müqavilələr və s., İnsan hüquqları haqqında Avropa konvensiyası (1950), Helsinki yekun sənədi (1975), Avropa sosial xartiyası (1961) və s. söykənir. İsveçdə – Sosial xidmət haqqında qanunvericilik sənədi (1981) (buraya "Gənclərə zəruri xidmət haqqında" və "Alkoqollara və narkomanlara zəruri kömək haqqında" qanunlar əlavə edilməklə) və Tibbi xidmət və sağlamlığın qorunması haqqında sənəd (1983), Əqli cəhətdən geri qalan insanlara sosial xidmətin təşkili haqqında sənəd (1986) və s. göstərilə bilər.[248]

İsveçdə xüsusi olaraq, ailəyə yönələn siyasət tətbiq edilir. Ailə siyasəti bilavasitə uşaqların müavinəti ilə bağlıdır. İsveçdə ailələrdə uşaqların hər birinə ayrılıqda ayda 950 İsveç kronu məbləğində yardım ayrılır. Uşaq anadan olarkən və anadan olduqdan sonra çəkilən xərclər üçün təzminat verilir. Bələdiyyələr məktəb yaşına çatmamış uşaqların təlim-tərbiyəsi ilə bağlı xüsusi bağçalarla təmin edir, bu da işləyən valideynlər üçün çox əhəmiyyətlidir. İsveç-

---

[247]БьорнГустафссон. Социальная помощь в Швеции. Международный опыт организации системы социальной помощи. На примере пяти стран.Москва, 2004. Международное бюро труда, 2004.С.31, 32

[248]Дрегало А.А., Ульяновский В.И. Социальная работа в Швеции. - Архангельск,Издательский дом "Элпа". 1996, с.21

də ailələrin iki uşağının olması normadır. İsveç qanunvericiliyində tənha analara sosial yardımın xarakteri bir qədər fərqlidir.[249]

1993-cü ildən İsveçdə "Uşaq problemləri" ilə bağlı təsisat fəaliyyət göstərir və 18 yaşına qədər uşaq və gənclərin sosial hüquqlarını müdafiə edir, hər bir uşağın təhsil alması, uşaqlar üçün əlverişli psixoloji atmosferin və həyat standartlarının yaradılması, uşaqların təhlükəsizliyinin qorunmasına çalışır. İsveçdə icmalarda yaşayan uşaq və gənclərin müdafiəsi yöndə fəaliyyət göstərən könüllülər birliyi mövcuddur. İsveçin ailə siyasəti uzun iş gününün valideyn cavabdehliyi ilə uyğunlaşdırılmasına yönəlib. Qanuna əsasən uşaqlı valideynlər zəruri hallarda işə gəlməyə bilərlər. 1994-cü il qanunda 8 yaşına qədə uşağı olan valideynlərə 360 gün 90% əmək haqqı ilə evdə olmaq icazəsi verilib. 1995-ci ildən atalara 1 aylıq valideynlik məzuniyyəti verilir.[250] Belə ki, 2008-ci ildə uşaqların 85%-i bələdiyyələrin məktəbəqədər müəssisələrinə, yaxud ailə tipli uşaq bağçalarına gedirdilər.[251] Bələdiyyələrin tərkibində az ödənişli uşaq bağçaları, uşaqlarla məktəbdənkənar iş təsisatları vardır. Bələdiyyələrin əksəriyyətində uşaqların ehtiyaclarını ehtiva edən qərarlar verilib. Burada psixi və fiziki geriləmələri olan uşaqlara xüsusi kömək briqadası ayrılır. Bələdiyyələrin əksəriyyətində məktəbəqədər pedaqoqlar, müəllim-tibb işçiləri, yaxud uşaqlara xüsusi xidmət göstərilməsi üzrə ixtisaslaşmış mütəxəssislərdən ibarət "tədris köməkçiləri" mövcud olur və əsasən təhsillə bağlı problemləri həll etmək üçün uşaqlara yardım edirlər.

1994-cü ildə İsveçdə funksional geriləmələri olan insanlarla iş haqqında hüquqi sənəd təsdiq edilmişdir, burada kobud fiziki geriləmələri olan uşaqlar xüsusi xidmətlərlə təmin edilirlər.[252]

---

[249]БьорнГустафссон. Социальная помощь в Швеции. Международный опыт организации системы социальной помощи. На примере пяти стран.Москва, 2004. Международное бюро труда, 2004.С.31, 32

[250]Дрегало А. А., Ульяновский В. И. Социальная работа в Швеции. - Издательский дом "Элпа". Архангельск, 1996, с.56

[251] ВолковА.Образование в Швеции // Мировая экономика и международные отношения, 2016, том 60, № 11, с. 84–91

[252]Дрегало А. А., Ульяновский В. И. Социальная работа в Швеции. - Издательский дом "Элпа". Архангельск, 1996, с.57

İnsan resurslarının təkmilləşdirilməsində təhsil-tədris sisteminin rolu danılmazdır. İsveçdə orta təhsil doqquz il, gimnaziya təhsili üç il davam edir və ali təhsil almaq üçün geniş imkanlar vardır. Doqquz illik təhsil icbaridir. Məktəblərdə təhsil pulsuzdur. Təhsil xərclərinin 70%-i bələdiyyələr tərəfindən ödənilir. İsveçdə təxminən 4800 icbari məktəb vardır və onların təxminən 4200-ü bələdiyyələrin nəzdindədir. 1997-ci il qanununa əsasən orta məktəblərdə uşaqlar pulsuz naharla təmin edilirlər və bu ancaq İsveçdə və Finlandiyada tətbiq edilir. Məktəblərdə şagirdlərin 96%-i kompyuter və internetdən istifadə edə bilirlər.

İsveçdə 14 universitet və 20 ali təhsil məktəbi fəaliyyət göstərir.[253] Universitetlərdə elmi-tədqiqatlar yerinə yetirilir.[254] İsveç inkişaf etmiş fasiləsiz təhsil sisteminə malikdir. Universitet və atmlər ixtisaslaşma və təhsilin təkmilləşdirilməsinə yönələn distansion (məsafəli) tədris təklif edilir. İsveçdə ali təhsil almaq üçün tələbələr 60 yaşa qədər təqaüd və imtiyazlı kredit götürə bilirlər. 2014-cü ildə təhsil üçün ayrılan pul ÜDM-un 6,8%-i qədər olmuşdur.[255] İsveçdə sənətə yiyələnmək üçün xüsusi xidmət müəssisələri açılmışdır. Burada təhsil adətən yetkin yaşda olanlar üçündür. Sənətə yiyələnmək üçün olan ali təhsili ənənəvi təhsilə alternativdir və adətən işlə təmin edilmək məqsədi daşıyır.[256]

İsveçdə səhiyyə sistemi büdcədən maliyyələşdirilir. Tibbi xidmətlərin maliyyələşdirilməsi və təşkili regional inzibati əsaslarda mümkün olur. Bu məsələyə dair 26 yerli şura mövcuddur. Şuralar dövlət subsidiyaları və milli sosial sığorta vasitəsilə maliyyələşirlər və əhalidən gəlirə görə vergi alırlar. Bələdiyyələr öz büdcələri he-

---

253 ВолковА.Образование в Швеции // Мировая экономика и международные отношения, 2016, том 60, № 11, с. 84–91

254 ОШвеции. Муниципалитетг. ГётеборгаиГубернскийсоветленаВестраГёталанд. 2012, с.72, 75

255 ВолковА.Образование в Швеции // Мировая экономика и международные отношения, 2016, том 60, № 11, с. 84–91

256 ОШвеции. Муниципалитетг. ГётеборгаиГубернскийсоветленаВестраГёталанд. 2012, с.72, 75

sabına xəstəxana xidmətlərinin böyük bir hissəsini ödəyirlər, həmçinin həkimlərin əmək haqqını maliyyələşdirirlər.[257]

Dövlət büdcəsinin əhəmiyyətli bir hissəsi sağlamlığın və qüsurlu insanların erkən pensiya alması məsələlərinə yönəlir (s.36-37).[258]

Məhdud imkanlı insanların adətən müəyyən xəstəliyi və funksional pozuntuları olur və əlavə qayğıya ehtiyac hiss edirlər. İsveçdə belə insanlara sosial yardımla bağlı qanun vardır. Bu sosial işçinin yardımı, yaşayış yerinə uyğunlaşma və pul müavinəti olur.[259]

İsveçin sosial siyasətinin başlıca elementi sosial sığortadır. Sosial sığorta sistemi vergilər, sahibkarların, zəhmətkeşlərin və muzdlu işləyənlərin ödəmələri, ayrı-ayrı fondların kapitallarından alınan faizlər hesabına maliyyələşdirilir. İşsizlik, xəstəlik, zəruri tibbi yardım, uşaq doğulması, qocalıq, istehsalat zədələri şəraitində vətəndaşlar vəsaitlərlə təmin edilirlər. Sağlamlığın sığortalanması sosial iqtisadi bərabərliyin əsası kimi qəbul edilir.[260] İsveçdə dövlət sosial sığorta sistemi bütün istehsal zədələrini kompensasiya edir. Muzdlu işləyənlərin böyük əksəriyyəti işsizliklə bağlı öz həmkarlar ittifaqlarında sığortalanıblar, həmkarlar ittifaqlarına üzv olmayanlar isə dövlətdən az miqdarda müavinət alırlar. Dövlət işlə təminat üçün məqsədli-proqramlar tətbiq edir, yeni ixtisasa yiyələnmək üçün kurslar yaradılır, qüsurlu insanların işləməsi məqsədilə sexlər açılır, başqa şəhərlərdə işləyənlərin yol haqqı ödənilir.[261]İsveçdə

---

[257]ИвановаИ. В., ИвановаО. А. Формирование различных моделей организации зарубежных систем здравоохранения. // Экология человека 2005, №1, с.48

[258]БьорнГустафссон. Социальная помощь в Швеции. Международный опыт организации системы социальной помощи. На примере пяти стран.Москва, Международное бюро труда, 2004.

[259]ОШвеции. Муниципалитет. ГётеборгаиГубернскийсоветленаВестраГёталанд. 2012, с.66

[260]Базылев Н.И., БазылеваМ.Н.Социально-ориентированная рыночнаяэкономикаиееэволюция(статья).Экономический вестник. Выпуск 3, № 2.2003, С. 288–313

[261]Коновалова А.А.Сравнительный анализ пенсионной системы Швеции и России. Студенческий научный журнал «Грани науки». 2014. Т.2,№3. С.8-10.

qüsurlu insanlara əlilliyə görə təqaüd verilir, dövlət subsidiyaları hesabına iş yerləri açılır, 65 yaşına çatmış bütün insanlara yaşlılığa görə təqaüd ayrılır, isveçlilər sosial xidmət sisteminə inteqrasiya olunublar və bundan tam şəkildə yararlanırlar.[262]Beləliklə, İsveç modeli və müasir dövrə uyğun islahatlar aparılmasında əldə edilmiş nailiyyətlər aşağıdakı məqamlarla bağlıdır:

1) burada sosial iqtisadi tərəqqinin prioriteti tam məşğulluq və gəlirlərin bərabərləşdirilməsi hesab edilir;

2) İsveçdə 1932-ci ildən sosial demokratlar hakimiyyətdədirlər;

3) burada həmkarlar ittifaqları əmək haqqının dinamikasına təsir edirlər;

4) bu millətin nümayəndələri bərabərlik ideyasına xüsusi diqqət yetirirlər;

İsveç cəmiyyətinin əsas nailiyyətləri aşağıdakılardır:

- həyəcanlar və münaqişələr olmadan cəmiyyətin böyük hissəsi üçün yaşayış imkanlarına zəmanət verilir;

- müxtəlif əhali təbəqəli arasındakı münasibətlərdə siyasi mədəniyyət hakimdir;

- sosial iqtisadi tərəqqi tam məşğulluq, sabit qiymətlər, dayanıqlı təkmilləşmə ilə əsaslandırılır;

-insan amilinin, əmək fəaliyyətinin əsas stimulu olan yaradıcı başlanğıcın inkişafı prioritetdir.

İsveçdə cəmiyyətin bütün problemlərinin əmin-amanlıqla həlli mədəniyyəti formalaşıb.[263]

---

[262]Коновалова А.А.Сравнительный анализ пенсионной системы Швеции и России. Студенческий научный журнал «Грани науки». 2014. Т.2,№3. С.8-10.

[263]Базылев Н.И., БазылеваМ.Н.Социально-ориентированная рыночнаяэкономикаиееэволюция(статья).Экономический вестник. Выпуск 3, № 2.2003, С. 288–313

# FƏSIL 3. MÜASIR DÜNYA SISTEMİNDƏKİ DƏYİŞİKLİKLƏRİN QƏRB SOSİAL DÖVLƏT MODELİNƏ TƏSİRİ

## 3.1. Sosial dövlətdə cəmiyyət-vətəndaş və digər subyektlər arasındakı münasibətlərin təməl əsasları

Sosial dövlətin əsaslarını təşkil edən sosial həmrəylik, sosial ədalət, sosial dialoq və bu əsasda yaranan sosial əməkdaşlıq tərəqqinin əsas amilləridir və məhz bu mənəvi təməllər üzərində inkişafa yönümlülük insanların firavan yaşayışının, hüquqlarının və azadlıqlarının qorunub mühafizə edilməsinə istiqamətlənmişdir. Bütün cəmiyyətlərdə insanlar öz sosial hüquqları, sosial şəraitləri və zəmanətləri ilə bağlı tələblərini ifadə edirlər. Dövlətçiliyin möhkəmlənməsi, hökumətin dəstəklənməsi, bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması cəmiyyətin inkişafını və sosial həmrəyliyi təmin edir. Bu zaman cəmiyyətin siyasi həyatına cəlb edilmiş müxtəlif qüvvələr tərəfindən səsləndirilən populist şüarlarla dövlət tərəfindən həyata keçirilən ədalətli sosial siyasət arasındakı fərq nəzərə çarpır.

Sosial dövlət hüquqi demokratik dövlətdir və insan onun ali dəyəridir. Sosial dövlət insanın layiqli həyatı və azad tərəqqisi, yaradıcı potensialının hərtərəfli reallizəsinə lazımi imkanlar açır, zəmanət verir. Sosial dövlətin qanunverici əsasları sosial-iqtisadi siyasəti, hüquq-mühafizə və hüquq-müdafiə təcrübəsi ilə insanın və vətəndaşın hüquqlarına təminat verir, azadlığı və mülkiyyəti qoruyur və bu əsaslarda sosial sülhü, iqtisadi yüksəlişi və dövlətin təhlükəsizliyini, insanın fiziki, mənəvi və ruhi təkmilləşməsini təmin edir.[264]

---

[264] Охотский Е.В. Социальное государство и социальная политика современной России: ориентация на результат / Е.В. Охотский, В.А. Богучарская // Труд и социальные отношения. - 2012. - № 5(95). - С. 30-44.

Sosial dövlət – azadlıq və hakimiyyəti şəxsiyyətin və cəmiyyətin firavanlığı üçün birləşdirməyə yönələn, əmək məhsullarının bölüşdürülməsində qərəzsiz və sosial həmrəyliyi təmin edən dövlətdir.[265] Həmrəy olmaq – bir fikirdə, bir rəydə olmaq, həmfikir, yekdil olmaq mənasında işlədilir. Həmrəylik – fikir, mənafe birliyini bildirir.[266] E.Dürkqeym sosial həmrəylik deyərkən, ictimai həyatın tamlığını, kollektivçiliyi, həmçinin ümumbəşəri əxlaqi prinsipləri, ali və universal dəyərləri nəzərdə tuturdu.[267] Sosiologiya lüğətində "sosial həmrəylik" – ümumi dəyərlər və maraqlar əsasında müəyyən qrupların və siniflərin sosial vəhdəti kimi interpretasiya edilir.[268]

Sosial sistemin inteqrasiya səviyyəsi alt sistemlər arasındakı sosial həmrəylik əsasında müəyyən olunur. Sosial həmrəyliyin əsasları sadə cəmiyyətlərdən mürəkkəb cəmiyyətlərə doğru dəyişir. Sosial sistemin sabit inkişafı, burada sosial həmrəyliyin mövcudluğu onun endogen və ekzogen təsirlərə uyğunlaşmasından, yəni sosial adaptasiyasından asılıdır. A.N.Okaranın fikrincə, "həmrəylik(fransızca solidarite) –tarixən bəşəriyyətə məxsus sosial vəziyyətdir. ...həmrəylik - ümumi maraqlar, eyni fikirlilik, eyni ruhluluq, qarşılıqlı asılılıq, qarşılıqlı əlaqəlilik, dairəvi zəminlik, birgə məsuliyyət ifadə edir. Həmrəylik subyektlərin ehtiyatlarının və imkanlarının birləşdirilməsini ehtiva edən mövcudolma prinsipidir. Burada fərdin marağı ümumi maraqlarla tarazlıqda olur. Həmrəylik kollektiv orqanizmin sosial özünütənzimləmə, özünüqoruma və özünüinkişaf amilidir. Çox zaman həmrəyliyi solidarizmlə qarışıq salırlar. Lakin solidarizm siyasi ideologiya, fəlsəfi təlim, sosial texnologiya və uyğun

---

[265]Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009, с.18-19

[266]Azərbaycan dilinin izahlı lüğəti  Dörd cilddə. II cild. Bakı, "Şərq-Qərb, 2006, s.363

[267]Дюркгейм Е. «О разделении общественнего труда. Метод социологии», М.: Наука, 1991, (575 с.)

[268] Кравченко С.А. Социологический энсиклопедический словарь. М: ООО «Издательство Астрель», ООО «Издательство АСТ», ООО «Транзит книга», 2004, 511 с., с.392

idarəetmə təcrübəsidir, başlıca ideyası ümumi rifah, maraqların və dəyərlərin həmrəyliyi və razılığıdır".[269]

Beləliklə, sosial həmrəylik solidarizm konsepsiyasının təməl məğzidir. P.Kolozaridin əmindir ki, "elmdə solidarizm əmək və kapitalın nizamlanmasını ehtiva edir. Solidarizm – cəmiyyətin müxtəlif tərkib hissələrinin (insanlar, birliklər, təbəqələr və dövlətlər) həmrəyliyinin mümkünlüyünə əsaslanır. Solidarizm müəyyən dövlət çərçivəsində institutların və ictimai mühitin "üzvi" birlik yaratmasıdır. Dövlət vasitəçi funksiyalarını yerinə yetirməklə hakimiyyətin nüfuzunu saxlayır və ziddiyyətli təmayüllərə geniş imtiyazlar verir, bazar iqtisadiyyatına nəzarət edir".[270]

Solidarizm – sosial sistemin qurulması prinsipinə görə sosial sistemin üzvləri hesab edilən vətəndaşlar, ailələr, etnoslar, dini birliklər, sosial və siyasi birliklər, biznes korporasiyaları və s. real subyektivliyə malik olurlar və rifah naminə onların hüquqları, imkanları və maraqları müxtəlif miqyaslı (lokal, ümummilli, qlobal) sosial çərçivələrdə konsolidasiya edilə və həmrəy ola bilərlər. Solildarizm liberal fərdiliyi və totalitar eqalitarizmi inkar edərək fərdi və ümumi maraqlardan çıxış edir. Solidarizmin etik əsasları həmrəylik hesab edilir. Həmrəylik öz ifadəsini ümumi maraqlara malik şəxslərin könüllü təşkilatlarda birləşməsində və demokratiya prinsiplərindən çıxış edən maraqların əlaqələndirilməsində tapır.[271]

---

[269]Окара А.Н. Социальная солидарность как основа нового «миростроительного» проекта. Доклад на научном семинаре «Россия в историческом и мировом пространстве», прошедшем в Институте экономики и финансов «Синергия». Журнал «Синергия», №9, 2010 , s.7-41

[270]«Солидарность как политика и практика». Краткий аналитический обзор подготовлен социологом Лаборатории Полиной Колозариди.www.cloudwatcher.ru/userfiles/solidarnost2.pdf

[271]Окара А.Н. Социальная солидарность как основа нового «миростроительного» проекта. Доклад на научном семинаре «Россия в историческом и мировом пространстве», прошедшем в Институте экономики и финансов «Синергия».Журнал «Синергия», №9, 2010, s.7-41

Sosial həmrəylik vətəndaş cəmiyyətilə dövlətin çoxtərəfli münasibətlərində, siyasət və iqtisadiyyat, hüquq və əxlaq, ekologiya və mədəniyyətdə təzahür edir. Sosial məkanda cəmiyyətlə sosial institutlar arasında əlaqələr inkişaf edir.[272]

Sosial həmrəylik kömək, dəstək və əməkdaşlıq nəzərdə tutan və şəxsiyyətin şüurunda möhkəmlənən ümumi ideyalara, ümumi hisslərə, mədəni dəyərlər və əxlaq normalarına əsaslanan bütövlük və vahidlik bildirir. Sosial həmrəylik könüllülük xüsusiyətinə malik olur. Çöx zaman sosial həmrəyliyi "identiklik" anlayışı ilə eyniləşdirirlər. İnsan daxil olduğu qrupla özünü eyniləşdirərək, onunla həmrəy olur. Əlverişsiz mühitdə sosial həmrəylik daha da möhkəmlənir. Ümumi ideyalar, hisslər sosial həmrəyliyin əsas amilləridir. Sosial həmrəylik çox zaman müsbət emosiyalara söykənir.[273] Həmrəylik, yaxud ictimai qəbul edilmə fərdin özünü qiymətləndirməsi, şəxsi ləyaqət və özünün dəyərli olması hissini aşılayır. Sosial həmrəylik özünəməxsus mənəvi inamları olan müəyyən əxlaqi subyektin sosial etiraf olunmasıdır.[274]

R.Forst etik, hüquqi, siyasi, əxlaqi normaları sosial həmrəyliyin mühüm ünsürləri olaraq müəyyənləşdirir.[275] Şəxsiyyət, cəmiyyət və dövlətn çoxtərəfli qarşılıqlı münasibətlərini əlaqələndirən sosial məsuliyyət fəaliyyət hüdudlarını konkretləşdirir.[276] S.Yula görə həmrəyliyin intersubyektiv əlaqələrə aid edilməsi fərdin bərabər və layiqlli interaksiya

---

[272]Гаджиев К.С. Политическая наука. М.: Международные отношения, 1994, с.73. (400 с.)

[273]СимоноваО.А.Современная социология эмоцийипроблема социальной солидарности:Основные направления исследований/В кн.: Социологический ежегодник 2011 / Науч. ред.: Н. Е. Покровский, Д. В. Ефременко. Вып. 3. М. : ИНИОНРАН, 2011. С. 95-142.

[274]Fraser N., Honneth A. Redistribution or recogniton? A political-philosophical exchange. L.: Verso, 2003, p.205-207

[275] Forst R. Contexts of justice: political philosophy beyond liberalism and communitarianism. Berkeley: Univ.ofCaliforniapress, 2002. P.268

[276] Мицкая Е.В.Основные направления взаимодействия государстваи гражданского общества как важное условие реализацииполитических прав и свобод граждан. «Право» , 2008 г., s.140

partnyoru olmasıdır. Sosial həmrəylik hüdudlarında təsvir edilən dövlət öz subyektləri üçün fürsətlərin ədalətli bölüşdürülməsinə əsaslanır. Ədalətli qəbul edilmə sosial çulğaşmanın və həmrəyliyin əsasıdır.[277] Sosial həmrəylik və sosial ədalət nəsillərin və təbəqələrin həmrəy cavabdehliyini ehtiva edir.[278] S.Yula görə, həmrəylik "rifah və ədalətlə bağlı etik identiklik, fərdi hüquq, demokratik prosedurlar və əxlaqi prinsiplərin qovuşuğunda reallaşır". Bu əsasda S.Yul həmrəylik konsepsiyasının əsası kimi aşağıdakıları irəli sürür: "1. Həmrəylik interaksiyanın əsası olaraq fərdi sosial münasibətlərdə bərabər və layiqli tərəf müqabili olaraq etiraf edir. 2. Həmrəy olan cəmiyyət öz subyektləri üçün ədalətli fürsətlər verir. 3.Qəbul edilmənin ədalətli tənzimlənməsi sosial çulğaşmanın və həmrəyliyin əsasıdır".[279]

Sosial həmrəyliyin başlıca ünsürlərindən olan sosial ədalət dövlət – cəmiyyət – şəxsiyyət münasibətlərində sosial tarazlığın yaranmasına gətirir. Ədalət dedikdə, əsasən "haqq və düzgünlük prinsiplərinə riayət olunması" idrak edilir.[280] Sosiologiyada "ədalət" dedikdə, stratların, və sosial qrupların bərabər yaşayış səviyyəsi, sosial nemətlərdən eyni dərəcədə yararlanmağın mümkünlüyü, mövcud resursların bərabər bölüşdürülməsi nəzərdə tutulur. [281] Fəsəfi lüğətdə - ədalət – insanın varlığı və ayrılmaz

---

[277]Юл С. Солидарность и социальное сплочение в эпоху позднего модерна: К вопросу о социальном признании, справедливости и контекстуальном суждении// Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература. Сер.11, Социология: РЖ/РАН. ИНИОН. Центр социал. Психологии. М.-2012.-№1, с.12-13 (176с.)

[278]Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009, с.18-19

[279]Юл С. Солидарность и социальное сплочение в эпоху позднего модерна: К вопросу о социальном признании, справедливости и контекстуальном суждении// Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература. Сер.11, Социология: РЖ/РАН. ИНИОН. Центр социал. Психологии. М.-2012.-№1, с.12-13 (176с.)

[280]Azərbaycan dilinin zahlı lüğəti. Dörd cilddə, II cild, Bakı, "Şərq-Qərb", 2006, s.58

[281]The Cambridge Dictionary of Sociology. General Editor Bryan S. Turner. © Cambridge University Press 2006, p.310-311

hüquqlarını ehtiva edən zərurət kimi təqdim edilir.[282] Haqq və düzgünlük prinsiplərinə riayət olunması sosial ədalətin məğzidir.[283]

Con Rolza görə "Ədalət – ictimai institutların önəmli əsasıdır. Şəxsiyyət ədalətə əsaslanan toxunulmazlığa malikdir, bu, hətta çiçəklənən cəmiyyət tərəfindən də pozula bilməz. Ədalət – bəzilərinin öz azadlığını itirməsinə, digərlərinin böyük rifaha çatması ilə haqq qazandıra bilməz. Ədalətli cəmiyyətdə vətəndaşların azadlıqları bərqərar olmalıdır, ədalətin zəmanət verdiyi hüquqlar siyasi alverin predmeti yaxud siyasi maraqlar məcmusu olmamalıdır". [284]

Sosial dövlətin mahiyyəti bilavasitə sosial ədalətlə əlaqəlidir. Yeni dövr mütəfəkkirləri T.Hobbs, İ.Kant, Hegel və digərləri ədaləti danılmaz sosial və əxlaqi dəyər hesab edərək, dövlətin vətəndaşları qarşısında götürdüyü öhdəliklərin ən önəmlisi hesab etmişdilər.[285]

A.V.Prokofyev sosial ədalət göstəricilərini belə təsnif edir:

1.Sosial bərabərlik, yəni mülkiyyətin ictimailəşməsi, birgə istehsalın nəticələrinin bərabər bölüşdürülməsi;

2.Bərabər haqlar - cəmiyyətə fayda verən fəaliyyətlə məşğul olan fərdin müəyyən təbəqəyə aid edilməsi;

3. Ayrılmaz hüquqlara zəmanət verilməsi;

---

[282]Философский энциклопедический словарь. – М.: Советская энциклопедия, 1983. с.119.

[283]Azərbaycan dilinin izahlı lüğəti. Dörd clilddə. II cild. Bakı, "Şərq-Qərb, 2006, s.363

[284]Джон Ролз. Теория справедливости (Перевод с английского В. В. Целищева при участии В.Н. Карповича и А. А. Шевченко), Новосибирск, Издательство Новосибирского университета, 1995, S.19-20

[285] Волков Ю.Е. Сущность, основа и главные черты социального государства / Ю.Е. Волков // Теоретико-методологические основы социологического анализа общественных систем и процессов.М.: Совет.спорт, 2001. – 360 с.

4.Dövlətin nemətlərin ədalətli bölüşdürülməsi strukturunun yaradılması.[286]

Sosial dövlətdə sosial ədalət və sosial həmrəylik – varlıların kasıbların əvəzinə, sağlamların xəstələrin, əmək qabiliyyəti olanların fiziki qüsurluların əvəzinə ödəməsi, fərqli cinslərin nümayəndələrinə bərabər imkanların açılmasıdır.[287]

Sosial ədalətin analizi bütün cəmiyyətin vəziyyətinin öyrənilməsi deməkdir. Cəmiyyətdə şəxsiyyətin tərəqqisi imkanlarının formalaşdırılması zamanı müxtəlif sahələrin inkişafının bir çox aspektləri inteqrasiya olunur. Sosial ədalət ictimai inkişafın qərar tapması və insanın həqiqətən də yüksək ictimai varlıq olaraq dəyərləndirilməsidir.

Sosial dövlətdə sosial ədalət prinsipinin reallaşdırılması mexanizmləri belədir: sosial təminat sisteminin mükəmməlləşdirilməsi, qiymətlərlə bağlı gəlirlərin indeksasiyası, aztəminatlı və çoxuşaqlı ailələlərə maddi kömək, minimum əmək haqqına zəmanət verilməsi, məşğulluğun təminatı və kadr hazırlığı və insan kapitalının düzgün yönləndirilməsi, təhsil səviyyəsi, tibbi yardım, ev təminatı, ekoloji mühafizə.[288]

Sosial dövlət konsepsiyası insanların azadlıq, ədalət, bərabərlik və cəmiyyətin rifahı ideallarına yeni çalarlar qatır. Sosiumun funksiyalaşması prosesində bu ideallar bir-birini inkar edə bilir. Bu baxımdan dövlətin sosial məsuliyyətinin dərk edilməsi xüsusi əhmiyyət daşıyır.[289]

Sosial dövlətdə sosial məsuliyyət sosial ədalətə və həmrəyliyə nail olmanın zəruri amilidir. Sosial məsuliyyət dövlət –

---

[286]Коваленко С.А.Социальная политика: основания и модели. Человек. Сообщество. Управление • 2007, №4, с.108-120

[287]Белов В.Г. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009, с.18-19

[288]Сидоренко О. В. Социальная справедливость как основополагающий принцип устойчивого развития / О. В. Сидоренко // Публічне управління: теорія та практика. 2013. Вип. 2. С. 162-165.

[289]Емельянов И.В., Лукьяненко А.А. Социальная ответственность в современном правовом государстве. Философские науки, № 12 (50) 2014, часть 2, s.65

vətəndaş, cəmiyyət – şəxsiyyət arasındakı münasibətlərin qarşılıqlı cavabdehlik əsasında funksiyalaşmasını ehtiva edir. Sosial təsisatlar – cəmiyyət, QHT-lər və maraq qrupları, vətəndaş isə – qanunla möhkəmləndirilmiş hüquqları çərçivəsində qarşılıqlı münasibətlərdə məsuliyyətli olmalıdır.

Dövlət – cəmiyyət münasibətlərində qarşılıqlı məsuliyyət dedikdə, hüquqi və sosial məsuliyyətin reallaşması düşünülür. Dövlətin cəmiyyət qarşısındakı məsuliyyəti ümumi rifaha müvəffəq olmaq, cəmiyyətin maraqlarını hüquqi əsaslarda təmin etməkdir. Dövlət yüksək hüquq daşıyıcısı və reallaşdırıcısı olduğundan dövlət-vətəndaş əlaqələrində qarşılıqlı məsuliyyət bilavasitə hüquqi mahiyyət daşıyır və hüquqi normalar sistemi pozulduqda təzahür edir.[290] Sosial məsuliyyət dövlətin hər bir vətəndaşın məsud olmasına yönələn fəaliyyətinin əsas qayəsidir.[291]

Vətəndaşın sosial məsuliyyəti onun cəmiyyət, həmçinin yaxınları və qohumları qarşısındakı cavabdehliyini nəzərdə tutur. Cəmiyyət qarşısında məsuliyyət vətəndaşın öz şəxsi mülkiyyətinin bir hissəsini (vergilər formasında) sosial ehtiyaclara, dövlət idarəçiliyinin müxtəlif səviyyələrinə və özünüidarəetmə orqanlarına yönəltməsi olaraq şərh edilir. Yaxınları, ailəsi qarşısında məsuliyyət ümumi yaşayışda və uşaqların tərbiyəsində əlverişli psixoloji iqlimin formalaşdırılmasıdır.[292] Beləliklə, vətəndaşın, insanın sosial məsuliyyəti daxil olduğu sosial qrup və sosial birliklər, o cümlədən təbiət, mədəniyyət, dövlət ilə qarşılıqlı münasibətlər sistemində qarşılıqlı cavabdehlik kimi müəyyənləşdirilir.[293]

---

[290]Емельянов И.В., Лукьяненко А.А. Социальная ответственность в современном правовом государстве. Философские науки, № 12 (50) 2014, часть 2, s.65-67

[291]ЩадиловГ.А. Факторы, определяющие выбор эффективной формы социальной ответственности // Вестник ТГУ. 2007. № 300 (II). С. 89-92.

[292]Социальная ответственность гражданина.http://investobserver.info/socialnaya-otvetstvennost-grazhdanina/

[293]Щадилов Г.А. Факторы, определяющие выбор эффективной формы социальной ответственности // Вестник ТГУ. 2007. № 300 (II). С. 89-92.

AR Əsas qanununda vətəndaşların vəzifələri, yaxud sosium, dövlət və insanlar qarşısındakı məsuliyyəti 72-ci Maddədə dəqiqləşdirilmişdir. Konstitusiyada şəxsiyyətin məsuliyyəti bütün dövlət qanunlarına əməl edilməsi, başqalarının haqlarına ehtiramla yanaşılması kimi müəyyənləşdirilir (Maddə 72.2). Konstitusiyaya görə vətəndaşın dövlət və cəmiyyət qarşısındakı məsuliyyəti onun vəzifələrilə təsbit edilir. Konstitusiyada vətəndaşın vətəndaş qarşısındakı məsuliyyətinin əsasları açıqlanır, şəxsiyyətin qarşı tərəfin hüquqları və azadlıqlarının pozulmamasına görə məsuliyyət daşıması təsdiqlənir (Maddə 72.1).[294] Sosial məsuliyyətin reallaşması dövlət – cəmiyyət, dövlət – vətəndaş, cəmiyyət – şəxsiyyət və şəxsiyyət – şəxsiyyət münasibətlərində uğurlu sosial dialoq əldə edilməsindən keçir.

Sosiologiya lüğətində "məsuliyyət" – mövcud dəyərlərə və normalara uyğun fəaliyyətlə bağlı hesabat və nəticələrə görə cavabdehlik olaraq şərh edilir. "Sosial məsliyyət" sosial birlik qarşısındakı məsuliyyətdir. Sosial məsuliyyət – ayrılıqda hər bir fərdin, o cümlədən şirkətlərin sosial proqramlarda, xeyriyyəçilik fəaliyyətində və s. iştirakını nəzərdə tutur.[295] Sosial dövlət cəmiyyətin maraqlarına və firavanlığına yönələn təsərrüfat və iqtisadi subyektlərin əməyə məsuliyyətli münasibəti əsasında reallaşır.[296] Beləliklə, sosioloji yanaşma çərçivəsində sosial məsuliyyət sosial birlik, sosial qrup daxilində şəxsiyyətlərarası münasibətlərin dinamikasını başa düşmək məqsədilə öyrənilir.[297] Sosial münasibətlərin dinamikası sosial dialoqun əldə edilməsini ehtiva edir və məhz sosial dialoqun əldə edilməsi sosial həmrəyliyin başlıca şərtidir. Sosial dialoq dedikdə, sosial

---

[294]Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2005, Maddə 72.1, 72.2

[295] Кравченко С.А. Социологический энциклопедический словарь. М: ООО «Издательство Астрель», ООО «Издательство АСТ», ООО «Транзит книга», 2004, 511 с., с.268

[296]Социальная ответственность гражданина.http://investobserver.info/socialnaya-otvetstvennost-grazhdanina/

[297]Иванова И.В. К вопросу о подходах к изучению категории «социальная ответственность». Ярославский педагогический вестник. 2011, С.47

aktorların qarşılıqlı anlaşmaya əsaslanan fəaliyyəti düşünülür.[298] Qarşılıqlı anlaşma vətəndaş – cəmiyyət – dövlət münasibətlərində qarşılıqlı sosial razılıq, sosial bərabərlik, nemətlərin ədalətli bölüşdürülməsi, bərabər imkanların və hüquqların bərqərar olması amillərini əhatə edir.

Sosial dialoq iqtisadi yüksəlişin təminatçısı olub, insanlara öz cəmiyyətlərində və iş yerlərində öz fikirlərini ifadə və müdafiə imkanları açır. Sosial dialoq – məşğulluq və iş yerlərində təzahür edən çətinliklərin aradan qaldırılması prosesində işçilərin, işlə təmin edənlərin və hökumətin iştirakını ehtiva edir. Sosial daloq ikitərəfli (işçilər və işverənlər) və üçtərəfli (işçilər, işverənlər və hökumət) ola bilər. İşçilər və işverənlər arasında sosial dialoq kollektiv danışıqlar kimi təcəssüm tapır. Üçtərəfli sosial dialoq isə dövlət siyasəti, qanunvericilik və qərarların qəbulu prosesinin iş yerləri, işçilərin və işverənlərin maraqlarına dair müəyyən tərəflərini ifadə edir.[299]

Vətəndaş – cəmiyyət – dövlət münasibətlərində sosial dialoq sosial tərəfdaşlıq və əməkdaşlığın yaranmasına və sosial həmrəyliyə əsas olur. Rasional sosial əməkdaşlığın yaradılması dövlətin tərəqqisinə gətirir. Rasional sosial əməkdaşlıq sosial qarşılıqlı məsuliyyətin inkişafını zəruri edir.

Con Stüart Millə görə "sosial əməkdaşlıq" – sosial sülh və tərəqqi, səmərəli iqtisadiyyat, zəhmətkeşlərin haqlarının müdafiəsi məqsədilə muzdla işləyənlər, biznesmenlər və icra hakimiyyətilə könüllü və bərabərhüquqlu qarşılıqlı münasibətə əsaslanır. Sosial əməkdaşlığın əsas subyektləri - dövlət və onun təsisatları, biznes, yəni işverənlər və onların birlikləri (sahibkarlar birliyi), muzdla işləyənlər və onların təşkilatlarından (həmkarlar ittifaqları)

---

[298] Кравченко С.А. Социологический энсиклопедический словарь. М: ООО «Издательство Астрель», ООО «Издательство АСТ», ООО «Транзит книга», 2004, 511 с., с.103

[299]Социальный диалог. Международное бюро труда Женева. Периодическое обсуждение в соответствии с Декларацией МОТ осоциальной справедливости в целях справедливой глобализации. Международное бюро труда Женева . 2013, s.5

ibarətdir.[300] Sosial əməkdaşlıq – işçilər, işverənlər, rəsmi təsisatlar ilə sosial əmək və onunla bağlı münasibətlərin tənzimlənməsinə yönələn fəaliyyət olub, tərəflərin maraqlarına hörmət, müqavilələli münasibətlərdə iştirak etməkdə maraqlı olmaq, əmək qanunvericiliyinə və digər hüquqi sənədlərə, bərabərhüquqluluq və münasibətlərdə inam, sərbəstlik, könüllü məsuliyyət, razılaşmaların icrasının zəruriliyi, müəyyən edilmiş barışdırıcı əməliyyatların reallaşdırılması, ixtisaslaşmış təşkilatların fəaliyyətinin müəyyənləşdirilməsi, bütün səviyyələrdə sosial tərəfdaşlığın yaradılması və s. prinsiplərə söykənir.[301]

Sosioloji anlamda sosial əməkdaşlıq – siniflərin, birliklərin, rəsmi və bələdiyyə təşkilatlarının, qeyri-kommersiya strukturlarının və təsisatların maraqlarının müdafiəsinə yönələn sivil ictimai münasibətlər sistemidir.[302]

Sosial əməkdaşlıq və onun subyektləri dövlətin nəzarətilə formalaşdırılır və dövlət özü də sosial əməkdaşlığın əsas subyektlərindəndir. Siyasi sistemin təməl elementi olan dövlət ictimai stabilliyin mühafizəsinə və normal yaşayışa görə cavabdehdir. Dövlət sosial tənzimləmə təsisatları vasitəsilə müxtəlif subyektlərin qarşılıqlı münasibətlərinin yaradılması sosial məkanı elə formalaşdırmağa çalışır ki, cəmiyyətdə gərginlik həddi kritik səviyyəni keçməsin. Sosial əməkdaşlıq sistemində sabitliyin saxlanması dövlətin məsiliyyətlərinə daxildir.[303]

---

[300]Государство и социальное партнерство. http://sci.house/teoriya-gosudarstva-prava/gosudarstvo-sotsialnoe-partnerstvo.html

[301] Закон г. Москвы от 11 ноября 2009 г. N 4 "О социальном партнерстве в городе Москве". Мэр Москвы Ю.М. Лужков Москва, Московская городская Дума 11 ноября 2009 года N 4

[302]Малышев М.А.Уровень развития социального партнерства в России. Государственное управление. Электронный вестник. Выпуск № 34. Октябрь 2012 г., с.1-12.

[303] Рахимова А.М. Роль государства в становлении социального партнерства (на примере Республики Казахстан). Наука и Мир Международный научный журнал, № 2 (18), 2015, Том 2, Издательство «Научное обозрение», № 2 (18), 2015, Vol. II, стр.94-122

Fəalliyyət məqsədlərindən asılı olaraq, öz nümayəndələri vasitəsilə daha əhəmiyyətli davranış modelini reallaşdıran bütün qarşılıqlı fəaliyyət iştirakçıları sosial əməkdaşlığın subyektləridir. Sosial əməkdaşlıq subyektləri arasında mövcud qanuvericiliyə söykənən münasibətlər isə sosial əməkdaşlıq obyektidir.[304] Z.Şabanov sosial tərəfdaşlıq, yaxud əməkdaşlıq prosesində sosial qarşılıqlı təsiri əsas məqamlardan biri kimi vurğulayaraq, qeyd edir ki, "sosial qarşılıqlı təsir – fərdin, fərdlər qrupunun davranışında müxtəlif fəaliyyət növlərinin daimi daşıyıcısı kimi öz mövqelərinə və funksiyalarına görə fərqlənən münasibətlərin xarakter və məzmununu ifadə edir".[305]

Sosial əməkdaşlıq sisteminin və subyektlərinin formalaşması bazar iqtisadiyyatında həyata keçir. Hazırda ölkəmizdə sosial əməkdaşlıq modeli formalaşıb. Hakimiyyət həmkarlar ittifaqlları, QHT-lər, sahibkarlıq və d. təsisatlarla münasibətləri əməkdaşlıq səviyyəsində qurur. 1994-cü ildə "Həmkarlar ittifaqları haqqında qəbul edilmiş Qanun"a görə, ölkəmizdə sosial əməkdaşlıqla bağlı "tripartizm" (dövlət – həmkarlar ittifaqı – işçi münasibətləri) sistemi qurulub. Azərbaycan hökuməti səmərəli sosial siyasətin formalaşdırılması mexanizmi kimi sosial əməkdaşlığın inkişafına çalışır.

Ümumiyyətlə, dövlət işlə təmin edənlərin və həmkarlar ittifaqlarının, həmçinin sosiumun firavanlığına çalışan müxtəlif siyasi qüvvələr arasında əməkdaşlığın yaradılmasına meyillidir. Dövlət sosial əməkdaşlığın subyekti kimi həm sosial münasibətlərin əlaqələndiricisi, həm təşkilatçısı, həm nəzarətçisi, həm də vasitəçisidir və o, sosial əməkdaşlıqda həm bilavasitə, həm də bilvasitə iştirak edə bilir.[306]

---

[304]Малышев М.А.Уровень развития социального партнерства в России. Государственное управление. Электронный вестник. Выпуск № 34. Октябрь 2012 г., с.1-12.

[305] Şabanov Z. Müasir cəmiyyətin yeni paradiqmaları. Bakı, Avropa, 2017, s.126 (256s.)

[306] Рахимова А.М. Роль государства в становлении социального партнерства(на примере Республики Казахстан). Наука и Мир

Azərbaycanda sosial əməkdaşlıq sistemi Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasının 2016-2017-ci illər üçün imzaladığı Baş Kollektiv Sazişində öz hüquqi əsaslarını tapıb. Sazişə əsasən, tərəflərin 2016-2017-cı illərdə sosial-iqtisadivə sosial-əmək sahəsində birgə fəaliyyəti nəzərdə tutulur. Sosial tərəfdaşlıq sisteminin tərkib hissəsi olan Saziş sahə tarif sazişləri üçün əsasdır.[307]Azərbaycanda sosial tərəfdaşlıq daim təkmilləşir, 2014-2015-ci illərə aid Baş Kollektiv Sazişdə müddəalar öz əksini tapıb. 1,6 milyondan çox həmkarlar ittifaqı üzvünü birləşdirən AHİK işçilərin pozulmuş əmək və sosial hüquqlarının bərpası uğrunda səmərəli mübarizə aparır. Transmilli şirkətlərdə 70-dək həmkarlar ittifaqı təşkilatı fəaliyyət göstərir.[308]

Sosial əməkdaşlıq sisteminin təhlili əsasında deyə bilərik ki:

1.Sosial əməkdaşlıq zəhmətkeşlərin qarşılıqlı münasibətlərinə təsir göstərərək institusional mexanizm rolunu ifa edir. Sosial əməkdaşlıq sosial əmək münasibətlərinə dair konsepsiyayanın strukturuna, mahiyyətinə, istifadə edilən mexanizmlərə və dəyər meyarlarına uyğun gəlir.

2.Sosial əməkdaşlıq sistemində dövlət insan haqlarının zəmanətçisi, istehsalatdakı münaqişələrin arbitrı, danışıqlar prosesinin təşkilatçısı və əlaqələndiricisi funksiyalarını icra edir. Dövlətin informasion funksiyası sosial əməkdaşlığın əsas ideyalarını irəli sürən kütlənin və sivil sosial əməkdaşlıq sisteminin yaranmasına gətirir.

3.Sosial əməkdaşlığın təkmilləşdirilməsi məqsədilə biznesin sosial məsuliyyətinin çoxaldılması və subyekt-obyekt arasında qarşılılı fəaliyyətin nəticələrinin proqnozlaşdırılmasına

---

Международный научный журнал, № 2 (18), 2015, Том 2, Издательство «Научное обозрение», № 2 (18), 2015, Vol. II, стр.94-122

[307]Azərbaycanda Baş Kollektiv Saziş imzalandı. http://axar.az/news/91219

[308]Azərbaycan Həmkarlar Ittifaqlarinin 110 illiyi. http://ahik.org/articles/view/azerbaycan-hemkarlar-ittifaqlarinin-110-illiyi

yönələn sosial dialoqun inkişafı, optimal sosial siyasətin reallaşdırılması və sosial iqtisadi məqsədlərin müəyyənləşdirilməsi zəruridir.

4. Sosial əməkdaşlıq zəhmətkeşlərin qarşılıqlı fəaliyyətində Həmkarlar İttifaqlarının rolunu gücləndirməklə formalaşdırılmalıdır.[309]

Beləliklə, hər bir sosial fenomen bilavasitə mənəviyyata söykənərək, yüksək mənəvi dəyərlər əsasında tərəqqi edir. Bu mənada sosial dövlətin əsaslarını təşkil edən sosial həmrəylik, sosial məsuliyyət, sosial ədalət və sosial dialoq bir-biri ilə qarşılıqlı asılı amillər olub sosial əməkdaşlıq yaradır, sosiumda sosial sabitliyin və tərəqqinin davamlılığına zəmanət verir.

## 3.2 Sosial dövlət və sosial yönümlü bazar iqtisadiyyatı

Modern ölkələrdə sosial bazar təsərrüfatının tərəqqisi sosial siyasətin əsas qayəsini təşkil edir. Sosial bazar iqtisadiyyatı insanların tələb və istəklərini nəzərə alan və bilavasitə bu tələb və istəklərin təmin edilməsi üzərində qurulan təsərrüfat formasıdır. Əgər əvvəlki sosial-iqtisadi quruluşlar əmək münasibətləri əsasında inkişaf edirdisə, burada cəmiyyət – iqtisadiyyat, istehsalçı – istehlakçı münasibətləri ön sıraya çıxır.

A.Müller-Armaka görə, “sosial bazar təsərrüfatı bazar iqtisadiyyatını sosiala yönəltməyə, individualizm və kollektivçilik, sosial və dövlət institutları arasındakı məsafəni aşmağa səy edir”. L.Elxarda görə, sosial bazar iqtisadiyyatı xüsusi ictimai quruluş və xüsusi təfəkkür formasıdır və “hər kəsin firavanlığına” cəhd edir.[310]

---

[309]Фаузер В.В., Назарова И.Г., Фаузер Вл.В. Социально-трудовые отношения: содержание, механизм управления, зарубежный опыт / Отв. редактор д.э.н., профессор В.В. Фаузер. – Сыктывкар-Ухта: УхтГТУ,(Б-ка менеджера; Вып. 15). 2010,s.26-34(102 с.)

[310]Эрхард Л. Полвека размышлений: речи и статьи / Пер. снем. М.: Наука; ТОО «Ордынка», 1996.

Bu təsərrüfat ikili təbiətə - sərt bazar mexanizminə və sosial yönümə malikdir və sosial siyasətin aparıcı mexanizmlərini transformasiya edir. Burada sosial sahə yalnız dövlətin vəzifəsinə çevrilmir, o, bilavasitə sosial xidmətlər əməliyyatçısıdır və qanunverici və vasitəçi rolunu icra edir.[311]

Sosial yönümlü bazar iqtisadiyyatı dövlətin və biznesin qarşılıqlı fəaliyyəti prosesində cəmiyyətin demokratikləşməsi ilə bağlıdır.[312] Sosial bazar təsərrüfatında – iqtisadi siyasətdə təsərrüfat subyektlərinin fəaliyyət forma və qaydaları təsis edilir; yaradılan fəaliyyət forma və qaydaları azad rəqabət imkanlarının və açıq bazarın formalaşdırılmasına, maksimal sayda xüsusi şəxslərin təşəbbüslərinin stimullaşdırılmasına yönəlir; geniş anti-inhisar siyasəti aparılır; sahibkarlıq dəstəklənir; iqtisadiyyatın bütün elementləri, o cümlədən sahibkarlıq fəaliyyəti, pul siyasəti, bank sistemi və s. qarşılıqlı uyğunlaşdırılır; pul tədavülünün sabitliyi, sərmayə qoyma şərtləri proqnozlaşdırılır; istehlakın mühafizəkar strukturu ləğv edilərək, vergi ödənməsi imkanlarına bərabərləşdirilir.[313] Sosial bazar təsərrüfatı azadlıq prinsipləri əsasında funksiyalaşır və zəmanətli iqtisadi azadlıq, sosial müdafiə və ədalətin hakim olduğu sosial dövlətə söykənir və onun əsasında iqtisadi və sosial nizam dayanır.[314] Bazar şəraitində dövlət qeyd

---

[311]Побережная, О.Е. Концепция социальной рыночной экономики как основа теоретического осмысления современной социальной политики. Белорусская политология многообразие в единстве. Материалы Междунар. Науч-практ. Конф. Гродно 25-26 мая 2006г. Гродн.гос. ун-т. Под ред. В.Н.Ватыля. Гродно-2006, s.267

[312] Гасанов Э.А., Клемашева Е.И.,. GasanovE.A , KlemashevaE.I. Теоретические положения социально ориентированной неоиндустриализации экономики России. Вестник науки Сибири. 2015. № 3 (18), s. 156-161. http://sjs.tpu.ru

[313] Невоструева Т.Л. Социально-рыночная модель экономики. Вестник ОГУ 2004, № 8, s.45-47

[314]Дикань В.Л.Социально-ориентированная рыночная экономика Украины в условиях глобализации. Вісник економіки транспорту і промисловості № 35, 2011, s.15-19

edilən sahələri bazar mexanizmlərindən azad etməli, onları öz himayəsinə götürməlidir.[315]

Sosial bazarın prinsipləri belədir:

1.Dövlətin xammal ixracı siyasətinin iqtisadiyyatın real bölməsinin inkişafı ilə əvəzlənməsi.

2. Büdcə mədaxilinin xammal ixracı sektoru hesabına deyil, daxili mənbələr hesabına formalaşdırılması və dövlətin büdcə siyasətinin tənzimlənməsi və bu aman hamar vergi şkalasından imtina edilməsi.

3. Dövlətin iqtisadiyyatda neoindustrial struktur dəyişikliklər etməsi əsasında dəqiq müəyyənləşmiş inkişaf istiqamətlərinin qısa müddətli və strateji planlaşdırılması.[316]

Sosial bazarın iqtisadi konstitusiyası ilə bağlı prinsiplər:

1.Hakimiyyətin bazara müdaxiləsi imkanlarının uyğunlaşdırılması prinsipi;

2.Şəxsi mülkiyyətin sosial funksiyalarının məhdudlaşdırılmasının onun müdafiəsi və zəmanət verilməsi ilə uyğunlaşdırılması;

3.Ölkə daxilində vahid iqtisadi məkanın və bərabər iqtisadi inkişaf səviyyəsinin yaradılması üçün regionlara müxtəlif formalı dəstək verilməsi imkanlarının olması;

4.Milli istehlakçının hüquqlarının qorunması əsasında bazarın açıqlığı prinsipi;

5. Dövlətin xüsusi statusuna uyğun funksiyalarını yerinə yetirməsini nəzərə alaraq iqtisadiyyatda subyektlərin bərabərliyi prinsipi.[317]

Sosial yönümlü bazar təsərrüfatının formalaşdırılmasının əsas mexanizmi rəqabətə söykənən bazardır. Rəqabət ictimai

---

[315]Морозова Л.А. Теория государства и права: Юристъ, 2002, 414 s., s.93-94

[316] Гасанов Э.А., Клемашева Е.И.,. GasanovE.A , KlemashevaE.I. Теоретические положения социально ориентированной неоиндустриализации экономики России. Вестник науки Сибири. 2015. № 3 (18), s. 156-161. http://sjs.tpu.ru

[317] Малаева М.И. Социальная защита населения: вопросы теории и практики. Наука плюс издательский дом. Махачкала, 2009, с. 44-64

istehsalın səmərəliliyini yüksəltməklə yanaşı firavan yaşayışa da kömək edir. Bazar münasibətlərini hökumətin tənzimlənməsi aşağıdakılarla bağlıdır:

1.İctimai istehsalın istehlak predmetinin və əmək vasitələrinin inkişaf etdirilməsinin xeyrinə olaraq formalaşdırılması.

2.İstehlak fondu və yığım fondu arasında ümumi ictimai məhsulun müəyyənləşdirilməsi.

3. İxracın istehlak predmetlərilə dəyişdirilməsi istiqamətində rasional siyasət.

4.Hökumətin sosial vəzifələri.

5.Vergi siyasəti.

6.Yüksək texnologiyalı istehsalın və innovasion iqtisadiyyatın inkişafı.[318]

Bu tip təsərrüfatda vətəndaşlar sosial xidmətlərin genişləndirilməsini və keyfiyyətinin artırılmasını tələb edə bilirlər, sosial sığorta üstün mövqe qazanır, sosial əməkdaşlıq münasibətlərinin inkişafını stimullaşdırılır,[319] əmək və sərmayə arasında sosial dialoq qurulur, işsizlikdən sığortalanma, istehsalatda texnoloji dəyişikliklərlə bağlı kadrların yenidən ixtisaslaşması fəaliyyəti genişlənir. Özünü sosial elan etmiş ölkələrdə məşğulluğun tam təminatına səy edilir. Hazırda dünyada işsizliyin artması qeyd edilir. Mütəxəssislərin fikrincə, işsizliyin ləğvi planı mövcud olmasa da, özlərini sosial elan etmiş dövlət ölkədə aparılan islahat və dəyişikliklərin insanların tələbatlarına yönəlməsinin qayğısına qalmalı, sosial zəmanəti genişləndirməli,

---

[318] Пoподько Г.И. Основные понятия концепции социальной рыночной экономики // На пути к социальной рыночной экономике : [сб. науч. тр.] / [под ред. В.А. Медведева]. – Красноярск : Красноярский гос. ун-т, 1999. – Вып. 1. – С. 15–24.

[319]Побережная О.Е. Концепция социальной рыночной экономики как основа теоретического осмысления современной социальной политики. Белорусская политология многообразие в единстве. Материалы Междунар. Науч-практ. Конф. Гродно 25-26 мая 2006г. Гродн.гос. ун-т. Под ред. В.Н.Ватыля. Гродно-2006, s.267

cəmiyyətin daha zəif təbəqələrini müdafiə edərkən öz siyasətinin sosial nəticələrini mümkün qədər yumşaltmalıdır.[320]

Sosial dövlətin təsərrüfat sistemi sosial risklərin azaldılmasına yönələn xüsusi sosial inteqraiya prosesi kimi qiymətləndirilir və aşağıdakı əlamətləri ilə seçilir:

Cədvəl. Sosial yönümlü təsərrüfat və sosial dövlət[321]

| Meyarlar | Sosial yönümlü təsərrüfat sistemi | Sosial dövlət |
|---|---|---|
| Subyektlər | Təsərrüfat fəaliyyəti subyektlərinin çox olması, o cümlədən dövlət | Dövlət əsas subyektdir |
| Təsərrüfat fəaliyyətinin iqtisadi və sosial əsaslarının qarşılıqlı təsiri | Təsərrüfat fəaliyyətinin iqtisadi və sosial əsaslarının vəhdəti | Sosial sahənin iqtisadi sahə üzərindəki proritetləri |
| Fərdi və kollektiv maraqlarının qarşılıqlı təsiri | Fərdi və kollektiv maraqların qarşılıqlı asılılığı və qarşılqlı çulğaşması | Kollektiv maraqların fərdi maraqlar üzərində üstünlüyü |
| Sosial ədalətin və iqtisadi səmərəliliyin qarşılıqlı təsiri | İqtisadi səmərəliliyin və sosial ədalətin uyğunlaşdırılması, sosial sülhə və sabitliyə nail olma | İnsan münasibətlərində ali dəyər kimi qəbul edilən sosial ədalətə cəhd |
| Təkraristehsalın strukturu | Qeyri-maddi istehsal sahəsinin, ilk növbədə sosial sahələrin üstünlüyü | Qeyri-maddi istehsal sahəsinin, ilk növbədə dövlətin səyi ilə təşkil edilən sosial sahələrin üstünlüyü |
| İqtisadi sistemin idarə edilməsi prinsipləri | Fərdin müstəqilliyi və məsuliyyətliliyi prinsipləri | Sosial müdafiə prinsipi, yəni fərdin təmin edilməsinə zəmanət |

[320]Морозова Л.А. Теория государства и права: Юристъ, 2002, 414 s.
[321]Мосейко В.В., Фролова Е.А.Социальное государство vs социальное иждивенчество.Вестник ТГПУ (TSPU Bulletin). 2014. 8 (149), S.102-107

Sosial dövlətin iqtisadi əsaslarının reallaşdırılması meyarları kimi çox zaman – kasıblıq səviyyəsi; sosial proqramların kasıblıq səviyyəsinə nisbi təsiri; sosial proqramlarla bağlı ÜDM-dan ayrılan çıxar göstərilir. Bu dövlət qurumunun əsas meyarları aşağıdakılarla bağlıdır:

1.Dövlət gəlirlərinin polis-bürokratik funksiyalar (ictimai nizamın qorunması, milli təhlikəsizliyin təmin edilməsi, bürokratik aparatın, polis, ordu, məhkəmə və s. mədaxil). 2.Cini indeksi (daha təminatlı kvintelin (əhalinin 20%) sərvətinin daha az təminatlı əhali ilə müqayisəsi). 3.İnsan inkişafı potensialının indeksi. 4.Sağlam həyat davamlılığının orta yaş hüdudları. 5.Kasıblıq səviyyəsi. 6.Sen-indeks (kasıblıq həddinin müəyyənləşdirilməsi göstəricisi). 7.V.D.Roikin sosial indikatorları (yüksək gəlirlər, əhalinin differensiasiyası, sosial müdafiənin təkmilləşdirilməsi). 8.Orta sinfin hüdudlarının şərti müəyyənləşdirilməsi metodu. 9.Əhalinin əmanətlərinin miqdarı.

Bu indikatorlar üç meyar əsasında ümumiləşdirilir:

1.Minimum, yaxud "təməl sosial təminat" –vətəndaşların minimal standartlar çərçivəsində əmtəə və xidmətlərlə təminatıdır.

2. Əmək hüquqları. İnkişaf etmiş əmək hüquqları sistemi, əmək zəmanəti sosial dövlətin əsas atributu hesab edilir.

3.Sosial bərabərsizliyin ən aşağı səviyyəsi.[322]

Aparıcı ölkələrdə dövlətin əsas göstəriciləri kimi – ÜDM-a münasibətdə real orta zəhmət haqqı, ailənin qida xərcləri, qocalığa görə minimal təqaüdün minimum yaşayış həddinə uyğunluq səviyyəsi, əhalinin təbii dinamikasının əmsalı (ölənlərlə doğulanların sayındakı fərq), orta yaş həddi, insan inkişafı indeksi və s. müəyyənləşdirilmişdir. (Məsələn bu əmsal 2005-ci ildə Kanadada – 0,95, ABŞ, Böyük Britaniyada, Fransada və Yaponiyada – 0,94, Rusiya və Braziliyada – 0,79 olub.)[323]

---

[322]Алексей Симоянов. Социальное государство:суть, критерии, индикаторы. Логос №2 [98] 2014

[323]Копташкин С.В. Социальное государство. Научные публикации КФ РГСУ © 2008

Yaşadığımız qərinədə innovasion iqtisadi proseslər ölkəmizdə də yerli iqtisadiyyatın yenidən formalaşdırılmasına, yeni mexanizmlərlə idarə və inkişaf etdirlməsinə əsas olmuşdur və son on illikdə bazar iqtisadiyyatının yaradılması Azərbaycan dövlətinin başlıca amalı olaraq Konstitutsiyada hüquqi status almışdır. Konstitusiyada Azərbaycan dövlətinin sosial yönümlü iqtisadiyyata, yaxud bazar münasibətlərinə, azad sahibkarlığın tərəqqisinə üstünlük verdiyi bildirilir (Maddə 15.2)[324] və bu, iqtisadiyyatın sosiallaşması deməkdir. Ölkəmizdə sosial-iqtisadi tərəqqiyə yönələn tədbirlərin genişləndirilməsi və tətbiqi yönündə dövlətin optimal siyasəti vardır. AR Prezidenti İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli Fərmanında "iqtisadiyyatda müşahidə olunan müsbət meylləri möhkəmləndirmək və daha da inkişaf etdirmək, sosial sahədə qarşıda duran problemlərin həllini sürətləndirmək" başlıca məram olaraq göstərilmişdir. Fərmanda sosial problemllərin həlli – "işsizliyin azaldırılması və əhalinin, xüsusilə gənclərin faydalı əməklə məşqulluğunun artırılması", "qacqınlar və məcburi köçkünlər üçün yeni müvəqqəti qəsəbələrin və evlərin tikilməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması və məşqulluğununun artırılması", "regionların yerli resusları və digər amillər nəzərə alınmaqla sosial-iqtisadi inkşafı", "alternativ enerji mənbələrinin istifadə və inkişaf etdirilməsi", "qeyri-neft sektorunun sürətli inkişafınının təmin edilməsi", "məhsul istehsalının və ixracın stimullaşdırılması", "yüksək keyfiyyətli məhsul və dərman ləvazimatlarının istehsalı və idxalının təmin edilməsi", "aqrar sektorda islahatların ikinci mərhələsinə başlanması", "əmək haqqı və təqaüd sisteminin təkminləşdirilməsi" və s. zəruri tədbirlərə aid edilmişdir.[325]

Bazar münasibətlərinə üstünlük verən ölkəmizdə aparılan iqtisadi islahatlar və innovativ tədbirlər nəticəsində iqtisadi keçid

---

[324]Azərbaycan Respublikasının Konstitusiyası, B.: Qanun, 2005

[325]Azərbaycan Resbublikasında sosial-iqtisadi inkşafın sürətləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikasinin Prezidentinin Fərmanı. İlham Əliyev Azərbaycan Respublikasinin Prezidenti. 24 noyabr 2003-cü il, №4

sona çatmış və sosial yönümlü bazar iqtisadiyyatı quruculuğu prosesi başlanmışdır.

AR prezidenti İlham Əliyev 2009-cu ildə bildirmişdir ki, “biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq”.[326] Azərbaycanda keyfiyyətcə fərqli iqtisadi tərəqqini səciyyələndirən başlıca xassələr – bazar iqtisadiyyatının qanunvericilik bazasının möhkəmləndirilməsi, sahibkarlar institutunun formalaşması, mülkiyyətin çoxnövlülüyünün təmin olunması, özəlləşdirmə, aqrar islahatlar, ayrılıqda müəssisələrin təsərrüfatında və ümumilikdə iqtisadiyyatda dövlətin müdaxiləsinin minimallaşdırılması, bazar institutlarının formalaşdırılması, daxili və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması, qiymətlərin bazar tərəfindən müəyyənləşdirilməsi, institusional islahatların keçirilməsi və s. ibarətdir.[327]

Sosial bazar münasibətlərinin qurulması sosial sahədəki problemlərin həlli, sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi və yeni istiqamətlərinin müəyyən etdirilməsi və nəticə olaraq insanların sosial-iqtisadi firavanlığının təminatı ilə müşayiət olunur. Sosial-iqtisadi rifah dedikdə, həm fərdlərin maddi vəziyyətinin obyektiv qiymətləndirilməsi, əhalinin sağlamlıq vəziyyəti və ətraf mühit, həm də subyektiv məmnunluq, yəni şəxsiyyətin əldə edilən maddi vəziyyətə münasibəti, onun sosial qarşılıqlı əlaqələrinin inkişafı, öz sağlamlığı və ətraf mühitin vəziyyətindən məmnunluğu düşünülür.[328] Sosial rifah halınının strukturunda əlavə olaraq, fiziki rifah, sosial rifah, emosional rifah,

---

[326]Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. “Xalq qəzeti”. 2009. 3 noyabr. № 245. S.1-2.

[327]Nəbiyev R. “ Azərbaycada sosial bazar iqtisadiyyatı”. Azərbaycan.- 2011.- 6 may.S. 10.

[328]Гасанов Э.А., Клемашева Е.И.,. GasanovE.A ,KlemashevaE.I. Теоретические положения социально ориентированной неоиндустриализации экономики России. Вестник науки Сибири. 2015. № 3 (18), s. 156-161. http://sjs.tpu.ru

peşə rifahı amilləri fərqləndirilir.[329] Əhalinin sosial firavanlığının təminatı iqtisadiyyatın inkişafının sosial sahələrə yönəldilməsini, yaxud sosial iqtisadiyyatın təkmilləşdirilməsini ehtiva edir. Azərbaycanda iqtisadi dəyişikliklərin təhlili XXI yüzilin əvvəllərindən ölkənin yeni inkişaf səviyyəsinə keçdiyini nümayiş etdirir.

2013-cü ildə ölkədə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 17872,1 mln. manat, 2014-cü ildə 17615,8 mln. manat, 2015-ci ildə 15957,0 mln. manat, 2016-cı ildə 14903,4 mln. manat əsas kapitala investisiya yönəldilmişdir. 2013-cü ildə əsas kapitala qoyulmuş vəsaitin 76,7%-ni daxili investisiyalar, 23,3%-ni isə xarici investisiyalar təşkil etmişdir. 2014-cü ildə əsas kapitala qoyulmuş vəsaitin 72,3%-ni daxili investisiyalar, 27,7%-ni isə xarici investisiyalar təşkil etmişdir. 2016-cı ildə əsas kapitala qoyulmuş vəsaitin 40,5%-ni daxili investisiyalar, 59,5%-ni isə xarici investisiyalar təşkil etmişdir.

2013-cü ildə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 13047,3 milyon manatı (73,0%-i), 2014-cü ildə 11651.6 milyon manatı (66,1%-i), 2015-ci ildə 8796,3 milyon manatı (55,1%-i), 2016-cı ildə 6286,0 milyon manatı (42,2%-i) qeyri-neft bölməsinin inkişafına sərf olunmuşdur.[330]

---

[329] Костина Е.Ю. Социальное благополучие и социальная безопасность в условиях глобализации современного общества // Universum: Общественные науки : электрон.научн. журн. 2015. № 6 (16) . URL: http://7universum.com/ru/social/archive/item/2277

[330] Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı 2013. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1143:2013-c%C3%BC-ilin-yanvar-mart-aylar%C4%B1-%C3%BCzr%C9%99-az%C9%99rbaycan-respublikas%C4%B1n%C4%B1n-sosial-iqtisadi-inki%C5%9Faf%C4%B1na-dair&catid=110:eig-2013&lang=az; Sosial-iqtisadi inkişaf 2014. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=2190&Itemid=288&lang=az; Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı 2015/ http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=3236&Itemid=312&lang=az; 2016-cı ildə Azərbaycan Respublikasının sosial-

2016-ci ilin yanvar-dekabr ayları ərzində iqtisadiyyatın qeyri-neft sektorunda 39,4 milyard manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 58,4%-i tikinti, sosial və digər xidmətlər, ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrinin payına düşmüşdür.

**Qrafik 1.**Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü




2016-ci ildə iqtisadiyyatın qeyri-neft sektoruna ÜDM-dan 65,7% ayrılmışdır.[331]

2016-cı il sentyabr ayının 1-i vəziyyətinə ölkə əhalisinin sayı 70,1 min nəfər və ya 0,7 faiz artaraq 9775,7 min nəfərə çatmışdır. Əhalinin bir kvadrat kilometrə olan sıxlığı 113 nəfər olmuşdur. Ölkə əhalisinin ümumi sayından 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinlərinin, 49,8 faizi kişilərin, 50,2 faizi isə qadınların payına düşür. 2016-cı il oktyabrın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 4978,3 min nəfər olmuş, onlardan 4731,4 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir. 2016-cı il oktyabr ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 33,8 min nəfər olmuş, onların

---

iqtisadi inkişafına dair ARAYIŞ.http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=4637:sii-2016&catid=125:2016-eig&lang=az

[331]2016-cı ilin yanvar-dekabr aylarında qeyri-neft sənayesinin inkişafı barədə. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=4463:qn-2016&catid=125:2016-eig&lang=az

37,9 faizini qadınlar təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 247,3 manat olmuşdur.[332]

Dünya İqtisadi Forumunun “2016–2017-ci illər üzrə qlobal rəqabətlilik hesabatı”na görə Azərbaycan 2006-cı illə müqayisədə 27 pillə irəliləyərək 138 ölkə arasında 37-ci mövqedə qərarlaşmışdır. Həmin hesabata əsasən, Azərbaycan makroiqtisadi mühitin keyfiyyəti göstəricisinə görə dünyada 39-cu, əmək bazarının səmərəliliyi üzrə 26-cı, milli gəlirin ÜDM-ə nisbəti üzrə 37-ci, infrastrukturun keyfiyyətinə görə isə 55-ci yerdədir.[333]

Respublikanın dayanıqlı inkişafında özəl təsərrüfatın tərəqqisi nəzərə alınır. Sahibkarlıq mühitinin daha yaxşı vəziyyətə gətirilməsi, sahibkarlara fəaliyyət şəraitinin formalaşdırılması, özəl təsərrüfatın təkmilləşdirilməsi tədbirləri strateji əhəmiyyət daşıyır.[334]Azad sahibkarlıq cəmiyyətin, müəyyən sosial birliyin və ya fərdin inkişafında əsaslı təsirə malikdir. Sahibkarlıq institutunun inkişafı bazar münasibətləri şəraitinin yaradılmasını tələb edir və inkişaf etmiş ölkələr sırasına daxil olmaq niyyətində olan hər bir dövlət üçün xüsusi əhəmiyyətlidir və ölkənin iqtisadi strategiyasının önəmli istiqamətlərindəndir.[335]

Sosial bazar təsərrüfatının tərəqqisində sahibkarlığın əhəmiyyətli mövqeyini nəzərə alan dövlətimiz sahibkarlığın normativ əsaslarını möhkəmləndirərək çox sayda qanunlar, sərəncamlar və fərmanlar qəbul etmişdir. AR “Sahibkarlıq

---

[332]Sosial sahələrin inkişafı. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=4078:sosial-saheler-2016&catid=125:2016-eig&lang=az

[333]Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. azertag.az/store/files/news/16.03/STRATEJİ%20YOL.pdf

[334]2016-cı ilin 6 ayı üzrə Azərbaycanda sahibkarlığın inkişaf dinamikası. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=4291:az-sid-6-ay&catid=22:%C3%BCmumi-m%C9%99lumat&lang=az

[335]Həmidli G. Sahibkarlığın inkişafına hüquqi yardım dövlət siyasətinin prioritet istiqamətlərindəndir. 31.07.2014-cü il tarixdə "Azərbaycan"qəzetində dərc olunmuşdur. http://www.justice.gov.az/notariat.php?page=stm16

fəaliyyəti haqqında" Qanununda: "Sahibkarlıqla bağlı münasibətlərin mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı, "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında" Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu[336], Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[337] və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimləndiyi" göstərilir.

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına[338] əsasən ölkədə kiçik və orta sahibkarlığın, biznes mühitinin yaxşılaşdırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, sağlam rəqabətin təmin edilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, sahibkarların maarifləndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi və digər tədbirlərin həyata keçirilməsi nəticəsində Ümumi Daxili Məhsulun həcmində özəl sektorun payı 2016-cı ildə 81,2% təşkil

[336]"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy. Bakı şəhəri, 15 dekabr 1992-ci il № 405. Əlavə və dəyişikliklərlə. http://www.economy.gov.az/media/pdf/qanun/arq-405.pdf

[337]Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 13 iyul 2016-cı il.

[338]Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 30 aprel 2007-ci il, № 567

etmişdir. Sənayedə qeyri-dövlət sektorunun payı 80,0% olmuşdur. Ümumi istehsalın 86,2% sənaye məhsulunun istehsalı, 13,8% isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır. 2016-cı ilin 1 iyul tarixinə qeydiyyatdan keçmiş ümumi sahibkarların 36,1% Bakı şəhərində, 63,9%regionlarda qeydiyyatdan keçmişdir. Sahibkarların ümumi bölgüsünə görə onların təqribən 14,6% hüquqi şəxslər, 85,4% isə fiziki şəxslər təşkil edir.[339]

Azərbaycanda sahibkarlıq fəaliyyətinin tənzimlənməsi istiqamətində 1999-cu ildə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) yaradılmışdır. "Konfederasiya özündə 6000-dən çox sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər iqtisadi və sosial yönümlü assosiasiya və ittifaqı birləşdirir. Konfederasiyanın Azərbaycanın 10 rayonunda regional nümayəndəlikləri fəaliyyət göstərir.".[340]

AR İqtisadiyyat Nazirliyinin məlumatlarına görə ölkədə ümumilikdə 715585 nəfər sahibkar vardır, onlardan 611394 nəfəri fərdi sahibkarlardır. Ümumi sahbkarların 257859 nəfəri Bakı şəhərindədirlər. Aran bölgəsində (137250 nəfər), Qazax-Gəncə bölgəsində (87893 nəfər) sahibkarların sayı xüsusi olaraq diqqət çəkir və regionların, o cümlədən qeyri-neft sektorunun inkişaf göstəricisidir.

Sahibkarların regionlar üzrə bölgüsü (2018-cı il üzrə):[341]

| | Müəssisə və təşkilatların sayı | Fərdi sahibkarların sayı | Ümumi sahibkarlar |
|---|---|---|---|
| Cəmi | 118594 | 794441 | 883035 |
| Bakı | 64488 | 235372 | 299860 |

339 2016-cı ilin 6 ayı üzrə Azərbaycanda sahibkarlığın inkişaf dinamikası. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=4291:az-sid-6-ay&catid=22:%C3%BCmumi-m%C9%99lumat&lang=az

340 Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası. http://ask.org.az/site/static/25

341 2018-ci ilin 6 ayı üzrə Azərbaycanda sahibkarlığın inkişaf dinamikası. https://economy.gov.az//uploads/fm/files/Sahibkarl%C4%B1q%20r%C9%99q%C9%99ml%C9%99rd%C9%99%202017.pdf

| | | | |
|---|---|---|---|
| Abşeron | 8049 | 39323 | 47372 |
| Gəncə-Qazax | 7570 | 111583 | 119153 |
| Şəki-Zaqatala | 4779 | 47590 | 52369 |
| Lənkəran | 6678 | 80347 | 87025 |
| Quba-Xaçmaz | 3797 | 43773 | 47570 |
| Aran | 16188 | 165657 | 181845 |
| Yuxarı Qarabağ | 2246 | 18893 | 21139 |
| Kəlbəcər-Laçın | 680 | 2606 | 3286 |
| Dağlıq Şirvan | 2198 | 25714 | 27912 |
| Naxçıvan Muxtar Respublikası | 1921 | 23583 | 25504 |

AR İqtisadiyyat Nazirliyinin məlumatlarına görə sahibkarlıq təsərrüfatı əsasən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (466578), ticarət, nəqliyyat vasitələrinin təmiri (283481 nəfər), tikinti (35866 nəfər) sahələri, emal sənayesi (47216 nəfər), peşə, elmi və texniki fəaliyyət (42924 nəfər) sahələrini əhatə edir.
Fəaliyyət sahələri üzrə sahibkarların bölgüsü (2018-ci il vəziyyətinə):[342]

| Fəaliyyət növləri | Müəssisə və təşkilatlar | Fərdi sahibkarlar | Ümumi sahibkarlar |
|---|---|---|---|
| CƏMİ | 109502 | 756318 | 865820 |
| o cümlədən: | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 10436 | 222853 | 233289 |
| Mədənçıxarma sənayesi | 833 | 672 | 1505 |
| Emal sənayesi | 6454 | 17154 | 23608 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 314 | 62 | 376 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 500 | 255 | 755 |
| Tikinti | 11891 | 6042 | 17933 |
| Ticarət; nəqliyyat vasitələrinin | 31124 | 201121 | 232245 |

[342]2016-cı ilin 6 ayı üzrə Azərbaycanda sahibkarlığın inkişaf dinamikası. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=4291:az-sid-6-ay&catid=22:%C3%BCmumi-m%C9%99lumat&lang=az

| | | | |
|---|---|---|---|
| təmiri | | | |
| Nəqliyyat və anbar təsərrüfatı | 2318 | 84574 | 86892 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1915 | 37479 | 39394 |
| İnformasiya və rabitə | 2974 | 6469 | 9443 |
| Maliyyə və sığorta fəaliyyəti | 1635 | 1719 | 3354 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 1508 | 12153 | 13661 |
| Peşə, elmi və texniki fəaliyyət | 8046 | 13416 | 21462 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 4854 | 2921 | 7775 |
| Təhsil | 3783 | 5244 | 9027 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1815 | 2533 | 4348 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1812 | 10870 | 12682 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 21447 | 149154 | 170601 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | | 19750 | 19750 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 4840 | | 4840 |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 95 | 222853 | 222948 |

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının 2016-cı ilin oktyabrında dərc edilmiş“Doing Business – 2017” hesabatındaölkəmiz işgüzar mühitin əlverişliyi səviyyəsinə görə tədqiqatın aparıldığı 190 ölkə sırasında65-ciyerdə qərarlaşıb. Ölkəmiz bu hesabatda 4 göstərici üzrə ilk 40 ölkə sırasında olub:

1. “biznesə başlamaq” – 5-ci yer,
2. “mülkiyyətin qeydiyyatı” – 22-ci yer,
3. “investorların müdafiəsi” – 32-ci yer,
4. “vergilərin ödənişi” – 40-cı yer.

Hesabatda Azərbaycan "biznesə başlama prosedurlarının sayı" (3-cü yer), "biznesə başlamaq üçün günlərin sayı" (9-cu yer) kimi alt göstəricilər üzrə ilk 20 ölkə sırasına aid edilib.[343]

2018-ci ilin sonunda Dünya Bankının növbəti "Doing Business" hesabatında 150-dən çox ölkənin biznes mühiti ilə bağlı xüsusi göstəricilər öz əksini tapmışdır. Bu hesabatda göstərilir ki, Azərbaycan biznesin asanlaşdırılması istiqamətində böyük nailiyyətlər əldə edən ilk 10 ölkə sırasındadır. Hesabatda həmişə irəliyə doğru gedən dövlət kimi göstərilən Azərbaycan 2016-cı ilin hesabatında reytinq üzrə 65-ci idisə, 2018-ci ildə 57-ci sıraya, 2019-cu ildə isə 32 pillə irəliləyərək 25-ci yerə yüksəlib. "Doing Business" hesabatında Azərbaycan Cənubi Qafqaz dövlətləri arasında yeganə sürətli inkişaf edən, biznes mühitinin asanlaşdırılması istiqamətində ciddi islahatlar aparan ölkə kimi təqdim edilir.[344]

Bu göstəricilər Azərbaycanda sahibkarlığın inkişafına optimal imkanların yaradıldığını göstərir. Ölkəmizdə Sahibkarların investisiya təminatının gücləndirilməsinə dövlət səviyyəsində xüsusi diqqət yetirilir, sahibkarlıq subyektləri üçün elektron xidmətlərin təşkili genişləndirilir, sahibkarların işgüzar əlaqələrinin inkişafı və ixrac imkanları dəstəklənir. Eyni zamanda sahibkarlığın güzəştli maliyyələşməsi mexanizmi yaradılmışdır, sahibkarların hüquqlarının müdafiəsi ilə bağlı əsaslı tədbirlər görülür. Xüsusi İqtisadi Zonaların, sənaye parkları və məhəllələrinin yaradılması sahibkarlığın stimullaşdırılması və inkişafı istiqamətində atılan əhəmiyyətli addımlardır. Artıq sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarları dəqiqləşdirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli 215 nömrəli Qərarı ilə təsdiq olunmuş "İri,

---

[343]Azərbaycan beynəlxalq hesabatlarda. http:s//www.economy.gov.az/index.php?option=com_content&view=article&id=294&Itemid=184&lang=az

[344] İsmayilov S. Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir. "Azərbaycan" qəzeti, N32(8055) 9 fevral, 2019-cu il.

orta və kiçik sahibkar meyarları"na əsasən işçilərin orta siyahı sayı 25 nəfərədək, illik gəliri 200 min manatadək olan sahibkarlar kiçik, işçilərin orta siyahı sayı 25 nəfərdən 125 nəfərədək, illik gəliri 200 min manatdan 1.250 min manatadək olan sahibkarlar orta və işçilərin orta siyahı sayı 125 nəfər və ondan yuxarı, illik gəliri 1.250 min manatdan və ondan yuxarı olan sahibkarlar iri sahibkar müəyyən olunmuşdur.[345]

Sahibkarlığın inkişafı ilə bağlı vergi sistemində müəyyən yeniliklər edilmişdir ki, bu da orta sinfin və xüsusi mülkiyyətin inkişafına kömək məqsədi daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il Fərmanına əsasən sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədi ilə Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır və fondun məqsədi sahibkarlığın inkişafına maliyyə dəstəyi verməkdən ibarətdir.[346]

Son onillikdə baş verən dünya maliyyə-iqtisadi böhranı "İnkişafın Azərbaycan modeli" ilə bağlı müzakirələrə səbəb olmuşdur.[347]Azərbaycanın müasir sosial-iqtisadi quruluşunu "qarışıq iqtisadi sistem" kimi müəyyənləşdirən Ə.R.Babayevə görə, bu "iqtisadi inkişaf modeli planlı tənzimlənən sosialyönümlü bazar iqtisadiyyatıdır" və onun fikrincə, "Azərbaycan milli iqtisadi

---

[345] Sahibkarlığa dəstək. https://www.economy.gov.az/article/sahibkarl%C4%B1%C4%9Fa-d%C9%99st%C9%99k/21387

[346]Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. İlham Əliyev. Azərbaycan Respublikasının Prezidenti.Bakı şəhəri, 31 iyul 2018-ci il. N 224. http://www.taxes.gov.az/modul.php?name=qanun&news=1345

[347]Nəbiyev R. " Azərbaycada sosial bazar iqtisadiyyatı". Azərbaycan.- 2011.- 6 may.- S. 10.

inkişaf modelinin qurulmasında bir çox dünya ölkələrinin iqtisadi inkişaf modellərindən istifadə olunmuşdur”.[348] Vurğulanmalıdır ki, real kapitalist sisteminin əsas əlamətləri məhz qarışıq iqtisadiyyat (şəxsi mülkiyyətin üstünlüyü), əmtəə və xidmətlərin bazar mexanizmlərinə əsaslanaraq bölüşdürülməsi (kapitalistlər üçün gəlir, zəhmətkeşlər üçün əmək haqqı, istehlakçılar üçün qiymətlər), o cümlədən gəlirlərin yüksək səviyyədə kapitallaşması (maddi-əşyavi, pul, bilik və təhsilin səviyyəsinin yüksəldilməsi ilə bağlı “insan kapitalı”) ilə bağlıdır.[349]

Azərbaycan milli ənənələri və innovativ tərəqqi qanunlarını və münasibətlərini ehtiva edən sosial iqtisadi inkişaf modelinə malikdir. Bu qanunlar və münasibətlər bilavasitə sosial yönümlü, cəmiyyətin sosial tələbatlarını, sosial sabitliyi nəzərdə saxlayır və buna zəmanət verən iqtisadi siyasəti reallaşdırır, ölkəmizdə institusional sosal bazar iqtisadiyyatı formalaşdırılır.

Sosial yönümlü bazar təsərrüfatında dövlət fəal iştirakçı olur və sosial iqtisadi sabitliyin saxlanmasına, maksimum firavanlığın təminatına, sosial tərəqqiyə, ictimai dəyərlərin, ətraf mühitin, rəqabətin, şəxsi təşəbbüsün qorunub saxlanmasına yönəlir. Dövlət makro-iqtisadi nailiyyətlətrlə (müəyyən məşğulluq səviyyəsi, qiymətlərin sabitləşdirilməsi, iqtisadiyyatın tarazlığı və s.) yanaşı, öz qarşısında sosial məqsədlər də qoyur, onun fəaliyyəti bazarın natamamlığının aradan qaldırılması, onun sosial yönümlülüyünün artırılmasıdır.[350]

Ölkəmizdə “sosial yönümlü bazar iqtisadiyyatı” modeli formalaşsa da deyə bilərik ki, ayrı-ayrı ölkələrin inkişaf modelləri qlobal və lokal xüsusiyyətlərdən təsirləndiyi üçün mütləq digərlərindən fərqlidir. Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatı modelinin formalaşmasına təsir edən göstəricilər –

---

[348]Babayev Ə.P İqtisadi inkişafdan modernləşməyə doğru . “Oğuz eli” Bakı-2013, s. Səh.144-157

[349]Мировая экономика: глобальные тенденции за 100 лет. М., 2003.

[350]Дикань В.Л. Социально-ориентированная рыночная экономика Украины в условиях глобализации. Вісник економіки транспорту і промисловості № 35, 2011, s.15-19

iqtisadi fəal əhalinin sayı, ətraf mühitin keyfiyyəti, elmi-texniki inkişaf səviyyəsi, sosial institutların keyfiyyəti və qloballaşmanın xarici təsirləri, daxili eksternaliyalar (kölgəli iqtisadiyyatın inkişafı, korrupsiyanın genişlənməsi və s.), ÜDM inkişafı, həyat keyfiyyəti, ölkənin rəqabət bacarıqlarının inkişafı, həyatın dəyəri, istirahətin keyfiyyəti və mədəniyyətin səviyyəsi, iqtisadi inkişaf, insan haqlarının və azadlıqlarının təminatı, səhiyyənin inkişafı, həyat fəaliyyətinin təhlükəsizliyi, təbii resurslardan istifadə, meşə əraziləri, dəniz və okeanların sahəsi, təsərrüfat yararlı torpaqlar, təbii yanacaq ehtiyatları və digərləridir. Həmin göstəricilərin istifadəsi aşağıdakılarılarla bağlıdır:

I.Ərazi-məkan xüsusiyyətləri: regional, milli, meqaregional, beynəlxalq və qlobal.

II. Zaman parametrləri: qısa, orta, uzunmüddətli təsir.

III. Təsir sahələri: siyasi, hərbi, mənəvi-mədəni, informasion, iqtisadi.

IV. Sahəyə görə: maliyyə sahəsi, istehsak sahəsi, xidmət sahəsi, ticarət sahəsi.

V.İqtisadi təhlükəsizlik: enerji, ekoloji, sosial, demoqrafik, innovasion-texnoloji, istehlak və maliyyə.

"Sosial yönümlü iqtisadiyyatı" reallaşdırılarkən insanların yaşayış keyfiyyətinin və insan resurslarının rəqabət bacarıqlarının yüksəldilməsi, həmçinin iqtisadiyyatın nizama salınması və dayanıqlı olması, təbii ehtiyatların qorunaraq növbəti nəsillərə ötürülməsi vacib şərtlərdir. Modelin əsas məqsədi – ekoloji, institusional, iqtisadi, informasion-texnoloji istiqamətlərin insan resurslarının və ekosistemin tənzimlənmiş inkişafına yönəldilməsidir.[351]

İqtisadi inkişafın Azərbaycan modelinin özünəməxsusluqları aşağıdakılarla bağlıdır:

---

[351]Флейчук М.И.Основы формирования модели социально-экономического развития для постсоветских стран. Сб.:Социально-ориентированная модель экономического развития: опыт Германии и Беларуси:материалы междунар. науч.-практ. конф., Минск, 18 мая 2011г. / Фонд им. Фридриха Эберта [и др.]. Минск : И. П. Логвинов, 2011.108 с.

I. fərqli mülkiyyət və təsərrüfat formalarına söykənən qarışıq iqtisadiyyat yaranır, özəl və dövlət mülkiyyətinin optimallaşdırılmasını təmin edəcək bərabər təsərrüfat imkanları açılır;

II. Azərbaycanda iqtisadiyyatın əsas tənzimləyicisi dövlətdir, əmtəənin daxili və xarici bazarlarda rəqabətliliyinin yüksəldilməsinə şərait yaradılır;

III. İqtisadiyyat makro və mikro səviyyələrdə tənzimlənir;

IV. Sosial yönümlü iqtisadiyyatın inkişaf xüsusiyyətləri, sosial problemlərin həllində dövlətin müdaxiləsi ənənələri alman modelinə uyğundur;

V. Dövlət tərəfindən azad rəqabət mühiti yaradılır və antiinhisar fəaliyyəti genişləndirilir;

VI. Məşğulluq, kasıblığın azaldılması dövlətimizin sosial iqtisadi siyasətinin əsas tərəfidir.[352]

Azərbaycan dövlətinin "sosial yönümlü bazar iqtisadiyyatı" modeli özündə Qərb ölkələrinin təsərrüfat ənənələrini birləşdirir, belə ki, Azərbaycan Avropa İttifaqının sosial siyasət proqramına qoşulub və burada bazar iqtisadiyyatının hüquqi əsasları beynəlxalq qanunlara söykənir.

Azərbaycanın sosialyönümlü mahiyyət daşıyan iqtisadi inkişaf modeli insan kapitalı amilini əsas götürür və inkişaf etmiş aparıcı dünya dövlətlərinin təcrübəsinə söykənir. Ölkəmizdə innovativ və davamlı iqtisadi inkişaf, sosial modernləşmə strategiyası reallaşdırılır.

## 3.3. Müasir dünya sistemində baş verən dəyişikliklərin sosial dövlətə təsiri, nəticələri və perspektivləri

XXI əsrdə sosial dövlət yeni reallıqlarla üzləşib. Qlobal xüsusiyyət almış miqrasiya problemi lokal sosial dövlətlərin inkişaf strategiyalarında dəyişikliklər aparılmasını tələb edir. Zənnimizcə,

[352]Babayev Ə. "Dünyanın böyük maraqla öyrəndiyi model". "Azərbaycan".-2010.-7 dekabr.N 268.S.3.

sosial dövlətin qlobal deyil, məhz lokal xarakterli olması sosial böhranların qlobal xarakter almasının əsas mənbəyi kimi çıxış edir.

Hazırda ictimai həyatın bütün tərəflərini əhatə edən və dünya ölkələrinin və xalqlarının qarşılıqlı asılılıq sistemini yaradan qloballaşma prosesləri siyasi və iqtisadi sistemlərdə qlobal dəyişikliklərə səbəb olub.[353] Müasir qloballaşma prosesinin əsas xüsusiyyətlərindən biri həm inkişafın, həm də tənəzzülün qlobal miqyas alması ilə bağlıdır. Belə ki, son onilliklərdə baş verən iqtisadi inkişaf prosesi əvvəlcə bir sıra dövlətlərin və bütöv regionların tərəqqisinə, sonradan meydana çıxan tənəzzül isə qlobal böhranın əsasına çevrilib. Müəyyən mənada müasir iqtisadi böhran qloballaşmanın zəifləməsinə səbəb olmuşdur. Böhranın əsas səbəblərindən biri ölkələr arasında qlobal əmək bölgüsü ilə əlaqədar baş verən dəyişikliklərdir. İlk növbədə inkişaf etmiş Qərb ölkələrində maliyyə sektoru sürətlə genişlənir, inkişaf etməkdə olan ölkələrdə isə real iqtisadiyyatın tərəqqisinə diqqət yetirilir. Maliyyə mərkəzlərinin, maliyyə axınlarının və texnologiyaların sürətli yüksəlişi maliyyə sektorunun inkişaf tempini müəyyən edir və öz növbəsində qlobalmaliyyə iqtisadi böhrana gətirir.[354]

Hazırda müasir kapitalist iqtisadiyyatının beş modelini fərqləndirirlər: Amerika, Avropa, Yaponiya, Latın Amerikası və Afrika modelləri. Bu modellərin hər biri əmtəə-pul münasibətlərinin yetkinlik dərəcəsinə, iqtisadi inkişaf, demokratiya və sivil səviyyəsinə görə bir-birindən fərqlənirlər. Şəxsi mülkiyyət, əmtəə və xidmətlərin bazar mexanizmi vasitəsilə bölüşdürülməsi, gəlirlərin yüksək səviyyədə kapitallaşdırılması – müasir kapitalist iqtisadiyyatının əsas əlamətləri hesab edilir.[355]

Bu iqtisadi modellərdən hər hansı birində başlanan böhran tez bir zamanda qlobal xarakter ala bilir. Məsələn, 2008-2009-cu

---

[353]Ионцев В.А. Международная миграция: теория и история изучения // Международная миграция населения: Россия и современный мир / под ред. В. А. Ионцева. М.: ДИАЛОГ-МГУ, 1999. ВЫП. 3. С. 53–105.

[354]Гринин Л. Е. Приведет ли глобальный кризис к глобальным изменениям? www.socionauki.ru/book/files/kdvg/095-119.pdf

[355]Мировая экономика: глобальные тенденции за 100 лет. М., 2003.

illərdə ABŞ-da başlanan maliyyə böhranı tez bir zamanda dünya iqtisadi sistemini əhatə etməklə yanaşı digər sahələrə də yayıldı.[356]

Belə ki, ETT-nin nəticəsi kimi formalaşan virtual maliyyənin inkişafı, iqtisadi dəyərlərin, biznesin təşkili ilə bağlı norma və qaydaların nüfuzdan düşməsi, sosial təbəqələr arasında iqtisadi fərqliliyin dərinləşməsi, apatiya, həmçinin iqtisadi ədalətlilik prinsiplərinə, sahibkarlığın səmərəli olmasına və işgüzar fəallığın perspektivlərinə inamın itirilməsi, işsizliyin artması və istehsalatda ixtisarlar, qlobal iqtisadi sistemdə eyni aktorların aparıcı rola malik olması və s. ümumdünya iqtisadi böhranının əsas səbəblərindəndir.[357]

Dünya iqtisadiyyatında müasir böhranın miqyası sürətlə genişlənir və bazar sistemində baş verən ziddiyyətlər ciddi mənfi iqtisadi və sosial nəticələrə gətirir. Müasir böhranın əsas xüsusiyyətləri eyni zamanda həm milli iqtisadiyyatların, həm də dünya təsərrüfatının böhran keçirməsi ilə bağlıdır. Bu böhranı 1929 – 1933-cü illər iqtisadi böhranı ilə müqayisə etsələr də, hazırda baş verən qlobal böhran öz tarixi şəraitinə, sürətli ETT-yə əsaslanan modernləşmə və yeni qlobal idarəetmə modelinin reallaşdırılması şəraitində baş verir. Bazar iqtisadiyyatı öz inkişafında informasiya inqilabı və qloballaşma prosesləri ilə bağlı yeni inkişaf mərhələsinə qədəm qoyub. Bütün bunlar müasir böhranı, onun səbəblərini və xüsusiyyətlərini xarakterizə edən bir sıra yeni parametrləri əhatə edir.[358]

Müasir böhranın əsas xüsusiyyəti onun qlobal və beləliklə də, qarşılıqlı əlaqəli olması ilə bağlıdır, belə ki, məhz qlobal olması böhranın yalnız iqtisadi sahə ilə kifayətlənməyib, digər sahələrə də nüfuz etməsi, siyasi, mədəni və mənəvi böhrana gətirməsi ilə

---

[356] Переоснащениемирового развития. Общий обзор. Обзор мирового экономическогоисоциального положения, 2010 год. Департамент по экономическим и социальным вопросам. Организация Объединенных Наций, Нью-Йорк, 2010 год. s.1, 2

[357]Гаджиева В. Глобальный кризис: причины, направления, пути решения. Век глобализации № 1(5) /2010, с. 106–110

[358] Динкевич А. И. Мировой финансово-экономический кризис(Опыт структурно-функционального анализа). Кризис: причины, последствия, уроки.деньги и кредит • 10/2009, с.23-30.

bağlıdır. Hazırda qlobal iqtisadi böhranın davamı, bəlkə də əsası olan qlobal siyasi böhran iki istiqamətdə inkişaf edir: 1) Beynəlxalq təşkilatların mövcud vəziyyətinin qorunub saxlanması. İslahatların aparılmaması təşkilatların qorunub saxlanması şanslarının itirilməsinə gətirə bilər, yenidən təşkilatlanmaq cəhdləri isə böyük çətinliklərlə başa gəlir. Belə bir şəraitdə dünya böhran vəziyyətinə düşür. 2) Böyük dövlətlərin dünya üzərində nəzarətlə bağlı təzyiqinin artması, öz tərəfdarlarının Təhlükəsizlik Şurasına irəli çəkilməsi, onlar arasında rəqabətin təhlükəli vəziyyətə gəlməsinə səbəb ola bilər.[359]

Qlobal siyasi böhran bir tərəfdən, mənəvi, yaxud ideologiya ilə bağlı böhranın nəticəsi, digər tərəfdən isə səbəbi kimi çıxış edir. Bir çox tədqiqatçılar əmindirlər ki, bəşəriyyətin bütün fəlakətlərində ETT və onun yaratdığı texniki sivilizasiya günahkardır. Məhz texniki sivilizasiya insanların israfçı həyat tərzini formalaşdırır, onlarda əqlin sərhədsiz qüvvəsinə inam yaradır. Digər tərəfdən, insanların dağıdıcı xüsusiyyətləri, aqressiv təbiəti, məhdudiyyətsiz istehlaka cəhdləri, ümumi inkişaf məqsədlərinin olmaması mənəvi böhranın əsası kimi çıxış edir.[360] Mənəvi aşınmanın əsas göstəriciləri olan bu amillər beynəlxalq miqrasiya prosesi ilə bağlı yaranan böhranın qlobal miqyas almasına səbəb olmuşdur. Artıq müasir qloballaşmanın əsas xüsusiyyələrindən birinə çevrilmiş miqrasiya prosesləri depopulyasiyanın dərinləşməsinə və etnoslararası münasibətlərin kəskinləşməsinə, dini və mədəni tolerantlıq məsələlərinin aktuallaşmasına səbəb olmuşdur. Bütün qitələri, sosial təbəqələri və sosial qrupları, ictimai həyatın bütün sahələrini əhatə edən miqrasiya prosesləri sosial dəyişikliklərin və inkişafın əsas amilinə çevrilib. Haqlı olaraq müasir dövr "miqrasiya dövrü" adlandırılır.[361]BMT-nin əhalinin yerləşməsilə bağlı bölməsinin

---

[359]Гаджиева В. Глобальный кризис: причины, направления, пути решения. Век глобализации № 1(5) /2010, с. 106–110

[360] Философия XX века. Учебное пособие. М., ЦИНО общества "Знание" России, 1997. 288с.

[361]Магомедсултанов И.И., Мамедбекова М.О. "Миграция как один из основных факторов социальных преобразований в современный период

məlumatlarına görə, əgər XX əsrin 90-cı illərinədək mühacirət edən insanların sayı 3 milyon nəfər idisə, 2015-ci ildə dünyada 244 milyon nəfər miqrant qeydiyyata alınmışdır və onların təxminən 58%-i inkişaf etmiş ölkələrdə, 42%-i isə inkişaf etməkdə olan ölkələrdə məskunlaşmışlar.[362]

XX əsrdə miqrasiya axınlarının genişlənməsinin əsas səbəbləri bilavasitə dünyanın siyasi xəritəsində, beynəlxalq və iqtisadi münasibətlərdə baş verən transformasiyalarla bağlı olmuşdur. XX əsrin sonlarını yeni kütləvi müharibələr dövrü adlandırmaq olar. Belə ki, məhz bu dövrdən başlayaraq geosiyasi proseslər ayrı-ayrı xalqların, millətlərin, etnosların tarixi inkişafında yeni istiqamətlər müəyyənləşdirdi. XX əsrdə Hindistanla Pakistan arasında başlanan müharibə 10 milyon nəfər insanın qaçqına çevrilməsinə, Vyetnam, Kamboca və Laosda baş verən hadisələr milyonlarla yeni məcburi köçkünlər dalğasının yaranmasına səbəb oldu. Məhz bu dövrdə ÇXR, Koreya Respublikası, Yaponiya, Tayvan, Honkonq və Sinqapur dövlətləri işçi qüvvəsi ixrac edən əsas regionlara çevrildilər. Sosialist blokunun dağılması, SSRİ-nin süqutu və yeni dövlətlərin yaranması miqrasiya axınının sürətlənməsinə gətirdi.[363]

XXI əsrin birinci yarısında sivilizasiyaların toqquşması və terrorizm təhlükəsi qlobal xüsusiyyət kəsb etməyə başladı. Hazırda lokal münaqişələr və terror aktları sivilizasiyaların toqquşması forması kimi çıxış edir və bir sıra demoqrafik problemlərə, o cümlədən miqrasiya proseslərinin genişlənməsinə gətirir.[364] XXI əsrdə miqrasiya prosesləri həm müharibə və terrorizmin səbəblərinə, həm də nəticələrinə çevrilmişdir.

---

глобализации”, «Региональные проблемы преобразованияэкономики». №1 – 2013, s.132-138

362United Nations High Commissioner for Refugees, Global Trends: forced Displacement in 2015. (Geneva, 2015). www.unhcr.org.

363ПотемкинаТ.В.Миграционные процессы в современной системе международных отношений». Знание. Понимание. Умение. 2008, №3

364Нижников С.А."Глобальные проблемы современности”. Философия: курс лекций: учебное пособие для вузов. М.: Изд-во "Экзамен". 2006. 383 С. http://www.ecad.ru, s.128-132

Bəşəriyyətin idarə edilməsinə yönələn iri güc mərkəzlərinin dünya hakimliyi uğrunda apardığı müharibələr, həmçinin bu qüvvələrin təzyiq vasitəsi kimi ayrı-ayrı ölkələrdə həyata keçirdiyi terror aktları daimi qorxu və həyəcan içərisində yaşayan insanların kütləvi miqrasiyasına səbəb olur.[365]

Beləliklə, miqrantların yaşadıqları ölkələri tərk etmə səbəbləri əsasən müharibələr, siyasi və etnik münaqişələr, siyasi dəyişikliklər və bilavasitə bu vəziyyətlə bağlı olaraq meydana çıxan iqtisadi böhranlar, yaxud əhali sayının çox olması, aclıq, epidemiyalar, ekoloji, təbii və texnogen xüsusiyyətli fövqəladi hallar[366], o cümlədən ailə vəziyyəti, iş yerinin dəyişdirilməsi, təhsillə bağlı yerdəyişmə, işsizlik və s. proseslər müəyyən edilir.[367] Miqrasiyanın əsas səbəbləri kimi işsizlik – 38%, korrupsiya və bürokratiya – 19%, infrastrukturun zəif inkişafı – 11% və müharibə və münaqişə şəraiti, diskriminasiya, təqib, siyasi qeyri-sabitlik və s. – 32% göstərilir.




Qlobal miqyas almış miqrasiya böhranının əsas axın mənbələri kimi aşağıdakıları göstərirlər:

I.Miqrantların və qaçqınların Avropaya fövqəladə axını ilk növbədə Suriya müharibəsi ilə bağlıdır. Hazırda beynəlxalq miq-

---

365 Нижников С.А."Глобальные проблемы современности”. Философия: курс лекций: учебное пособие для вузов. М.: Изд-во "Экзамен". 2006. 383 С. http://www.ecad.ru, s.154-163

366 Маркина М.В., Бочкарева С.В. «Миграционные процессы в современной системе международных отношений».journal.mrsu.ru/wp-content/uploads/2013/11/MARKINA.pdf, s.116-119

367 Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростов н/Д: «Феникс», 2001, с.233-237

rantların yarısını Suriyadan qaçanlar təşkil edir.[368] Suriyada miqrasiyanın ilk amili münaqişənin siyasi tənzimlənməsinin mümkün olmasına xalqın inamı itirməsi ilə bağlıdır. İkinci amil, artıq bir neçə ildir ki, qaçqın həyatı yaşayan insanların ehtiyatlarının tükənməsi ilə, üçüncü amil isə regional humanitar yardımın azalması ilə əlaqədardır.[369]

Ekspertlərin hesablamalarına görə 2015-ci ildə qaçqınlara və onları qəbul edən ölkələrə kömək məqsədilə 5,5 milyard dollar vəsait lazım olmuşdur, ki, bu məbləğin də yalnız 24%-i təmin edilmişdir. Hazırda 4 milyondan çox suriyalı qaçqın qonşu Türkiyənin, 1,17 milyon Livanın, 630 min İordaniyanın, 250 min İraqın, 132 min Misirin ərazilərində, 24 min isə Şimali Afrikanın bir sıra ölkələrində məskunlaşmışdır, 270 min suriyalı Avropa ölkələrində sığınacaq almaq üçün müraciət etmişlər.[370]

II. Miqrasiya axınına Əfqanıstandan, Şimali Afrikadan, Liviyadan, həmçinin Saxaranın cənubunda yerləşən ölkələrdən olan mühacirlər də qoşulurlar. “İslam dövləti” terrorçu təşkilatı da miqrasiya axınlarına səbəb olan əsas qüvvələrdən hesab edilir.[371]

III.Şimali və Ekvatorial Afrikadan olan miqrantlar müəyyən Avropa ölkələrində məskunlaşmağa can atırlar. Onların əksəriyyəti “İslam dövlətinin” gəlməsi təhlükəsindən ehtiyat edən ölkələrdəndirlər.[372] 2015-ci ilin birinci yarısında Aralıq Dənizi vasitəsilə Avropa ölkələrinə miqrasiya edənlərin sayı 137 min nəfər ol-

---

[368]МОМ: 67 тысяч беженцев прибыло в ЕС морем за первый месяц 2016 года // РИА Новости. – 02.02.2016. – Режим доступа: http://ria.ru/world/20160202/1368684904.html

[369]УВКБ: сокращение гумпомощи САР - одна из причин миграционного кризиса // РИА Новости. – 05.10.2015. – Режим доступа: http://ria.ru/world/20151005/1297177679.html

[370]Проблема беженцев: ООН бьет тревогу // ТАСС. – Режим доступа: http://tass.ru/spec/refugee

[371]МОМ: 67 тысяч беженцев прибыло в ЕС морем за первый месяц 2016 года // РИА Новости. – 02.02.2016. – Режим доступа: http://ria.ru/world/20160202/1368684904.html

[372]Миграционный кризис - у ЕС нет решения // ТАСС. – 19.09.2015. – Режим доступа: http://tass.ru/mezhdunarodnaya-panorama/2275152

muşdur. Hazırda miqrantlar Yunanıstana keçməyə üstünlük verirlər, lakin burada 2 min nəfərdən artıq insanın qəbul edilməsi mümkün olmadığı üçün Makedoniya, Serbiya və Macarıstana axın genişlənmişdir. Miqrasiya üzrə beynəlxalq təşkilatın verdiyi məlumata əsasən 2016-cı ildə 67193 nəfər qaçqının 62 min nəfəri Yunanıstana daxil olmuşdur.[373]

Miqrasiya ilə bağlı mühacirləri qəbul edən resipient ölkələr və insanların tərk etdiyi donor ölkələr fərqləndirilir. İnsanların tərk etdikləri ölkələrdə kütləvi emiqrasiya aşağıdakı nəticələrə gətirə bilər:

- işsizliyin azalması və hissəli məşğulluq;
- xarici ölkələrdə yaşayan mühacirlərin öz yaxınlarına pul göndərməsi ilə bağlı valyuta axınının genişlənməsi;
- öz ölkəsinin maraqları ilə əlaqədar fəaliyyət göstərən etnik lobbiləşmə, bəzən isə hətta münaqişə vəziyyətində olan tərəflərdən birinin dəstəklənməsi;
- beyin axını və ixtisaslı kadrların getməsi.[374]

Qeyd edilən proseslərlə bağlı olaraq, BMT ekspertləri mühacirlərin beş qrupunu fərqləndirirlər:

1.təlim və təhsil almaq üçün ölkəyə daxil olan əcnəbilər;
2.işlə əlaqədar yerdəyişən mühacirlər;
3.daimi yaşayış yerinə köçən mühacirlər;
4.ailələrin birləşdirilməsilə bağlı köçən mühacirlər;
5.humanitar baxışlardan ölkəyə buraxılan mühacirlər (qaçqınlar, sığınacaq axtaran qaçqınlar).[375]

---

[373]МОМ: 67 тысяч беженцев прибыло в ЕС морем за первый месяц 2016 года // РИА Новости. – 02.02.2016. – Режим доступа: http://ria.ru/world/20160202/1368684904.html

[374]ПримбетовС.Д. “Проблемы нелегальной миграции в странахЕвразийского Экономического Сообщества (ЕврАзЭС)”, Круглый стол «Проблемы нелегальной миграции в Центральной Азии в условиях глобализации», организованного Институтом мировой экономики и политики совместно с Фондом им. Ф.Эберта 31 мая 2004 г. вг. Алматы, s.102-111

[375] United Nations High Commission erfor Refugees, Global Trends: forced Displacementin 2015 (Geneva, 2015). www.unhcr.org.

Hazırda miqrasiyanın ən geniş yayılmış formalarından biri "beynəlxalq intellektual miqrasiya"dır. Bu növ miqrasiya "beyin axını" (brain gain) və "beyin itkisi" (brain drain) adlandırılır və intellektual kapitalın bir istiqamətli – donor ölkədən resipient ölkəyə hərəkəti, bilik və təcrübələrin mübadiləsi kimi qəbul edilir.[376]

Dünya Bankının 33 ölkədə apardığı tədqiqatlara əsasən dünya əhalisinin 10% ali təhsilli sakini "beyin axını" prosesinə qoşulurlar. Əsasən Dominikan Respublikası, Salvador, Meksika, Qvatemala və Yamayka kimi iqtisadiyyatı daha zəif inkişaf etmiş ölkələrin əhalisinin savadlı hissəsinin 2/3-i Amerikaya və digər inkişaf etmiş ölkələrə köçürlər. Beynəlxalq valyuta fondunun apardığı tədqiqatlar göstərmişdir ki, hazırda beyin axınından ən çox əziyyət çəkən ölkə İrandır.[377]

"Beyin axını" donor ölkələrdə millətin ziyalı təbəqəsinin, yüksək ixtisaslı kadrların, xüsusilə də səhiyyə və xidmət sahələrində çalışan insanların azalması ilə müşayiət edilir.[378]Donor ölkələr peşəkar mütəxəssislərin getməsi nəticəsində iqtisadi itkilər verirlər, çünki bu mütəxəssislərin hazırlanmasına sərf edilən sərmayə itirilmiş olur. Reseptor ölkələrdə isə əksinə, işçi qüvvəsinin keyfiyyəti yüksəlir, əmək bazarında ahəngdarlıq yaranır və mütəxəssislərin hazırlanmasına qənaət edilir.[379]Ümumilikdə miqrasiya prosesləri dövlətlərin, birliklərin, ittifaqların və s. geosiyasi strukturuna ciddi təsir göstərir. Hər il təxminən 7 – 10 milyon nəfər insan inkişaf etmiş sənaye ölkələrinə köçürlər. 2005-ci ildə Avropada miqrantlar əhalinin 7,7%-i təşkil etmişdir. Hazırda miqrantların qəbuluna görə

---

[376]Margerita Bondar. Международная интеллектуальная миграцияв экономике знаний. EconomicsandManagement – 2/2013, s.63

[377]«Утечка мозгов» как глобальное явление. Причины и последствия. © 2002–2014 ИАА Центр гуманитарных технологий., s.72-83

[378]United Nations Population Division, Health Workers, International Migration and Development (Population Facts No. 2010/2/E), March 2010. United Nations Population Division, Health Workers, International Migration and Development (Population Facts No. 2010/2/E), March 2010].

[379] Khalid Koser, "The impact of the global financial crisis on international migration", The Whitehead Journal of Diplomacy and International Relations, vol. XI, No.1, winter/spring 2010, pp. 13–20

ABŞ (35 milyon nəfər), Rusiya (13,3 milyon nəfər), Almaniya (7,3 milyon nəfər) əsas ölkələr hesab olunur.[380]2001 – 2010-cu illərdə ixtiraçı-immiqrantların böyük bir qismi – 51,17%-i ABŞ-a, 7,44%-i Almaniyaya, 6,00%-i İsveçrəyə və 4,63%-i Birləşmiş Krallığa mühacirət etmişlər.[381]Miqrantların ixracına görə öndə olan ölkələr Çin (35 milyon nəfər), Hindistan (20 milyon nəfər), Filippinlər (7 milyon nəfər) və digər Asiya ölkələridir.[382]

Miqrantların güclü axını olan ölkələrdə sosial qruplar, regionlar, yaxud rayonlar işçi yerlərinin ixtisar edilməsindən, işsizliyin artmasından, gəlirlərin azalmasından və s. əziyyət çəkirlər.[383]Müəyyən bir ölkə ərazisində işçi miqrantların say göstəriciləri 30%-i keçdikdə miqrasiya ilə bağlı problemlər kəskinləşir.[384]Onu da qeyd etmək lazımdır ki, beynəlxalq miqrantların böyük hissəsi orta təbəqəyə aid olan, daha təhsilli insanlar olurlar. Digər tərəfdən mühacirlər əsasən inkişaf etmiş ölkələrə üz tuturlar və texniki tərəqqi, nəqliyyat və kommunikasiya vasitələrinin inkişafı bu prosesi daha da sürətləndirir. Mühacirət edilən ölkələrdə işsizlik, əmək haqqı və digər müxtəlif sosial və texniki problemlər (sosial şəbəkənin, nəqliyyat vasitələrinin və s. vəziyyəti) əsas səbəblər kimi çıxış edir. Miqrasiyaya səbəb olan məsələlər həm də həyat imkanlarının ge-

---

[380] Дмитриев А.В. Миграция и цивилизованный раз-лом // Современные миграционные процессы: состояние, проблемы, опыт государственного и об-щественного регулирования. Ростов н/Д, 2008.

[381]Резюме исследования «интеллектуальная собственность и «утечка мозгов» – отображение миграционныхпотоков. Комитет по развитию и интеллектуальной собственности (КРИС). Двенадцатая сессия, Женева, 18-21 ноября 2013 г., с.4

[382] Дмитриев А.В. Миграция и цивилизованный раз-лом // Современные миграционные процессы: состояние, проблемы, опыт государственного и об-щественного регулирования. Ростов н/Д, 2008, s.152-159

[383]«Международная миграция». Научная студенческая конференция. МГИМО (университет) Мид России, Москва, 2013

[384] Дергачев В.А. Международные экономические отношения. Учебник для вузов, М.: ЮНИТИ-ДАНА, 2005. — 368 с.

nişləndirilməsi cəhdləri və perspektivlərə yönəlmə, sosial xidmətlərdən istifadə, təhsillənmə ilə bağlıdır.[385]

Müasir beynəlxalq miqrasiya proseslərinin bir sıra özünəməxsus xüsusiyyətləri vardır:

1. İnsanlar zəif iqtisadiyyata malik ölkələrdən daha yaxşı inkişaf etmiş ölkələrə mühacirət edirlər.

2. Müasir miqrasiya prosesi əvvəlki əsrlərin böyük yerdəyişmələrindən fərqlənərək, kütləvi mədəniyyətlərarası yerdəyişmələr kimi xarakterizə olunur.

3. Miqrasiyanı stimullaşdıran texnoloji inkişaf və demoqrafik proseslərin sinxronluğu zəifləyib.

4. Miqrantların əksəriyyəti daimi deyil, müvəqqəti miqrantlar kimi çıxış edirlər.[386]

Miqrasiya axınları dövlətin siyasi, demoqrafik, sosial-iqtisadi vəziyyətinə əsaslı təsir göstərir. Miqrasiya qanuni və qeyri-qanuni ola bilər. Bununla əlaqədar olaraq, miqrasiya siyasi nəzarət və tənzimləmə obyektinə çevrilir.[387]Nəzarət edilməyən və qeyri-qanuni miqrasiya hər bir ölkənin milli təhlükəsizliyinə təhdiddir. Transmilli miqrasiyanın durğunluqlarını və mənfi nəticələrini azaltmaq, bu mənfi nəticələri müsbət tərəfə yönəltmək zəruridir.[388] Bununla bağlı olaraq, miqrasiya siyasətinin və onun reallaşdırılması mexanizmlərinin aşağıdakı istiqamətləri müəyyənləşdirilir:

---

[385]ЦапенкоИ. “Движущие силы международной миграции населения”. "Мировая экономика и международные отношения", 2007, №3, с. 3-14

[386]Новожилова Е.О. «Современные международные миграции:причины, особенности, последствия”.«Общество-Среда-Развитие», № 1(26), 2013, s.101

[387] Khalid Koser, “The impact of the global financial crisis on international migration”, The Whitehead Journal of Diplomacy and International Relations, vol. XI, No.1, winter/spring 2010, pp. 13–20

[388]ПримбетовС.Д. “Проблемы нелегальной миграции в странахЕвразийского Экономического Сообщества (ЕврАзЭС)”, Круглый стол «Проблемы нелегальной миграции в Центральной Азии в условиях глобализации», организованного Институтом мировой экономики и политики совместно с Фондом им. Ф.Эберта 31 мая 2004 г. в г. Алматы., с.42-57

1.mühacirlərin iqtisadi fəal hissəsinin qəbulu və yerləşdirilməsi, mövcud sosial iqtisadi vəziyyətə uyğunlaşması ilə bağlı tədbirlər həyata keçirilməsi;

2.məcburi köçkünlərin dövlət tərəfindən sosial müdafiəsi;

3.məcburi köçkünlərin yaşayış təminatı mexanizmlərinin dəyişdirilməsi;

4.miqrasiya proseslərinin tənzimlənməsi ilə bağlı iqtisadi mexanizmlərin hazırlanması.[389]

Mövcud miqrasiya böhranı Avropada aşağıdakı mənfi nəticələrə səbəb olmuşdur:

1.Miqrasiya böhranı Avropanı dağıdır. 2015-ci ildə sığınacaq almaq üçün edilən müraciətlərin 43%-i Almaniyanın payına düşür. Şərqi Avropa ölkələri ilə yanaşı Böyük Britaniya, İrlandiya və Danimarka kimi ölkələr də Avropa komissiyasının miqrantlarla bağlı "fövqəl-adi mexanizminə" qarşı çıxırlar və "fövqəl-adi imtiyazların" gələcəkdə daimi bölgü mexanizminə daxil ola biləcəyindən ehtiyat edirlər.[390]

2.Miqrasiya problemi bir sıra Avropa dövlətlərində daxili vəziyyətin kəskinləşməsi ilə müşayiət olunur, bu ölkələrdə miqrasiya prosesi nəzarət edilməz həddə çatıb. Miqrasiya prosesi ölkələr daxilində iqtisadi vəziyyətin çətinləşməsi, daxili qeyri-sabitlik, qarışıqlığa səbəb olur.

3.Digər problemlərdən biri fasiləsiz qaçqın axınını qəbul edən Türkiyə hökumətinin onların saxlanması üçün vəsaitlər tələb etməsi ilə bağlıdır. Türkiyədə hesabı 3 milyard avro ölçüsündə olan Qaçqınlar üçün Fond yaradılmışdır ki, buraya Avropa Komissiyası 500 mln. avro ayıracağına söz verib, qalan 2,5 milyard avronu Aİ ölkələri ödəyəcəklər. Almaniya "miqrasiya böhranının həlli üçün" 14 milyon avro ödəyəcəyinə əmin edib. İtaliya bu planın re-

[389] Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростовн/Д: «Феникс», 2001

[390][Die EU ist ein Klub von Egoisten geworden // Die Welt. – 31.08.2015. – URL: http://www.welt.de/debatte/kommentare/article145852230/Die-EU-ist-ein-Klub-von-Egoisten-geworden.html]

allaşdırılmasına qarşı çıxır. Beləliklə, Avropa İttifaqı qaçqınlara görə məsuliyyəti Türkiyənin üzərinə qoyur.[391]

IV. Miqrasiya böhranı Şengen zonasını təhlükə altına alır.[392]

Bir çox mütəxəssislərin fikrincə, miqrasiya prosesləri həll edilmədiyi təqdirdə Avropa cəmiyyəti tam qeyri-sabit vəziyyətə düşəcək.[393] Aİ-nin sərhədlərinin bağlanması ciddi iqtisadi nəticələrə gətirə və Avronun vahid valyuta kimi mövcudluğunu şübhə altına ala bilər və məhz miqrantların əmək bazarına inteqrasiyası imkanları Aİ-nin gələcək iqtisadi vəziyyətini müəyyən edəcək.[394]

Miqrantlar problemi "sosial dövlət" məfhumunun tənqid edilməsini genişləndirir. Belə ki, miqrasiya prosesinin genişlənməsi inkişaf etmiş ölkələrdə bir sıra sosial iqtisadi problemlərin meydana çıxmasına səbəb olmuşdur. Əsas məsələlərdən biri işsizliyin kütləvi xarakter alması il bağlıdır. Bu problemə təsir edən amillər kimi sosial həssas qrupların – gənclərin, yaşlı insanların, qadınların, miqrantların, zəif sağlamlığı və məhdud əmək qabiliyyəti olan insanların və s. sayının genişlənməsi ilə olmuşdur. İşsizliyin miqyası və formaları tam məşğulluq siyasətindən uzaqlaşmağa gətirib çıxarmışdır.[395] İşsizlik siyasətində baş verən dəyişikliklər, xırda və orta biznesin stimullaşdırılması və digər məsələlərlə - işdən çıxarılmanın və işə götürmənin azaldılması, əmək şəraiti-

---

[391]Европа: не виноватая я, он сам пришел! // Конт. – 24.01.2016. – Режим доступа: http://cont.ws/post/186638

[392]Дональд Туск назвал миграционный кризис угрозой Шенгену // Интерфакс. – 12.11.2015. – Режим доступа: http://www.interfax.ru/world/478965

[393]Migrant crisis: EU at grave risk, warns France PM Valls // BBC. 22.01.2016. – URL: http://www.bbc.com/news/world-europe-35375303

[394]Что ждет рынок ЕС в случае распада Шенгенской зоны // Deutsche Welle. – 22.01.2016. – Режим доступа: http://dw.com/p/1 Hhkk

[395]Этот постулат закреплен Международной организацией труда как важный принцип цивилизованных отношений между партнерами.

nin zəifləməsi ilə təzmin edildi ki, bu da həmkarlar ittifaqlarının fikrinə görə, işçilərin sosial müdafiəsini zəiflətmiş oldu.[396]

Digər tərəfdən, Avropada yerli əhalinin yaşlanması əsas demoqrafik problemlərdən biri kimi qəbul edilir. Eyni zamanda əhalinin ömrünün uzanması və iş qabiliyyətli əhalinin sayının azalması miqrantların işçi qüvvəsi olaraq cəlb edilməsini zərurətə çevirir. Belə ki, hazırda  Aİ ölkələrində 60 yaşdan yuxarı olan əhali ümumi əhalinin 20%-ni təşkil edir. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən 2025-ci ildə burada 65 yaşından yuxarı əhalinin sayı 21 milyon nəfər olacaq, iqtisadi fəal əhalinin sayı isə 15 milyon nəfər azalacaq. Belə bir vəziyyət pensiya sistemində islahatlar aparılmasını tələb edir.[397]

Tədqiqatçıların qeyd etdiyi kimi, əmək miqrasiyası qəbul edən ölkələr üçün bir sıra mənfi nəticələrə gətirir: kölgəli iqtisadiyyatın inkişafına, əmək haqqı səviyyəsinin gizlədilməsinə səbəb olur, qapalı etnik qruplaşmalar formalaşdırır.[398] İmmiqrantların işə cəlb edilməsi yerli əhali arasında işsizliyin və bu vəziyyətə qarşı etirazların artmasına gətirir. İşsizlik problemi insanların və onların ailələrinin birbaşa təhsil, sağlamlıq, sosial təminat vəziyyəti ilə əlaqəli məsələdir. İmmiqrantların işlə təmin edilməsi onların sosial təminatına şərait yaratsa da, statistikaya əsasən, hazırda İngiltərədə və Fransada hər bir işləyən mühacirə dörd işsiz miqrant düşür.[399] Digər tərəfdən, işçi miqrantların əməyi gündəlik qiymətləndirilir, onlar pis şəraitdə yaşayırlar, daha az əmək haqqı alırlar, çox zaman onların əmək və insan hüquqları pozulur. Miqrantlar əməyin tarifsiz ödənişi, ayrıseçkilik və s. ilə üzləşirlər. Yerli əhali üçün əməyin ayrı-ayrı formaları maraqsız olduğundan həmin sahələrə miqrant-

---

[396]ОльгаГолодец–РБК:Мыготовыпринятьи100тысячбеженцевсУкраины…– http://top.rbc.ru/politics/12/03/2014.

[397]«ИммиграциявРоссию:благоиливреддлястраны?»Пресс-выпуск№2360от1.08.2013–http://wciom.ru.

[398]Рязанцев С. Трудовая миграция из Центральной Азии в Россию в контексте экономического кризиса. 18.09.2016.ФОРУМ ПЕРЕСЕЛЕНЧЕСКИХ ОРГАНИЗАЦИЙ. www.migrant.ru

[399]«ИммиграциявРоссию:благоиливреддлястраны?»Пресс-выпуск№2360от1.08.2013–http://wciom.ru.

ların işə cəlb edilməsi məşğulluq siyasətində sosial dövlətin prinsiplərinə zidd olan dəyişikliklər edilməsinə gətirir. İşləmək marağı olmayan yerli əhali daha yüksək əmək haqqı və iş şəraiti tələb edir, bu isə cəmiyyətdə ayrı-seçkilik tendensiyasının genişlənməsinə, sosial təhlükəli vəziyyətin yaranmasına səbəb olur.[400]

Yalnız işlə təminat məsələsində deyil, bir çox digər sahələrdə (elm, təhsil, siyasi, sosial, iqtisadi və s.) miqrantlara qarşı ayrı-seçkiliyin genişlənməsi müasir Qərb ölkələrində sosial qarşıdurmalarla müşayiət olunur, miqrantların kütləvi etiraz aksiyaları cəmiyyətdə sosial gərginliyin inkişafına, sosial sabitliyin pozulmasına və inkişaf etmiş ölkələrdə sosial dövlətin durğunluğuna gətirir.[401]

Avropa vətəndaşları miqrasiyanı getdikcə partlayış həddinə çata biləcək faktiki təhlükə, məsələn, iş yerləri və sosial güzəştlər, müavinət və vəsaitlər üçün böyük rəqabət, cinayətkarlıq səviyyəsinin artması, həmçinin liberal Avropa dəyərlərinə, dünyagörüşünə və identikliyə başlıca təhlükə hesab edirlər.[402]Miqrasiya böhranı yaşayan ölkələrdə qarşıdurmanın digər səbəblərindən biri də miqrantların sosial imtiyazları ilə bağlı meydana çıxır. Belə ki, Fransada immiqrantların təhsil, peşə hazırlığı, evlə təminat, sağlamlıq və təhlükəsizliyin təmin edilməsi ilə bağlı inteqrasiya proqramına hər il 36 milyard avro sərf edilir. Statistik məlumatlara əsasən Almaniyada Türkiyədən olan immiqrantların 16%-i, Afrika ölkələrindən olanların 24%-i sosial müavinətlə yaşayırlar. Bu əsasən təhsilsiz və peşəsi olmayan immiqrantlarıdır və onların axını əmək məhsuldarlığının aşağı düşməsinə və sosial münaqişələrin kəskinləşməsinə

---

[400]Рязанцев С. Трудовая миграция из Центральной Азии в Россию в контексте экономического кризиса. 18.09.2016.ФОРУМ ПЕРЕСЕЛЕНЧЕСКИХ ОРГАНИЗАЦИЙ. www.migrant.ru

[401]Молчаниеглобальногобезразличия // СоветскаяРоссия. – М., 2014. – 10 января.

[402] Məmmədov N. Qlobal miqrasiya böhranı: beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi nəşriyyatı, 2018, s.237

səbəb olur.[403]Resipient ölkə sakinləri yeni məskunlaşanların sosial təminatına qarşı olub, onlara məxsus olan nemətlərdən miqrantların faydalanmasına etiraz edirlər.[404]Halbuki, sosial dövlət quran inkişaf etmiş ölkələrdə cəmiyyət təqaüdçülər, mühacirlər, əlillər və digər sosial həssas qruplara yardım etməyə açıq olmalıdır. Hazırda Qərb sosial dövlət modellərinin tənqid edilməsinin əsas səbəblərindən biri məhz qeyd edilən kateqoriyaya aid insanlara münasibətin dəyişməsi ilə bağlıdır. Belə ki, hələ 2011-ci ildə Danimarkada, sonradan Fransa və İtaliyada Asiya və Afrika ölkələrindən olan miqrantlarla bağlı gömrük nəzarəti gücləndirilmiş oldu. 2013-cü ildə Aİ-nın 17 inkişaf etmiş ölkəsində immiqrasiya ilə bağlı yeni sərt normalar müəyyən edildi. Bu şərait sosial dövlətin bəzi prinsiplərində dəyişikliklər edilməsinə səbəb olmuşdur, işsizliyin və əmək bazarının tənzimlənməsi ilə bağlı diferensional yanaşma həyata keçirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər "risk qruplarının" təhsili, peşə hazırlığı, yenidən ixtisaslaşması məsələlərinə yönəldilmişdir.[405] Fransa və ABŞ kimi inkişaf etmiş və özünəməxsus sosial dövlət modelinə malik olan ölkələr miqrasiya böhranı ilə əlaqədar olaraq dövlətin pensiya təminatı, sosial yardım, təhsil, ev təminatı və digər istiqamətli sosial layihələrində və ümumiyyətlə, bütövlükdə  sosial siyasət sistemində müəyyən dəyişikliklər edirlər.[406] Bununla belə Aİ ölkələrində işsizlik kütləvi xarakter almışdır və məşğulluq sahəsi Avropa sosial modelinin əsas problemlərindən biri olaraq qalır. Mütəxəssislərin fikrincə, ETT ilə bağlı

[403]«Иммиграция в Россию: благо или вред для страны?» Пресс-выпуск № 2360 от 1.08.2013–http://wciom.ru.

[404] Доклад о мировом социальном положении «Социальная уязвимость: источники и задачи». Департамент ООН по экономическим и социальным вопросам. A/58/153/Rev.1 2003

[405]Кибардина Л.Н. Критика современного социального государства. Вестн. Ом.ун-та. 2011. № 3. С. 49–52.

[406]Молчание глобального безразличия // Советская Россия. – М., 2014. – 10 января.

olan iqtisadi inkişaf müasir sosial dövlətin tam ləğv olmasının qarşısını alan əsas amildir.[407]

2016-cı ildən etibarən Avropada anti-miqrasiya əhval-ruhiyyəsi genişlənmişdir. Bunun əsas səbəbi aşağıdakılarla bağlı olmuşdur:

1.Aİ ölkələri arasında qeyri-bərabərliyin səviyyəsinin yüksəlməsi.

2.Cəmiyyətin müəyyən təbəqələri iqtisadi inkişafdan bəhrələnə bilmirlər.

3.Avropa əhalisinin müəyyən hissəsinin özgələşməsi və frustrasiya vəziyyəti miqrantafobiyanın genişlənməsinə əlverişli şərait yaradır.

4.Müasir Avropanın siyasi sinfinin müəyyən hissəsi bu əhval-ruhiyyədən uğurla istifadə edərək, simvolik kapitalı və elektoral bazanı inkişaf etdirirlər.[408]

Miqrasiya böhranından siyasi gediş kimi istifadə edən siyasətçilər öz anti-miqrant nitqləri ilə siyasi mübarizəni qazanmağa çalışırlar və mövcud vəziyyət ayrı-ayrı ölkələrdə cəmiyyətin miqrantlara daha aşağı hüquqi və sosial status verməsinə gətirir.[409] Bu gün miqrantafobiya Qərb cəmiyyətlərinin ictimai təcrübəsinə daha çox siyasi mobilləşmə və hakimiyyət uğrunda mübarizə aləti kimi daxil olur.[410]Ziddiyyətli proses kimi miqrasiya axını resipient ölkələrdə, xüsusilə də mühacirlərin mərkəzləşdiyi ərazilərdə sosial gərginlik mənbələri yaradır, etnik münaqişələrə səbəb olur, ksenofobiya, siyasi radikalizm və ekstremizmin inkişafına gətirir. Miqrasiya yalnız təhlükəsizliyə təhdid yaratmır, həm də onun genişlənməsi

---

[407]Кибардина Л.Н. Критика современного социального государства. Вестн. Ом.ун-та. 2011. № 3. С. 49–52.

[408] Малахов В.С. Миграционный кризис: международное Сотрудничество и национальные стратегии. №10, ноябрь 2016 г., s.3-9

[409]Потемкина Т.В.Миграционные процессы в современной системе международных отношений». Знание. Понимание. Умение. 2008, №3, s.116-119

[410] Доклад о мировом социальном положении «Социальная уязвимость: источники и задачи». Департамент ООН по экономическим и социальным вопросам. A/58/153/Rev.1 2003

və zənginləşməsi üçün yeni vasitələr təqdim edir. Miqrasiyanın yaratdığı real təhlükə birmənalı deyil: o həm qrupu, həm cəmiyyəti, həm hökuməti fəallaşdırır, təhlükəsizliyə yönəldir.[411]Təhlillər göstərir ki, miqrasiya böhranı və bu proseslə bağlı həyata keçirilən tədbirlər sosial dövlətin əsası olan sosial ədalət, sosial həmrəylik, qarşılıqlı yardım, sosial bərabərlik, sosial sabitlik və s. ideyalara ziddir. Bir çox tədqiqatçılar sosial dövlətin xilasını etik dəyərlərə, əməkdaşlığa və inama, sosial bərabərliyə söykənən sosial həmrəyliklə bağlayırlar.[412] Bu mənada bir çox ölkələrin miqrasiya siyasəti miqrantların yeni cəmiyyətdə inteqrasiyası zərurətini əsas məsələlərdən biri kimi qoyur. Hazırda dünya siyasətində inteqrasiyanın iki əsas üsulu formalaşıb: assimilyasiya və mədəniyyətlərin birgə mövcudluğu. İmmiqrantların inteqrasiyası ilə bağlı siyasət mahiyyətinə görə fərqlənir və bu ölkələri iki əsas qrupa bölmək olar. Fransa, Almaniya, ABŞ, İsveçrə assimilyasiya siyasəti yeridən ölkələr sırasına aiddir. Böyük Britaniya, Kanada, Niderland, Belçika, Skandinaviya ölkələri mədəniyyətlərin yanaşı yaşaması siyasətini həyata keçirirlər. Beləliklə, iqtisadi inkişaf etmiş ölkələrdə həyata keçirilən miqrasiya siyasəti bir tərəfdən, kasıb ölkələrdən miqrasiya axınının məhdudlaşdırılmasına yönəlib, digər tərəfdən isə, immiqrantların etnomədəni fərqliliyini ümumi məxrəcə gətirməyə (assimilyasiya etməyə) çalışır.[413]

Yeni ölkəyə mühacirət edən insanlar isə həmin ölkənin yürütdüyü siyasətə uyğun olaraq, ya assimilyasiyaya məruz qalırlar, ya da özünü-seqreqasiya vasitəsilə məskunlaşdıqları məkanda möhkəmlənməyə çalışırlar. Mühacirlərin yerli mədəniyyətə assimilyasiyası ölkə əhalisi tərəfindən sakitliklə qarşılandığı halda, özünü-seqreqasiya, yaxud özünü-fərqləndirmə narazılıq, düşmənçilik do-

---

[411]Düvell, Franck. 2006. Euro äische und international Migration (Avropa İttifaqı və beynəlxalq miqrasiya). Geschichte, TheorieundEmpirie.Münster: Lit

[412]Кибардина Л.Н. Критика современного социального государства. Вестн. Ом.ун-та. 2011. № 3. С. 49–52.

[413]Рязанцев С. Миграционные тренды и международная безопасность. «Пространство мира и международная безопасность», Том 1. Номер 3 (3). Сентябрь-декабрь 2003

ğurur. Mühacirlərin milli mədəni dəyərləri onların mobilləşməsinə səbəb olursa və onlar milli-mədəni muxtariyyət almaq hüquqlarını tələb edirlərsə, miqrantlarla yerli əhali arasında qarşıdurma yaranır.[414] Belə ki, miqrasiya edən asiyalılar və müsəlmanlar öz mədəniyyətlərinin Qərb mədəniyyətindən üstün olduğunu vurğulamağa çalışırlar, qeyri-qərb sivilizasiyasına aid olan hindular, pravoslavlar, latın amerikalılar, afrikalılar öz mədəniyyətlərinin özünəməxsusluğu haqqında danışırlar.[415]

Beynəlxalq miqrasiyanın tənzimlənməsi ilə bağlı bir sıra yeni strategiya və modellər irəli sürülür. Bu modellərdən biri – təcrid olunma (izolyasionizm) siyasəti, yəni xarici miqrasiyanın qarşısının alınması ilə bağlıdır. Digər əks strategiya – dərk edilmiş strategiyadan uzaqlaşmaq, problemə laqeydliklə yanaşmaq, mövcud gerçəkliyə təsir etməkdir.[416] Optimal və ən çətin variant modeli prosesin idarə edilməsi ilə bağlıdır. Bu model xarici miqrasiyanın qaçılmaz və regionun inkişafı üçün zəruri olmasının dərk edilməsi əsasında qurulur.[417]

Bir çox tədqiqatçılar miqrasiya probleminin sosial dialoq çərçivəsində nəzərdən keçirilməsini təklif edirlər. Onlar belə güman edirlər ki, cəmiyyətdə sosial dialoqun əldə edilməsi sabitlik və təhlükəsizliyə təminat verir. Həm milli, həm də beynəlxalq səviyyədə miqrasiya problemi ilə bağlı sosial tərəfdaşların fikirləri nəzərə alınmalıdır. Sosial tərəfdaşların iştirakı ilə trans-sərhəd əməkdaşlıq əmək miqrantlarının, onların ailələrinin və cəmiyyətin maraqları ilə bağlı əhəmiyyətli nəticələr verə bilər. Miqrasiya böhranının qarşısının alınması ilə bağlı əldə ediləcək sosial dialoq

---

[414]«Международная миграция». Научная студенческая конференция. МГИМО (университет) Мид России, Москва, 2013, s.3-4

[415] Хантингтон С. Столкновение цивилизаций М.: ООО «Издательство АСТ», 2003, 243-249

[416]United Nations Population Division, Health Workers, International Migration and Development (Population Facts No. 2010/2/E), March 2010. United Nations Population Division, Health Workers, International Migration and Development (Population Facts No. 2010/2/E), March 2010.

[417] Щербакова Е.М. Международная миграция: тенденции и перспективы//«ДемоскопWeekly», №399-400, 23 ноября – 6 декабря 2009 г.

BMT çərçivəsində miqrasiya siyasətində ümumi razılıq əldə etməyə kömək edə bilər.[418]

Miqrasiya prosesinin tənzimlənməsi və nəzarətdə saxlanması ilə əlaqədar olaraq 1949-cu ildə Qaçqınların İşi üzrə Beynəlxalq Təşkilat yaradılmış və tədricən genişləndirilimiş, 1989-cu ildə BMqT-yə çevrilmişdir. Hazırda BMqT-yə 131 dövlət daxildir ki, onun 102-i üzv, 29-u müşahidəçidir.[419]

BMqT 1951-ci ildə qaçqınlarla bağlı xüsusi Bəyannamə qəbul etmişdir. Qaçqınların İşi üzrə Ali Komissarlıq qaçqınların müdafiəsi, uzunmüddətli qərarların reallaşdırılması, ilk növbədə isə repatriasiya məsələləri ilə məşğul olur.[420]

Nizamnaməyə görə, BMqT-nin əsas funksiyaları aşağıdakılardır:

-qaydaya salınmış və planlaşdırılmış miqrasiyasının həyata keçirilməsi;

-qəbul edən ölkənin inkişafına yardım göstərə biləcək ixtisaslı işçi qüvvəsinin (ailə üzvləri də daxil olmaqla) hərəkətinin təşkili;

-qaçqınların hərəkətinin təşkili;

-dövlətlər arasında bilik, təcrübə mübadiləsinə və əməkdaşlığa şərait yaratmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirmək.[421]

2016-cı ildə Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) BMT sisteminə daxil olmuş, qaçqınlar və miqrantlarla bağlı Nyu-York Bəyannaməsi qəbul edilmişdir. Nyu-York Bəyannaməsi

---

[418]Социальный диалог. Международное бюро труда Женева. Периодическое обсуждение в соответствии с Декларацией МОТ осоциальной справедливости в целях справедливой глобализации. Международное бюро труда Женева . 2013, s. 61, 5

[419]Международные экономические отношения / под редакцией В.Е.Рыбалкина. – Москва: ЮНИТИ, 2003

[420]ПотемкинаТ.В.Миграционные процессы в современной системе международных отношений». Знание. Понимание. Умение. 2008, №3, с.116-119

[421]Международные экономические отношения / под редакцией В.Е.Рыбалкина. – Москва: ЮНИТИ, 2003

qaçqınların və miqrantların həyatlarını, hüquqlarını qorumaq üçün beynəlxalq ictimaiyyətin siyasi iradəsini özündə ehtiva edir. Bəyannaməni iki hissəyə bölmək olar: 1) miqrantların sağlamlığını, ləyaqətini, əsas insan hüquq və azadlıqlarını qorumaq üçün üzv dövlətlərin dərhal icra etməli olduğu öhdəlikləri və 2) təhlükəsiz, nizamlı və qanuni miqrasiya üçün ayrı, qaçqınlar üçün ayrı olmaqla 2018-ci ildə qəbulu nəzərdə tutulan qlobal vəhdətə aparacaq hökumətlərarası prosesə başlamaq barədə üzv dövlətlərin niyyətini əks etdirir.[422]

Hazırda BMT-nin Beynəlxalq Əmək Təşkilatı ixtisaslaşmış təsisat kimi əmək miqrasiyasının tənzimlənməsi ilə məşğul olur. DB, BMB kimi beynəlxalq maliyyə institutları və Ümumdünya ticarət təşkilatı, BƏT miqrantlarla bağlı yaranan vəziyyəti tənzimləyən böyük birliklər kimi fəaliyyət göstərirlər.[423]

Qeyd etdiyimiz kimi, miqrasiya böhranı sosial dövlətin tənqid edilməsinə gətirən problemlərin genişlənməsinə səbəb olmuşdur. Belə demək olar ki, miqrasiya böhranı dövlət – cəmiyyət, o cümlədən dövlətlər arası sosial, siyasi, iqtisadi münasibətlərin yeni rakursda nəzərdən keçirilməsini tələb edən proses olub, qlobal xüsusiyyət daşıyır. Miqrasiya böhranı qlobal böhranın nəticəsi və səbəbi olaraq təzahür edir.

Beləliklə, müasir qlobal böhran sosial inkişaf strukturunun qarşılıqlı əlaqəli və qarşılıqlı asılı olan bütün sistemlərini əhatə edir. Bir sıra tədqiqatçılar müasir qlobal böhranı qloballaşmanın tarixi nəticəsi kimi nəzərdən keçirirlər. Bu zaman qloballaşma toplum, unifikasiya, sərhədlərin (ekoloji, mədəni, ekoloji və s.) silinməsi kimi qəbul edilir. Lakin münasibətlərin unifikasiyasından, dövlətlər arası münasibətlərin dərinləşməsindən və dünyanın bir çox regionlarının qarşılıqlı əlaqəliliyindən asılı olmayaraq, mövcud bütövlük qlobal sistemin vahid dövlət kimi funksiyalaşmasını

422 Nəbiyev F. Miqrantların hüquqlarının müdafiəsi və onların cəmiyyətə inteqrasiyası sahəsində əsaslı tədbirlər görülür. https://migration. gov.az/post.php? pageid=6519&009-458-6519

423 Доклад Генерального секретаря «Международная миграция 2002». Генеральная Ассамблея Организации Объединенных Наций. A/65/203.

təmin edə bilmir, belə ki, beynəlxalq subyektlərin müxtəlifliyi və suverenliyi qorunub saxlanılır. Eyni zamanda dövlətin siyasi, hüquqi və iqtisadi strukturunda baş verən böhran mədəni və ya iqtisadi birlik əsasında izah edilə bilməz. Əgər dövlət özünün bütün altsistemlərində (siyasi, iqtisadi və hüquqi) böhran keçirirsə, bu problem həm dəyərlər, normalar və qaydalar sistemində, həm də qeyd edilən üç alt sistem arasında razılığın və harmoniyanın olmaması ilə bağlıdır.[424]

Böhranlar dövründə ilk növbədə əsaslı sosial innovasiyalar həyata keçirilir. Dövlət, sosial dəyərlər və məqsədlər, siyasi alətlər və texnoloji innovasiyalar arasında üçtərəfli əlaqələr mövcuddur. Əgər dövlət bu üç kateqoriya arasında razılığa gəlirsə, innovasion-texnoloji irəliləyiş və sosial rifah üçün əlverişli şərait yaranır. Struktur böhran o zaman dəf edilir ki, iqtisadi struktur yeni istehsal sahələrinə, iqtisadiyyatın təşkil edilməsi və tənzimlənməsi formalarına güzəştə gedir. Bu, göstərir ki, struktur böhran yalnız innovasiyalarla aradan qaldırılır.[425] İnnovasion inkişaf problemi milli innovasiya sisteminin yaradılması zərurətini meydana çıxarır. Milli İnnovasiya Sistemi – qarşılıqlı əlaqəli olan təsərrüfat subyektlərinin (müəssisə, elmi idarələr, investisiya fondları və s.) və istehsalat, bölgü və biliklərin istifadəsi prosesində qarşılıqlı fəaliyyətdə olan institutların, həmçinin milli sərhədlər çərçivəsində iqtisadi sistemin dayanıqlı inkişafı ilə bağlı strateji məqsədlərin reallaşdırılmasına yönəlmiş və onun subyektlərinin (müəssisə, region, sahə, bütövlükdə ölkə) beynəlxalq arenada rəqabət bacarığının yüksəlməsinə kömək edən rəqabətə davamlı texnologiyaların məcmusu-

---

[424]Гринин Л. Е. Приведет ли глобальный кризис к глобальным изменениям? *www.socionauki.ru/book/files/kdvg/095-119.pdf*

[425] Акаев А. А. Современный финансово-экономический кризис в свете теории инновационно-технологического развития экономики и управления инновационным процессом. Мониторинг глобальных и региональных рисков 2008/2009/ Ред.Д. А. Халтурина, А. В. Коротаев. М.: УРСС, 2009. С. 141–162.

dur.[426]İnnovasion inkişaf prosesi iki əsas tərkib hissəsindən ibarətdir – innovasion layihələrin reallaşdırılması və innovasion potensialın inkişafı. İnnovasiya həm də yeniliyin reallaşması prosesini ifadə edir. Geniş mənada innovasiya müxtəlif yeniliklər bazasında sosial, iqtisadi, təhsil, idarəetmə və digər sahələrin uğurlu inkişafının sinonimi kimi çıxış edir. Bir çox tədqiqatçılar əmindirlər ki, innovasion inkişafın əsas şərti cəmiyyətdə innovativ mədəniyyətin formalaşdırılması ilə bağlıdır. İnnovasion mədəniyyətin formalaşması ilk növbədə onun subyekti olan insanın yaradıcı bacarıqlarının inkişafı və yaradıcı potensialının reallaşması ilə bağlıdır. Cəmiyyətin innovasion mədəniyyəti yüksək olduqda onun hissələrinin qarşılıqlı korrelyasiyası və qarşılıqlı asılılığı digər hissələrin də tezliklə dəyişməsinə səbəb olur.[427]

Bu qeyd edilənlərə əsaslanaraq, deyə bilərik ki, böhrandan çıxmaq və uzun müddətli yüksəlişi təmin etmək üçün bütün dünya iqtisadiyyatının idarə edilməsi mexanizmlərində əsaslı islahatların aparılması və dünya iqtisadi inkişafının yeni paradiqmasının hazırlanması zəruridir. Bu yeni paradiqmanın əsas aspektləri təbiətin müdafiəsini, sosial bərabərliyi və sosial ədaləti təmin edə bilən dayanıqlı inkişafla bağlı olmalıdır. Eyni zamanda bir-birindən qarşılıqlı asılı olan qlobal problemləri həll edə bilən qlobal qərarlar qəbul edilməlidir. Bu zaman siyasi sahədə müxtəlif səviyyələrdə qəbul edilən qərarların yüksək razılaşdırılması təmin edilməlidir. Belə ki, beynəlxalq birliyin ədalətli və dayanıqlı qlobal inkişafla bağlı məqsədlərinə nail olması üçün şərait yaradılmalıdır. Bu zaman həm milli, həm də qlobal səviyyəli proseslər arasında tarazlıq yaradılması zərurəti meydana çıxır.

Beləliklə, müxtəlif sahələri tənzimləyən normalarla bağlı yaranan fərqlər, o cümlədən beynəlxalq və milli məsələlərin üst-

---

[426]Хребтов А.В. Единые подходы к интеграции национальных инновационных систем стран ЕАЭС в процессе создания Евразийской инновационной системы.http://ac.gov.ru/files /attachment/5035.pdf

[427] Николаев А. Инновационное развитие и инновационная культура. Номер 5/01http://vasilievaa.narod.ru/9_5_01.htm

üstə düşməməsi aşağıdakı istiqamətlərin inkişaf etdirilməsini zəruri edir:

1. milli hökumətlərə inkişafla bağlı daha geniş strategiyalardan istifadə etmək üçün şərait yaradılmalıdır.

2.İnkişaf etməkdə olan ölkələrin texnologiyalara çıxışı genişləndirilməli, əmtəənin beynəlxalq ticarəti açıq olmalıdır.

3.ölkələr arasında işçi qüvvəsinin və kapitalın yerdəyişməsini asanlaşdırmaq üçün ədalətli, qabaqcadan müəyyənləşdirilən və müqayisəli tənzimləmə rejimləri yaradılmalıdır.

4. anti-tsiklik makro-iqtisadi əlaqələndirmə institutlaşdırılmalıdır.

5. dövlətlərin xarici sərmayə uğurundakı davamlı rəqabətinə son qoyulmalıdır.

6.iqlim dəyişikliyi ilə bağlı qlobal tədbirlərin əlaqələndirilməsi üçün yardım, ticarət və maliyyə sistemində dəqiqləşdirmələr aparılmalı və prioritetlər müəyyənləşdirilməli, bu sistem qlobal dayanıqlı inkişafın məqsədlərinə uyğunlaşdırılmalıdır. [428]

Beləliklə, XXI əsrdə qlobal sivilizasiya qarşısında duran qeyri-adi və təhlükəli problemlər bəşəriyyətin dərhal yeni özünü inkişaf və özünüidarə institutlarının yaradılmasını tələb edir. [429] Belə ki, qlobal problemlərin qarşısının alınması üçün mövcud sivilizasiyanın strukturunun və funksiyalaşma mexanizmlərinin dəyişdirilməsi vacibdir.[430]

Digər tərəfdən, qlobal strukturu əhatə edən böhran yeni fəlsəfi-ideoloji sistemin yaradılmasını, mövcud olanların rekonstruksiyasını tələb edir. Avropa İttifaqının xristian-demokratik dəyərlərinin, İslam Konfransı Təşkilatının islam, o cümlədən konfusiançı-

---

[428] Переоснащение мирового развития. Общий обзор. Обзор мирового экономического и социального положения. Организация Объединенных Наций. Нью-Йорк, 2010 год, s.35-36

[429]Современная глобалистика об угрозе смерти человечества. Тексты // Косов Ю.В. // Современная глобалистика об угрозе смерти человечества (в альманахе «Фигуры Танатоса №5») Фигуры Танатоса. Философский альманах. Пятый специальный выпуск. СПб., 1995 (web – кафедра философской антропологии)

[430]Yenə orada.

lığın regional prinsiplərinin sintezinə və təkmilləşdirilməsinə əsaslanan yeni ideoloji sistemin və onun dəqiqləşdirilməsi vasitələrinin yaradılması məsələsi aktuallaşır.[431]

Beləliklə, XXI yüzilliyin əvvəllərində sosial dövlət miqrasiya axınlarının güclənməsi və böhran həddinə çatması ilə əlaqədar tənqidə məruz qalmışdır. Miqrasiya dalğalarının kütləvi xarakter alması Qərb sosiumlarında sosial-iqtisadi və mənəvi-psixoloji nəticələr doğurmuş, hərbi-siyasi və sosial-mədəni münaqişələrin mənbəyinə çevrilmişdir. Lakin onu da qeyd etməliyik ki, qlobal deyil, lokal sosial dövlətlər qlobal miqrasiya problemlərini öz hüdudlarında həll etməyə çalışırlar və yəqin ki, sosial dövlət fenomeni qlobal xüsusiyyət əldə edəcəyi məqamda bu miqrasiya məsələsi insan haqları çərçivəsində həllini tapacaq.

[431]Гаджиева В. Глобальный кризис: причины, направления, пути решения. Век глобализации № 1(5) /2010, с. 106–110

# FƏSİL 4. AZƏRBAYCANDA SOSİAL DÖVLƏT QURUCULUĞUNUN ƏSASLARI

## 4.1. Milli İnkişaf Strategiyası Azərbaycanda sosial dövlət quruculuğunun əsası kimi

İlham Əliyevin Azərbaycan Republikasının Prezidenti seçildiyi 2003-cü iliAzərbaycanda sosial dövlətin yeni tərəqqi mərhələsinin başlanması kimi xarakterizə etmək mümkündür. Ümummilli lider Heydər Əliyevin təşəbbüskarı olduğu milli inkişaf strategiyasını reallaşdıran İlham Əliyevin idarəçiliyi innovasion islahatlara meyllidir. Bu proses ölkənin sosial, siyasi, iqtisadi həyatında əsaslı yeniliklərin tətbiq edilməsi, sosial institutların yeni prinsip və vəzifələr əsasında təkmilləşdirilməsilə davam edir. Hökumət sosial təsisatların səmərəli fəaliyyətilə bağlı proqram və strategiyalar hazırlayır və həyata keçirir.

Hazırda sosial yönümlü bazar təsərrüfatının və sosial dövlət quruculuğunun Milli İnkişaf Strategiyasının əsasları kimi müəyyən edilməsi ölkəmizin nail olduğu uğurların əsası olmuşdur. Hökumət əhalinin firavanlığının təminatını, ölkənin geosiyasi rolunun möhkəmləndirilməsini inkişafın əsas məqsədləri olaraq müəyyənləşdirmişdir. İqtisadiyyatın innovasion inkişaf yoluna keçməsi, qlobal miqyasda rəqabətə davamlı milli innovasion sistemin yaradılması inkişafın hərtərəfli əsasandırılmış strategiyasının zəruriliyini göstərir.

İnnovasion inkişaf problemi milli innovasiya sisteminin yaradılması zərurətini meydana çıxarır. Milli İnnovasiya Sistemi – qarşılıqlı əlaqəli olan təsərrüfat subyektlərinin (müəssisə, elmi idarələr, investisiya fondları və s.) və istehsalat, bölgü və biliklərin istifadəsi prosesində qarşılıqlı fəaliyyətdə olan institutların, həmçinin milli sərhədlər çərçivəsində iqtisadi sistemin dayanıqlı inkişafı ilə bağlı strateji məqsədlərin reallaşdırılmasına yönəlmiş və onun subyektlərinin (müəssisə, region, sahə, bütövlükdə ölkə) beynəlxalq arenada rəqabət bacarığının yüksəlməsinə kömək edən

rəqabətə davamlı texnologiyaların məcmusudur.[432]İnnovasion inkişaf prosesi iki əsas tərkib hissəsindən ibarətdir – innovasion layihələrin reallaşdırılması və innovasion potensialın inkişafı. İnnovasiya həm də yeniliyin reallaşması prosesini ifadə edir. Geniş mənada innovasiya müxtəlif yeniliklər bazasında sosial, iqtisadi, təhsil, idarəetmə və digər sahələrin uğurlu inkişafının sinonimi kimi çıxış edir. İnnovasion inkişafın əsas şərti cəmiyyətdə innovativ mədəniyyətin formalaşdırılması ilə bağlıdır. İnnovasion mədəniyyətin formalaşması ilk növbədə onun subyekti olan insanın yaradıcı bacarıqlarının inkişafı və yaradıcı potensialının reallaşması ilə bağlıdır. Cəmiyyətin innovasion mədəniyyəti yüksək olduqda onun hissələrinin qarşılıqlı korrelyasiyası və qarşılıqlı asılılığı digər hissələrin də tezliklə dəyişməsinə səbəb olur.[433]

Milli inkişf strtegiyasında innovativ inkişaf ölkənin tərəqqisinin başlıca göstəricisi kimi müəyyən olunur. Meqasosiumun innovativ meylli inkişaf imkanları milli dövlətlərin ayrı-ayrı sahələrə dair strategiyalarını bu yöndə müəyyənləşdirməsini zəruri edir.

Tədqiqatlarda "strategiya" gələcəyə istiqamətlənmiş fəaliyyətin planlaşdırılması sənəti olaraq şərh olunur. Strategiya – mürəkkəb və potensial olaraq güclü silahdır, strategiya vasitəsilə həm kiçik qruplar, müəssisələr, regionlar, həm də dövlət yeni çağırışlara cavab verə və qarşı dura, hətta əvvəl mümkün olmayan yeni inkişaf səviyyəsinə çata bilər. Strategiya – açıq münaqişələrdən qaçmaq, dəyişən vəziyyətdən faydalanmaq, vəziyyətin dəyişməsini əvvəlcədən görmək bacarığıdır. Strateji idarəetmə - "uzun zaman müddətində mövcud fürsətdən maksimal dərəcədə istifadə edərək xarici mühitdə meydana çıxan

[432]Хребтов А.В. Единые подходы к интеграции национальных инновационных систем стран ЕАЭС в процессе создания Евразийской инновационной системы.http://ac.gov.ru/files/attachment/5035.pdf
[433] Николаев А. Инновационное развитие и инновационная культура. Номер 5/01http://vasilievaa.narod.ru/9_5_01.htm

təhlükədən uzaqlaşmaq, təşkilatın idarəçiliyinə yönəlmiş çətin sənət" – kimi dəyərləndirilir.[434]

İdarəetmə strategiyasının dövlət səviyyəsi dedikdə, bazar təsərrüfatlı dövlətin səmərəli funksiyalaşması məramının və vasitələrinin müəyyənləşdirilməsi ilə yanaşı uğur əldə edilməsi fürsətinin, həmçinin konkret strategiyanın reallaşdırılması məqamında təzahür edən təhlükə və çağırışların qiymərləndirilməsi düşünülür. Həmin anda ölkə rəhbərliyi cari, operativ və perspektiv vəzifələri proqramlaşdırmalıdır. Dövlətin inkişaf strategiyası sosial yaşamın bütün səviyyələrini ehtiva edir.[435] Dövlətin inkişaf strategiyası üç istiqamətli, kompleks, uzun müddətli fəaliyyət proqramıdır: 1.Ölkə özünü sabah necə görmək istəyir? 2. O, hara getmək istəyir? 3. O, bunu necə etməyə hazırlaşır?[436]

Beləliklə, strategiya – "prioritetlər sistemi, əlaqələndirmə və ehtiyatların bölüşdürülməsilə bağlı özünəməxsus "fəaliyyət modeli"..., həmçinin vəzifələr, onların reallaşdırılması müddəti,

---

[434]Стратегия: сущность и содержание [Электронный ресурс] // Сайт кафедры «Теории и технологий в менеджменте» ЮФУ (РГУ). URL: http://www.management61.ru/index.php?do=static&page=11strateg (дата обращения: 31.10.2011).

[435]Пономарева Е. Г. Специфика властной организации современного российского общества [Электронный ресурс] // Информационный гуманитарный портал «Знание. Понимание. Умение». 2010. № 1 — Философия. Политология. URL: http://www.zpu-journal.ru/e-zpu/2010/1/ Ponomareva/ (дата обращения: 31.10.2011).

[436]Армстронг М. Стратегическое управление человеческими ресурсами. М. : Инфра-М, 2002. — 328 с.; Минцберг Г. Структура в кулаке. Создание эффективной организации. СПб. : ПИТЕР, 2011. — 512 с.; Томпсон-мл. А. А., Стрикленд А. Дж. Стратегическийменеджмент. Концепцииииситуациидляанализа. М. :Вильямс, 2006. — 928 с.; Hamel G., Prahalad C. K. Competing for the Future: Break through Strategies for Seizing Control of Your Industry and Creating Markets of Tomorrow. Boston : Harvard Business School Press, 1994; Beam H. H. Competing for the Future: Breakthrough Strategies for Seizing Control of Your Industry and Creating the Markets of Tomorrow. — book reviews [Электронныйресурс] // Business Horizons. FindArticles.com. URL: http://findarticles. com /p/ articles /mi_m1038/is_n3_v38/ai_16889375/ (датаобращения: 31.10.2011).

ehtiyatları əsasında razılaşdırılmış, sistemli sosial iqtisadi çətinliklərin səmərəli həllini təmin edən məqsədli proqramların, proyektlərin və proqramlı tədbirlərin toplusudur".[437]

Ə.M.Həsənovun qeyd etdiyi kimi – "Hər bir dövlətin daxili və xarici vəziyyətini, milli maraq dairələrini və onların təminatını, beynəlxalq aləm və region ölkələri ilə münasibətlərinin taktikasını, vəzifələrini, yollarını, vasitələrini və ehtiyatlarını, onu əhatə edən geosiyasi subyektlərin hərəkətlərini və buna müvafiq olaraq geosiyasi davranışını müəyyən edən Milli İnkişaf Strategiyası olur. Bu strategiya ölkənin həyata keçirdiyi praktiki daxili və xarici siyasətin, ölkə daxili ictimai-siyasi, milli-etnik, sosial-dini sabitliyin, yaxın və uzaq ölkələrlə geosiyasi münasibətlərin davamlı, təhlükəsiz inkişafını təmin edən əsas vasitədir".[438]

Azərbaycan Respublikasının milli inkişaf perspektivlərinin istiqamətləndirilməsi, "ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin" yaradılması məqsədilə Strateji Yol Xəritəsi qəbul olunmuşdur. Strateji Yol Xəritəsi 12 əsas istiqaməti – milli iqtisadiyyat perspektivi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, neft və qaz sənayesinin, ağır sənaye və maşınqayırmanın, ixtisaslaşmış turizm sənayesinin, logistika və ticarətin, uyğun qiymətə mənzil təminatının, peşə təhsili və təliminin, maliyyə xidmətlərinin, telekommunikasiya və informasiya texnologiyalarının, kommunal xidmətlərin inkişafı məsələlərini nəzərdə tutur.[439]

---

[437]Дунаев О. Стратегия — это искусство, без которого не удержать бизнес [Электронный ресурс] // Логинфо. URL: http://loginfo.ru/issue/94/1226 (дата обращения: 31.10.2011)

[438]Həsənov Ə.M.AzərbaycanRespublikasınınmilliinkişafvətəhlükəsizliksiyasətininəsasları. Bakı, "Zərdabi LTD", 2016, 700 s.

[439]Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. //https://static.president.az/pdf/38542.pdf

Strategiya – mütləq dövlətin düşünülmüş uzun müddətli məqsəd və vəzifələrinin, həmçinin məqsədlərə çatma vəsaitlərinin istifadəsinin istiqamətləndirilməsidir.[440] Bu fikirdən çıxış edərək "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin hazırlanması özünəməxsus inkişaf modelinin yaradılmasına səy olaraq dəyərləndirilə bilər. Bu strategiya dünya təcrübəsini, milli tərəqqi və əmniyyət imkanlarını nəzərə alır və strateji hədəfləri açıqlayır:

"1. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi;

2. Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi;

3. İnsan kapitalının inkişaf etdirilməsi;

4. Əlverişli biznes mühitinin inkişaf etdirilməsi".

Bu hədəflər Azərbaycanda sosial dövlətin və sosial yönümlü bazar təsərrüfatının tərəqqisinə yönələrək, təhsilin keyfiyyətinin, əmək məhsuldarlığının yüksəldilməsini, insan kapitalının inkişafının stimullaşdırılmasını, iqtisadiyyatda və əlverişli biznes mühitinin yaradılmasında dövlət sektorunun rolunun koordinasiyasını, biznesin davamlılığını, özəlləşdirmənin uğurla icrası və prioritet sektorların özəlləşdirilməsini, xarici sərmayəçilərin marağının artırılmasını nəzərdə tutur.[441]

Nəzərə alsaq ki, sosial dövlətin həyata keçirdiyi əsas siyasət bilavasitə sosial sahələrin inkişafı ilə bağlıdır, qeyd edə bilərik ki, Strateji Yol Xəritəsi sosial sahələrin idarəedilməsinin tənzimlənməsi məqsədilə qəbul edilmiş hüquqi sənəddir. Sosial

---

[440]Подробно об «импорте» институтов и технологий см.: Пономарева Е. Г. Специфика властной организации современного российского общества [Электронный ресурс] // Информационный гуманитарный портал «Знание. Понимание. Умение». 2010. № 1 — Философия. Политология. URL: http://www. zpu-journal.ru/e-zpu/2010/1/Ponomareva/ (дата обращения: 31.10.2011).

[441]AzərbaycanRespublikasınınmilliiqtisadiyyatperspektivi üzrə StratejiYolXəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.//https://static.president.az/pdf/38542.pdf

sahələrin idarə edilməsi dedikdə, burada ilk növbədə aşağıdakılar nəzərdə tutulur:

1.Əhalinin sosial subyekt kimi tələbatının öyrənilməsi və yaşayış səviyyəsinin yüksəldilməsi;

2.Səhiyyənin inkişafı və insan inkişafı indeksinə təsiri;

3.Təhsilin iqtisadiyyatı və idarə edilməsi;

4.Mədəniyyətin inkişafı;

5.Mənzil-kommunal təsərrüfatına xidmətin təşkili və bu sistemin əsas istiqamətləri;

6.Sosial sığorta sisteminin inkişafı;

7.Sosial müdafiə problemləri və bu sistemin əsas istiqamətləri;

8.Ekoloji tarazlıq və ekoloji xidmət;

9.Bölgələrdə əhalinin məskunlaşması, onların rifahı, iş şəraitinin, məişət problemlərinin öyrənilməsi və s. əlaqəlidir. Sosial sahələrin idarəsinin strateji planlaşması müəyyən ali məqsədlər və onların reallaşdırılmasına yönəldilən proqram xarakterli tədbirlər məcmusu ilə bağlıdır.[442]

"Strateji Yol Xəritəsi"nin təhlili Azərbaycanda sosial dövlət quruculuğunun dünya təcrübəsinin sintezinə əsaslandığını, sosial modernləşmə tendensiyalı olduğunu göstərir. İnkişaf modelləri təhlil edilərkən zaman-məkan amilləri unudulmamalıdır və bu baxımdan Azərbaycanda sosial dövlətin özünəməxsus regional (bölgənin geostrateji xüsusiyyətlərindən çıxış edərək) forması yaranır.

"Strateji Yol Xəritəsi" 2025-ci ildən sonrakı dövrdə sosial firavanlığın və insan inkişafı indeksinin yüksəldilməsini, yoxsulluğun ləğv edilməsini, insan kapitalının inkişafını, təhsilin və səhiyyənin bütün pillələrində keyfiyyətin və əmək məhsuldarlığının yüksəldilməsini hədəf kimi müəyyənləşdirmişdir. Hazırda reallaşdırılan sosial siyasətin davam etdrilməsi, iqtisadi inkişafın həssas təbəqələrə yönəldilməsi və yoxsulluğun azaldılması istiqamətində geniş

---

[442]Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti). Bakı: "İqtisadiyyat Universiteti" nəşriyyatı, 2010, s.10, 19

tədbirlər aparılır. “2025-ci ildən sonrakı dövr üçün hədəf baxış sosial rifah halının yaxşılaşdırılmasını və insan inkişafı indeksinin ən yüksək həddə çatdırılmasını təmin edən və yüksək texnoloji inkişafa və iqtisadiyyatın optimal strukturuna əsaslanan güclü rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyat qurmağı nəzərdə tutur”.[443]

Milli inkişafın əsasını təşkil edən “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” AR prezidentinin 2012-ci il Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyasının daha təkmil forması kimi təqdim edilmişdir. Bu sənəddə Azərbaycan dövlətinin inkişafının əsasları kimi yüksək rəqabətqabiliyyətli iqtisadiyyatının yaradılması, səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması, qeyri-neft sektorunun inkişafı,elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi,bölgələrin tarazlı inkişafı, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, əhalinin sağlamlığı və səhiyyənintərəqqisi, müasir təhsil sisteminin formalaşdırılması, gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişafı, qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, mədəni irsin qorunması və səmərəli idarə edilməsi, ətraf mühitin qorunması və ekologiya məsələləri müəyyənləşdirilmişdir.

2015-ci ilin 25-27 sentyabrdaBMT-nin Dayanıqlı İnkişaf Sammitində “Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi”qəbul edilmişdir. Bu gündəlikdəki 2016-2030-cu illər üçün təsdiqlənmiş

---

[443] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. http://iqtisadiislahat.org/store/media/documents/38542.pdf, s.52

Dayanıqlı İnkişaf Məqsədləri də müəyyən mənada Azərbaycan dövlətinin milli inkişaf strategiyasının təməl əsaslarını təşkil edir:

Məqsəd 1: Hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq.

Məqsəd 2: Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatını təşviq etmək.

Məqsəd 3: Yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq.

Məqsəd 4: Hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək.

Məqsəd 5: Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək.

Məqsəd 6: Hamıya suyun və kanalizasiya xidmətlərinin əlçatanlığını təmin etmək

Məqsəd 7: Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək.

Məqsəd 8: İnklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək.

Məqsəd 9: Möhkəm infrastruktur yaratmaq, inklüziv və dayanıqlı sənayeləşməni təşviq etmək və innovasiyaların inkişafına dəstək vermək.

Məqsəd 10: Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq.

Məqsəd 11: Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək.

Məqsəd 12: Dayanıqlı istehlak və istehsal modellərinə keçidi təmin etmək.

Məqsəd 13: İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək.

Məqsəd 14: Okeanları, dənizləri və dəniz ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək.

Məqsəd 15: Meşələri dayanıqlı şəkildə idarə etmək, səhralaşmaya qarşı mübarizə aparmaq, torpaqların deqradasiyasına

son qoyaraq onları bərpa etmək üçün tədbirlər görmək və bioloji müxtəlifliyin itirilməsinin qarşısını almaq.

Məqsəd 16: Ədalətli, sülhsevər və açıq cəmiyyətləri təşviq etmək.

Məqsəd 17: Dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq.[444]

Hazırda dayanıqlı inkişafın hədəflərinə nail olunması Azərbaycan dövlətinin prioritet məqsədlərindəndir. Məqsədə çatmaq üçün Azərbaycan Respublikası Prezidenti İlham Əiyev 6 oktyabr 2016-cı il tarixində "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Fərman imzalamışdır. Şuranın əsas məqsədi "2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etmək, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etmək" müəyyən edilmişdir.[445]

Meqasosiumun inkişafını və eyni zamanda milli inkişaf strategiyalarının təkmilləşdirilməsini ehtiva edən bu proqram bütün bəşəriyyətin bərabər inkişaf imkanlarına yiyələnməsinə yönəlmişdir. Azərbaycan dövlətinin Milli inkişaf strategiyasının əsasları hökumətin təşəbbüsü ilə qəbul edilən hüquqi-normativ sənədlər, konsepsiya və strategiyalar, həmçinin keçirilən beynəlxalq konfranslar və forumlar, reallaşdırılan layihə və proqramlar vasitəsilə möhkəmləndirilir, bu əsasda sosial dövlət quruculuğunun Azərbaycan modeli yaradılır və dünyaya təqdim edilir. 2017-ci ildə Azərbaycanda əməyin gələcəyi ilə bağlı aktual məsələlərə həsr olunan milli dialoqun yekunlarına dair keçirilən

[444] The Sustainable Development Goals Report 2018. United Nations New York, 2018. https://unstats.un.org/sdgs/files/report/2018/TheSustainableDevelopmentGoalsReport2018-EN.pdf

[445] Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. lham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 6 oktyabr 2016-cı il.https://president.az/articles/21314

konfransda 4 mövzu – "Demoqrafik vəziyyət və miqrasiya proseslərinin əmək bazarına təsiri", "Texnoloji inkişafın əmək bazarına və məşğulluğa təsiri", "Layiqli əməyin cəmiyyətin rifahında rolu", o cümlədən "Təhsilin və təlimin əmək bazarının inkişafında rolu" məsələləri müzakirə edilib.[446].

Bu gün sosial dövlət və vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş uğurlu strateji addımlardan biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edilməsini" nəzərdə tutan "Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Fərmandır.[447] Bu Mərkəzin aparacağı tədqiqatlar vətəndaş – cəmiyyət – dövlət arasındakı qarşılıqlı münasibətlərin yaxınlaşmasına xidmət edəcək, rifah səviyyəsinin yüksəlməsi meyllərinin müəyyən edilməsinə elmi yanaşmanı təmin edəcək.

Beləliklə, Azərbaycanın Milli inkişaf Strategiyasında sosial dövlət quruculuğu modelinin xüsusiyyətləri belə səciyyələndirilə bilər:

1.Modelin cəmiyyətin tələblərinə və qloballaşma dövrünün çağırışlarına uyğunlaşması, çevik sosial innovasiya islahatlarının aparılmasına qabil olması onun səmərəliliyin əsas göstəricisidir;

---

[446]Bakıda "Əməyin Gələcəyi Təşəbbüsü" üzrə Milli dialoqun yekunlarına dair konfrans keçirilir. https://az.trend.az/azerbaijan/society/2735962.html

[447]Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezident. Bakı şəhəri, 8 fevral 2019-cu il. "Azərbaycan" qəzeti, N32 (8055) 9 fevral 2019-cu il.

2. Sosial siyasətin tətbiqi və tənzimlənməsində dövlətin aparıcı və müdaxiləçi rola malik olması, sosial dinamikanın pozitiv təmayülü;

3. Dövlət sektorunun milli iqtisadi sistemin sosial yönümlü quruculuğunda əhəmiyyətli yerinin olması;

4.Sosial siyasətin güclü hüquqi-qanunverici əsaslara söykənməsi və innovasiya yönümlü olması;

5.Yeni sosial identiklik – vətəndaşlıq modeli kimi azərbaycançılığın formalaşması.

## 4.2. Sosial dövlətin Azərbaycan modeli

Azərbaycanda aktual problemə çevrilmiş sosial dövlət quruculuğu məsələləri AR-nın Konstitusiyasında burada sosial siyasətlə bağlı təqdim edilən maddələrdə, o cümlədən ölkədə qəbul edilmiş bir sıra qətnamələrdə öz əksini tapmışdır. Azərbaycanda sosial dövlətin formalaşdırılması tarixini müəyyən mənada SSRİ dönəmi ilə də bağlamaq olar.

Məlumdur ki, Rusiya, o cümlədən sosializm ölkələri dünyanın əksər ölkələrindən fərqli olaraq sosial-iqtisadi əsasda inkişaf etdirilirdi ki, bunun da əsasını xalq təsərrüfatının bütün sahələrinin maksimum dövlətləşdirilməsi təşkil edirdi. Milli dövlətlər çərçivəsində ciddi mərkəzləşdirilmiş idarəetmə sisteminin tətbiq edilməsi dururdu. Əvvəllər yüksək inkişaf sürəti göstərən sovet iqtisadiyyatı sonralar obyektiv iqtisadi qanunlara və xüsusən dünya miqyasında hökm sürən qanunlara tabe olmadığı üçün zəifləməyə başladı. Sosializm sistemi ölkələrində iqtisadiyyat əsasən bir adamın mütləq hakimiyyətinin, bir ideyanın, bir partiyanın, bir "vahid" planın həyata keçirilməsinə köklənirdi. Bu da çox zaman istehsalı istehsal üçün genişləndirməyə, material, enerji, əmək resurslarının israfçılıqla istifadəsinə gətirib çıxarırdı. Nəticədə Rusiyanın və onun başçılıq etdiyi sosializm ölkələrinin məhsulları yüksək material, əmək

və fond tutumluqları və çox aşağı elm tutumluqları ilə fərqlənirdilər. Bütün bunlar dünya iqtisadiyyatına mənfi təsir göstərirdi.[448]

Azərbaycan da sosialist ideologiyalı dövlətin tərkib hissəsi kimi inkişaf edirdi və burada əsas şüar ümummilli rifahın və yaşayış şərtlərinin yüksəldilməsi olmuşdur. Azərbaycanda rifah, yaxud sosial dövlətin tarixi əsaslarının yaranmasını XX əsrin 70-80-ci illərlə bağlamaq olar. Bu prosesin ikinci mərhələsinin XXI əsrdə başlamışdır və hazırda davam edir.

Ölkəmizdə XX yüzilliyin 70 – 80-ci illərində bu istiqamətdə əldə edilmiş müvəffəqiyyətlər ümummilli lider Heydər Əliyevin fəaliyyətilə əlaqədardır. M.Qasımlının qeyd etdiyi kimi: "60-cı illərin sonlarından etibarən Azərbaycan sovet tarixində ilk dəfə olaraq xalqın problemlərinin həllində və müstəqil dövlətçiliyə aparan yolda böyük, strateji mərhələnin əsası qoyuldu... H.Əliyev Azərbaycan neftinin mərkəzə daşınmasında maraqlı olmadığından qeyri-neft sahələrinə başlıca diqqət yetirir, maliyyə vəsaiti ayırır, bununla da respublikanın regionlarının inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, azərbaycanlıların həyat şəraitinin yaxşılaşdırılmasına, əhalinin demoqrafik inkişafına, rayonların və kəndlərin mədəni simasının dəyişdirilməsinə dair strateji niyyətlərini həyata keçirirdi. 70-ci illərdə Azərbaycanda pambıqçılığın və üzümçülüyün üstün inkişafının səbəblərindən biri də məhz bu amillərlə bağlı idi. BernardA.Kukun redaktorluğu altında nəşr edilmiş ensiklopediyada göstərilir ki, Heydər Əliyev hakimiyyətə gələn kimi qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirdi, iqtisadi idarəçilikdə azərbaycanlıların mövqelərini möhkəmləndirdi, iqtisadiyyata rəhbərliyi onların nəzarətinə keçirdi... Heydər Əliyev milliətsevərliyi Azərbaycanı parçalamağa, küskünlüyə, incikliyə yönələn məhdud etnik deyil, respublikanı bütövləşdirmək məqsədi daşıyan siyasi, coğrafiya milliyyətçiliyi mahiyyətini daşıyaraq bu ərazidə yaşayan bütün vətəndaşların soy-kök mənsubiyyətindən asılı olmaya-

---

[448] Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. (Monoqrafiya)Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2003, s.24 (455 səh.)

raq birləşərək Azərbaycan naminə çalışmalarına xidmət etmək məqsədi güdürdü...”.[449]

XX yüzilliyin 80 – 90-cı illərində SSRİ-nin çökməsi dövlətlərarası siyasi və iqtisadi münasibətlərdə fövqəladə dəyişmələrlə nəticələndi. İlk növbədə SSRİ daxilində olan yarım müstəqil respublikaların, o cümlədən ölkəmizin inkişafının strateji əsaslarında dəyişikliklərə gətirdi. İstedadlı idarəetmə subyektlərinin olmaması səbəbindən mövcud vəziyyət Azərbaycanda dərin böhran və xaosla müşayiət olundu.

XX əsrin 90-cı illərində hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan üçün güclü dövlət quruculuğu kursunu müəyyənləşdirdi və həyata keçirməyə başladı. Qərbin tanınmış alimlərinin belə etiraf etdiyi güclü dövlət konsepsiyası XXI əsrin ən səmərəli modelidir. Heydər Əliyev qeyd edirdi ki, dünyanın inkişaf etmiş ölkələrinin dövlət quruculuğu təcrübəsi öyrənilməlidir, lakin Azərbaycan üçün bu sahədəki milli təcrübə əsasdır. Ulu öndər milli dövlətçilik tarixini olduqca gözəl bildiyindən onun əsasında dövlət quruculuğunun istiqamətini müəyyənləşdirdi. O cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsini mütləq surətdə nəzərə aldı. Şərqin ilk demokratik respublikasının hansı səbəblərdən uzun müddət yaşaya bilmədiyinin bütün səbəblərini analiz edərək, müasir şəraitə uyğun xətt müəyyənləşdirdi. [450]

Sosial dövlətin ikinci quruculuq mərhələsi prezident İlham Əliyevin hakimiyyətilə əsaslanmışdır. S.Müslümova görə “1995-2003-cü illərdə ulu öndər Heydər Əliyev tərəfindən ictimai-siyasi sabitlik şəraitində müstəqil Azərbaycanın sosial müdafiə sisteminin etibarlı təməli formalaşdırıldı, ölkənin ümumi tərəqqisi müstəvisində həmin sistemin modern təcrübələr əsasında getdikcə təkmilləşdirilməsi üçün institusional islahatlara start verildi. Ölkə əhalisinin sabit sosial rifahının təmin olunmasına və gücləndirilməsinə yönələn bu müdrik strategiyanın 2003-cü ildən etibarən

[449]Qasımlı M.C. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.8, 46-47, 51 (608 s.)

[450]Güclü dövlət konsepti: Azərbaycan modelinin səmərəliliyi // Xalq qəzeti.- 2016.-13 may.-№102.-S.5.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qlobal proseslərə və çağırışlara uyğun şəkildə davam etdirilməsi respublikamızın yeni tərəqqi və modern islahatlar mərhələsinə daxil olmasını şərtləndirdi”.[451]

Sosial dövlət quruculuğunun 2003-cü ildən etibarən müəyyənləşdirilməsinin əsas səbəbləri Sovet İttifaqının süqutu və bu ərəfədə Azərbaycanda Dağlıq Qarabağ münaqişəsinin başlanması ilə əhalinin rifah halının kəskin şəkildə aşağı enməsi, “1990-cı ildən başlayaraq əhalinin təbii artımında azalmanın müşahidə olunması və bu azalmanın 2004-cü ilə kimi davam etməsi..., və xüsusi ilə urbanizasiya prosesləri” və digər problemlərlə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, “2004-cü ildən başlayaraq təbii artımda müəyyən yüksəlmə müşahidə olunsa da, ötən əsrin 60-70-ci illərinin səviyyəsi bərpa olunmamışdır. Təbii artımın azalması əsasən doğulanların sayının azalması ilə əlaqədar olmuşdur. Sonuncunun əsas səbəbləri kimi 1990-cı ildən sonra Qarabağ müharibəsi göstərilə bilər”.[452]

Müstəqillik əldə edilməsi, ölkədə siyasi sabitlik yaradılması və dayanıqlı inkişaf strategiyasının istiqamətlərinin müəyyənləşdirilməsi Azərbaycanda sosial yönümlü dövlət quruculuğunu prioritet məsələyə çevirmişdir. Dövlət yaşayış keyfiyyətinin və firavan həyatın təminatı sosial siyasətin aparıcı istiqaməti kimi müəyyənləşdirmişdir.

Azərbaycanda sosial dövlətin ən yeni dövr mərhələsinin təhlili sosial dövlətin Azərbaycan modelinin özünəməxsusluğunu açmağa kömək edir. Sosial dövlət insana, onun yaşayış keyfiyyətinin yüksəldilməsinə, rifahının təminatına yönələn dövlətdir. İqtisadçıların fikrincə, “İnsanın (ailənin) maddi rifahı ən öncə əsas həyat nemətlərinin qiymətləri və gəlirlərin nisbəti ilə müəyyən olu-

---

[451]Müslümov S. Müstəqil Azərbaycanın sosial rifah strategiyası: etibarlı təminat və modernləşməni hədəfləyən inkişaf paradiqması // Azərbaycan.-2016.-18 oktyabr.-№229.-S.6.

[452]Mehdiyev X.O. Azərbaycanin Sosial- Iqtisadi Inkişafina Retrospektiv Baxış: müqayisəli təhlil (I kitab). Ideal-Print, Bakı 2015, s.14, 15

nur".[453] Bu mənada 2004-cü ildən Azərbaycanda insanların rifahının yüksəlməsi istiqamətindəki yeniliklərin statistik analizi zəruridir.

Cədvəl 1. Əhalinin rifahı ilə bağlı statistik analiz[454]

| İllər | Ümumi daxili məhsul (cəmi, milyon manat) | Əhalinin hər nəfərinə düşən gəlirlər, manat | fərdiistehlak(mln.manat) |
|---|---|---|---|
| 2004 | 8530.2 | 796.7 | 550.6 |
| 2005 | 12522.5 | 962.2 | 657.0 |
| 2006 | 18746.2 | 1201.3 | 731.5 |
| 2007 | 28360.5 | 1692.2 | 1183.6 |
| 2008 | 40137.2 | 2378.3 | 1376.5 |
| 2009 | 35601.5 | 2560.4 | 1567.7 |
| 2010 | 42465,0 | 2866.1 | 1774.9 |
| 2011 | 52082,0 | 3371.7 | 1965.7 |
| 2012 | 54743,7 | 3789.3 | 2289.5 |
| 2013 | 58182,0 | 4040.3 | 2339.4 |
| 2014 | 59014,1 | 4192.4 | 2520.6 |
| 2015 | 54352,1 | 4380.7 | 2573.4 |
| 2016 | 60393.6 | 4709.8 | 2973.1 |

Ümumi daxili məhsul (ÜDM) müvafiq dövr ərzində ölkə rezidentlərinin iqtisadi fəaliyyətinin son nəticələrini əks etdirir və ölkə rezidentləri tərəfindən istehsal olunmuş və son istehlak, yığım və ya ixrac məqsədilə istifadə edilən məhsul və xidmətlərin dəyəri ilə ölçülür. ÜDM iqtisadiyyatın bütün (istehsal və xidmət) sahələrində istehsal edilmiş əlavə dəyərin cəminə bərabərdir.[455]

İstehlak – nemətlərin, əmtəənin, xidmətlərin tələbatların təmin edilməsi məqsədilə istifadə edilməsidir. Fərdi istehlak – nemətlərin, əmtəənin, xidmətlərin (qida məhsulları, geyim,

[453] Yenə orada, s.14, 15

[454] Əsas Sosial-İqtisadi Göstəricilər.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. http://www.stat.gov.az/

[455] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.http://www.stat.gov.az/menu/8/FAQ/

ayaqqabı, yaşayış yeri, mədəni məişət mahiyyətli əşyaların və s.) ailə üzvləri və fərd tərəfindən istifadəsi ilə bağlıdır.[456]

Cədvəl-ə əsasən ÜDM davamlı olaraq illər üzrə artmış, fərdi istehlaka və əhalinin gəlirlərinin yüksəlişi ilə müşayiət olunmuşdur. Azərbaycanda sosial dövlətin ilk quruculuq illəri kimi qəbul etdiyimiz 2004-cü ildə ÜDM - 8530.2 mln. man., Əhalinin hər nəfərinə düşən gəlirlər - 796.7 man. və fərdi istehlak - 550.6 mln. man. olmuşdursa, artıq 10 il sonra müəyyən nailiyyətlər əldə edilmişdir və 2016-cı ildə ÜDM - 60393.6 mln. man., Əhalinin hər nəfərinə düşən gəlirlər - 4709.8 man. və fərdi istehlak - 2973.8 mln. man. olmuşdur.

Orta sinfin və xüsusi mülkiyyətin genişlənməsi sosial dövlətin başlıca ünsürlərindəndir. DSK-nın məlumatlarına görə 2013-cü ildə Azərbaycanda 234634 fiziki şəxs fərdi sahibkar olmuşdur və onların 84%-i (və ya 196467 nəfər) ticarət, nəqliyyat və anbar təsərrüfatı ilə məşğul olmuşlar. Sırf ticarətlə məşğul fiziki şəxs fərdi sahibkarların sayı isə 73% (və ya 171 646 nəfər) olmuşdur, yəni sahibkarlıq əsasən "alış-veriş" sahəsində yer almışdır. Dövlət Statistika Komitəsinin (DSK) təqdimatına görə 2013-cü ildə ticarətlə - 664.4 min nəfər məşğul olmuş və bütün sahələrdə məşğul əhalinin sayı 15% təşkil etmişdir.

2014-cü il ərzində 9130 yeni hüquqi şəxs qeydiyyata alınmışdır. Bu dövrdə qeydiyyatda olan müəssisə və təşkilatların 26,3%-i "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 15,8%-ii "Digər sahələrdə xidmətlərin göstərilməsi", 10,8%-i "Tikinti", 9,8%-i "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", 6,3%-i "Peşə, elmi və texniki fəaliyyət", 5,9%-i "Emal sənayesi", 3,6%-i "İnzibati və yardımçı xidmətlərin göstərilməsi", 3,2%-i "Təhsil", 2,3%-i "İnformasiya və rabitə" və qalanları isə digər bölmələrin payına düşür. 2014-cü ildə sahibkarlıq müəssisələri əsasən Bakıda (9,4%), Quba-Xaçmaz (12,5%), Abşeron (11,6%), Dağlıq-Şirvan (16,8%), Şəki-Zaqatala (11,9%), Lənkəran (11,5%), Aran (8,5%)

---

[456]Потребление. Экономический словарь. http://abc.informbureau.com/html/iiodaaeaiea.html

və Gəncə-Qazax (9,7%) iqtisadi rayonlarında qeydiyyata alınmışdır.[457]

Statistik göstəricilərə əsasən qeyd edə bilərik ki, sahibkarlıq fəaliyyəti yalnız böyük şəhərlərdə deyil, regionlarda da inkişaf etmişdir. Aşağıda təqdim edilən cədvələ əsasən onu da demək olar ki, illər üzrə sahibkarların sayının artması müşahidə olunur.

Cədvəl 1. Hüquqi şəxslərin sayı

| İllər | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Hüquqi şəxslərin sayı | 79147 | 85618 | 89939 | 93416 | 75632 | 78966 | 86010 | 94563 | 100325 |

DSK-nın təqdim etdiyi qrafikdə sahibkarların illər üzrə artım dinamikasını əks etdirən rəqəmlər təqdim edilir.

Qrafik 3. Yeni yaradılmış hüquqi şəxslərin illər üzrə sayı




[457]2014-cü ildə Azərbaycanda sahibkarlığın inkişafı dinamikası. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. http://www.economy.gov.az/article/2014-sid/22554

Əvvəlki illərdə olduğunu kimi 2015-ci ildə də sahibkarlıq müəssisələri əsasən Bakıda (53,8 faiz), Aran (11,9 faiz), Lənkəran (10,8 faiz), Abşeron (8,1 faiz) və Gəncə-Qazax (5,4 faiz) iqtisadi rayonlarında qeydiyyata alınmışlar.[458]

Azərbaycan iqtisadiyyatında "inkişaf etmiş" ölkələrdəki bəzi tendensiyalar nəzərə çarpır. DSK-nın göstəricilərinə əsasən ev təsərrüfatlarının cəmi gəlirləri istehlak xərclərindən azdır, yəni istehlakın müəyyən hissəsi (hələ ki, ümumi xərclərin cüzi hissəsi – son 13 ildə orta hesabla 5%) borc vasitəsi ilə maliyyələşdirilir. Yəni banklar vasitəsilə əhalini borcla yaşamağa alışdırmaq siyasəti artıq başlamışdır. İnsanların və ailələrin yaşayış keyfiyyəti həmçinin onların "mədəniyyət məhsullarını" istehlak edə bilmə imkanı ilə də müəyyənləşir. Bu əsasən öz milli mədəniyyət irsi məhsullarına aid edilir – kitabların və jurnalların oxunması, milli bədii filmlərin izlənməsi, teatrlara baş çəkmə və sair göstəricilərlə müəyyənləşir.[459]

Ümumiyyətlə, həyat, yaxud yaşayış keyfiyyəti – müəyyən vaxtda cəmiyyətin mövcudluğunun müxtəlif tərəflərinin şərtlərini ümumi şəkildə göstərən sosial-iqtisadi kateqoriyadır. C.Helbreyt 1946-cı ildə yazılmış "Bolluq cəmiyyəti" adlı əsərində göstərirdi ki, "Asudə vaxt, tamaşalara baxmaq imkanı, gözəllikdən zövq almaq və yaşayışın digər yüksək məqsədləri haqqında narahatçılıq hər bir şəxsin orta qidalandığı şəraitdə mümkündür" [, s.39].[460]

Həyat keyfiyyətini müəyyənləşdirmək üçün əsasən 9 amil nəzərə alınır: 1.Sağlamlıq. Uzun ömürlülük. 2.Ailə vəziyyəti. Boşanmaların statistikası. 3. İctimai həyat. Kilsə və məscidlərin ziyarət edilməsi, həmçinin həmkarlar ittifaqına üzvlük səviyyəsi. 4. Maddi yaşayış səviyyəsi. Adambaşına düşən DMM, alıcılıq imkanları. 5.Siyasi sabitlik və təhlükəsizlik. Siyasi sabitlik və

---

[458]2015-ci il üzrə Azərbaycanda sahibkarlığın inkişaf dinamikası. http://www.economy.gov.az/article/sid-2015-1-rub/22782

[459] Mehdiyev X.O. Azərbaycanin Sosial- Iqtisadi Inkişafina Retrospektiv Baxış: müqayisəli təhlil (I kitab). Ideal-Print, Bakı 2015, s.14, 15

[460] Quliyev C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. Bakı, "AVROPA", 2001, s.39 (235)

təhlükəsizlik reytinqi. 6.İqlim və coğrafiya, İsti və soyuq iqlimin fərqləndirilməsi üçün yerləşdiyi coğrafi enlik. 7.Məşğulluq zəmanəti. İşsizlik səviyyəsi. 8.Siyasi azadlıq. Siyasi və vətəndaş azadlığının orta səviyyəsi. 9.Gender bərabərliyi. Qadınlarla kişilərin orta əmək haqqında fərqlərin ölçüsü.[461]

Bu indiqatorlar XX əsrin 80-ci illərinin sonunda tamamlanmış Dayanıqlı İnsan İnkişafı konsepsiyasının əsas müddəasından (insanlar iqtisadi tərəqqinin yalnız vasitələri deyil, həm də yekun məqsədidir) bəhrələnərək müəyyənləşdirilmişdir. "Hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır. İnkişafın əsas məqsədi əhalinin uzun, sağlam və yaradıcı həyat yaşaması üçün əlverişli mühitin yaradılmasıdır. Bu, özü-özlüyündə aydın olan həqiqət kimi səslənə bilər. Lakin bu həqiqət resursların və maliyyə sərvətinin toplanması kimi qısa müddətli 18 prioritetlərin fonunda asanlıqla yaddan çıxarılır".[462]

1990-cı ildə BMT "insan potensialının inkişafı" konsepsiyasını təklif etmişdi. Burada, insan inkişafı dedikdə "ayrıca fərdin seçim imkanlarının genişəndirilməsi prosesi", eləcə də əmniyyətin təminatı nəzərdə tutulur. Əmniyyətin təminatı "ayrıca fərdin öz seçimini azad və təhlükəsiz reallaşdırması" kimi izah edilir.[463] BMT-nin İnkişaf proqramı çərçivəsində təklif edilən İnsan İnkişafı İndeksi – Sağlamlıq: uzun və sağlam həyat yaşamaq imkanı; Təhsil: təhsil almaq və bilikli olmaq imkanı; Gəlir: layiqli həyat səviyyəsi imkanı əsasında müəyyənləşmişdir.[464]

BMT-nin 2011-ci il İnsan İnkişafı ilə bağlı Hesabatında Azərbaycan 187 ölkə arasında 91-ci yerdə[465], 2012-ci ildə 87-ci

---

[461] The Economist Intelligence Unit's quality-of-life index.Quality-of-life index,THE WORLD IN 2OO5,S.2

[462] İnsan İnkişafı tədris vəsaiti. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. Bakı, 2014, s.17 (54s.)

[463] Quliyev C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. Bakı, "AVROPA", 2001, s.39 (235)

[464] Sabina Alkire. Human Development: Definitions, Critiques, and Related Concepts. UNDP HDRP 2010/01, səh. 14

[465]Human Development Report 2011. Sustainability and Equity: A BetterFuture for All. səh.127

yerdə[466], 2013-cü ildə 187 ölkə arasında 76-cı yerdə[467], 2014-cü ildə 105 – Yüksək İnkişaf etmiş ölkə arasında 77-ci yerdə [468], 2015-ci ildə 78-ci yerdə[469] olmuşdur.

Beynəlxalq tədqiqatlar mərkəzi olan Gellap 2013-cü ildən ayrı-ayrı ölkələrdə sakinlərin xoşbəxtlik səviyyəsini öyrənmək üçün sorğular keçirir və 2017-ci ildə bu sıradan keçirilən sorğular əsasında Azərbaycan 155 ölkə arasında 85-ci yeri tutmuşdur.[470] Xoşbəxtlik səviyyəsinin əsas göstəriciləri kimi hər bir şəxsə ayrılan ÜDM, uzunömürlülük, vətəndaş azadlıqları, sabahkı gün üçün təhlükəsizlik, ailədə sabitlik, məşğulluğa zəmanət, korrupsiya səviyyəsi, həmçinin cəmiyyətdə inam səviyyəsi və s. daxildir. Əslində bu göstəricilər insan inkişafı göstəriciləri əsasında təyin edilmişdir.

Azərbaycanın dünya dövlətləri arasında İnsan İnkişafı İndeksi üzrə İkinci inkişaf səviyyəli ölkələr sırasına daxil edilməsi bir sıra səbəblərlə bağlıdır. Dünya iqtisadiyyatı ilə məşğul olan əksər alimlərin və tədqiqatçıların ümumi fikrinə görə ölkələrin qruplaşdırılmasında "Təsərrüfatın sosial strukturu", "Xarici iqtisadi əlaqələrin səviyyəsi və xarakteri", "İqtisadi inkişafın tipi", "İqtisadi potensialın həcmi (səviyyəsi)", "Adambaşına düşən ümumi daxili məhsulun miqdarı" kimi göstəricilərdən istifadə etmək olar. Dünya təsərrüfatını yarımsistemlərə bölərkən ən çox istifadə edilən meyar kimi ölkələrin iqtisadi inkişaf səviyyəsi götürülür.[471] Bu meyar üzrə ölkələrin qruplaşdırılmasında

---

[466]Human Development Report 2013.The Rise of the South:Human Progress in a Diverse World., səh.143

[467]Human Development Report 2014. Sustaining Human Progress: Reducing Vulnerabilities and Building Resilience., s.159

[468]Human Development Report 2015. Work for Human Development. S.208

[469]Human Development Report 2016. Human Development for Everyone.TABLE 1. HumanDevelopmentIndexanditscomponents. p.199

[470] Институт земли: рейтинг стран мира по уровню счастья населения в 2017 году. Новости гуманитарных технологий. http://gtmarket.ru/news/2017/03/20/7316

[471]İnsan İnkişafı hesabatları və Azərbaycan. http://sam.az/articles/view/nsan-nkiaf-hesabatlar-v-azrbaycan-1/

"Əhalinin hər bir nəfərinə düşən ümumi məhsul" göstəricisindən istifadə edilir. Bununla yanaşı dövlətlərin qruplaşdırılmasında milli gəlirin yaradılmasında mühüm rol oynayan sənayeləşmənin səviyyəsi və istehsalın strukturundan da istifadə edilir. Əhalinin hər birinə düşən ümumi məhsulun miqdarına görə dünya ölkələri bir neçə qrupa bölünürlər. Qeyd edilən göstəricilərə görə dünya təsərrüfatı yüksək inkişaf etmiş, orta inkişaf etmiş və digər ölkələrə bölünür. Təhlil etmək və dövlətləri bu və digər qrupa aid etmək üçün müqayisə obyekti kimi ABŞ-ın əldə etdiyi adambaşına ümumi məhsulun həcmi götürülür. Bu göstəriciyə görə yüksək inkişaf etmiş ölkələr qrupuna o dövlətlər daxil edilir ki, onların ölkələrində adambaşına düşən ümumi məhsulun miqdarı ABŞ-da əldə edilən bu göstəricinin yarısından çox olsun. O ölkələrdə ki, bu göstərici ABŞ-ın müvafiq göstəricisinin 30-50% -ni təşkil edir, o ölkələr orta inkişaf səviyyəli ölkələr qrupuna, 30 %-dən aşağı təşkil edirsə digər ölkələr qrupuna daxil edilir.[472]

Əli Həsənovun qeyd etdiyi kimi "Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını, çoxşaxəli islahatlar proqramının yaradıcılıqla davam etdirilməsi nəticəsində Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında sosial dövlət quruculuğunun keçid dövrünü başa vuran ilk ölkə olmuşdur. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda həyata keçirilən islahatlara yüksək qiymət vermişdir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşmışdır (2017). Forumun "İnklüziv inkişaf

[472] Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri . (Monoqrafiya). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2003, s.24 (455 səh.)

indeksi" adlı illik hesabatında (2017) Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir".[473]

Dünya İqtisadi Forumunun"Qlobal Rəqabətlilik Hesabatı – 2018/2019" hesabatında 98 indikator üzrə aparılan qiymətləndirmədə ölkəmiz Türkiyə, Serbiya, Gürcüstan və Xorvatiya ilə yanaşı 7-ci onluqda qərarlaşıb. İnfrastruktur, təhsil və bacarıqlar, biznesin dinamikliyi üzrə Azərbaycanın mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Maraqlıdır ki, hesabatda Azərbaycan dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanmış, əhalinin elektrik təchizatı səviyyəsinə görə maksimal - 100 faiz nəticə ilə dünyada birinci pilləyə yüksəlmişdir. Azərbaycan həmçinin ətraf mühitə təsir və inklüziv inkişaf indikatorları üzrə liderliyini qoruyur və biznesin dinamikliyi reytinqi üzrə dünyanın 140 ölkəsi arasında 31-ci yerdə qərarlaşıb ki, bu da ölkəmizdə aparılan iqtisadi islahatlar nəticəsində mümkün olub. Hesabatda Azərbaycan digər sahələr üzrə də öncül yerlərdən birini tutmuşdur, bunlardan hava və dəmir yolu nəqliyyatının effektivliyi göstəricilərini qeyd etmək olar.[474]

Qeyd edilənlər Azərbaycanda sosial dövlət quruculuğunun beynəlxalq qiymətləndirməsini əks etdirir və burada Azərbaycan ölkələrin rifah səviyyəsinin müəyyənləşdirildiyi cədvələ əsasən II – Yüksək inkişaf etmiş ölkələr arasında yer almışdır. Azərbaycan vətəndaşları arasında müxtəlif illərdə (2015, 2018) aparılan sosioloji sorğuların müqayisəli analizi bu məsələni daha ətraflı şərh etməyə imkan yaradır.

Azərbaycanda sosial dövlətin öyrənilməsilə bağlı sosioloji araşdırma. Azərbaycan Respublikası əhalisi ilə 2015-ci ildə Milli Məclisə seçkilər və 2018-ci il prezident seçkilərinin monitorinqi kimi Ekzit-poll qabağı keçirilən sosioloji sorğulardan əldə

---

[473]Həsənov Ə. On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi. https://azertag.az/xeber/On_bes_illik_prezidentlik_dovrunun_mohtesem_zefer_salnamesi-1203473

[474] İsmayilov S. Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir. "Azərbaycan" qəzeti, N32(8055) 9 fevral, 2019-cu il.

edilənlər ölkədə sosial dövlət quruculuğu imkanlarını müəyyən etməyə kömək edə bilər.

I.Aparılan araşdırmada əsas götürülən parametrlər aşağıdakılardan ibarətdir:

Həm 2015-ci il Milli Məclisə seçkilər, həm də 2018-ci il Prezident seçkiləri dövründə Ekzit-poll öncəsi Sosioloji sorğu aparılması üçün Respublikadakı 118 Seçki dairəsindəki 1053 məntəqədən 250-si seçilmişdir. Həmin məntəqələrdən bir neçə göstərici (milliyyət, yaş, cins) nəzərə alınmaqla 1000 nəfər respondent arasında sorğu aparılmışdır. Sorğu yerli intervüçülər tərəfindən 7 gün ərzində aparılmışdır.

II.Aparılan araşdırmada istifadə edilmiş metodlar bunlardır:

1. Respublika üzrə rayonlaşdırılmış sorğularda respondentlər təsadüfi seçmə metodu ilə müəyyənləşdirilmiş, bu məqsədlə seçki məntəqələrindəki seçicilərin siyahısından (18 yaş və yuxarı) istifadə edilmişdir.

2.Hazırlanmış seçmə şəbəkəsi ekspert təhlili metoduna müvafiq şəkildə, xarici və yerli mütəxəssislər arasında müzakirə edilmişdir.

3.Sorğu sosioloji araşdırma metodlarından olan "intervü" və "anket sorğusu" əsasında həyata keçirilmişdir.

4.Toplanılan informasiya SPSS Paket Proqramından istifadə edilərək ümumiləşdirilmişdir.

III. Aparılan araşdırmalarda aşağıdakı hipotezlər irəli sürülmüşdür:

1.Vətəndaşların siyasi fəallığı yüksəkdir;

2.İnsanlar dövlətə və hakimiyyətə inanırlar;

3. İlham Əliyev ölkədə sabitliyin qorunmasına və demokratik dəyişikliklər aparılmasına imkan yaradır, sosial dövlət quruculuğuna istiqamətlənir.

4. Azərbaycan ailə modeli və ailə dəyərləri müəyyən dəyişikliklərlə üzləşsə də, öz ilkin mahiyyətini qoruyub saxlayır.

5.İnsanlar sosial dövlət quruculuğu prosesinə inamla yanaşırlar.

IV.Demoqrafik göstəricilər

Respondentlərin böyük əksəriyyəti - 2015-ci ildə - 34,9%, 2018-ci ildə - 63,59%,-i Bakı və digər şəhərlərdən olmuşlar. Onlardan 2015-ci ildə - 33,4%, 2018-ci ildə - 17,6% kiçik şəhərlərdə yaşadıqlarını bildirmişlər.

Ümumilikdə bütün illər üzrə respondentlərin təxminən 23 – 30% arası -18-29 yaşlı insanlar, 28 – 30% arası 30-39 yaşlı insanlar, 19 – 23% arası 40-49 yaşlı insanlar, 11 – 15% arası – 50-59 yaş arası insanlar, 7%-ə qədəri 60-69 yaşlı insanlar, təxminən 2% 70-dən yuxarı yaşlı insanlar olmuşlar.

Cədvəl 3.Yaşqrupu

| Hansıyaşqrupunaaidsiniz? | 2015-ci il Milli Məclisə Seçkilər | 2018-ci il Prezident seçkiləri |
|---|---|---|
| 18-29 | 23,1 | 30,4 |
| 30-39 | 28,0 | 30,0 |
| 40-49 | 23,0 | 19,5 |
| 50-59 | 15,9 | 11,5 |
| 60-69 | 7,9 | 5,6 |
| 70-dən yuxarı | 2,1 | 2,9 |
| 80-dən yuxarı | | |

Respondentlərdən 2015-ci ildə 49%, 2018-ci ildə 49,96% insan qadın, 2015-ci ildə 51%, 2018-ci ildə 50,1% insan kişi olmuşdur. Bu göstərici anket sorğusunda kişi və qadınların bərabər hüquqluluğu haqqında sualın da əhəmiyyətli göstəricisi kimi qiymətləndirilməlidir. Sorğularda iştirakın cinslə bağlı fərq göstərici çox azdır, yəni sosial dövlətin inkişafının əsas indikatorlarından olan gender bərabərliyi saxlanmışdır.

Cədvəl 4.Cins göstəricisi

| Cinsiniz? | 2015-ci il Milli Məclisə Seçkilər | 2018-ci il Prezident seçkiləri |
|---|---|---|
| Qadın | 49,0 | 49,9 |
| Kişi | 51,0 | 50,1 |

V. Sorğulardan alınan cavabların şərhi

Anket sualları aşağıdakı bloklarda qruplaşdırıla bilər:

1.Sakinlərin siyasi fəallığı.

2.İnsan haqlarının təminatı.

3. Cari iqtisadi vəziyyətin və rifah halı.

Sosial dövlətin başlıca qayəsi əhalinin idarəçilikdə iştirakı imkanlarının genişləndirilməsi, yəni vətəndaş cəmiyyətinin inkişafıdır. Sorğu blokunun I hissəsi - əhalinin siyasi fəallıq səviyyəsinin öyrənilməsinə yönəlmişdir. Burada qoyulan əsas suallardan biri vətəndaşların seçkilərdə iştirakı səviyyəsinin öyrənilməsinə yönəlmişdir.

Cədvəl 5.Azərbaycan vətəndaşlarının seçkilərdə iştirak səviyyəsi

| Cavablar | Azərbaycanda 2015-ci il Milli Məclisə Seçkilərdə əhalinin səsvermədə iştirak səviyyəsi(%) | Azərbaycanda 2018-ci il Prezident seçkilərində əhalinin səsvermədə iştirak səviyyəsi(%) |
|---|---|---|
| Hərzaman | 25,4 | 36,8 |
| Demək olar ki, hər zaman | 23,9 | 22,2 |
| Çoxvaxt | 23,5 | 15 |
| İlk dəfədir ki, səs verirəm | 12,3 | 10 |
| Səsvermədə bəzən iştirak edirəm | 14,9 | 7,5 |
| Demək olar ki, heç səs vermirəm | | 5,1 |
| Heçvaxtiştiraketmirəm | | 3,4 |
| Cəmi | | 99,9 |

Cədvəldən göründüyü ki, vətəndaşların öz səsvermə hüquqlarından istifadə etmələri və onları idarə edəcək insanları seçmək istəklərini müəyyənləşdirməyə yönələn sual qeyd edilən illərdə (2015, 2018) belə qiymətləndirilmişdir. Bu sual siyasi həyatda və dövlət idarəçiliyində vətəndaşların iştirakını aydınlaşdırmaq üçün qoyulmuşdur. Alınan cavablara görə, vətəndaşlar hakimiyyətdəki təmsilçilərinin – parlament üzvlərinin, həmçinin xalqımızı və ölkəmizi təmsil edən prezidentin seçilməsində öz mövqelərini bildirməkdə maraqlıdırlar.

MSK-nın verdiyi məlumatlara əsasən 2015-ci il Milli Məclisə seçkilərdə insanlar fəal iştirak etmişlər, lakin insanların bu seçkilərdə iştirak etmək maraqlarının bir qədər az olması müşahidə edilir. Seçkilərdə "hər zaman iştirak edənlər" – 25,4%, "demək olar ki, hər zaman iştirak edənlər" – 23,9%, "çox vaxt iştirak edənlər" – 23,5% olmuşdur. Bu cavablar məqbul qəbul edilərsə, respondentlərin təxminən 72,8%-nin Milli Məclisə seçkilərdə iştirak etdiyini deyə bilərik.

2015-ci ildə Milli Məclisə seçkilərdə 5 117 866 nəfər səsvermə hüququ olan ölkə vətəndaşlarının yalnız 55,7%-i öz hüquqlarından istifadə etmişdir. Bu, əhalinin Milli Məclisə seçkilərdə az fəal və bu prosesə bir qədər biganə olduqlarını göstərir [].[475]

2018-ci il Prezident seçkiləri ilə bağlı Ekzit-poll öncəsi keçirilən sosioloji araşdırmanın yekunlarına görə, seçicilərin 74%-i - "həmişə", "əksər hallarda" və "demək olar ki, həmişə" prezident seçkilərində iştirak etdiklərini bildirmişlər.

2018-ci il prezident seçkilərində ümumilikdə səsvermə hüququ olan 5 milyon 332 min 817 nəfərdən 74,30%-i öz hüquqlarından istifadə etmişdir və 86.02%, yaxud 3 milyon 394 min 898 nəfər İlham Əliyevi dəstəkləmişdir.[476]

Növbəti suallar vətəndaşların sosial problemlərinin araşdırılmasını nəzərdə tutur.

Cədvəl 6. "Ölkəmizin qarşısında duran ən vacib məsələlər"

| Fikirinizcə, bu gün ölkəmizin qarşısında duran ən vacib məsələ hansıdır? | 2015-ci il Milli Məclisə Seçkilər(%) | 2018-ci il Prezident seçkiləri(%) |
|---|---|---|
| İqtisadiməsələlər | 7,2 | 11,2 |
| Əhalinin məşğulluğu / iş yerlərinin | 10,4 | 19,9 |

[475] Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzi. Növbədən kənar Azərbaycan Respublikası Prezidenti Seçkiləri 11 aprel 2018-ci il. Səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu. http://www.msk.gov.az/uploads/Secki-2018/MSK_protokol-2018.pdf

[476] Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzi. https://www.infocenter.gov.az/e-services/prezident2013.aspx?i=1

| | | |
|---|---|---|
| açılması | | |
| Əmək haqqının aşağı olması | 12,7 | 18,5 |
| Azərbaycanın beynəlxalq aləmdəki yeri, rolu | 7,6 | 3,3 |
| Dağlıq Qarabağ münaqişəsi | 14,3 | 17,5 |
| Cinayətkarlıq halları ilə mübarizə | 2,2 | 2,1 |
| Korrupsiya ilə mübarizə | 8,0 | 10,7 |
| Terror qorxusu | 0,8 | 2,5 |
| Təhsillə bağlı problemlər | 5,3 | 6,2 |
| Səhiyyə ilə bağlı problemlər | 0,4 | 2,5 |
| Ailə dəyərləri ilə bağlı problemlər | 0,4 | 2,3 |
| Bilmirəm | 0,1 | 0,7 |
| Cavab yoxdur | 0,1 | 0,7 |

2015-ci ildə respondentlərin 14,3%-i, 2018-ci ildə isə 17,5%-i "Dağlıq Qarabağ münaqişəsi"ni ölkə qarşısında duran ən vacib problem kimi qiymətləndiriblər. "Əmək haqqının aşağı olması" 2015-ci ildə - 12,7%, 2018-ci ildə - 18,5%-lə problem olaraq qiymətləndirilmişdir. Burada "Əhalinin məşğulluğu"– 2015-ci ildə - 10,4%, 2018-ci ildə - 19,9%;" İqtisadi məsələlər" – 2015-ci ildə - 7,2%, 2018-ci ildə 11,2%; "Korrupsiya" - 2015-ci ildə - 8,0%, 2018-ci ildə - 10,7%; "Azərbaycanın beynəlxalq aləmdəki yeri, rolu" - 2015-ci ildə - 7,6%, 2018-ci ildə - 3,3%; "Təhsillə bağlı problemlər" - 2015-ci ildə - 5,3%, 2018-ci ildə - 6,2%; "Səhiyyə ilə bağlı problemlər" - 2015-ci ildə - 0,4%, 2018-ci ildə - 2,5%; "Ailə dəyərləri ilə bağlı problemlər" - 2015-ci ildə - 0,4%, 2018-ci ildə - 2,3% əsas problemlər kimi göstərilmişdir.

Növbəti sual son beş ildə sakinlərin iqtisadi vəziyyətinin araşdırılmasına yönəlmişdir. Suala verilən cavabları əks etdirən cədvəl 2013 və 2015-ci illərlə bağlı olmuşdur.

Növbəti sual əhalinin mövcud hakimiyyətə münasibətini öyrənmək məqsədi daşımışdır. 2015-ci ildə 72,5%, 2018-ci ildə isə 66,9% respondent mövcud hakimiyyətə müsbət münasibətdə olduğunu bildirmişdir.

Cədvəl 8. Mövcud hökumətin gördüyü işlərə münasibət

| Ümumiyyətlə, mövcud hökumətin gördüyü işləri necə qiymətləndirirsiniz? | 2015-ci il Milli Məclisə Seçkilər | 2018-ci il Prezident seçkiləri |
|---|---|---|
| Əla | 21,4 | 21,9 |
| Yaxşı | 27,0 | 23,1 |
| Qənaətbəxş | 24,1 | 21,9 |
| Zəif | 19,5 | 22,5 |
| Bilmirəm | 4,6 | 5,1 |
| Cavab vermək istəmirəm | 3,4 | 5,5 |

Sual 5 əsasən insan haqlarının təminatına münasibətin tədqiqi ilə bağlıdır 2015-ci ildə – 71%, 2018-ci ildə – 62,1% respondent Azərbaycanda insan haqlarının qorunduğuna və qadınlarla kişilərin bərabər hüquqlara malik olduqlarına əmindirlər.

Cədvəl 9. İnsan hüquqlarının qorunması

| Azərbaycanda qadınlar kişilərlə eyni hüquqa və üstünlüklərə malikdirlər. Azərbaycanda insan hüquqları qorunur. | 2015-ci il Milli Məclisə Seçkilər | 2018-ci il Prezident seçkiləri |
|---|---|---|
| Düzdür | 71,0 | 62,1 |
| Səhvdir | 14,2 | 16,3 |
| Bilmirəm | 7,9 | 15,2 |
| Cavab vermək istəmirəm | 6,9 | 6,4 |

Azərbaycanda fikir və söz azadlıqları barəsindəki sorğu hüquqlarla bağlı araşdırmanın davamıdır. Buradakı cavablara görə, 2015-ci ildə 71,4 % respondent ölkəmizdə fikir və söz azadlığının olması ilə razı olduğu halda təxminən 28,6% respondent bu fikirlə razılaşmağa tərəddüd etmişlər. Bu, cəmiyyətdə fərqli münasibətlər və fərqli düşüncələrin olduğunu və müəyyən dərəcədə də öz fikrini sərbəst ifadə etmək imkanının olmasını nümayiş etdirir. 2018-ci ilə dair göstəricilər bir qədər fərqlidir. 2018-ci ildə 651,0% respondent ölkədə fikir və söz azadlığının olması ilə razı olduğunu, təxminən 35% respondent isə razılaşmadığını və tərəddüd etdiyini bildirmişdir.

Cədvəl 10. Azərbaycanda fikir və söz azadlığı

| Azərbaycanda fikir və söz | 2015-ci il Milli | 2018-ci il Prezident |
|---|---|---|

| | | |
|---|---|---|
| azadlığı var. | Məclisə Seçkilər | seçkiləri |
| Düzdür | 71,4 | 65,0 |
| Səhvdir | 17,4 | 14,9 |
| Bilmirəm | 5,5 | 14,2 |
| Cavab vermək istəmirəm | 5,7 | 5,9 |

Sorğu vərəqində təqdim edilən növbəti sual təhlükəsizlik və onun qorunmasında insanların ölkə rəhbərliyinə inamını öyrənmək məqsədi daşımışdır. Ayrı-ayrı illər üzrə verilən cavablar ümumi ictimai rəyi ifadə edir və əhalinin ölkə rəhbərliyinə inandığını göstərir. 2015-ci ildə - 71,6%, 2018-ci ildə - 63,6 respondent həqiqətən də ölkə rəhbərliyinin milləti terror aktlarından qoruduğuna inandığını bildirmişdir.

Cədvəl 11. Ölkə rəhbərliyi milləti terror aktlarından qoruyur

| Ölkə rəhbərliyi milləti terror aktlarından qoruyur. | 2015-ci il Milli Məclisə Seçkilər | 2018-ci il Prezident seçkiləri |
|---|---|---|
| Düzdür | 71,6 | 63,6 |
| Səhvdir | 16,3 | 10,9 |
| Bilmirəm | 5,9 | 19,9 |
| Cavab vermək istəmirəm | 6,2 | 5,6 |

Növbəti sual müəyyən mənada insanların asudə vaxtdan istifadəsi, o cümlədən onların informasiyaya çıxış imkanlarını öyrənməyə yönəlmişdir. Burada qoyulan cavablar həm də respondentlərin siyasi yönümünü müəyyən etməyə istiqamətlənmişdir. Sorğuya verilən cavablar insanların müxtəlif mənbələrdən təxminən bərabər səviyyədə bəhrələndiyini göstərir. Lakin müasir dövrün reallığı kimi böyük bir qismi – 2015-ci ildə - 41,5%-i, 2018-ci ildə - 42,6%-i, əsas məlumatların İnternetdən götürüldüyünü bildirmişlər. Məlumat mənbələrindən biri də özəl kanallardır ki, 2015-ci ildə - 13,8%, 2018-ci ildə - 13%, respondent bu cavabı qeyd etmişdir. Burada insanlar arasındakı münasibətlərin bir qədər məsafəli olması da müşahidə edilir. 2015-ci ildə – 2,3%, 2018-ci ildə– 4,4% insan "Müxtəlif insanlar", "Dostlar və ailə üzvləri"ndən məlumat aldığını bildirmişdir.

Cədvəl 12. Əsas məlumat mənbələri

| Sizin əsas məlumat mənbələriniz hansılardır? | 2015-ci il Milli Məclisə Seçkilər | 2018-ci il Prezident seçkiləri |
|---|---|---|

| | | |
|---|---|---|
| İqtidaryönlüqəzetlər | 2,9 | 8,2 |
| Müxalifətyönlüqəzetlər | 2,6 | 7,5 |
| Müstəqilyönlüqəzetlər | 3,5 | 2,4 |
| AZTV | 10,5 | 9,7 |
| İctimaikanal | 3,8 | 5,0 |
| Özəlteleviziyakanalları | 13,8 | 12,1 |
| Dövlət, rəsmiradiokanalları | 17,1 | 6,2 |
| Özəlradiolar | 1,6 | 0,9 |
| İnternet | 41,5 | 42,6 |
| Müxtəlifinsanlar | 1,6 | 3,8 |
| Bilmirəm | | 0,2 |
| Dostlarvəailəüzvləri | 0,7 | 0,6 |
| Cavabyoxdur | 0,4 | 0,8 |

Sual 9 ölkədəki məşğulluq vəziyyətini öyrənmək məqsədi daşıyır. 2015-ci ildə - 45,3%, 2018-ci ildə isə - 46,0% respondent işlədiyini, 2015-ci ildə - 18,3%, 2018-ci ildə isə - 17,8% respondent işsiz olduğunu bildirmişdir.

Cədvəl 13. Məşğulluq vəziyyəti

| Aşağıda göstərilən rəylərdən hansı Sizin məşğulluq vəziyyətinizə daha uyğundur? | 2015-ci il Milli Məclisə Seçkilər | 2018-ci il Prezident seçkiləri |
|---|---|---|
| Tamişgünü | 35,6 | 35,5 |
| Yarımştat | 9,7 | 10,5 |
| Tələbə | 9,5 | 11,5 |
| Evdarqadın | 8,5 | 9,6 |
| Təqaüdçü | 6,1 | 7,9 |
| İşsiz | 18,3 | 17,8 |
| Başqa | 12,3 | 7,2 |

DSK-nin hesabatına görə, 2013-cü ildə - 36206 nəfər (iqtisadi fəal əhalinin 13%-i), 2015-ci ildə - 28877 nəfər (iqtisadi fəal əhalinin 17%-i), 2016-cı ildə isə - 32972 nəfər (iqtisadi fəal əhalinin 15%-i) işsizlik statusu, həmçinin 2013-cü ildə 636 nəfər, 2015-ci ildə 1543 nəfər və 2016-cı ildə - 1857 nəfər işsizliyə görə müavinət almışdır.

Cədvəl 14.Məşğulluq xidməti orqanlarının əsas göstəriciləri [4]

| Göstərici | 2013 | 2015 | 2016 |
|---|---|---|---|
| Məşğulluqxidmətlərində işsiz statusu almışşəxslər (ilinsonuna)(nəfər) | 36206.0 | 28877.0 | 32972.0 |
| İşədüzəldilmişdir (nəfər) | 29390.0 | 28936.0 | 56631.0 |
| Peşətəliminəgöndərilmişdir (nəfər) | 4329.0 | 4147.0 | 3352.0 |
| Boşişyerlərinintutulmasıüçünişçiqüvvəsinəolantələbat (ilinsonuna) (nəfər) | 13608.0 | 12959.0 | 11086.0 |
| İşsizliyəgörəmüavinətalanlar (ilinsonuna) (nəfər) | 636.0 | 1543.0 | 1857.0 |

Beləliklə, aparılan empirik tədqiqatın yekunları ilə rəsmi məlumatların müqayisəli təhlili göstəricilərin çox da fərqli olmadığını və nisbi olaraq həqiqəti əks etdirdiyini deyə bilərik.

Sosioloji sorğunun əsas suallarından biri ailə vəziyyəti ilə bağlı olmuşdur.

Cədvəl 15.Ailəvəziyyətiniz

| Hazırkıailəvəziyyətiniz? | 2015-cü il Prezident seçkiləri | 2018-ci il Milli Məclisə Seçkilər |
|---|---|---|
| Subay, heç vaxt ailəli olmamışam | 24,0 | 22,0 |
| Evli | 66,8 | 67,6 |
| Nigahsızailə | 0,7 | 2,1 |
| Boşanmış | 2,4 | 3,9 |
| Dul | 5,7 | 3,8 |
| Bilmirəm | 0,1 | 0,6 |
| Cavabyoxdur | 0,2 | |

Sorğu iştirakçılarının 65%-dən çoxu ailəli insanlar olmuşdur. Bu azərbaycanlıların ailəni üstün tutduqlarını, cəmiyyətin çox hissəsinin ailəli insanlar olduğunu, ailə modelini qoruyub saxlamaq cəhdlərinin göstəricisidir. Bununla belə yeni tendensiyaların təsiri də hiss edilir. 2015-ci ildə 2,1%, 2018-ci ildə isə 3,1% respondent nikahsız ailə yaşadığını bildirmişdir. Bəlkə də təhlükəli göstərici kimi 2015-ci ildə 22%, 2018-ci ildə isə 32,3% respondent heç zaman ailəli olmadığını qeyd edib. Bu göstəricilər ailə məsu-

liyyətinin azaldığını nümayiş etdirir. Əsas narahatlıqlardan biri boşanmış ailələrin sayının artmasıdır. 2015-ci ildə 3,9% , 2018-ci ildə isə 5,7% respondent boşandığını bildirmişdir.

Rəsmi statistika da Azərbaycanda boşanmaların sayının artdığını göstərir. 2000-ci ildə ailə quranlar 39611 nəfər, boşananlar 5478 nəfər, 2005-ci ildə nikaha girənlər – 71643 nəfər, boşananlar – 8895 nəfər, 2010-cu ildə nikaha girənlər – 79172 nəfər, boşananlar – 9061 nəfər, 2015-ci ildə nikaha girənlər –68773, boşananlar – 12764 nəfər olmuşdur. Nikaha girənlərin ən yüksək göstəricisi 2011-ci ildə 88145 nəfər olmuşdur. 2016-cı ildə nikaha girənlərin sayı – 66771 nəfər təşkil etdiyi halda, boşananlar araşdırılan illərlə müqayisədə çoxalmış, 13114 nəfər olmuşdur. 2017-ci ildə boşananlar – 14514 nəfər, nikaha girənlər – 62923 nəfər olmuşdur.

Cədvəl 16. Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları

| İllər | Nikahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | nikahların sayı | boşanmaların sayı |
| Şəhər və kənd yerləriüzrə - cəmi | | | | |
| 2000 | 39611 | 5478 | 5,0 | 0,7 |
| 2001 | 41861 | 5382 | 5,2 | 0,7 |
| 2002 | 41661 | 5738 | 5,1 | 0,7 |
| 2003 | 56091 | 6671 | 6,8 | 0,8 |
| 2004 | 62177 | 6914 | 7,5 | 0,8 |
| 2005 | 71643 | 8895 | 8,5 | 1,1 |
| 2006 | 79443 | 7817 | 9,4 | 0,9 |
| 2007 | 81758 | 8340 | 9,5 | 1,0 |
| 2008 | 79964 | 7933 | 9,2 | 0,9 |
| 2009 | 78072 | 7784 | 8,8 | 0,9 |
| 2010 | 79172 | 9061 | 8,9 | 1,0 |
| 2011 | 88145 | 10747 | 9,7 | 1,2 |
| 2012 | 79065 | 11087 | 8,6 | 1,2 |

| | | | | |
|---|---|---|---|---|
| 2013 | 86852 | 11730 | 9,3 | 1,3 |
| 2014 | 84912 | 12088 | 9,0 | 1,3 |
| 2015 | 68773 | 12764 | 7,2 | 1,3 |
| 2016 | 66771 | 13114 | 6,9 | 1,4 |
| 2017 | 62923 | 14514 | 6,5 | 1,5 |

Müqayisəli təhlildən çıxış edərək, respondentlərin cavablarının rəsmi statistikanın göstəriciləri ilə müəyyən qədər uyğun olduğunu deyə bilərik.

Ölkənin inkişaf imkanlarını müəyyənləşdirən indikatorlardan biri də ailələrin kəmiyyəti və yaşayış keyfiyyətidir. Ümumdünya insan haqları bəyannaməsində deyilir: "Ailə cəmiyyətin təbii və əsas özəyidir və o, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir" (maddə 16, 3).[477] Bu mənada sosial dövlət ailə dəyərlərini üstün tutan və qoruyub saxlayan sosial-siyasi qurumdur.

Azərbaycanda qurulan sosial dövlətin aparıcı meyllərindən biri də əhaliyə yüksək səviyyəli sosial xidmətin təmin edilməsilə bağlıdır. Bu məqsədlə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilmiş, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistemdə birləşdirən "ASAN xidmət" mərkəzləri yaradılmışdır.[478]

Mehriban Əliyevanın təşəbbüsü ilə sosial xidmətlərin vahid mərkəzdən operativ və şəffaf şəkildə idarə olunması üçün ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə "DOST" (Dayanıqlı və Operativ Sosial Təminat) Agentli-

[477] Ümumdünya insan hüquqları bəyannaməsi Baş Assambleyanın 1948-ci il 10 dekabr tarixli 217-ci A (III) qətnaməsi ilə qəbul və bəyan edilib.http://migration.gov.az/images/pdf/935e2ca153e49bce078042398ff16c2d.pdf

[478]Həsənov Ə. On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi. https://azertag.az/xeber/On_bes_illik_prezidentlik_dovrunun_mohtesem_zefer_salnamesi-1203473

yinin və "DOST" mərkəzlərinin yaradılmasına başlanılıb. 2019-cu ildə 4, ümumilikdə isə paytaxtda və respublikanın regionlarında 31 belə mərkəzin yaradılması, həmin mərkəzlərdə 124 xidmətin təqdim olunması nəzərdə tutulmuşdur. Bununla da işsizliyin aradan qaldırılması üçün yeni imkanlar açılacaq və 30 min yeni iş yerinin yaradılması təmin ediləcək.[479]Sosial xidmətin mütərəqqi tərəfləri kimi dəyərləndirilən ASAN xidmət və DOST təcrübəsi artıq bir çox ölkələrdə nümunə kimi istifadə edilir.

Beləliklə, sosioloji sorğuların nəticələrindən, Azərbaycan Statistika Komitəsindən və Beynəlxalq mənbələrdən götürülmüş informasiyanın komparativ analizi göstərir ki, Azərbaycanda sosial dövlət tiplərinin (liberal, konservativ, sosial-demokrat) müəyyən xassələrini birləşdirən model formalaşır. Bir çox müəlliflər belə dövlət tiplərini qarışıq iqtisadiyyatlı model olaraq müəyyənləşdirirlər və bu sistemlərin əsas xüsusiyyətləri kimi aşağıdakıları vurğulayırlar:

-özündə bazar və inzibati iqtisadi sistemlərin elementlərini birləşdirir;

-iqtisadi qərarların qəbulunda dövlətlə yanaşı fərdlər də iştirak edirlər;

-dövlət bəzi əmtəə və xidmətləri tənzimləmək hüququna malikdir;

-resurslar üzərində sahibkarlıq hüququ iqtisadi subyektlərin hamısına, o cümlədən fərdlərə məxsusdur;

-dövlət istehsalçıları və istehlakçıları ədalətsiz iqtisadi siyasətdən və praktikadan qorumağa çalışır;

-iqtisadiyyatın tərəqqisi sosial rifaha, siyasi azadlığa və fərdlərin azadlığına daha çox hədəflənir.[480]

Müasir qlobal transformasiya şəraitində Azərbaycanda sosial dövlətin inkişaf istiqamətlərinin öyrənilməsi dövlət idarəçiliyin və burada sosial təsisatların araşdırılması zərurəti yaradır. Sosial

---

[479]İsmayılov S. Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir. Azərbaycan qəzety, 9 fevral 2019-xc il

[480] İS (S) İ – 2015 İqtisadiyyatın liberallıq potensialı. Nazim Müzəffərlinin elmi redaktəsi ilə məqalələr toplusu. Bakı, "AFPoliqrAf", 2017, s.49

dövlətdə qanunvericilik və sosial institutlar bilavasitə həssas stratların sosial çətinliklərinin aradan qaldırılması, insanların sosial müdafiəsi və təminatı, cəmiyyətin ədalətli sosial tənzimlənməsi yönümündə qurulur. Ümumdünyəvi qlobal dəyişikliklər şəraitində Azərbaycanda daimi yeniləşmə, ardıcıl islahatlar prosesi müşahidə olunur və dövlətin və sosiumun təkamülü sosial inkişafa yönəlmişdir.

Beləliklə, Sosial dövlətin Azərbaycan modeli - fərdi azadlığı və şəxsi mülkiyyəti inkişaf etdirən, innovasiya meylli, həmçinin öz milli və dini adət və ənənələrini qorumağa yönələn, böhran və riskli vəziyyətlərdə dövlətin müdaxiləsi ilə tənzimlənən sosial-siyasi qurumdur.

# NƏTİCƏ

Sosial dövlətin ideyadan nəzəriyyə səviyyəsinə və real dövlətçilik modelinə qədər inkişaf tarixinin izlənilməsi göstərir ki, XXI əsrə qədərsosial dövlətin aşağıdakı sosial tipləri fərqləndirilə bilər:

1.İlkin-başlanğıc vəziyyətdə olan sosial dövlət;

2. Sosial xidmətlər dövləti;

3. Sosial rifah dövləti;

4.Səmərəli-optimal sosial dövlət. Sonuncu demək olar ki, bütün mütərəqqi cəhətləri özündə cəmləyən modeli ifadə edir.

Sosial dövlətin Azərbaycan modelinin xüsusiyyətlərinə əsaslanaraq, deyə bilərik ki, ölkəmizdə tarixən qısa zaman müddətində sonuncu model reallaşdırılmaqda və davamlı islahatlarla təkmilləşdirilməkdədir.

Qeyd edilməlidir ki, Azərbaycanda sosial dövlətin inkişafı mürəkkəb mərhələlərdən keçmişdir.Müstəqilliyin bərpa edildiyi ilk illərdə (1991-1993-cü illər) milli demokratik quruculuq sosial siyasətin prioritetləri insanlar üçün ən aktual olan dəyərlər və problemləri nəzərə almaqla həyata keçirməyi tələb edirdi. Sosial siyasətə dair müzakirələr sosialist və neoliberal dəyərlərin müqayisəsi-mübarizəsi kontekstində aparılırdı.

XX əsrin 90-cı illərində Heydər Əliyev Azərbaycan üçün güclü dövlət quruculuğu kursunu müəyyənləşdirdi və həyata keçirməyə başladı. Heydər Əliyev qeyd edirdi ki, dünyanın inkişaf etmiş ölkələrinin dövlət quruculuğu təcrübəsi öyrənilməlidir, lakin Azərbaycan üçün bu sahədəki milli təcrübə əsasdır. Bu gün münasibətlər sistemi ölkənin dayanıqlı inkişafı və bu inkişafın idarə edilməsi, səmərəli sosial müdafiə sisteminin yaradılması, fərdi azadlığın təmin edilməsinə yönəlib.

Hazırda dünyanı əhatə edən sosial, iqtisadi, mənəvi-mədəni böhran vəziyyətindən çıxış yollarının axtarışı ölkəmizdə və dünyada yeni ictimai-siyasi idarəetmə forması olan sosial dövlətin inkişafı xüsusiyyətlərinin müəyyənləşdirilməsi problemini aktuallaşdırır. Sosial dövlət inkişaf etmiş dövlətin müasir, daha yüksək

keyfiyyət forması kimi vətəndaşların sosial müdafiəsinin səviyyəsinin artırılmasına  yönəlir. Sosial dövlətdə hökumət fəal şəkildə sosial, iqtisadi və digər sahələrin idarə edilməsi prosesində iştirak edir, cəmiyyətdə sosial ədalətin bərqərar olmasına çalışır. Sosial dövlət sosial institutların qarşılıqlı münasibətlərinin tənzimlənməsinə, ümumi məqsədlər istiqamətində qarşılıqlı fəaliyyətin formalaşmasına çalışır. Hazırda ilkin inkişaf mərhələsində olan sosial dövlət quruluşunun tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Müasir sivilizasiyanın yeni inkişaf mərhələsi olan sosial dövlətin əsas mahiyyəti əldə edilmiş elmi, texniki, mədəni və digər nailiyyətlərin insanların rifah halının yüksəldilməsinə yönəldilməsi ilə bağlıdır. Sosial dövlətin inkişafı tendensiyası ayrı-ayrı ölkələrdə əhalinin sosial təminatı, gəlirlərin səmərəli bölüşdürülməsi, sosial iqtisadi inkişaf strategiyasının yaradılması, sosial əməkdaşlığın və sosial məsuliyyətin inkişafı və kiçik biznesin inkişaf şəraitinin optimallaşdırılmasını əhatə edən səmərəli sosial siyasətin həyata keçirilməsi, sərt dövlət tənzimlənməsi sisteminin formalaşmasını tələb edir. Sosial dövlət hökumətlə xalq arasındakı özgələşməni aradan qaldırmağa, iqtisadi və sosial dayanıqlığı təmin etməyə və sosial bərabərsizliyi və qeyri-mütənasibliyi aradan qaldırmağa, əhalinin minimum həyat tərzinin təmin edilməsinə yönəlir. Sosial dövlətin inkişafı cəmiyyətdə ənənəvi humanist dəyərlərə, kollektivçiliyə, qarşılıqlı yardıma əsaslanan sosial həmrəyliyin təmin edilməsi ilə bağlıdır. Sosial dövlət yüksək iqtisadi inkişaf səviyyəsinə, sosial yönümlü iqtisadiyyata malik olan dövlətdir. Sosial yönümlü bazar iqtisadiyyatı bilavasitə qarşılıqlı sosial məsuliyyətin formalaşdırılması əsasında inkişaf edir. Burada sosial məsuliyyət dövlət – cəmiyyət – vətəndaş üçlüyünün qarşılıqlı cavabdehliyini, qarşılıqlı inamını nəzərdə tutur.

Sosial dövlət hər bir vətəndaşın minimum yaşayış səviyyəsinin, layiqli həyat şəraitinin təmin edilməsinə yönələn dövlətdir. Dövlət tərəfindən sosial yönümlü siyasətin həyata keçirilməsi bir qədər ziddiyyətli məsələdir, belə ki, bu zaman həm dövlətin, həm də vətəndaşların maraqları nəzərə alınmalı, müəyyən tarazlıq əldə edilməli, sosial ədalətə riayət olunmalı, sosial qeyri-bərabərliyin

azaldılmasına çalışılmalıdır. Belə demək olarsa, sosial dövlət bir tərəfdən sosial-demokrat, digər tərəfdən sosial liberal prinsipləri əsas tutaraq fəaliyyət göstərməlidir. Sosial dövlətin formalaşması bir çox amillərdən aslıdır və bir sıra müəlliflər əmindirlər ki, burada yalnız iqtisadi və siyasi amillər deyil, həm də mənəvi amillər əsaslı təsirə malikdir.

Əgər sosial dövləti canlı orqanizm kimi qəbul etsək, onun təkamülünü də canlı orqanizmin təkamülü ilə müqayisəli təhlil etmək olar. Belə ki, canlı orqanizmlərin təkamülündə irsiyyət, dəyişkənlik, təbii seçim və digər amillər – izolyasiya, miqrasiya, xarici mühit - əsaslı rola malikdir.[481] Bu əsasda sosial dövlətin təkamülünü aşağıdakı kimi xarakterizə etmək olar:

I.Sosial dövlət idarəçilik üsulunu hüquqi dövlətdən mənimsəmişdir, yəni mövcud dövlətçilik ənənələri əsasında tərəqqi etmişdir. Bu mənada, sosial dövlət varislik prinsiplərindən çıxış edir.

II.Beynəlxalq aləmdə baş verən yeniliklər, innovasion dəyişikliklər hər bir dövlətin və cəmiyyətin inkişaf xüsusiyyətlərində öz əksini tapır. Məsələn, Avropa İttifaqı ölkələrinin, BMT-nin və digər beynəlxalq təşkilatların sosial siyasətlə bağlı həyata keçirdiyi yeniliklər və onların tətbiqi ilə bağlı hər bir dövlətin qarşısında qoyulan tələblər və reallaşdırılan tədbirlər inkişaf etməkdə olan dövlətlərin sosial yönümlü idarəçiliyinin formalaşmasına səbəb olur.

III.Sosial dövlətlərin müxtəlif ölkələrdə fərqli modellərlə inkişafının əsasında yerli dövlətçilik xüsusiyyətlərindən irəli gələn özünəməxsusluq və öz inkişaf istiqamətini müəyyənləşdirmək və seçmək imkanları dayanır.

IV.Tarixən və indiki zamanda mövcud olan bir sıra sosial dövlət modelləri bilavasitə özünüməhdudlaşdırma və dünya dövlətləri tərəfindən izolyasiyaya məruz qalmaqla fərqli istiqamətlərdə formalaşıb. Bu sırada SSRİ, ÇXR, KXDR və digərlərini göstərmək olar.

[481] Левченко В.Ф. Биосфера: этапы жизни. — СПб.: «Свое издательство», 2012. 264 с.

V. Sosial dövlətin inkişafında miqrasiya amilləri həm birbaşa, həm də məcazi mənada güclü təsir qüvvəsinə malikdir. Birinci mənada qeyd edə bilərik ki, hazırda dünyada miqrasiya qlobal böhrana çevrilib və miqrantlara münasibətdə sosial ədalət, sosial məsuliyyət, sosial bərabərlik prinsiplərinə əməl edilməsi problemi bir çox sosial dövlətlərin mövcud olması ilə bağlı şübhələrin meydana çıxmasına səbəb olub. Məhz miqrasiya prosesi müasir sosial dövlətlərin öz mahiyyətini dəyişməsinə təsir göstərir, ola bilər ki, bəzilərinin məhvinə gətirib çıxarır. Digər tərəfdən miqrasiyanı "ideya miqrasiyası", yaxud "idarəçiliklə bağlı biliklərin, metodların ötürülməsi, miqrasiyası" kimi də şərh etmək olar. Bu zaman sosial dövlətlə bağlı idarəçilik təcrübəsinin yayılmasından danışmaq olar və məhz bu təcrübə müxtəlif ölkələrdə sosial yönümlü siyasət reallaşdırmaq, sosial dövlət qurmaq təmayülünü prioritet məqsədə çevirmişdir.

VI.Sosial dövlət nəzəriyyəsinin və təcrübəsinin təkamülündə xarici mühitin təsiri danılmazdır. Burada xarici mühit deyərkən, sosial dövlətin inkişaf istiqamətini korrektə edən ekzogen amillər nəzərdə tutulur. Bu zaman dünya iqtisadi böhranı, miqrasiya böhranı, qlobal siyasət, mənəvi aşınma əsas ekzogen amillər kimi qəbul edilə bilər. Sosial yönümlü dövlət quruculuğu istiqamətini tutan dövlətlərin daxili sosial siyasətinin formalaşmasına təsir göstərən fon göstəricilər müəyyən sosial dövlət modelinin inkişafına əsaslı təsir etmək qüvvəsinə malik ola, sosial ziddiyyətlərə və qarşıdurmalara gətirib çıxara, bununla da sosial dövlətin formalaşması prosesinin ləngiməsinə, yaxud yeni templə inkişafına təkan verə bilər.

Sosial dövlətin mövcud olmasına təsir edən fon göstəricilər deyərkən daxili şərait və onun özünəməxsus xüsusiyyətləri nəzərdə tutulur ki, bu da aşağıdakılarla bağlıdır:

1.Dövlət hakimiyyətinin demokratik təşkili.

2.Vətəndaşların və ilk növbədə vəzifəli şəxslərin yüksək mənəvi səviyyəsi.

3.Heç bir sosial təbəqənin maraqlarına xələl gətirmədən gəlirlərin bölüşdürülməsi üçün güclü iqtisadi potensialın olması.

4.Sosial yönümlü iqtisadi struktur.

5.Dövlətin hüquq sisteminin inkişafı.

6.Vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi.

7.Dövlət siyasətinin sosial yönümlü olması və sosial proqramların həyata keçirilməsinə üstünlük verilməsi.

8. Dövlətin əsas məqsədi ümumi rifahın təmin edilməsi, cəmiyyətdə sosial ədalətin bərqərar olması, hər bir vətəndaşın layiqli həyat şəraitinin, sosial müdafiəsinin, özünüreallaşdırması imkanlarının təmin edilməsi ilə bağlı olmalıdır.

9. İnkişaf etmiş sosial qanunvericiliyin olması.

10.Sosial dövlətlə bağlı hüquqi sənədlərin qəbul edilməsi.[482]

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, dünyada və Azərbaycanda sosial dövlətin inkişaf prosesi ilə əlaqədar bəzi qəanətləri və təklifləri təqdim etmək istərdik:

1.Sosial dövlət bəşər cəmiyyətinin dövlətçilik tarixində növbəti mərhələdir. Sosial dövlət sosial ədalətin və sosial bərabərliyin təmin edilməsini, cəmiyyətdə sosial sabitliyin qorunub saxlanmasını nəzərdə tutur.

2.Sosial dövlət şəxsiyyət – cəmiyyət – dövlət münasibətlərində qarşılıqlı məsuliyyətin və əməkdaşlığın bərqərar olmasına yönəlir.

3.Sosial dövlətin əsas meyarları vətəndaş cəmiyyətinin inkişafı, dövlət və ictimai əsaslı sosial institutların fəaliyyətinin genişləndirilməsi, ölkədə sosial, iqtisadi, siyasi sabitliyin təmin edilməsi, sosial yönlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi, vətəndaşların əsas hüquq və azadlıqlarının qorunması, sosial təhlükəsizliyinə zəmanətin olması ilə bağlıdır.

4.Sosial dövlətin mahiyyətindən çıxış edərək, onun təkamül tendensiyasına malik olduğunu nəzərə almaq vacib şərtdir. Sosial təkamül prosesinin qəbul edilməsi sosial dövlətin inkişafı ilə bağlı yaranan problemlərin, ziddiyyətlərin yeni mərhələyə keçid prosesinin aparıcı amilləri kimi qiymətləndirilməsinə əsas verir. Belə

---

[482] Чиркин В.Е.Индикаторы социального государства. АНО "Юридические программы". Москва, 2009, s.103-111

ki, sosial münaqişələr, sosial böhranlar və sosial xaos hər zaman yeni dirçəlişin əsası kimi çıxış edib.

5. Sosial dövlətin inkişafı innovasion təmayüllü strateji qərarların qəbul edilməsi ilə bağlıdır. Bu məqsədlə Milli innovasiya sisteminin inkişaf etdirilməsi əsas şərt kimi çıxış edir. Milli innovasiya sisteminin inkişafı "bütün maraqlı tərəflərin (biznes, elm, dövlət, vətəndaş cəmiyyəti) iştirakını nəzərə alan... əlavə resursların cəlb edilməsinə, elmi-texnoloji, innovasion inkişaf sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsinə yönələn" texnoloji platformanın yaradılmasını tələb edir. Bu zaman texnoloji platformalar iqtisadiyyatın sosial yönümlü innovasion inkişafını nəzərdə tutmalıdır.

6.Sosial dövlətin tərəqqisi ideyası mövcud qloballaşma prosesi və buradan doğan və bütün sosial sahələri əhatə edən böhranların qarşısının alınması ilə bağlı sosial innovativ iqtisadiyyatın formalaşdırılması tələbatını aktuallaşdırır. Sosial innovativ iqtisadiyyat sürətli adaptasiya olunmaq xüsusiyyətlərinə və imkanlarına malik olmalıdır. Bu, isə sosial inkişafın başlıca meyarı olan intellektual potensialın inkişaf etdirilməsini, mobilləşdirilməsini, reallaşması üçün optimal şəraitin yaradılmasını tələb edir.

7. Sosial dövlət vətəndaş cəmiyyətinin inkişafına əsaslanan dövlətdir. Vətəndaş cəmiyyəti bütün maraq qruplarının – elmi birlik, siyasətçilər, biznesmenlər, ictimai təşkilatlar və hərəkatların və s. nümayəndələrinin idarəetmə qərarlarının hazırlanması və qəbul edilməsinə cəlb olunmasını, beləliklə, dövlətin və cəmiyyətin inkişafında iştirakını nəzərdə tutur. Bu zaman dövlətin sosial siyasətinin əsas meylləri iqtisadi, siyasi, mədəni və sosial sahələrin innovasion inkişafının müəyyənləşdirilməsi və bu istiqamətdə tədbirlər planının reallaşdırılmasına yönələn fəaliyyətlə bağlı olmalıdır.

8.Sosial dövlətin sosial siyasəti əhalinin rifah halının yüksəldilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması ilə bağlıdır. Bu zaman sosial siyasət əhalinin sosial müdafiəsinin və sosial, mədəni, siyasi təhlükəsizliyinin, ümumilikdə milli təhlükəsizliyin təmin olunmasını əsas məqsəd kimi həyata keçirməyə yönəlir. Mil-

li təhlükəsizliyin qorunması beynəlxalq münasibətlər sistemində dövlətin öz suverenliyini təmin etməsinin əsas şərti kimi qəbul edilə bilər. Dövlət, o cümlədən sosial dövlət həm daxili, həm də xarici siyasətində öz vətəndaşlarının maraqlarının müdafiəçisi, onların himayədarı kimi çıxış etməklə, milli təhlükəsizliyi təmin etməyə nail ola bilər. Milli təhlükəsizliyin təmin edilməsi dedikdə, həm daxili, həm də beynəlxalq məkanda sabit sosial münasibətlərə nail olunması, yəni hərbi və iqtisadi təhlükəsizlik, sosial və siyasi təhlükəsizlik, beynəlxalq təhlükəsizlik məsələləri nəzərdə tutulur. Beləliklə, milli təhlükəsizliyin təmin edilməsi dövlət – cəmiyyət - vətəndaş münasibətlərində dövlətin üstün mövqeyini təsdiq edir. Bu baxımdan sosial dövlət modeli sırf liberal və ya sırf sosial-demokrat meylli ola bilməz və burada həm fərdi azadlıq, həm də dövlətin müdaxiləsi məsələləri tarazlaşdırılmış şəkildə həyata keçirilməlidir.

9.Hazırda sosial dövlətin üç modeli – sosial-demokratik, konservativ və liberal formaları mövcuddur. Müasir şəraitdə sosial dövlətin Azərbaycan modeli özündə hər üç modelin xüsusiyyətlərini daşıyır, lakin müəyyən parametrlərə görə sosial-demokratik modelin bəzi göstəriciləri daha üstün mövqedədir. Bunu şərtləndirən əsas səbəblərdən biri sosial dövlətin milli inkişaf strategiyasının əsas tədbirlər planı olaraq müəyyən edilməsi və ardıcıl olaraq həyata keçirilməsidir.

10.Müasir Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatına əsaslanan sosial dövlət formalaşır. Sosial dövlətin Azərbaycan modeli bir tərəfdən azad sahibkarlığın və xüsusi mülkiyyətin inkişafına yönələn sosial liberal, digər tərəfdən isə cəmiyyətin iqtisadi, siyasi, mədəni, sosial sahələrində dövlətin müdaxilə imkanlarını nəzərdə tutan sosial demokrat təmayüllərini özündə sintez edir.

11. Azərbaycanda sosial dövlət quruculuğu modelinin nəzəri-ideoloji əsasları azərbaycançılıq konsepsiyası ilə bağlıdır. Bu konsepsiyasının banisi Ümummilli lider Heydər Əliyev olmuşdur. Heydər Əliyev azərbaycançılıq ideologiyasının mahiyyətini – «Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının

mənsub olduğu Azərbaycan xalqı, ...xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları"[483]kimi müəyyən etmişdir. Azərbaycançılıq ölkəmizdə yeni sosial identiklik - vətəndaşlıq modelinin formalaşmasına əsas olmuşdur.

12.Konstitusion əsaslara malik olan sosial dövlət müasir sosial inkişafın əsas məqsədi kimi çıxış edir. AR Konstitusiyasında sosial dövlətin hüquqi əsasları möhkəmlənmişdir. Burada sosial dövlətin inkişafı ilə bağlı müəyyən maddələr mövcuddur. Belə ki, Konstitusiyanın 15-ci, 16-cı və 38-ci maddələri bilavasitə sosial inkişaf məsələlərinə həsr edilib. Konstitusiyasının 15.1-ci maddəsində Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi göstərilir ki, bu da sahibkarlığın inkişafının hüquqi əsasları kimi qəbul edilə bilər. Bu maddənin 2-ci bəndində "bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradılması, azad sahibkarlığa təminat verilməsi, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi" məsələləri vurğulanır. Bu maddələr sosial dövlətin əsas prinsiplərini özündə əks etdirir.

13.Konstitusiyanın 16-cı maddəsi Sosial inkişafla bağlıdır. Burada dövlətin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qaldığı vurğulanır (1, maddə 16). Sosial məsələlərlə bağlı digər 38-ci maddə Azərbaycan vətəndaşlarının sosial təminat hüquqlarını əks etdirir. Sosial dəstək məqsədilə dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır (1, maddə 38.5).[484] Mə-

---

[483] Heydər Əliyevin 1999-cu ilin fevralında gənclərin ikinci forumundakı çıxışı. "Azərbaycan" qəz., № 51(2163), 1999

[484] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64 s.

lum olduğu kimi xeyriyyəçilik fəaliyyəti sosial dövlətin əsas prinsiplərindən birini təşkil edir.

14.Azərbaycanın Milli İnkişaf strategiyası hər bir vətəndaşın sosial rifahının təmin edilməsini, dayanıqlı inkişafı, o cümlədən insan kapitalının inkişafını nəzərdə tutur. Təhsil, səhiyyə, sığorta və pensiya sisteminin analizi göstərir ki, Azərbaycanda sosial dövlət dayanıqlı inkişafın əsas xüsusiyyətlərini, mövcud dövlətçilik ənənələrini və təcrübəsini özündə ehtiva edən hüquqi dövlətin yeni mərhələsidir və vətəndaş cəmiyyətinin inkişafına yönəlib.

15.Sosial siyasət güclü hüquqi-qanunverici əsaslara söykənir.Dövlətin sosial siyasət və təminat sistemində aparıcı rola malik olması, bunun nəticəsi kimi sosial dinamikanın müsbət yönlülüyü, dövlətin sosial problemlərin həllində güclü siyasi iradəsinin olması,ölkəmizdə sosial dövlət quruculuğunun cəmiyyətin tələblərinə və qloballaşma dövrünün çağırışlarına uyğunlaşdırılması, çevik sosial innovasiya islahatlarının aparılması səmərəliliyin ən əsas göstəricisidir.

16.Azərbaycanda sosial siyasətin innovasiya yönümlü olması, sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılması ilə təzahür edir. Belə ki, sosial xidmətləri vahid sistemdə birləşdirən "ASAN xidmət" mərkəzləri, həmçinin əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin (DOST) yaradılmisdir.

17.Milli iqtisadi sistemdə və sosial quruculuqda dövlət sektoru əhəmiyyətli potensiala malik olsa da, hökumət sahibkarlığın inkişafına dəstək tədbirlərini həyata keçirir və ölkəmizdə sosial dövlətin sütunu hesab edilən "orta təbəqə" formalaşma mərhələsindədir.

18.Müasir Azərbaycanın iqtisadi inkişafı bir tərəfdən neft strategiyasının reallaşdırılmasına, digər tərəfdən isə qeyri-neft sektorunun inkişaf etdirilməsinə, infrastrukturun yeniləşməsinə yönəlib. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasi-

ya etməklə, dinamik sosial iqtisadi inkişafa nail olmuşdur. Dayanıqlı sosial iqtisadi inkişafın təmin edilməsilə bağlı həyata keçirilən tədbirlər, qlobal iqtisadi böhranın Azərbaycanda təsiri imkanlarının qarşısının alınmasına və vəziyyətin idarə edilməsinə yönəlib.

19.Sosial dövlətin Azərbaycan modelinin uğurlu tərəqqisini təmin etmək məqsədilə insan kapitalının inkişaf etdirilməsi vacib şərt kimi müəyyənləşdirilmişdir.

20.Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatı sosial inkişafın dayanıqlığının idarə edilməsi ilə bağlı səmərəli tədbirlər sisteminin həyata keçirilməsini tələb edir.

21.Regionların inkişafına nail olmaq üçün fermer təsərrüfatının inkişaf etdirilməsi, sahibkarlara dövlət dəstəyinin optimallaşdırılması, o cümlədən kooperativ təsərrüfat sahələrinin inkişaf etdirilməsi zəruridir.

Eyni zamanda, sosial dövlət quruculuğunun milli Azərbaycan modelinin təkmilləşdirilməsi yönündə görüləcək tədbirlərlə bağlı aşağıdakı təklif və tövsiyələr təqdim edilmişdir:

1.Sosial dövlət modelinin perspektiv üçün əsas istiqamətlərini, məqsədləri və vəzifələrini, mərhələlərini və mexanizmlərini müəyyən edən “Azərbaycan Respublikasının Sosial İnkişaf Strategiyasinin” hazırlanması məqsədəuyğun olardı;

2.Azərbaycanda sosial dövlət quruculuğunun nailiyyətlərinin daha artıq səviyyədə olmasına maneə kimi bir milyondan çox qaçqın və köçkünün öz doğma torpaqlarına qaytarılması bu strategiyada ilk sıralarda dura bilər və beynəlxalq sosial yönümlü təşkilatlarla müvafiq fəaliyyət reallaşdırıla bilər;

3.Əhalinin sosial müdafiəsində mütərəqqi sosial standartların (sosial sığorta və s.) formalaşdırılmasıprosesinin inkişafın dinamik templərindən nisbətən geri qalmasının, onunla uyğunsuzluğunun aradan qaldırılması bu istiqamətdəki nailiyyətləri artıra bilər.

4.Sosial siyasətdə “dövlət-özəl sektor əməkdaşlığının” tam gücü ilə reallaşdırılması, özəl sektorun töhfəsinin daha da artırılması günün tələblərinə cavab verən vəziyyətə gətirilməsi xüsusi

mülkiyyətin möhkəmlənməsinə və sahibkarların sosial məsuliyyətinin artırılmasına, həssas təbəqələrə münasibətdə dövlətin yardımçı qüvvəsinə çevrilməsinə kömək edə bilər.

5.Azərbaycanda sosial dövlət quruculuğunun, sosial siyasət strategiyasının uğur qazanmasında əsas xüsusiyyətlərdən biri olan -"sosial identiklik - vətəndaşlıq" amilinin, onun əsaslandığı azərbaycançılıq ideyasının sosial mahiyyətinin diqqət mərkəzinə gətirilməsi, təbliği və təşviqi imkanlarının genişləndirilməsi sosial dövlətin mənəvi təməlləri kimi şəxsiyyət - cəmiyyət – dövlət münasibətlərində sosial həmrəyliyin, sosial dialoqun və sosial əməkdaşlığın tərəqqisinə əsas ola bilər.

# Summary

The idea of the social state was created in the 19th century, but it found the lawful bases in the first half of the twentieth century both at the end of the 20th and at the beginning of 21 centuries began to be implemented. The modern social states generally realize social policy which includes development of social security of the population. This social policy provides establishment of social justice, social unity, social responsibility, social solidarity in the relations between society and citizens and, on this basis of social protection of the population. The strategy of development for the social state is focused on balanced personal development and society. The social state is aimed at the development of civil society, and in it there is no social inequality - ethnic, cultural, religious, sexual, political or other discrimination, and citizens are equally involved in social, political, economic, cultural spheres of society.

In the monography is introduced the principles, mechanisms and funksions of social state. There iz analyzed the liberal, conservative-corporate and social-democratic models of social state in sample US, Great Britain, Germany Republic, Japan, Sweden states. Influens of development of the world system in the social state model is interpreted. Transformation of the social state is justified as a new evolutionary stage.Basic principles of social government in Azerbaijan are investigated.

**SƏADƏT MƏMMƏDOVA**

# SOSİAL DÖVLƏT MODELLƏRİ

(bəzi inkişaf etmiş ölkələrin nümunəsində)

**Nəşriyyatın Baş direktoru:**
**Şöhrət Səlimbəyli**

**Texniki redaktor:**
**Mail Xəlilov**

**Formatı:60x84 $^{1}/_{16}$**
**Tirajı: 300 ədəd**
**Həcmi: 13 çap vərəqi**

**Hazır diapozitivlərdən çap olunmuşdur.**